International Organization for Migration (IOM)
Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT)

NORWEGIAN MINISTRY OF FOREIGN AFFAIRS

Azərbaycan Respublikasının ayrı-seçkiliyə qarşı mübarizə sahəsindəki qanunvericilik bazası və istiqamətləndirmə mexanizmləri üzrə Vəsaiti özündə əks etdirən Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyi üzrə Bələdçinin yenilənmiş variantı

FRA
EUROPEAN UNION AGENCY FOR FUNDAMENTAL RIGHTS

EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

International Organization for Migration (IOM)
Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT)

NORWEGIAN MINISTRY OF FOREIGN AFFAIRS

Azərbaycan Respublikasının ayrı-seçkiliyə qarşı mübarizə sahəsindəki qanunvericilik bazası və istiqamətləndirmə mexanizmləri üzrə Vəsaiti özündə əks etdirən Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyi üzrə Bələdçinin yenilənmiş variantı

FRA
EUROPEAN UNION AGENCY FOR FUNDAMENTAL RIGHTS

EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Beynəlxalq Miqrasiya Təşkilatı
Bakı
2013-cü il

1951-ci ildə yaradılmış Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) miqrasiya sahəsində aparıcı hökumətlərarası təşkilat olaraq 100-dən artıq ölkədə dövlət orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərir. BMqT miqrantlara və cəmiyyətlərə fayda verən miqrasiya prosesinin humanist və nizamlı şəkildə təşkili prinsipinə aid müvafiq öhdəliklərinə sadiqdir və miqrasiya sahəsində operativ şəkildə yaranan təhdidlərin aradan qaldırılması işində müvafiq köməyin göstərilməsi, miqrasiya məsələlərinin mənimsənilməsinin qabaqcıl şəkildə təşkili, miqrasiya prosesləri vasitəsilə sosial-iqtisadi inkişaf üçün lazımi şəraitin yaradılması, həmçinin miqrantların ləyaqət və rifahının təmin edilməsi istiqamətində beynəlxalq cəmiyyətdəki partnyorları ilə birlikdə müvafiq fəaliyyətləri həyata keçirir.

Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyi üzrə Bələdçinin əlavələrlə (layihənin məqsədinə uyğun olaraq seçilmiş presedentlərlə) birlikdə tərcümə edilməsi və bu nəşrin 5-ci Fəslində öz əksini tapmış Azərbaycan Respublikasının ayrı-seçkiliyə qarşı mübarizə sahəsindəki qanunvericilik bazasına və istiqamətlindərmə mexanizmlərinə aid Vəsaitin hazırlanması Norveç Krallığının Xarici İşlər Nazirliyinin maliyyə dəstəyilə BMqT tərəfindən icra olunmuş "Azərbaycanda miqrasiya proseslərinə cəlb olunmuş şəxslərin hüquqlarını qoruyan effektiv mexanizmlərin yaradılması" Layihəsi çərçivəsində həyata keçirilmişdir.

Bundan sonra "AŞ/AİHM" adlandırılacaq, Avropa Şurası (İctimaiyyətlə Əlaqələr və Təşviqat Şöbəsi) və Avropa İnsan Hüquqları Məhkəməsi (Məhkəmə İşlərinə dair İnformasiya və Nəşrlər Şöbəsi) bu Vəsaitdə bütün biblioqrafik ədəbiyyatın tam şəkildə qeyd olunması və onun əslinin yalnız AŞ/AİHM-in və Avropa İttifaqı Əsas Hüquqlar Agentliyinin icazəsi ilə istifadə etmə imkanlarının müvafiq dillərə tərcümədə bəyan olunması şərtilə həmin Vəsaitin və onun yenilənmiş variantının Azərbaycan dilinə tərcümə edilməsinə dair qeyri-müstəsna hüququ BMqT-yə həvalə etmişdir. Nəşrin Azərbaycan dilinə tərcüməsinə görə tərcüməçi məsuliyyət daşıyır.

Azərbaycan Respublikasının ayrı-seçkiliyə qarşı mübarizə sahəsindəki qanunvericilik bazasına və istiqamətlindərmə mexanizmlərinə aid Vəsait beynəlxalq ekspert xanım İvana Roanya, həmçinin milli ekspertlər cənab Sahib Məmmədov və xanım Nigar Hüseynovadan ibarət ekspertlər qrupu tərəfindən yuxarıda qeyd olunmuş layihə çərçivəsində hazırlanaraq AŞ/AİHM və Avropa İttifaqı Əsas Hüquqlar Agentliyinin razılığı əsasında bu Bələdçiyə əlavə edilmişdir.

Azərbaycan Respublikasının ayrı-seçkiliyə qarşı mübarizə sahəsindəki qanunvericilik bazasına və istiqamətlindərmə mexanizmlərinə aid Vəsaitdə ifadə olunmuş nəticələr, izahlar və qənaətlər müəlliflərə məxsusdur və heç bir halda BMqT-nin və ya Norveç Krallığının Xarici İşlər Nazirliyinin rəsmi mövqeyi kimi qəbul edilə bilməz.

Naşir:
BMqT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi
Azərbaycan Respublikası, Bakı şəhəri, AZ 1069, Yaşar Hüseynov küç. 18
Tel: +994 12 4659071/72
Faks: +994 12 4659073
E-poçt: iombaku@iom.int
Veb-səhifə: www.iom.int, www.iom.az

Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyi üzrə Bələdçiyə və Vəsaiti özündə əks etdirən yenilənmiş varianta aid müəlliflik hüquqları Avropa İttifaqı Əsas Hüquqlar Agentliyinə və Avropa Şurasına məxsusdur:

Bələdçi
© Avropa İttifaqının Əsas Hüquqlar Agentliyi, 2010-cu il
Avropa Şurası/Avropa İnsan Hüquqları Məhkəməsi, 2010-cu il

Bələdçinin yenilənmiş variantı
© Avropa İttifaqının Əsas Hüquqlar Agentliyi, 2012-ci il
Avropa Şurası/Avropa İnsan Hüquqları Məhkəməsi, 2012-ci il

Hesabat BMqT tərəfindən rəsmi şəkildə redaktə olunmadan dərc edilmişdir.

© Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT), 2013-cü il

Bütün hüquqlar qorunur. Bu publikasiyanın heç bir hissəsi naşirin müvafiq razılığı olmadan yenidən dərc edilə, digər informasiya sistemlərində saxlanıla, istənilən formada və ya elektron, mexaniki, surətçıxarma, yazma və ya digər vasitələrlə ötürülə bilməz.

Mündəricat

Minnətdarlıq 7
İxtisarlar 8
1. Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericilik bazasının təsviri: konteksti, inkişaf yolu və əsas prinsipləri 9
1.1. Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinin konteksti və mənşəyi 9
1.1.1. Avropa Şurası və Avropa İnsan Hüquqları Konvensiyası 9
1.1.2. Avropa İttifaqı və ayrı-seçkiliyin qadağan olunması ilə bağlı direktivlər 10
1.2. Avropa müdafiə mexanizmləri sahəsində cari və gələcək yeniliklər 11
1.2.1. Avropa İttifaqının Əsas Hüquqlar Xartiyası 11
1.2.2. Birləşmiş Millətlər Təşkilatının insan hüquqları ilə bağlı müqavilələri 12
1.2.3. Avropa İttifaqının Avropa İnsan Hüquqları Konvensiyasına qoşulması məsələsi 13
Əsas məqamlar 13
Əlavə ədəbiyyat 14
2. Ayrı-seçkiliyin formaları və ayrı-seçkilikdən müdafiə növləri 16
2.1. Giriş 16
2.2. Birbaşa ayrı-seçkilik 16
2.2.1. Qeyri-münasib rəftar 17
2.2.2. Müqayisə vasitəsi 17
2.2.3. Müdafiə olunan əsas 20
2.3. Dolayı ayrı-seçkilik 23
2.3.1. Neytral hüquqi norma, meyar və ya mövcud təcrübə 23
2.3.2. Müdafiə olunan qrupa mahiyyətcə daha mənfi təsirin göstərilməsi 24
2.3.3. Müqayisə vasitəsi 25
2.4. Qısnama və ayrı-seçkiliyə məruz qoyma göstərişləri 25
2.4.1. Qısnama və ayrı-seçkiliyə məruz qoyma göstərişlərinə aid məsələlər ayrı-seçkiliyin qadağan olunmasına dair Avropa İttifaqı Direktivlərində 25
2.4.2. Qısnama məsələləri və ayrı-seçkiliyə məruz qoyma göstərişlərini vermə məsələləri Avropa İnsan Hüquqları Konvensiyasında 27
2.5. Xüsusi və ya spesifik tədbirlər 28
Əsas məqamlar 33
2.6. Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinə əsasən qeyri-münasib rəftarın müdafiə edilməsi 34
2.6.1. Giriş 34
2.6.2. Ümumi müdafiənin təhlili 35
2.6.3. Ümumi müdafiənin tətbiqi 37
2.6.4. Avropa İttifaqının qanunvericiliyində nəzərədə tutulmuş spesifik müdafiə 37
2.6.4.1. Həqiqi iş şərti 38
2.6.4.2. Dini qurumlar 40
2.6.4.3. Yaşa görə istisnalar 41
Əsas məqamlar 43
Əlavə ədəbiyyat 43
3. Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinin əhatə dairəsi 46

3.1. Giriş....46
3.2. Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinə əsasən müdafiə kimlərə şamil olunur?....46
3.3. Avropa İnsan Hüquqları Konvensiyasının əhatə dairəsi: 14-cü maddə və 12 saylı Protokol 48
3.3.1. Avropa İnsan Hüquqları Konvensiyasına əsasən ayrı-seçkiliyin qadağan olunması xüsusiyyətləri 48
3.3.1.1. Avropa İnsan Hüquqları Konvensiyası ilə əhatə olunan hüquqlar....48
3.3.1.2. Avropa İnsan Hüquqları Konvensiyasında nəzərdə tutulmuş hüquqların əhatə dairəsi 49
3.3.1.3. 12 saylı Protokol....50
3.4. Ayrı-seçkiliyi qadağan olunmasına dair Avropa İttifaqı Direktivlərinin əhatə dairəsi....51
3.4.1. Məşğulluq sahəsi 51
3.4.1.1. Əmək hüququndan istifadə....51
3.4.1.2. İş şərtləri, o cümlədən işdən azad olunma və ödənişlər....52
3.4.1.3. Peşə istiqaməti və peşə təliminə iştirak....53
3.4.1.4. İşçilərin və işəgötürənlərin təşkilatları....53
3.4.1.5. Avropa İnsan Hüquqları Konvensiyası və məşğulluq konteksti 54
3.4.2. Sosial təminat sistemindən və sosial sığorta formalarından istifadə 54
3.4.2.1. Sosial müdafiə, o cümlədən sosial sığorta və səhiyyə məsələləri 54
3.4.2.2. Sosial güzəştlər 55
3.4.2.3. Təhsil....56
3.4.2.4. Avropa İnsan Hüquqları Konvensiyası və sosial təminat və təhsil məsələləri....56
3.4.3. Mallarla və xidmətlərlə, o cümlədən yaşayış yerilə təmin olunma hüququndan istifadə 58
3.4.3.1. Avropa İnsan Hüquqları Konvensiyası və mallar, xidmətlər və yaşayış yeri ilə təmin olunma məsələləri....61
3.4.4. Ədalət mühakiməsi hüququndan istifadə....62
3.4.4.1. Avropa İnsan Hüquqları Konvensiyası və ədalət mühakiməsi....63
3.5. Avropa İnsan Hüquqları Konvensiyasının Avropa İttifaqı qanunvericiliyindən kənar tətbiqi 64
3.5.1. “Şəxsi” sahə: şəxsi həyat və ailə həyatı, övladlığa götürmə, mənzil və nikah 64
3.5.2. Siyasi fəaliyyətdə iştirak: fikir ifadə etmək azadlığı, yığıncaqlar və birləşmək azadlığı və azad seçkilərə aid məsələlər 66
3.5.3. Səmərəli hüquqi müdafiə vasitələri....67
3.5.4. Cinayət hüququna aid məsələlər....68
Əsas məqamlar....68
Əlavə ədəbiyyat....69
4. Müdafiə olunan əsaslar....71
4.1. Giriş....71
4.2. Cinsi mənsubiyyət 71
4.3. Cinsi oriyentasiya 79
4.4. Əlillik....82
4.5. Yaş....84
4.6. İrqi mənsubiyyət, etnik mənşə, dərinin rəngi və milli azlıqlara mənsubiyyət 85
4.7. Vətəndaşlıq və ya vətəndaşlıq mənsubiyyəti 90

4.8. Din və ya əqidə....94
4.9. Dil....98
4.10. Sosial mənşə, doğum və əmlak vəziyyəti....99
4.11. Siyasi və ya digər baxışlar....101
4.12. “Digər hər hansı əlamətlər”....102
Əsas məqamlar....104
Əlavə ədəbiyyat....104
5. Azərbaycan Respublikasının ayrı-seçkiliyə qarşı mübarizə sahəsindəki qanunvericilik bazası və istiqamətləndirmə mexanizmləri....107
5.1. Azərbaycan Respublikasının ayrı-seçkiliyə qarşı mübarizə sahəsindəki qanunvericilik bazası....107
5.1.1. Azərbaycan Respublikasının Konstitusiyası (1995-ci il noyabrın 12-də qəbul edilimşdir)....107
5.1.2. Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilmiş beynəlxalq sənədlər....109
5.1.3. Milli qanunvericilik....110
5.2. Ayrı-seçkiliklə bağlı iddiaların baxılması üçün milli hüquqi vasitələr: prosedurlar və nəticələr....112
5.2.1. Cinayət hüquqi təsir vasitələri....113
5.2.2. Mülki hüquqi vasitələr....113
5.2.3. İnzibati-iqtisadi məhkəmələr....113
5.2.4. AİHK müddəalarının tətbiqi üçün məhkəmə mexanizmləri....114
5.2.5. Ayrı-seçkiliyə qarşı mübarizə sahəsində məhkəmədən kənar müdafiə mexanizmləri....114
5.2.6. Ayrı-seçkiliyə qarşı mübarizə sahəsində hüquqi vasitələrin səmərəliliyi....116
5.3. Azərbaycan Respublikası tərəfindən qəbul edilmiş beynəlxalq hüquqi müdafiə mexanizmləri: prosedurlar və nəticələr....116
5.4. Milli qanunvericiliyin beynəlxalq standartlara uyğunluğu....117
5.5 Yekun müşahidələr....118
6. Ayrı-seçkiliyi qadağan edən qanunvericilikdə sübuta əsaslanan məsələlər....119
6.1. Giriş....119
6.2. Sübut etmə yükünün bölüşdürülməsi....119
6.2.1. Sübuta yetirilməsi tələb olunmayan amillər....123
6.3. Statistik və başqa növdə məlumatların rolu....124
Əsas məqamlar....128
Əlavə ədəbiyyat....129
Presedentlərin siyahısı....130
Beynəlxalq Ədalət Məhkəməsinin presedentləri....130
Avropa Ədalət Məhkəməsinin presedentləri....130
Avropa İttifaqının Ədalət Məhkəməsinin presedent hüququna dair yeniləmələri....132
Avropa İnsan Hüquqları Məhkəməsinin presedentləri....132
İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququna dair yeniləmələri....135
Sosial Hüquqlar üzrə Avropa Komitəsinin presedentləri....136
İnsan Hüquqları Komitəsinin presedentləri....136
Milli məhkəmələrin presedentləri....136
Hüquqi sənədlərin siyahısı....138
Beynəlxalq sənədlər....138

Avropa İttifaqının sənədləri.....138
“CD-Rom”-də mövcud olan əlavə materiallar 140
Onlayn mənbələr.....141
Presedentlərlə tanış olmaq üçün xüsusi qeyd 143

Minnətdarlıq

Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyi üzrə Vəsaitin əlavələrlə (layihənin məqsədinə uyğun olaraq seçilmiş presedentlər) birlikdə tərcümə edilməsi və bu nəşrin 5-ci Fəslində öz əksini tapmış Azərbaycan Respublikasının ayrı-seçkiliyə qarşı mübarizə sahəsindəki qanunvericilik bazasına və istiqamətləndirmə mexanizmlərinə aid Vəsaitin hazırlanması Norveç Krallığının Xarici İşlər Nazirliyinin maliyyə dəstəyilə BMqT tərəfindən icra olunmuş "Azərbaycan Respublikasındakı miqrasiya proseslərində iştirak edən şəxslərin hüquqlarının təmin olunması istiqamətində səmərəli mexanizmlərin yaradılması" Layihəsi çərçivəsində həyata keçirilmişdir və belə bir maliyyə dəstəyi olmadan bu sənədin ərsəyə gəlməsi qeyri-mümkün idi.

Müvafiq beynəlxalq standratlara uyğunluğu təmin etmək məqsədilə mövcud qanunvericilikdə boşluqların müəyyənləşdirilməsi və əlaqədar strategiyaların, qanunların və hüquqi vasitələrin təkmilləşdirilməsi sahəsində ölkə potensialını gücləndirmək üçün ayrı-seçkiliyə qarşı mübarizə sahəsindəki qanuvericilik bazasının və istiqamətləndirmə mexanizmlərinin ümumiləşdirilərək vahid bir sənəd formasında tərtib edilməsi Azərbaycanda bu istiqamətdə aparılan ilk işlərdəndir.

BMqT bu nəşrin Azərbaycan Respublikasının dövlət orqanları və vətəndaş cəmiyyəti, xüsusilə də hakimlər, vəkillər, prokurorluq və digər hüquq-mühafizə orqanlarının əməkdaşları arasında Avropada mövcud olan və ayrı-seçkiliyin qadağan olunmasına aid prinsiplərin və standartların daha da yüksək səviyyədə mənimsənilməsinə və bu prinsip və standartların onlar tərəfindən gündəlik xidməti fəaliyyətlərində daha da səmərəli şəkildə tətbiq edilməsinə önəmli bir töhfə verəcəyinə əmindir.

BMqT bu nəşrin 5-ci Fəslində öz əksini tapmış Azərbaycan Respublikasının ayrı-seçkiliyə qarşı mübarizə sahəsindəki qanunvericilik bazasına və istiqamətləndirmə mexanizmlərinə aid Vəsaitin hazırlanması istiqamətində göstərdikləri səylərə və qarşılıqlı əməkdaşlığa görə layihə ekspertləri xanım İvana Roanyaya, cənab Sahib Məmmədova və xanım Nigar Hüseynovaya öz xüsusi minnətdarlığını bildirir.

Sonda biz verdikləri mükəmməl rəylərə, dəyərli töhfələrə və tövsiyələrə görə BMqT-nin Mənzil-qərargahının, Beynəlxalq Miqrasiya Hüququ Şöbəsinin miqrasiya hüququ üzrə mütəxəssisi x-m Alis Sironiyə və Şərqi Avropa, Cənubi-Şərqi Avropa və Mərkəzi Asiya üzrə Regional Nümayəndəliyin regional layihələrin hazırlanması rəhbəri cənab Vasiliy Yujaninə ayrıca təşəkkür edirik.

İxtisarlar

Aİ	Avropa İttifaqı
ASX	Avropa Sosial Xartiyası
ASXD	Avropa Sosial Xartiyası (düzəlişlər edilmiş)
AŞ	Avropa Şurası
AƏM	Avropa Ədalət Məhkəməsi (hal-hazırda Avropa İttifaqı Ədalət Məhkəməsi)
AİHK	“İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Konvensiya və ya Avropa İnsan Hüquqları Konvensiyası
AİHM	Avropa İnsan Hüquqları Məhkəməsi
BƏM	Beynəlxalq Ədalət Məhkəməsi
BMT	Birləşmiş Millətlər Təşkilatı
CAT	“İşgəncələr və digər qəddar, qeyri-insani və alçaldıcı rəftar və ya cəza əleyhinə” Konvensiya
CEDAW	“Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiya
CETS	Avropa Şurasının Müqavilələri Seriyası
ETS	Avropa Müqavilələri Seriyası
ƏHK	BMT-nin “Əlillərin hüquqları haqqında” Konvensiyası
FRA	Avropa İttifaqının Əsas Hüquqlar Agentliyi
İHK	İnsan Hüquqları Komitəsi
İDAK	İrqçiliyə və Dözümsüzlüyə qarşı Avropa Komissiyası
ICCPR	“Mülki və siyasi hüquqlar haqqında” Beynəlxalq Pakt
ICERD	“İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Beynəlxalq Konvensiya
ICESCR	“İqtisadi, sosial və mədəni hüquqlar haqqında” Beynəlxalq Pakt
QHT	Qeyri-hökumət Təşkilatı
QİÇS	Qazanılmış İmmun Çatışmazlığı Sindromu
ÜHK	“Uşaq hüquqları haqqında” Konvensiya
ÜÖV	Üçüncü ölkə vətəndaşı
YUNESKO	BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı

1. Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericilik bazasının təsviri: konteksti, inkişaf yolu və əsas prinsipləri

Giriş xarakteri daşıyan bu fəsil ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinin mənşəsini, eyni zamanda, müvafiq qanunvericilik bazasına edilmiş və nəzərdə tutulan dəyişiklikləri və bu qanunvericilikdən irəli gələn müdafiə prosedurlarını izah edir.

Əvvəlcədən mütləq qeyd olunmalıdır ki, proses iştirakçılarının xahiş edib-etməməsindən asılı olmayaraq istər hakimlərin, istərsə də prokurorların "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyada (AİHK) və ayrı-seçkiliyin qadağan olunması sahəsində Aİ Direktivlərində nəzərdə tutulmuş müdafiə prosedurlarına müraciət etməsi tələb olunur. Yerli məhkəmələr və ədliyyə orqanlarının əməkdaşları tərəflərin irəli sürdükləri qanuni arqumentlərlə kifayətlənməyərək sözügedən tərəflərin faktiki vəziyyətini əsas götürərək tətbiq ediləcək qanunvericilik aktlarını müəyyənləşdirməlidirlər; bu isə əsasən o deməkdir ki, konkret bir işin bütün tərəfləri irəli sürülən arqumentlər və dəlillərə əsaslanan iddialarını ayrı-seçkiliyə yol verilmədən təqdim etmək yollarını səmərəli şəkildə seçməlidirlər. Bu proses hər bir müvafiq sistemdə mövcud olan rəhbər hüquqi prinsiplərə uyğun həyata keçirilməlidir, məsələn, Aİ qanunvericiliyi bu Ittifaqi təşkil edən 27 üzv dövlətdə birbaşa hüquqi qüvvəyə malikdir və bu məkanda AİHK-nın birbaşa tətbiqinə icazə verilir, bu isə o deməkdir ki, bu qanunlara Aİ-yə və eyni zamanda, Avropa Şurasına üzv olan bütün dövlətlərdə əməl olunmalıdır. Lakin bu tələblə bağlı bir vacib məhdudiyyət mövcuddur ki, bu da istənilən müdafiə prosedurlarının tətbiqetmə müddətilə əlaqədardır. Mütəxəssislər qeyri-diskriminativ müdafiə prosedurlarının tətbiqi variantlarını nəzərdən keçirməzdən əvvəl konkret bir yurisdiksiyada həmin prosedurların tətbiqi müddətilə bağlı istənilən müvafiq məhdudiyyətlərlə tanış olmalıdırlar və konkret məhkəmə tərəfindən müdafiə prosedurlarının tətbiqi məsələsinə baxılıb-baxılmama imkanlarını müəyyən etməlidirlər.

Bunun praktiki əhəmiyyəti ondan ibarətdir ki, mütəxəssislər, münasib olduqda, yerli məhkəmələr və digər orqanlar qarşısında qeyri-diskriminativ, aidiyyəti vasitələrə və müvafiq presedent hüququna müraciət etmək imkanına malik olacaqlar. Bununla əlaqədar olaraq mütəxəssislər hal-hazırda ayrı-seçkiliyin qadağan olunması sahəsində mövcud olan qanunvericilik aktlarını, bu aktların tətbiqi prosedurlarını və konkret vəziyyətdə tətbiqi yollarını mütləq bilməlidirlər.

1.1. Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinin konteksti və mənşəyi

"Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyi" termini ayrı-seçkiliyin yolverilməzliyini təmin edən normalardan ibarət vahid, Avropa miqyaslı bir qanunvericilik bazasının mövcudluğunu nəzərdə tutur və bu cür qanunvericilik bazasını faktiki olaraq bir sıra kontekstlər təşkil edir. Bizim Bələdçi əsasən AİHK-nı və müvafiq Aİ Direktivlərini nəzərdən keçirir. Nə vaxt və hansı səbəblərdən işlənib hazırlanması nöqteyi-nəzərindən bu 2 qanunvericilik sistemi (bir tərəfdən Konvensiya, digər tərəfdən isə Direktivlər) müxtəlif mənşəlidir.

1.1.1. Avropa Şurası və Avropa İnsan Hüquqları Konvensiyası

AŞ ilk dəfə II Dünya müharibəsindən sonra bir araya gəlmiş və digər məsələlərlə yanaşı qanunun aliliyi, demokratiya, insan hüquqları və sosial inkişafın təşviqi məqsədini öz qarşısına qoyan Avropa ölkələri tərəfindən təsis edilmiş hökumətlərarası təşkilatdır (Avropa Şurası Nizamnaməsinin Preambulasına və 1-ci maddəsinə baxın). Bu məqsədə nail olunmanı təmin

etmək üçün AŞ-yə üzv olan dövlətlər BMT-nin "Ümumdünya insan hüquqları" Bəyannaməsindən qaynaqlanan və insan hüquqları ilə bağlı müqavilələrdən birincisi hesab olunan AİHK-nı qəbul etdilər. AİHK onu imzalamış dövlətin yurisdiksiyasında olan bütün şəxslərin (yalnız öz vətəndaşları deyil) bir sıra hüquqlarını təmin etmək məqsədilə həmin dövlətin üzərinə düşən hüquqi öhdəlikləri özündə əks etdirir. AİHK-nın icrası prosesi üzv dövlətlərə qarşı işləri araşdıran Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) tərəfindən (əvvəllər Komissiyanın köməyilə) nəzərdən keçirilir. Hal-hazırda 47 dövlət AŞ-nin üzvüdür və bu təşkilata üzv olmaq istəyən hər bir dövlət AİHK-ya də qoşulmalıdır.

1950-ci ildə qüvvəyə mindikdən sonra AİHK-ya "Protokol" kimi tanınmış sənədlər vasitəsilə əlavə və dəyişikliklər edilmişdir. AİHM-ni daimi və bütün səlahiyyətlərə malik orqan kimi təsdiq edərək Komissiyanı ləğv edən 1994-cü il tarixli, 11 saylı Protokolla AİHK-ya ən mühüm prosedur xarakterli dəyişiklik edilmişdir. Bu Protokol Berlin divarının uçurulmasından və keçmiş Sovetlər Birliyinin dağılmasından sonra AŞ-yə üzv olmuş Şərqi Avropa dövlətlərindən sayı artmaqla daxil olan işlərin öhdəsindən gələ biləcək AİHK mexanizmlərinə kömək məqsədilə işlənib hazırlanmışdır.

Ayrı-seçkiliyin qadağan edilməsi AİHK-da təsbit olunmuş bütün hüquqlardan bərabər istifadəni nəzərdə tutan 14-cü maddə[1] ilə təmin edilir. Aİ-yə üzv olan bütün dövlətlər tərəfindən hələ də ratifikasiya edilməmiş 2000-ci il tarixli, AİHK-nın 12 saylı Protokolu[2] bütün hüquqlardan (o cümlədən milli qanunlarla nəzərdə tutulmuş hüquqlardan da) bərabər istifadəni təmin etməklə ayrı-seçkiliyə aid qadağaların əhatə dairəsini daha da genişləndirir. Bu Protokola aid İzahedici Məruzədə göstərildiyi kimi, həmin Protokol insan hüquqlarını təmin edən aparıcı elementin formalaşdırılması üçün nəzərdə tutulmuş ayrı-seçkilikdən müdafiə olunmanı gücləndirmək məqsədilə işlənib hazırlanmışdır.

Oxucular üçün qeyd etmək yerinə düşər ki, məhz ayrı-seçkiliyin qadağan olunması prinsipi bu Bələdçidə bəhs olunmayan bir sıra AŞ sənədlərinin də təməl prinsipini təşkil edir. Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə yol verilmədən məşğulluq sahəsində bərabər imkanlara və bərabər rəftara dair hüquqların 1996-cı il tarixli Avropa Sosial Xartiyasında əks olunmasını qeyd etmək vacibdir.[3] Bundan başqa, ayrı-seçkiliyin qadağan olunması ilə bağlı normalara "Milli azlıqların müdafiəsi haqqında" Çərçivə Konvensiyasında,[4] həmçinin "İnsan alveri əleyhinə tədbirlərə dair"[5] və "Rəsmi sənədlərdən istifadə imkanlarına dair" AŞ Konvensiyalarında da rast gəlmək olar. Ayrı-seçkiliyin qadağan olunması AŞ tərəfindən işlənib hazırlanmış qanunvericilik aktlarının formalaşmasında xüsusi çəkiyə malikdir və təmin olunacaq əsas azadlıqların bir növü kimi nəzərdə tutulur.

1.1.2. Avropa İttifaqı və ayrı-seçkiliyin qadağan olunması ilə bağlı direktivlər

Əvvəlcə Aİ hökumətlərarası bir təşkilat idi, lakin hazırda ayrıca hüquqi təşkilat hesab olunur. Hal-hazırda 27 dövlət Aİ-yə üzvdür. Onun əsası 1950-ci illərdə yaradılaraq enerji təhlükəsizliyi və azad ticarət məsələlərilə məşğul olan (kollektiv şəkildə "Avropa İttifaqı" kimi tanınmış) 3 müxtəlif hökumətlərarası təşkilatın əsasında qoyulub. Avropa İttifaqının əsas məqsədi, malların,

[1] AİHK-nın 14-cü maddəsinin tətbiqinə dair təlimatları özündə əks etdirən və "PowerPoint presentation" şəklində təqdim olunan təlim materialları ilə AŞ-nin Hüquqşünaslar üçün İnsan Hüquqları Sahəsində Təhsiə dair "www.coehelp.org/course/view.php?id=18&topic=1" saytından tanış olmaq olar.

[2] 12 saylı Protokolu ratifikasiya etmiş Aİ üzv dövlətlərinin faktiki sayını öyrənmək üçün: "www.conventions.coe.int/Treaty/Commun/ChercheSig.asp?NT=177&CM=7&DF=16/07/2010&CL=ENG" saytına baxın.

[3] ASX-nın 20-ci maddəsinə və V hissəsinin "E" maddəsinə baxın.

[4] "Milli azlıqların müdafiəsi haqqında" Çərçivə Konvensiyasının 4, 6(2) və 9-cu maddələrinə baxın.

[5] "İnsan alveri əleyhinə tədbirlərə dair" AŞ Konvensiyasının 2(1)-ci maddəsinə baxın.

sərmayələrin, insanların və xidmətlərin sərbəst hərəkəti vasitəsilə iqtisadi inkişafın stimullaşdırılmasından ibarət idi. Üzv dövlətlər arasında tarazlığı təmin etmək məqsədilə Avropa İqtisadi Birliyini yaradan 1957-ci il tarixli Anlaşma, digər məsələlərlə yanaşı, məşğulluq sahəsində cinsi mənsubiyyətə görə ayrı-seçkiliyi qadağan edən müddəaları özündə əks etdirirdi. Bu işə götürülən qadınlar üçün nisbətən aşağı əmək haqqı və ya daha əlverişsiz şərait təklif edən üzv dövlətlər arasındakı haqsız rəqabətin qarşısını alırdı. Sonradan bu hüquqi təməl əhəmiyyətli dərəcədə inkişaf etdirilərək təqaüdlər, hamiləlik, həmçinin sosial təminat hüquqları və sosial sığorta münasibətləri kimi məsələləri əhatə etsə də, ayrı-seçkiliyin qadağan olunması sahəsində Aİ qanunvericiliyi 2000-ci ilədək yalnız məşğulluq və sosial təminat sahələrində sadəcə olaraq cinsi mənsubiyyət məsələlərinə toxunurdu.

Ötən əsrin 90-cı illərində irqi mənsubiyyət və etnik mənşə, həmçinin cinsi oriyentasiya, dini baxışlar, yaş və əlillik kimi digər sahələrdə də ayrı-seçkiliyin Aİ qanunvericiliyi səviyyəsində qadağan olunmasını tələb edən ictimai maraq qrupları tərəfindən bu istiqamətdə mühüm lobbiçilik işləri aparılmışdır. Aİ-yə üzv olan bəzi dövlətlərdə ekstremist milliyyətçiliyin yaranması təhlükəsi Aİ Müqaviləsində müvafiq sahələrdəki hüquqi münasibətləri qanunla tənzimləmək səlahiyyətini Avropa İttifaqına verən dəyişikliklərin edilməsinə zəmin yaradan kifayət qədər siyasi iradənin rəhbər şəxslər arasında artması ilə nəticələnmişdir.

Bütün bunlarla əlaqədar olaraq, 2000-ci ildə 2 direktiv qəbul edilmişdir: məşğulluq sahəsində cinsi oriyentasiyaya, dini baxışlara, yaşa və əlilliyə görə ayrı-seçkiliyi qadağan edən “Məşğulluq sahəsində bərabərliyə dair” Direktiv və məşğulluq sahəsilə yanaşı, təminat sistemindən və sosial sığortalardan, eyni zamanda, mallar və xidmətlər sahəsində də irqi mənsubiyyətə və ya etnik mənşəyə görə ayrı-seçkiliyi qadağan edən “İrqi bərabərliyə dair” Direktiv. Bu, Aİ çərçivəsində ayrı-seçkiliyi qadağan edən qanunvericilik bazasının əhatə dairəsinin əhəmiyyətli dərəcədə genişləndirilməsi demək idi. Bununla da, Aİ, məşğulluq bazarında insanlar tərəfindən öz zəngin potensiallarının istifadə olunmasına şərait yaratmaq məqsədilə, onlar tərəfindən səhiyyə və təhsil xidmətlərinin əldə edilməsi və onların mənzil şəraitinin yaxşılaşdırılması kimi sahələrdə bərabər imkanların təmin edilməsinin vacib bir məsələ olduğunu qəbul etmişdir. 2004-cü ildə qəbul edilmiş “Mallar və xidmətlər sahəsində gender bərabərliyinə dair” Direktiv, bu sahədə cinsi mənsubiyyət zəminində ayrı-seçkiliyə aid qadağaların əhatə dairəsini daha da genişləndirmişdir. Lakin bu sənəddə əks olunmuş cinsi mənsubiyyət zəminində müdafiənin əhatə dairəsi “İrqi bərabərliyə dair” Direktivdə nəzərdə tutulmuş müdafiənin əhatə dairəsi ilə üst-üstə düşmür. Eyni zamanda, “Sosial sığorta sahəsində gender məsələlərinə dair” Direktiv yalnız sosial sığorta sahəsində bərabər rəftarı təmin edir və sosial müdafiə, həmçinin tibbi və təhsil xidmətlərindən istifadə kimi məsələlərdən ibarət daha geniş sosial təminat sahəsini əhatə etmir.

Cinsi oriyentasiya, dini baxışlar, əlillik və yaş yalnız məşğulluq sahəsində də, müdafiə edilən aspektlər olduğundan mallar və xidmətlər sahəsində də bu aspektlərin müdafiə olunmasına dair təklif (“Üfqi Direktiv” adı ilə tanınmışdır) hal-hazırda Aİ institutlarında müzakirə edilir.

1.2. Avropa müdafiə mexanizmləri sahəsində cari və gələcək yeniliklər

1.2.1. Avropa İttifaqının Əsas Hüquqlar Xartiyası

Avropa İttifaqının ilkin anlaşmalarında insan hüquqlarına və ya bu hüquqların müdafiəsinə aid hər hansı bir müddəa əks olunmamışdır. Avropada azad ticarət zonasının yaradılması nəticəsində insan hüquqlarına hər hansı bir təsirin əhəmiyyətli dərəcədə göstəriləcəyi ehtimal olunmurdu. Lakin Aİ qanunvericiliyinin tətbiqi nəticəsində, insan hüquqlarının pozulmasını ehtimal edən işlərin sayı Avropa Ədalət Məhkəməsində (AƏM) artdıqca, AƏM, Aİ qanunvericiliyinin “əsas prinsipləri” kimi tanınan və məhkəmə presedentlərinə əsaslanan

qanunvericilik aktını işləyib hazırlamışdır.[6] AƏM-ə əsasən, sözügedən "əsas prinsiplər" milli konstitusiyalarda və insan hüquqları haqqında müqavilələrdə, xüsusən də AİHK-da qeyd olunmuş insan hüquqlarının müdafiəsi məsələlərini özündə əks etdirir. AƏM, Aİ qanunvericiliyinin bu prinsiplərə uyğunlaşdırılmasını təmin edəcəyini bəyan etmişdir.

Həyata keçirdikləri siyasətin insan hüquqlarına təsir etdiyini qəbul edərək və öz vətəndaşlarının Aİ-yə "daha yaxın" olmaları üçün səylər göstərərək, Aİ və üzv dövlətlər 2000-ci ildə Əsas Hüquqlar Xartiyasını qəbul etmişdilər. Bu Xartiya, üzv dövlətlərin konstitusiyalarında, AİHK-da və BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası kimi insan hüquqlarına dair beynəlxalq sənədlərdə öz əksini tapmış hüquqlardan qaynaqlanan insan hüquqlarından ibarət bir siyahıdan təşkil olunmuşdur. Bu Xartiya, 2000-ci ildə sadəcə olaraq bir "bəyannamə" kimi qəbul edilmişdir və onu qəbul edən tərəflər üzərinə heç bir öhdəlik qoymurdu, lakin buna baxmayaraq, Avropa Komissiyası, yeni Aİ qanunvericiliyinə aid təkliflər verən əsas orqan kimi bütün təkliflərin qeyd olunan Xartiyaya uyğunlaşdırılacağını bəyan etmişdir.

Lissabon Müqaviləsi 2009-cu ildə qüvvəyə mindikdən sonra Əsas Hüquqlar Xartiyasının statusunu dəyişərək, onu tərəflər üzərinə hüquqi öhdəliklər qoyan bir sənəd səviyəsinə qaldırdı. Bunun nəticəsi olaraq, Aİ təsisatları öz fəaliyyətlərini bu Xartiyaya uyğunlaşdırmalıdır. Aİ-yə üzv olan dövlətlər isə yalnız Aİ qanunvericiliyini icra etdikləri zaman öz fəaliyyətini bu Xartiyaya uyğunlaşdırmalıdırlar. Bundan başqa, Çexiya, Polşa və Böyük Britaniya tərəfindən əlaqədar müvafiq məhdudiyyətləri şərtləndirən Xartiyaya Əlavə Protokol da qəbul edilmişdir. Xartiyanın 21-ci maddəsi, bundan sonra bu Bələdçidə nəzərdən keçiriləcək müxtəlif zəminlərdə ayrı-seçkiliyin qadağan olunmasına aid məsələləri özündə əks etdirir. Bu isə o deməkdir ki, insanlar Xartiyaya əməl olunmadığını hesab etdikdə, Aİ qanunvericiliyilə və ya Aİ qanunvericiliyini icra edən milli qanunvericiliklə əlaqədar şikayət verə bilərlər. Aİ qanunvericiliyinin düzgün şərhi ilə əlaqədar milli məhkəmələr "Aİ-nin fəaliyyəti haqqında" Müqavilənin 267-ci maddəsi əsasında ilkin istinad etmə proseduruna uyğun AƏM-ə müraciət edə bilər.

1.2.2. Birləşmiş Millətlər Təşkilatının insan hüquqları ilə bağlı müqavilələri

Aydın məsələdir ki, insan hüquqlarının müdafiəsi mexanizmləri Avropa xaricində də mövcuddur. Şimali və Cənubi Amerikada, Afrikada və Yaxın Şərqdə də bu səpkidən olan mövcud regional mexanizmlərlə yanaşı, BMT tərəfindən işlənib hazırlanmış insan hüquqları ilə bağlı zəngin beynəlxalq qanunvericilik bazası mövcuddur. Aİ-yə üzv olan bütün dövlətlər, aşağıda verilmiş və özündə ayrı-seçkiliyin qadağan olunması barədə müddəaları əks etdirən BMT-nin insan hüquqları ilə bağlı müqavilələrini imzalayıb: "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt,[7] "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt,[8] "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya,[9] "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya,[10] "İşgəncələr və digər qəddar, qeyri-insani və alçaldıcı rəftar və ya cəza əleyhinə" Konvensiya[11] və "Uşaq hüquqları haqqında" Konvensiya (ÜHK)[12]. BMT səviyyəsində insan hüquqları ilə bağlı nisbətən yeni işlənib

[6] Lissabon Müqaviləsi əsasında edilmiş düzəlişlərə uyğun olaraq Avropa Ədalət Məhkəməsi (AƏM) "Baş Məhkəmə" kimi göstərilir. Lakin hüquqşünaslar tərəfindən istifadə edilə biləcək mövcud ədəbiyyatın böyük əksəriyyəti Lissabon Müqaviləsi qüvvəyə mindiyi tarixdən, 2009-cu ilin dekabr ayından əvvəl dərc edildiyindən istənilən anlaşılmazlığın qarşısını almaq məqsədilə sözügedən məhkəmə bu Bələdçidə məhz AƏM kimi göstəriləcək.
[7] BMT-nin 999 UNTS 171 saylı sənədi.
[8] BMT-nin 993 UNTS 3 saylı sənədi.
[9] BMT-nin 660 UNTS 195 3 saylı sənədi.
[10] BMT-nin 1249 UNTS 13 saylı sənədi.
[11] BMT-nin 1465 UNTS 85 saylı sənədi.
[12] BMT-nin 1577 UNTS 3 saylı sənədi. Bundan başqa, Aİ-yə üzv olan dövlətlərdən bəziləri BMT-nin "Əlillərin hüquqları haqqında" Konvensiyasını (UN Doc. A/61/611, 13 dekabr 2006-cı il) və "İnsanların məcburi şəkildə yoxa çıxmadan müdafiəsi haqqında" Beynəlxalq Konvensiyanı (UN Doc. A/61/488, 20 dekabr 2006-cı il) imzalayıb; lakin

hazırlanmış müqavilə kimi "Əlillərin hüquqları haqqında" 2006-cı il Konvensiyasını (ƏHK)[13] qeyd etmək olar. Adətən insan hüquqları sahəsində müqavilələrə yalnız dövlətlər üzv ola bilirdi. Lakin son zamanlar dövlətlər daha çox hökumətlərarası təşkilatlar vasitəsilə əməkdaşlıq etdiyindən və bir sıra vacib səlahiyyət və öhdəliklərini bu cür təşkilatlara həvalə etdiyindən, üzv dövlətlər tərəfindən insan hüquqları sahəsində öz üzərlərinə götürdükləri öhdəliklərə əməl olunmanı təmin etmək məqsədilə müvafiq hökumətlərarası təşkilatların da öz üzərinə müəyyən öhdəliklərin götürülməsi ehtiyacı özünü qabarıq şəkildə büruzə verməyə başlamışdır. ƏHK regional inteqrasiya təşkilatlarının qoşulması üçün açıq olan və Aİ tərəfindən 2010-cu ilin dekabrında ratifikasiya edilmiş insan hüquqlarına dair BMT səviyyəli ilk sənəddir.

Əlillərin öz hüquqlarından istifadə etməsi zamanı bərabərliyin təmin edilməsi məqsədini daşıyan, həmçinin bu istiqamətdə müsbət tədbirlər görmək üçün dövlətlər üzərinə bir sıra öhdəliklər qoyan ƏHK, əlillərin hüquqlarından ibarət müfəssəl bir siyahını özündə əks etdirir. Xartiyada olduğu kimi bu sənəd Aİ təsisatları üzərinə müəyyən öhdəliklər qoyur və bu öhdəliklər Aİ qanunvericiliyini tətbiq etdikləri zaman üzv dövlətlərə də şamil olunacaq. Bundan başqa, üzv dövlətlər öz hüquqlarından istifadə etməklə ƏHK-ya fərdi qaydada qoşulmaq prosesindədirlər və bu da onların üzərinə birbaşa öhdəliklər qoyacaq. Böyük ehtimalla, ƏHK əlillik zəminində ayrı-seçkiliklə əlaqədar Aİ-nin və AİHM-nin qanunvericilik aktlarının şərh olunması zamanı istiqamətverici bir sənəd rolunu oynayacaq.

1.2.3. Avropa İttifaqının Avropa İnsan Hüquqları Konvensiyasına qoşulması məsələsi

İndiki zamanda Aİ qanunvericiliyi və AİHK çox sıx əlaqədədir. Aİ-yə üzv olan bütün dövlətlər AİHK-ya qoşulub. Yuxarıda qeyd olunduğu kimi, AƏM insan hüquqlarının Aİ qanunvericiliyi əsasında hansı dərəcədə müdafiə olunacağını müəyyən edərkən AİHK-nı bir hüquqi təməl kimi qəbul edir. AİHK-da nəzərdə tutulmuş bir sıra hüquqlar, digərlərilə yanaşı, Əsas Hüquqlar Xartiyasında da öz əksini tapmışdır. Deməli, Aİ qanunvericiliyi böyük ehtimalla AİHK-ya uyğundur, baxmayaraq ki, Aİ, faktiki olraq, AİHK-ya hələ də qoşulmayıb. Lakin əgər hansısa şəxs, Aİ tərəfindən insan hüquqlarının təmin olunmaması barədə məhkəməyə müraciət etmək arzusunda olduğu təqdirdə, AİHM-ə müraciət etmək hüququna malik deyil. Bunun əvəzində həmin şəxs: iddia ərizəsilə yerli məhkəməyə müraciət etməlidir və bu məhkəmə müvafiq işi ilkin istiqamətləndirmə prosedurlarına uyğun olaraq AƏM-ə göndərə bilər; və ya üzv dövlətə qarşı iddia ərizəsilə AİHM-ə müraciət etməklə Aİ barədə dolayı yolla şikayət verə bilər.

Lissabon Müqaviləsi, Aİ-nin fərdi şəkildə və öz hüquqlarından istifadə etməklə AİHK-ya bir əlahiddə tərəf kimi qoşulması üçün müvafiq səlahiyyətlər verən müddəaları özündə əks etdirir və AİHK-ya düzəlişlər edən 14 saylı Protokol bunun həyata keçirilməsi üçün şərait yaradır. Bunun təcrübədə hansı nəticələr verəcəyi və konkret olaraq, AƏM ilə AİHM arasında gələcəkdə hansı münasibətlərin qurulacağı hələ də aydın olmadığından, Aİ-nin sözügedən Konvensiyaya qoşulmasına aid danışıqlar bir neçə il çəkə bilər. Lakin bəllidir ki, bunun nəticəsində insanlarda AİHK-ya əməl etməməklə əlaqədar birbaşa AİHM-ə Aİ barədə iddia ərizəsilə müraciət etmək imkanı yaranacaq.

Əsas məqamlar

- Avropada ayrı-seçkilikdən müdafiə məsələlərinə istər Aİ qanunvericiliyində, istərsə də AİHK-da rast gəlmək olar. Bu 2 hüquqi təməl bir-birini tamamlayaraq qarşılıqlı şəkildə gücləndirsə də, onlar arasında bəzi fərqlər mövcuddur ki, mütəxəssislər bu barədə bilməlidirlər.

üzv dövlətlərdən heç biri "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında" Beynəlxalq Konvensiyaya (UN Doc. A/RES/45/158, 1 iyul 2003-cü il) hələ ki, qoşulmayıb.

[13] BMT-nin UN Doc. A/61/611 saylı, 13 dekabr 2006-cı il tarixli sənədi.

- AİHK ona qoşulmuş 47 dövlətin yurisdiksiyasında olan bütün şəxsləri müdafiə etdiyi bir halda, Aİ Direktivləri yalnız bu Təşkilata üzv olan 27 dövlətin vətəndaşlarını müvafiq müdafiə ilə təmin edir.
- AİHK-nın 14-cü maddəsinə əsasən yalnız bu sənədlə təmin olunan hüquqlardan istifadə ilə bağlı ayrı-seçkilik qadağan olunur. 12 saylı Protokola əsasən isə istənilən hüquqdan istifadə ilə bağlı ayrı-seçkilik qadağan olunur.
- Aİ-nin ayrı-seçkiliyi qadağan edən qanunvericiliyinə əsasən ayrı-seçkilik ümumiyyətlə qadağan olunsa da, konkret kontekstlərdə, məsələn, məşğulluq sahəsində ayrı-seçkliyin qadağan olunmasına xüsusi diqqət yetirilir.
- Aİ təsisatları Aİ-nin Əsas Hüquqlar Xartiyasına, o cümlədən bu Xartiyanın ayrı-seçkiliyin qadağan olunmasına aid müddəalarına əməl etməyi hüquqi cəhətdən öz üzərinə götürür. Aİ-yə üzv olan dövlətlər isə Aİ qanunvericiliyini icra etdikləri zaman sözügedən Xartiyaya əməl etməlidir.
- Aİ, ƏHK-ya və AİHK-ya qoşulacaq. Bunun nəticəsində Aİ bu Təşkilatdan kənar monitorinq orqanlarının nəzarəti altına düşəcək və insanlar Aİ tərəfindən AİHK-nın pozulması ilə əlaqədar birbaşa AİHM-ə şikayət verə biləcəklər.

Əlavə ədəbiyyat

Bamforth, Malik and O'Cinneide, Discrimination Law: Theory and Context (London, Sweet and Maxwell, 2008), Chapter 1 'Key Issues and Questions in Discrimination Law', Chapter 2 'Sources and Scope of Domestic Discrimination Law'/*"Ayrı-seçkiliyə dair qanunvericilik: nəzəriyyə və kontekst", fəsil 1 "Ayrı-seçkiliyə dair qanunvericiliyə aid əsas məsələlər və suallar", fəsil 2 "Məişət zəminində ayrı-seçkiliyə dair qanunvericiliyin mənbələri və əhatə dairəsi"*

Barnard, 'EC Employment Law', (3rd ed., Oxford, Oxford University Press, 2006), Chapter 1 'The Evolution of "EC" Social Policy'/*"Aİ-nin məşğulluq sahəsində qanunvericiliyi", fəsil 1 "Aİ sosial siyasətinin inkişaf yolu"*

Besson, 'The European Union and Human Rights: Towards a Post-National Human Rights Institution?', 6 Human Rights Law Journal (2006) 323./*"Avropa İttifaqı və insan hüquqları: regional insan hüquqları təsisatları istiqamətində?"*

Butler, 'A Comparative Analysis of Individual Petition in Regional and Global Human Rights Protection Mechanisms', 23 University of Queensland Law Journal (2004) 22./*"İnsan hüquqlarının regional və qlobal müdafiə mexanizmləri kontekstində fərdi vəsatətin müqayisəli təhlili"*

Chalmers (et al), European Union Law: Text and Materials, (2nd ed., Cambridge, Cambridge University Press, 2010), Chapter 1 'European Integration and the Treaty on European Union', Chapter 2 'EU institutions' and Chapter 6, 'Fundamental Rights'./*"Avropa İttifaqı qanunvericiliyi: sənədlər və materiallar", fəsil 1 "Avropa inteqrasiyası və Avropa İttifaqı haqqında Müqavilə", fəsil 2 "Aİ təsisatları", fəsil 6 "Əsas hüquqlar"*

Costello, 'The Bosphorus ruling of the European Court of Human Rights: Fundamental Rights and Blurred Boundaries in Europe', 6 Human Rights Law Review (2006) 87./*"Avropa İnsan Hüquqları Məhkəməsinin Bosfor qərarları: Avropada əsas hüquqlar və qeyri-müəyyən sərhədlər"*

Craig and de Burca, EU Law: Text, Cases and Materials (4th ed. Oxford, Oxford University Press, 2008), Chapter 1 'The Development of European Integration', Chapter 11 'Human Rights in the EU'./*"Avropa İttifaqı qanunvericiliyi: sənədlər, işlər və materiallar", fəsil 1 "Avropa inteqrasiyasının inkişafı", fəsil 11 "Aİ-də insan hüquqları"*

Eicke, 'The European Charter of Fundamental Rights – Unique Opportunity or Unwelcome Distraction', 3 European Human Rights Law Review (2000) 280./*"Avropa Əsas Hüquqlar Xartiyası – unikal imkan və ya arzuolunmaz çəkişmə"*

Ellis, 'EU Anti-Discrimination Law' (Oxford, Oxford University Press, 2005), Chapter 1 'Introduction'./*"Ayrı-seçkiliyin qadağan olunması sahəsində Aİ qanunvericiliyi", Fəsil 1 "Giriş"*

Equinet, 'Dynamic Interpretation: European Anti-Discrimination Law in Practice', Volumes I-IV, available at: www.equineteurope.org/equinetpublications.html. */"Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinin tətbiqi məsələləri: dinamik şərh",* cildlər I-IV

Fitzpatrick (et al), 'The 1996 Intergovernmental Conference and the Prospects of a Non-Discrimination Treaty Article', 25.4 Industrial Law Journal (1996) 320./*"1996-cı il hökumətlərarası konfransı və ayrı-seçkiliyi qadağan edən müqavilənin perspektivləri"*

Guliyev, 'Interdiction générale de la discrimination : droit fondamental ou droit de "second rang" ? CourEDH, Gde Ch., Sejdić et Finci c. Bosnie-Herzégovine, 22 décembre 2009', 10 L'Europe des libertés : revue d'actualité juridique, (2010) 31.

Heringa and Verhey, 'The EU Charter: Text and Structure', 8 Maastricht Journal of European and Comparative Law (2001) 11./*"Aİ Xartiyasının mətni və strukturu"*

Llorente, 'A Charter of Dubious Utility', 1.3 International Journal of Constitutional Law (2003) 405./*"Şübhəli fayda xartiyası"*

Martin, 'Strasbourg, Luxembourg et la discrimination : influences croisées ou jurisprudences sous influence ?', 18 Revue trimestrielle des droits de l'homme, (2007) 69.

Quesada Segura, 'La no discriminación, la igualdad de trato y de oportunidades, en el ordenamiento europeo. Del Convenio Europeo de Derechos Humanos del Consejo de Europa, a los Tratados y a la Carta de los Derechos Fundamentales de la Unión Europea', Revista del Ministerio de Trabajo y Asuntos Sociales, (2008) extraordinary number.

Royer, The Council of Europe/Le Conseil de l'Europe (Strasbourg, Council of Europe, 2010/2009).

Sadurkski, 'Partnering with Strasbourg: Constitutionalisation of the European Court of Human Rights, the Accession of Central and East European States to the Council of Europe, and the Idea of Pilot Judgments', 9 Human Rights Law Review (2009) 397./*"Strasburqla partnyorluq: Avropa İnsan Hüquqları Məhkəməsinin Konstitusionalizasiyası, Mərkəzi və Şərqi Avropa Dövlətlərinin Avropa Şurasına qəbulu və pilot mülahizələr ideyası"*

Syrpis, 'The Treaty of Lisbon: Much Ado … But About What?', 37.3 Industrial Law Journal (2008) 219./*"Lissabon Müqaviləsi: görüləsi iş çoxdur … lakin bu işlər hansılardır?"*

Tulkens, 'L'évolution du principe de non-discrimination à la lumière de la jurisprudence de la Cour européenne des droits de l'homme', in Carlier (ed.), L'étranger face au droit (Bruxelles, Bruylant, 2010).

2. Ayrı-seçkiliyin formaları və ayrı-seçkilikdən müdafiə növləri

2.1. Giriş

Ayrı-seçkiliyin qadağan olunması ilə bağlı qanunların məqsədi bütün şəxslərə müvafiq cəmiyyətədə mövcud olan imkanlardan bərabər və ədalətli şəkildə istifadə etmək üçün şərait yaratmaqdan ibarətdir. Biz işdə olmağımızdan və ya alış-veriş etməyimizdən asılı olmayaraq hər gün hətta kiminlə ünsiyyətdə olmağımzla bağlı seçim edirik. Biz başqaları ilə müqayisə edib müəyyən insanlara və əşyalara üstünlük veririk. Öz subyektiv seçimlərimizi ifadə etmək adi və normal bir hal olsa da, biz bəzən bizə müəyyən səlahiyyətlər verən və ya başqalarının həyatına birbaşa təsir göstərən vəzifələr də icra edə bilərik. Biz dövlət səlahiyyətlərinin necə istifadə olunması və ya özəl malların və xidmətlərin necə təklif olunması barədə qərar qəbul edən dövlət qulluqçusu, dükan sahibi, işəgötürən, mülkiyyətçi və ya həkim ola bilərik. Bu cür qeyri-şəxsi kontekstdə tərəfimizdən edilmiş seçimdən və aşağıda təsvir olunan vəziyyətdən asılı olaraq ayrı-seçkiliyi qadağan edən qanunvericiliklər əsas götürülməlidir.

İlk növbədə bu qanunvericiliklər oxşar vəziyyətdə olan şəxslərlə bərabər səviyyədə rəftar olunmanı və onlarla sadəcə olaraq hansısa "müdafiə olunan" xüsusiyyətlərinə görə qeyri-münasib şəkildə rəftaretməməni nəzərdə tutur. Eyni vəziyyətdə olan şəxslərlə fərqli şəkildə rəftar "birbaşa" ayrı-seçkilik adlanır. AİHK-ya əsasən, birbaşa ayrı-seçkilik hallarına qarşı obyektiv və əsaslı şəkildə müdafiə təmin olunmalıdır, Aİ qanunvericiliyinə əsasən isə birbaşa ayrı-seçkilikdən qanuni müdafiə tədbirləri müəyyən dərəcədə məhduddur.

Eyni zamanda, ayrı-seçkiliyi qadağan edən qanunlar, fərqli vəziyyətdə olan şəxslərin konkret imkanlardan başqaları ilə eyni əsaslarla istifadə etmələri üçün şərait yaratmaq məqsədilə həmin şəxslərlə zəruri dərəcədə fərqli tərzdə rəftarı nəzərdə tutur. Bununla da, konkret tədbirlər həyata keçirildiyi və ya konkret hüquqi normalar işlənib hazırlandığı zaman, müvafiq "müdafiə olunan" əsaslar nəzərə alınmalıdır. Fərqli vəziyyətdə olan şəxslərlə müvafiq şərait yaradılmadan, fərqli tərzdə rəftaretmə "dolayı" ayrı-seçkilik hesab olunur. Müvafiq iddia ərizəsi AİHK-ya və ya Aİ qanunvericiliyinə əsaslanmasından asılı olmayaraq, dolayı ayrı-seçkiliyin bütün formalarına qarşı obyektiv və əsaslı şəkildə müdafiə təmin olunmalıdır.

Bu fəsildə əsasən birbaşa və dolayı ayrı-seçkiliyin mənaları, bəzi səciyyəvi təzahürləri, məsələn, sıxışdırılma və ya ayrı-seçkiliyə məruz qoyma göstərişləri və bu cür halların öhdəsindən presedent hüququna əsasən necə gəlməyə dair misallar dərindən müzakirə olunur. Eyni zamanda, burada ayrı-seçkilikdən necə müdafiə olunma prosesi nəzərdən keçirilir.

Ayrı-seçkiliyin qadağan olunması ilə bağlı qanunvericiliyə əsasən eyni vəziyyətdə olan şəxslərlə və ya şəxslərdən ibarət qruplarla fərqli şəkildə rəftarı və yaxud fərqli vəziyyətdə olan şəxslərlə və ya qruplarla eyni rəftarı nəzərdə tutan hərəkətlər yolverilməzdir.[14]

2.2. Birbaşa ayrı-seçkilik

Birbaşa ayrı-seçkilik istər AİHK-da, istərsə də Aİ qanunvericiliyində oxşar tərzdə xarakterizə olunur. "İrqi bərabərliyə dair" Direktivin 2(2)-ci maddəsi bəyan edir ki, birbaşa ayrı-seçkilik *"bir şəxslə başqası ilə müqayisədə və ya müqayisə olunan şəraitdə keçmişdə, hazırda və ya gələcəkdə irqi və ya etnik əlamətlərə görə nisbətən qeyri-münasib tərzdə rəftaretmə"* deməkdir.[15] AİHM tərəfindən istifadə olunan ifadəyə əsasən birbaşa ayrı-seçkilik zamanı *"eyni*

[14] Məsələn, *Hooqendiykin Niderland Krallığına qarşı* AİHM-dəki 58641/00 saylı, 6 yanvar 2005-ci il tarixli işinə baxın.
[15] Eyni zamanda,, "Məşğulluq sahəsində bərabərliyə dair" Direktivin 2(2)(a), "Gender bərabərliyinə dair" (yenidən baxılmış) Direktivin 2(1)(a) və "Mallar və xidmətlər sahəsində gender bərabərliyinə dair" Direktivin 2(a) maddələrinə baxın.

və ya müvafiq olaraq oxşar vəziyyətdə olan şəxslərlə rəftarda fərq" mütləq mövcud olmalıdır və bu fərq *"müəyyən edilən əlamətlərdən irəli gəlməlidir."*[16]

Birbaşa ayrı-seçkilik o zaman baş verir ki,
- şəxs oxşar vəziyyətdə olan şəxslərlə müqayisədə
- qeyri-münasib rəftara məruz qalır, qalmışdır və ya qalacaq və
- buna səbəb onun *"müdafiə olunan əsaslar"* kateqoriyasına aid olan konkret əlamətə malik olmasıdır.

2.2.1. Qeyri-münasib rəftar

Birbaşa ayrı-seçkiliyin əsasını konkret şəxsin digərlərilə müqayisədə fərqli rəftara məruz qalması təşkil edir. Bununla əlaqədar olaraq, birbaşa ayrı-seçkiliyin ilk əlaməti qeyri-münasib rəftara dair faktın mövcud olmasından ibarətdir. Adətən statistik məlumatların təqdim edilməsini tələb edən dolayı ayrı-seçkilik halları ilə müqayisədə bu faktı nisbətən asanlıqla müəyyən etmək olar (bu barədə aşağıda məlumat verilir). Bizim Bələdçidə təsvir edilən bəzi işlərdən götürülmüş faktları nümunə kimi burada sadalamaq olar: restorana və ya mağazaya buraxılmama; nisbətən az təqaüd və ya əmək haqqı alma; şifahi təhqirə və ya zorakılığa məruz qalma; yoxlama məntəqəsindən keçmək üçün icazənin verilməməsi; digərlərilə müqayisədə tez və ya gec təqaüdə çıxma; konkret peşə ilə məşğul olmaq imkanından məhrum edilmə; varislik hüququndan istifadə etmək imkanından məhrum edilmə; əsas təhsil sistemindən təcrid olunma; deportasiyaya məruz qalma; dini atributlar gəzdirmək imkanından məhrum edilmə; sosial təminat müavinətləri ilə bağlı müraciətə rədd cavabı alma və ya bu cür müavinətlərin ödənilməsinin dayandırılması.

2.2.2. Müqayisə vasitəsi

Qeyri-münasib rəftar o zaman ayrı-seçkilik kimi qəbul oluna bilər ki, bu cür rəftar eyni vəziyyətdə olan şəxslə bağlı rəftarla müqayisədə həqiqətən də qeyri-münasibdir. Əgər şikayətçi ilə eyni vəzifələri icra etmək üçün həmin işəgötürən tərəfindən işlə təmin edilmiş başqa bir şəxsin əmək haqqının yüksək olması faktı mövcud deyildirsə, əmək haqqının "az" olması barədə şikayət ayrı-seçkilik faktına aid iddia hesab edilə bilməz. Deməli, "müqayisə vasitəsi" tələb olunur: başqa sözlə, eyni iş şəraitində olan şəxslər arasında maddi fərq "müdafiə olunan əsas" kimi qəbul olunur. Bu Bələdçidə nəzərdən keçirilən işlər göstərir ki, adətən müqayisə əsasında faktın sübuta yetirilməsi məsələsi böyük mübahisələr doğurmur və bəzən istər proses tərəfləri, istərsə də məhkəmə müqayisə vasitəsini hərtərəfli müzakirəyə çıxarmır. Konkret işlərə əsaslanan və aşağıda verilmiş bəzi misallar müqayisə əsasında faktın sübuta yetirilməsi məsələsinin yalnız qərar qəbul edən orqan tərəfindən qaldırıldığını göstərir.

Misal: Müstəqimin işinə əsasən, Mərakeş vətəndaşı bir neçə cinayət törətdiyinə görə məhkum edilmişdi və bunun nəticəsi olaraq deportasiya edilməli idi.[17] Mərakeş vətəndaşı iddia edirdi ki, onun deportasiya edilməsi haqqında qərar ona qarşı diskriminativ rəftardan irəli gəlir. O, vətəndaşlıq zəminində ayrı-seçkiliyin baş verdiyini iddia edirdi və eyni cinayətlərin törədilməsinə görə Belçika vətəndaşlarının deportasiya olunmadığını əsas gətirirdi. AİHM iddiaçının Belçika vətəndaşları ilə eyni vəziyyətdə olmadığını müəyyən etmişdi, çünki AİHK-ya əsasən dövlət vətəndaşlarını öz ərazilərindən çıxara bilməz. Deməli, onun deportasiyası heç bir diskriminativ rəftarla əlaqədar deyil. Eyni zamanda, AİHM iddiaçının Belçika vətəndaşı olmayan, lakin Aİ-yə üzv olan digər dövlətlərin vətəndaşları olan və Aİ-nin hərəkət azadlığı ilə

[16] *Karsonun və başqalarının Böyük Britaniyaya qarşı* AİHM-dəki, 42184/05 saylı, 16 mart 2010-cu il tarixli işinin 61-ci paraqrafı. Eyni zamanda, *D.H.-in və başqalarının Çex Respublikasına qarşı* AİHM-dəki [GC] 57325/00 saylı, 13 noyabr 2007-ci il tarixli işinin 175-ci, *Burdenin Böyük Britaniyaya qarşı* AİHM-dəki [GC] 13378/05 saylı, 29 aprel 2008-ci il tarixli işinin 60-cı paraqrafları.

[17] *Müstəqimin Belçika Krallığına qarşı* AİHM-dəki 12313/86 saylı, 18 fevral 1991-ci il tarixli işi.

bağlı qanunvericiliyinə əsasən deportasiya olunmayan şəxslərlə müqayisə edilən vəziyyətdə olması ilə razılaşmış və bununla da vətəndaşlıq əsasında rəftar zamanı fərq müəyyən edilmişdi.

Misal: Allonbinin işinə əsasən, kollecdə mühazirəçi işləmiş qadın iddiaçının müqaviləsi həmin kollec tərəfindən uzadılmamışdır.[18] Bundan sonra o, mühazirəçiləri təhsil müəssisələrində işə düzəldən şirkətə müraciət etmişdir. Bu şirkət iddiaçını onun əvvəllər işlədiyi kollecə keçmiş vəzifələrini icra etmək üçün göndərmişdir. İddiaçı kollecdə işləyən kişi mühazirəçilərin daha yüksək əmək haqqı aldığını əsas gətirərək cinsi zəmində ayrı-seçkiliyin baş verdiyini iddia edirdi. AƏM kollec tərəfindən işə götürülmüş kişi mühazirəçilərin müqayisə edilməyən vəziyyətdə olduğunu müəyyən etmişdir. Bunu onunla əsaslandırmışdır ki, kollec birbaşa işə götürdüyü kişi məruzəçilərdən fərqli olaraq kənar şirkət tərəfindən kollecə göndərilərək işə götürülmüş iddiaçının əmək haqqının miqdarının müəyyənləşdirilməsinə məsuliyyət daşımırdı. Deməli, onlar kifayət qədər oxşar vəziyyətdə deyil.

Misal: Lüçzakın işinə əsasən, Polşada yaşayan və fermer təsərrüfatı ilə məşğul olan bir fransız fermer konkret olaraq Polşa fermerlərinin dəstəklənməsi üçün Polşada yaradılmış və başqa ölkələrin vətəndaşlarına şamil olunmayan güzəştli sosial təminat sistemindən faydalana bilməməsi ilə bağlı şikayət etmişdir.[19] AİHM, iddiaçının güzəştli sistemdən faydalanan Polşa fermerlərilə müqayisə edilən bir vəziyyətdə olması ilə razılaşmışdır, çünki o, bu ölkədə daimi yaşayırdı, ölkə vətəndaşları kimi vergilər ödəməklə sosial təminat sisteminə maddi töhfələr verirdi və bununla da ümumi sosial təminat sisteminin bir hissəsi hesab olunurdu.

Misal: Riçardsın işində iddiaçı əməliyyat nəticəsində cinsini dəyişərək qadın olmuşdur. Onun 60 yaşı tamam olduqda o, pensiya üçün müraciət etmişdi, çünki Böyük Britaniyada qadınlar məhz bu yaşda təqaüdə çıxırlar. Dövlət ona pensiya verməkdən imtina etmişdir və bunu onunla əsaslandırmışdır ki, oxşar vəziyyətdə olan şəxslərlə müqayisədə iddiaçı ilə qeyri-münasib şəkildə rəftar olunmamışdır. Dövlət bunu onunla əsaslandırırdı ki, burada müqayisə vasitəsi kimi kişilər götürülməlidir, çünki iddiaçı öz həyatını kişi cinsində yaşamışdır. AƏM isə müəyyən etmişdir ki, milli qanunvericiliyə əsasən, şəxsə öz cinsini dəyişmək icazəsi verildiyindən düzgün müqayisə vasitəsi kimi qadınlar götürülməlidir. Məhz bu səbəbdən də digər qadınlarla müqayisədə iddiaçı ilə qeyri-münasib şəkildə rəftar olunaraq, ona daha yüksək pensiya yaşı tətbiq edilmişdir.[20]

Misal: Bördenin Böyük Britaniyaya qarşı işinə əsasən 2 bacı 31 il ərzində birgə yaşamışdır.[21] Onlar birlikdə müəyyən əmlak əldə etmişdilər və tərəflərin hər biri öz arzusu ilə öz payını başqasına bağışlamışdı. İddiaçılar şikayət edirdilər ki, əmlakın dəyəri müəyyən bir həddi keçdiyindən tərəflərdən birinin ölümündən sonra digər tərəf varislik vergisi ödəməli olacaq. Onlar bunu mülkiyyət hüququna diskriminativ müdaxilə hesab edərək məhkəməyə iddia ərizəsilə müraciət etmişdilər, çünki qanuna görə rəsmi və ya vətəndaş nikahında olan şəxslər varislik vergisindən azaddır. Lakin AİHM müəyyən etmişdir ki, doğma bacı olan bu iddiaçılar özlərini rəsmi nikahda, vətəndaş nikahında olan və birgə yaşayan cütlüklərlə müqayisə edə bilməzlər. Nikah və birgə yaşama tərəflər arasında müəyyən hüquq və vəzifə bölgüsü aparmaqla xüsusi münasibətlərin sərbəst və düşünülmüş şəkildə qurulmasını nəzərdə tutur. İddiaçılar arasındakı münasibətlər isə ilk öncə birbaşa qan qohumluğu üzərində

[18] *Allonbinin Akrinqton və Rossendal Kollecinə qarşı* AƏM-dəki C-256/01 [2004] ECR I-873 saylı, 13 yanvar 2004-cü il tarixli işi.
[19] *Lüçzakın Polşa Respublikasına qarşı* AİHM-dəki 77782/01 saylı, 27 noyabr 2007-ci il tarixli işi; eyni zamanda, *Qayqusuzun Avstriya Respublikasına qarşı* AİHM-dəki 17371/90 saylı, 16 sentyabr 1996-cı il tarixli işinə də baxın.
[20] *Riçardsın Əmək və Pensiya üzrə Dövlət katibinə qarşı* AƏM-dəki C-423/04 [2006] ECR I-3585 saylı, 27 aprel 2006-cı il tarixli işi.
[21] *Bördenin Böyük Britaniyaya qarşı* AİHM-dəki [GC] 13378/05 saylı, 29 aprel 2008-ci il tarixli işi.

qurulduğundan yuxarıda qeyd olunan münasibətlərdən köklü şəkildə fərqlənir.

Misal: Karsonun və başqalarının Böyük Britaniyaya qarşı işində iddiaçılar şikayət edirdilər ki, Böyük Britaniya hökuməti bu ölkədə və bu ölkədən xaricdə yaşayan və pensiyada olan vətəndaşları üçün pensiyalara fərqli artım şkalaları tətbiq edir.[22] Böyük Britaniya qanunvericiliyinə əsasən pensiyalara artım yalnız bu ölkənin vətəndaşı olan, burada yaşayan, həmçinin Böyük Britaniya ilə qarşılıqlı sosial təminat haqqında razılaşması olan dövlətlərdə yaşayan pensiyaçılara şamil olunur. Böyük Britaniya vətəndaşları olan və Böyük Britaniya ilə bu cür razılaşması olmayan dövlətlərdə yaşayan iddiaçılar hesab edirdilər ki, onlar yaşadıqları yerə görə ayrı-seçkiliyə məruz qalırlar. AİHM iddiaçıların Böyük Britaniyada yaşayan və yaxud Böyük Britaniya ilə qarşılıqlı müqaviləsi olan dövlətlərdə yaşayan Böyük Britaniya vətəndaşları ilə eyni vəziyyətdə olmaları məsələsilə razılaşmamışdır. AİHM müəyyən etmişdir ki, sözügedən müxtəlif qruplara aid vətəndaşların hamısı sosial təminat sistemlərinə ödənişlər etməklə dövlət gəlirlərinin artmasına maddi töfhələr versələr də, bu ödənişlər pensiya fondunu təşkil etmirdi və ümumi gəlirin bir hissəsi kimi dövlət xərclərinə aid müxtəlif aspektlərin maliyyələşdirilməsi üçün istifadə olunurdu. Bundan başqa, hökumətin pensiyaya artım etməsi Böyük Britaniyada yaşayış səviyyəsi və xərclərinin artmasından irəli gəlir. Bu isə o deməkdir ki, iddiaçılar digər qruplarla müqayisə edilməz vəziyyətdə olduğundan onlarla diskriminativ şəkildə rəftar olunmamışdır.

Misal: Ladunanın işində[23] iddiaçı məhkum olunmuş məhbuslarla müqayisədə həbsdə saxlanılan təqsirləndirilən şəxslərə baş çəkilmə baxımından fərqli hüquqlara malik olmaları ilə əlaqədar şikayət edirdi: həbsdə saxlanılan təqsirləndirilən şəxslərə baş çəkmək üçün ayda 30 dəqiqə vaxt verildiyi halda, məhkum olunmuş məhbuslara baş çəkmək üçün ayda 2 saat verilirdi. Bundan başqa, məhkum olunmuş məhbuslara kimlərin və hansı tezliklə baş çəkməsinə saxlanıldıqları həbsxananın təhlükəsizlik səviyyəsindən asılı olaraq icazə verilirdi. Məhkum olunmuş məhbuslardan fərqli olaraq həbsdə saxlanılan təqsirləndirilən şəxslərə isə onların saxlanmasının səbəblərindən və təhlükəsizlik məsələlərindən asılı olmayaraq eyni rejim tətbiq edilirdi. Şikayət predmeti olan məsələlər bütün məhbuslara aid edilsə də, AİHM belə bir qənaətə gəlmişdir ki, həbsdə saxlanılan təqsirləndirilən şəxs olan iddiaçı məhkum olunmuş məhbuslardan ibarət müqayisə edilən qrupla nisbətən oxşar vəziyyətdədir. Lakin, bu iki qrup arasında fərqli rəftarın obyektiv və məntiqli şəkildə əsaslandırılması mövcud deyildi. Qayda-qanunun, başqalarının təhlükəsizliyinin və əmlakın mühafizəsinin təmin edilməsi zərurəti məhkum olunmuş məhbuslarla müqayisədə həbsdə saxlanılan təqsirləndirilən şəxslərin hüquqlarının əhəmiyyətli dərəcədə məhdudlaşdırılmasını əsaslandıra bilməzdi. Bu cür təcrübə İşgəncələr və Digər Qəddar, Qeyri-insani və Alçaldıcı Rəftar Əleyhinə Komitə tərəfindən də tənqid atəşinə tutulmuşdur. Bundan başqa, ümumiyyətlə bütün məhbusların görüş almaq hüququnun konkret şəkildə məhdudlaşdırılması müəyyən dərəcədə təhlükəsizlik səbəbləri və ya qanunla nəzərdə tutulmuş istintaq sirrlərinin müdafiə edilməsilə əsaslandırılsa da, buna digər vasitələrlə, yalnız həbsdə saxlanılan təqsirləndirilən şəxslərə mənfi təsir göstərməməklə nail olmaq mümkündür. Burada qeyd etmək lazımdır ki, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt və 1987-ci il tarixli Avropa Penetensiar Qaydaları kimi beynəlxalq sənədlər həbsdə saxlanılan təqsirləndirilən şəxsə günahsız hesab edilə biləcək şəxs kimi hörmətlə yanaşmağın zərurətini vurğulayır. 2006-cı il tarixli Avropa Penetensiar Qaydaları, əgər xüsusi səbəblərə görə bunun əksi nəzərdə tutulmayıbsa, həbsdə saxlanılan təqsirləndirilən şəxslərə baş çəkilməsi hüququna malik olmaqla, məhkum olunmuş məhbuslar üçün müəyyən edilmiş qaydada ailə üzvləri və digər şəxslərlə görüşməyə icazənin verilməsini nəzərdə tutur. Bununla əlaqədar olaraq, AİHM iddiaçıya baş çəkməklə bağlı tətbiq edilmiş məhdudiyyətlərin tənasübsüz olduğunu müəyyən etmişdir.

[22] *Karsonun və başqalarının Böyük Britaniyaya qarşı* AİHM-dəki [GC] 42184/05 saylı, 16 mart 2010-cu il tarixli işi.
[23] *Ladunanın Slovakiya Respublikasına qarşı* AİHM-dəki 31827/02 saylı, 13 dekabr 2011-ci il tarixli işi.

Misal: Yaroslav Vavrjinyakın işini[24] istiqamətləndirmiş Almaniya Federativ Respublikası (AFR) məhkəməsi AƏM-dən "Aİ-nin Fəaliyyəti haqqında" Müqavilənin sərbəst hərəkət etmə azadlığına və ayrı-seçkiliyə məruz qalmama prinsipinə aid normalarının müqayisə olunan müavinət Aİ-yə üzv olan digər dövlətdə mütləq ödənildiyi və yaxud qaldırılmış vəsatət əsasında ödəniləcəyi təqdirdə uşaq pulunun bu dövlətdə verilməsini istisna edən milli hüquqi normaların tətbiqinə icazə verib vermədiyini müəyyən etməyi xahiş edirdi. Bu iş AFR-də muzdlu əmək fəaliyyətilə məşğul olmuş Polşa vətəndaşı ilə əlaqədar idi. 2006-cı ildə AFR ondan müddətsiz gəlir vergisinin ümumi məbləğinin ödənilməsini tələb etdikdə sözügedən şəxs öz qızı üçün uşaq pulu (€ 154) almaq məqsədilə müraciət etmişdir. Onun müraciətinə rədd cavabı verilmişdir, çünki həmin müddətdə onun həyat yoldaşı Polşada tibbi sığorta ilə əhatə olunduğu zaman ayda € 12 uşaq pulu da alırdı.

Məhkəmə bu işə baxdığı zaman vurğulamışdır ki, əgər söhbət başqa dövlətdə verilən və müqayisə olunan müavinətin məbləğinə uyğun gələn müavinət məbləğinin ixtisara salınmasından deyil, ümumiyyətlə müavinətin istisna edilməsindən gedirsə, yuxarıda qeyd olunan Müqavilədə əks olunmuş işçilərin sərbəst hərəkət etməsinə aid normaları milli qanunvericiliyin müvafiq normalarının tətbiqinin qarşısını alan kimi şərh olunmalıdır. Müqayisə edilən müavinətin əlaqədar dövlətdə ümumiyyətlə verilməsini qadağan edən hüquqi norma yalnız öz vətənlərində işləyən şəxslərlə müqayisədə çoxsaylı işçi miqrantlara həqiqətən də mənfi təsir göstərən uyğunsuzluğun əsasını təşkil edir. Nəzərə alsaq ki, proses üzrə iddiaçı tərəfdən müddətsiz gəlir vergisinin ödənilməsi də tələb olunub, belə bir uyğunsuzluq çox az əsaslandırılan hesab olunmuşdur.

Mütləq qeyd olunmalıdır ki, Aİ qanunvericiliyi şəxsin hamiləlik səbəbindən məşğulluq sahəsində ayrı-seçkiliyə məruz qalması ilə bağlı şikayət etməsi, müvafiq müqayisə vasitəsinin təqdim edilməsini nəzərdə tutmur. *Dekkerin* "rüşeym" işindən başlayaraq AƏM-in bu sahədəki zəngin təcrübəsinə əsasən birmənalı şəkildə müəyyən olunmuşdur ki, şəxsə onun hamiləliyi səbəbindən ziyan vurulmuşdursa, bu cinsi zəmində birbaşa ayrı-seçkilik hesab olunur və müqayisə vasitəsini təqdim etməyə ehtiyac yoxdur.[25]

2.2.3. Müdafiə olunan əsas

4-cü fəsildə ayrı-seçkiliyin qadağan olunması sahəsində mövcud olan bir sıra müdafiə olunan əsaslar, daha konkret desək cinsi mənsubiyyətə, cinsi oriyentasiyaya, əlilliyə, yaşa, irqi mənsubiyyətə, etnik mənşəyə, milli mənsubiyyətə və dini baxışlara görə ayrı-seçkilik məsələləri müzakirə olunacaq. Bu fəsildə isə qeyri-münasib rəftarla müdafiə olunan əsaslar arasında əlaqənin müəyyən edilməsi zərurətinə diqqət yetiriləcək. Bu cür əlaqəni müəyyən etmək üçün təxminən belə bir sadə sual vermək kifayətdir: əlaqədar şəxs başqa cinsə, irqə, yaş qrupuna mənsub olduğuna və ya burada sadalanan və qanunvericiliklə müdafiə olunan digər səbəblərə görə fərqli rəftara məruz qalırmı? Bu sualın cavabı müsbət olduqda baş vermiş qeyri-münasib rəftarın əsas səbəbi birmənalı şəkildə sözügedən əsaslarla əlaqədardır.

Tətbiq olunan qanunlar və təcrübə göstərir ki, bütün hallarda birmənalı şəkildə müdafiə olunan əsaslara istinad etmək heç də tələb olunmur, çünki bəzən baş vermiş hallar müdafiə olunan əsaslardan ayrılmaz digər amillərlə də əlaqəli ola bilər. Müdafiə olunan əsasları nəzərə almaqla qeyri-münasib rəftar əsasında birbaşa ayrı-seçkilik halının baş verməsi faktını müəyyənləşdirərkən şikayətin əsasını təşkil edən konkret amilin də nəzərə alınması vacibdir.

[24] *Yaroslav Vavrjinyakın Agentur Für Aarbeit Mönchengladbach–Familienkasse-yə qarşı* AƏM-dəki C-612/10 saylı, 12 iyun 2012-ci il tarixli işi.

[25] *Dekkerin "Stichting Vormingscentrum voor Jong Volwassenen (VJV-Centrum) Plus"-a qarşı* AƏM-dəki C-177/88 [1990] ECR I-3941 saylı, 8 noyabr 1990-cı il tarixli işi. Eyni zamanda, *Uebbin "EMO Air Cargo (UK) Ltd" şirkətinə qarşı* AƏM-dəki C-32/93 [1994] ECR I-3567 saylı, 14 iyul 1994-cü il tarixli işi.

Misal: Ceymsin İstli şəhər bələdiyyəsinə qarşı işinə əsasən cənab Ceyms İstli şəhərindəki üzgüçülük hovuzundan istifadə üçün pul ödəməli idi, onun həyat yoldaşından isə bu tələb olunmurdu.[26] Cənab və xanım Ceymsin 61 yaşı var idi. Üzgüçülük hovuzundan pulsuz istifadə imtiyazı yalnız xanım Ceymsə şamil olunurdu, çünki o artıq pensiyaçı idi, cənab Ceyms isə pensiyaçı deyildi (Böyük Britaniyada kişilər 65, qadınlar isə 60 yaşında pensiyaya çıxırlar). Üzgüçülük hovuzundan pulsuz istifadə qaydası şəxsin pensiyaçı olub-olmamasından irəli gəlsə də, onun pensiya yaşı cinsi mənsubiyyətilə əlaqədardır. Böyük Britaniyanın Lordlar Palatası belə bir qənaətə gəlmişdir ki, cənab Ceyms əks cinsin nümayəndəsi olsa idi onunla xanım Ceyms kimi rəftar olunacaqdı. Bundan başqa, müəyyən olunmuşdur ki, bu cür rəftarın arxasında duran niyyət və motivasiya qeyri-münasib olduğundan rəftar məsələsinə xüsusi diqqət yetirilməlidir.

Misal: Marukonun işinə əsasən, homoseksual cütlük birgə yaşayırdı.[27] İddiaçının partnyoru vəfat etdikdən sonra o, ailə başçısının ölümü ilə əlaqədar pensiya almaq məqsədilə həmin partnyorun pensiya işlərini aparan özəl pensiya fonduna müraciət etmək qərarına gəlmişdir. Şirkət iddiaçıya pensiya ödəməkdən imtina etmişdi, çünki ailə başçısının ölümü ilə əlaqədar pensiya yalnız ölənin həyat yoldaşına ödənilir, iddiaçı isə ölən şəxslə rəsmi nikaha daxil olmamışdır. AƏM hesab etmişdir ki, pensiyanı ödəməkdən imtina etmə qeyri-münasib rəftardan irəli gəlir və bu nikaha daxil olmuş şəxslərin vəziyyətilə müqayisə olunduqda xoşagəlməz bir haldır. AƏM müəyyən etmişdir ki, AFR-də birgə yaşama qanunvericiliklə nəzərdə tutulmuş bir hala çevrildiyindən, birgə yaşayan partnyorlar üçün nikaha daxil olmuş partnyorlarla eyni hüquq və vəzifələr mövcuddur, xüsusilə də dövlət pensiya sistemlərindən istifadə sahəsində. Bu isə işin məqsədlərini rəhbər tutaraq birgə yaşayan partnyorların nikaha daxil olmuş partnyorlarla oxşar vəziyyətdə olduğunu ehtimal etməyə əsas verirdi. Bundan sonra AƏM bu işin cinsi oriyentasiya zəminində ayrı-seçkilikdən irəli gəldiyini əlaqədar dövlətə təkidlə bildirmişdi. Deməli bu cütlüyün rəsmi nikaha daxil olmaması bilavasitə onların cinsi oriyentasiyası ilə əlaqədardır.

Misal: Əzizin Kipr Respublikasına qarşı işinə əsasən iddiaçı milliyyətcə türk olduğundan seçki hüququndan məhrum edildiyini bildirirdi.[28] Əvvəllər Kipr Respublikasının qanunvericiliyi parlament seçkiləri zamanı burada yaşayan və milliyyətçə türk və yunan olan vətəndaşlarına yalnız öz etnik icmalarını təmsil edən namizədlərə səs verməyə icazə verirdi. Lakin Şimali Kipr öz müstəqilliyini elan etdikdən sonra, türk icmasının böyük əksəriyyəti hazırkı Kipr Respublikasının ərazisini tərk etmişdi və türklərin Kipr Respublikasının parlamentindəki iştirakı dayandırılmışdı. Bununla əlaqədar olaraq, iddiaçının səs verə biləcəyi namizədlərdən ibarət siyahı artıq mövcud deyildi. Hökumət bildirirdi ki, səs vermək imkanının olmaması iddiaçının seçimi üçün namizədlərin mövcud olmaması faktı ilə əlaqədardır. Lakin AİHM hesab edirdi ki, Kipr Respublikasının seçki normaları ilə türk icmasına üzvlük məsələləri arasında sıx əlaqələrin mövcudluğu, həmçinin hökumətin yaranmış vəziyyətdə seçki qanunvericiliyini tənzimləmək iqtidarında olmaması bu işin etnik mənşə zəminində birbaşa ayrı-seçkilikdən irəli gəldiyini göstərir.

Misal: Avstriya məhkəməsi tərəfindən göndərilmiş bu iş[29] Aİ Şurasının "Əmək, peşə təlimi və karyera irəliləyişi hüququndan istifadə ilə bağlı qadınlarla kişilər arasında bərabər rəftar prinsipinin icra olunmasına dair" 76/207/EEC saylı Direktivinin (2002/73/EC saylı Direktivlə

[26] *Ceymsin İstli şəhər bələdiyyəsinə qarşı* Böyük Britaniyanın Lordlar Palatasında müzakirəyə çıxarılmış işi 6, 14 iyun 1990-cı il.

[27] *Marukonun „Versorgungsanstalt der deutschen Bühnen" şirkətinə qarşı* AƏM-dəki C-267/06 [2008] ECR I-1757 saylı, 1 aprel 2008-ci il tarixli işi.

[28] *Əzizin Kipr Respublikasına qarşı* AİHM-dəki 69949/01 saylı, 22 iyun 2004-cü il tarixli işi.

[29] *Pensionsversicherungsanstalt-ın Kristin Klaysta qarşı* AƏM-dəki C-356/09 saylı, 18 noyabr 2010-cu il tarixli işi.

düzəlişlər edilmiş) 3(1)I maddəsinin təfsir edilməsilə əlaqədar idi. Maddə 3(1)I məşğulluq, iş şərtləri, o cümlədən işdən azad olunma və ödənişlərlə əlaqədar dövlət sektorunda və özəl sektorda cinsi zəmində hər hansı birbaşa və ya dolayı ayrı-seçkiliyi qadağan edir. Bu işlə bağlı müraciət etmiş məhkəmə, dövlət sektorundakı işəgötürənlərə yaşa görə pensiya alan şəxsləri, qadınların və kişilərin bu cür pensiya almaq hüququnu müxtəlif yaşlarda əldə etdiklərini nəzərə alaraq, işdən azad etmək hüququ verən milli hüquq normalarının tətbiqinin qarşısının maddə 3(1)I-lə alınıb-alınmadığını soruşurdu. Avstriya qanunvericiliyi qadınların 60, kişilərin isə 65 yaşa çatdıqda yaşa görə pensiya ilə təmin olunmalarını nəzərdə tutur. AƏM qadın işçinin, sadəcə olaraq, pensiya yaşına çatdığına görə, əgər bu yaş kişilərin pensiya yaşından fərqlidirsə, işdən azad edilməsinin cinsi zəmində ayrı-seçkilik hesab olunduğunu nümayiş etdirmək üçün Marşalın C-152/84 saylı işinə istinad etmişdir. Konkret olaraq bu halda işdən azad olunmadan müdafiənin yaş həddi bilavasitə işçinin cinsi mənsubiyyətilə əlaqədar idi. Belə olduqda məhkəmə birbaşa cinsi zəmində ayrı-seçkiliyin baş verdiyini müəyyən etmişdir. Cinsi zəmində birbaşa ayrı-seçkilik, müqayisə olunan vəziyyətə düşmüş şəxslə necə rəftar edildiyini və ya rəftar ediləcəyini əsas götürdükdə, başqa bir şəxslə qeyri-münasib şəkildə rəftar olunarkən baş verir. 60-65 yaşlı qadınların eyni yaş hədlərində olan kişilərlə müqayisə edilən vəziyyətdə olduqlarını müəyyənləşdirmək məqsədilə AƏM fərqli rəftarı müəyyən edən milli hüquq normalarının predmetini nəzərdən keçirmişdir. Müəyyən edilmişdir ki, milli hüquq normaları şəxslərin işdən azad edilmə imkanlarının olub-olmaması ilə bağlı vəziyyətlərin tənzimlənməsini nəzərdə tutur. Nəticədə, AƏM yuxarıda qeyd olunmuş yaş hədlərində olan kişilərin və qadınların müqayisə edilən vəziyyətdə olması ilə razılaşmışdır, çünki onların əmək fəaliyyəti eyni şəraitdə başa çatmışdır. Bütün bunlarla əlaqədar olaraq, AƏM milli hüquq normalarının da cinsi zəmində birbaşa ayrı-seçkiliyə şərait yaratması qənaətinə gəlmişdir.

Adətən məhkəmələr qanunla müdafiə olunan əsaslara istinad etmək məqsədilə geniş şərhlərə yol verir. Əgər zərərçəkmiş şəxs birbaşa qanunla müdafiə olunan əsaslara görə ayrı-seçkiliyə məruz qalmırsa, burada "assosiativ" ayrı-seçkiliyi misal göstərmək olar. Eyni zamanda, ayrı-seçkiliyin yaranmasına gətirib çıxarmış hər hansı bir konkret əsas da abstrakt şəkildə şərh oluna bilər. Bununla əlaqədar olaraq, mütəxəssislər qeyri-münasib rəftarın arxasında duran səbəblərin təfərrüatlı şəkildə təhlil olunmasına, bu cür rəftarın təməlini təşkil edən müdafiə olunan əsaslara aid istər birbaşa, istərsə də dolayı ayrı-seçkiliklə bağlı faktların əldə olunmasına mütləq diqqət yetirməlidirlər.

Misal: Kolmanın işinə əsasən, ana oğlunun əlil olması səbəbindən işdə qeyri-münasib rəftara məruz qaldığını iddia edirdi.[30] Oğlunun əlilliyi, ananı bəzən işə yubanmağa və oğlunun xəstəliyi ilə əlaqədar olaraq nəzərdə tutulmuş ezamiyyət günləri xahiş etməyə məcbur edirdi. İşdə iddiaçının xahişinə rədd cavabı verilmişdir, o, işdən qovulma ilə hədələnmişdir və oğlunun səhhətilə bağlı təhqiredici sözlər eşitməli olmuşdur. AƏM iddiaçının oxşar vəziyyətdə olan və uşaqlı həmkarlarını müqayisə vasitəsi kimi qəbul edərək müəyyən etmişdir ki, həmin həmkarların xahişilə onlara müəyyən sərbəstlik verilirdi. Bununla bağlı məhkəmə uşağın əlilliyi səbəbindən iddiaçının ayrı-seçkiliyə və sıxışdırmalara məruz qalması faktını qəbul etmişdir.

Misal: Vellerin işinə əsasən, bir rumın qadın macar kişi ilə ailə qurmuşdu və onların 4 uşağı vardı[31]. Qadın Macarıstan vətəndaşı olmadığından, dünyaya uşaq gətirdikdən sonra analıq müavinəti almaq üçün müraciət etmək hüququna malik deyildi. Onun həyat yoldaşı da müavinət üçün müraciət etməyə cəhd göstərmişdi, lakin hökumət tərəfindən rədd cavabı almışdı, çünki həmin maddi yardım yalnız analara verilirdi. AİHM, kişinin (hətta cinsi mənsubiyyəti səbəbindən deyil) ata olması səbəbindən ayrı-seçkiliyə məruz qaldığını müəyyən etmişdir, çünki hətta övladlığa uşaq götürən atalar və ya kişi qəyyumlar maddi yardım üçün

[30] *Kolmanın Attridc Lo və Stiv Loya qarşı* AƏM-dəki C-303/06 [2008] I-5603 saylı, 17 iyul 2008-ci il tarixli işi.
[31] *Vellerin Macarıstan Respublikasına qarşı* AİHM-dəki 44399/05 saylı, 31 mart 2009-cu il tarixli işi.

müraciət etmək hüququna malik olduğu bir halda, nikahdan kənar atalar bu hüquqa malik deyillər. Öz növbəsində uşaqlar atalarına maddi yardımın ödənilməsi üçün rədd cavabının verilməsi səbəbindən ayrı-seçkiliyə məruz qaldıqlarını iddia edirdilər. AİHM uşaqlar tərəfindən təqdim olunmuş iddia ərizəsini də təmin etmişdir. Deməli, uşaqlar atalarının nikahdan kənar valideyn olması səbəbindən ayrı-seçkiliyə məruz qalmışdılar.

Misal: P. və S.-in Kornuol qraflığının rəhbərliyinə qarşı işinə əsasən iddiaçı cinsini qadın cinsinə dəyişmə prosesində olarkən işəgötürən tərəfindən işdən çıxarılmışdır. AƏM müəyyən etmişdir ki, iddiaçının işdən azad edilməsi qeyri-münasib rəftarın əsasını təşkil edir.[32] Müvafiq müqayisə vasitəsinə gəldikdə isə AƏM bəyan etmişdir ki, "*şəxs cinsini dəyişmə əməliyyatında iştrak etməsinə və ya iştirak etmək niyyətinə görə işdən azad edildikdə, bu həmin şəxsin belə bir əməliyyatdan əvvəl həmcins şəxslərlə müqayisədə qeyri-münasib rəftara məruz qalması kimi qiymətləndirilir.*" Əsaslara gəldikdə isə iddiaçının kişi və ya qadın olması səbəbindən fərqli rəftara məruz qalması göstərilməsə də, onun cins dəyişmə məsələlərinə görə fərqli rəftara məruz qalması əsas gətirilmişdir.

2.3. Dolayı ayrı-seçkilik

İstər AİHK, istərsə də Aİ qanunvericiliyi ayrı-seçkiliyin oxşar vəziyyətdə olan şəxslərlə fərqli şəkildə rəftaretmə ilə yanaşı, fərqli vəziyyətdə olan şəxslərlə eyni tərzdə rəftaretmə nəticəsində baş verdiyini təsdiq edir. Fərqli vəziyyətdə olan şəxslərlə eyni tərzdə rəftaretmə dolayı ayrı-seçkilik kimi qələmə verilir, çünki bu fərqli rəftar deyil, sadəcə olaraq göstərilən rəftarın fərqli əlamətlərə malik şəxslər tərəfindən necə hiss olunmasının təzahürüdür. "İrqi bərabərliyə dair" Direktivin 2(2)(b) maddəsinə əsasən *"dolayı ayrı-seçkilik o zaman baş verir ki, neytral hüquqi norma, meyar və ya mövcud təcrübə müəyyən irqə və ya etnik mənşəyə mənsub olan şəxsi başqa şəxslərlə müqayisədə səciyyəvi və qeyri-münasib bir vəziyyətdə qoyur."*[33] AİHM dolayı ayrı-seçkiliyin anlayışını rəhbər tutaraq son zamanlar qəbul etdiyi bəzi qərarlarında bəyan etmişdir ki, *"rəftaretmədə fərqlər neytral hüquqi norma şəklində ifadə olunmasına baxmayaraq, müəyyən qrupları ayrı-seçkiliyə məruz qoyan ümumi siyasətin və ya hansısa tədbirin qeyri-mütənasib, qərəzli təzahürü formasında da mövcud ola bilər."*[34]

Dolayı ayrı-seçkiliyin elementləri olan
- neytral hüquqi norma, meyar və ya mövcud təcrübə
- müdafiə olunan əsaslara malik olan qrupa oxşar vəziyyətə düşmüş başqa şəxslərlə müqayisədə
- mahiyyətcə daha mənfi təsir göstərə bilər.

2.3.1. Neytral hüquqi norma, meyar və ya mövcud təcrübə

Dolayı ayrı-seçkiliyin baş verməsinə səbəb olan və nəzərə çarpan ilk elementlər böyük ehtimalla neytral hüquqi normaların, meyarların və ya mövcud təcrübənin tətbiq olunmasından ibarətdir. Başqa sözlə, ilk növbədə hamıya şamil olunan müəyyən formada bir tələb mövcud olmalıdır. Aşağıda bununla bağlı 2 misal təsvir olunur. Digər misallar dəlillərə əsaslanan məsələlərə və statistikanın roluna aid 5-ci fəsildə verilir.

[32] *P. və S.-in Kornuol qraflığının rəhbərliyinə qarşı* AƏM-dəki C-13/94 [1996] ECR I-2143 saylı, 30 aprel 1996-cı il tarixli işi.
[33] Eyni zamanda, "Məşğulluq sahəsində bərabərliyə dair" Direktivin 2(2)(b), "Gender bərabərliyinə dair (yenidən baxılmış)" Direktivin 2(1)(b), "Mallar və xidmətlər sahəsində gender bərabərliyinə dair" Direktivin 2(b) maddələri.
[34] *Hilde Şünheytin Frankfurt am Main şəhərinə* və *Silvia Bekerin Hessen Torpağına qarşı* C-4/02 və C-5/02 [2003] ECR I-12575 saylı, 23 oktyabr 2003-cü il tarixli, AƏM-də birgə baxılmış işləri.

Misal: Şönhaytın işinə əsasən, yarımştat işçilərin pensiyası tam ştatda olmuş işçilərin pensiyası ilə müqayisədə fərqli şkaladan istifadə etməklə hesablanmışdır.[35] Fərqli şkalaların tətbiqi işə sərf olunmuş vaxt ilə əlaqədar deyildi. Beləliklə, faktiki işdə olma müddətini nəzərə aldıqda belə, yarımştat işçilər tam ştatda olmuş işçilərlə müqayisədə nisbətən az pensiya alırdılar. Pensiyaların hesablanması sahəsində bu neytral hüquqi norma bütün yarımştat işçilərə bərabər səviyyədə şamil olunurdu. Lakin yarımştat işçilərin təxminən 88%-ni qadınlar təşkil etdiyindən bu hüquqi norma kişilərlə müqayisədə qadınlara mənfi təsir göstərirdi.

Misal: D.H. və başqalarının Çexiya Respublikasına qarşı işinə əsasən şagirdlərin adi orta məktəblərdən çıxarılaraq xüsusi məktəblərə göndərilib-göndərilməməsi məsələsini dəqiqləşdirmək üçün onların intellektual səviyyələrini və uyğunluğunu müəyyən etmək məqsədilə bir sıra testlərdən istifadə olunmuşdur.[36] Həmin xüsusi məktəblər əqli inkişafda geriləmələri və tədris materiallarını qavramaq sahəsində çətinlikləri olan şagirdlər üçün nəzərdə tutulub. Bütün şagirdlər xüsusi məktəblərə göndərilməsi üçün nəzərdə tutulmuş eyni testdən keçmişdilər. Lakin təcrübədə bu test elə nəzərdə tutulmuşdur ki, Çexiyanın bütün şagirdlərilə müqayisədə roman mənşəli şagirdlər onu böyük ehtimalla nisbətən aşağı səviyyədə verəcəkdi və bu belə də oldu: nəticədə roman mənşəli şagirdlərin 50-90%-i ümumi təhsil sistemindən kənarda təhsil almalı oldu. AİHM bu işin dolayı ayrı-seçkiliyə aid olduğunu müəyyən etmişdir.

2.3.2. Müdafiə olunan qrupa mahiyyətcə daha mənfi təsirin göstərilməsi

Dolayı ayrı-seçkiliyin ikinci nəzərə çarpan elementi böyük ehtimalla neytral hüquqi normaların, meyarların və ya təcrübənin tətbiqi nəticəsində "müdafiə olunan" qrupların səciyyəvi və qeyri-münasib rəftara məruz qalmasından ibarət idi. Birbaşa ayrı-seçkiliyi dolayı ayrı-seçkilikdən fərqləndirən digər bir amil ondan ibarətdir ki, birbaşa ayrı-seçkiliyin əsasını fərqli rəftar təşkil edirsə, dolayı ayrı-seçkiliyin əsasını fərqli nəticələr təşkil edir.

Oxşar vəziyyətdə olan digər şəxslərlə müqayisədə daha çox müdafiə olunan qrupların qeyri-münasib, fərqli rəftara məruz qalması barədə statistik faktları nəzərdən keçirən AƏM və AİHM, mənfi rəftara məruz qalanların böyük əksəriyyətinin məhz müdafiə olunan qrupdan ibarət olunması barədə kifayət qədər dəlil əldə etməyə çalışır. Bu işin təfərrüatları dəlillərə əsaslanan məsələlərə aid 5-ci fəsildə nəzərdən keçirilir. Bu yarımbölmədə isə *Noltenin* işində cinsi zəmində ayrı-seçkilik məsələsi müzakirə olunarkən baş vəkil Lüqerin rəyilə əlaqədar AƏM nümayəndəsinin çıxışı zamanı istifadə edilmiş ifadələr toplusuna istinad olunur:

"Ayrı-seçkiliyin sübuta yetirildiyini ehtimal etmək üçün müvafiq tədbir "kişilərlə müqayisədə daha çox sayda qadına" [Rinner-Kühnün işi][37] və ya "qadınlarla müqayisədə çox az faiz kişilərə"

[35] *D.H.-in və başqalarının Çexiya Respublikasına qarşı* AİHM-dəki [GC] 57325/00 saylı, 13 noyabr 2007-ci il tarixli işin 184-cü, *Opuzun Türkiyə Respublikasına qarşı* AİHM-dəki 33401/02 saylı, 9 iyun 2009-cu il tarixli işin 183-cü, *Zərb Adaminin Malta Respublikasına qarşı* AİHM-dəki 17209/02 saylı, 20 iyun 2006-cı il tarixli işin 80-cı paraqrafları.

[36] *D.H.-in və başqalarının Çexiya Respublikasına qarşı* AİHM-dəki [GC] 57325/00 saylı, 13 noyabr 2007-ci il tarixli işinin 79-cu paraqrafı.

[37] *Rinner-Kühnün „FWW Spezial-Gebðudereinigung"-ə qarşı* AƏM-dəki C-171/88 [1989] ECR 2743 saylı, 13 iyul 1989-cü il tarixli işi.

[Nimtsin,[38] Kovalskanın işləri] [39], yaxud "kişilərlə müqayisədə daha çox qadınlara" [*De Veerd, qızlıq soyadı Roks, və başqaları*] *[40] mənfi təsir göstərməlidir."[41]*

2.3.3. Müqayisə vasitəsi

Birbaşa ayrı-seçkilikdə olduğu kimi neytral hüquqi normanın, meyarın və ya mövcud təcrübənin oxşar vəziyyətdə olan digər şəxslərlə müqayisədə hansısa şəxslərə daha mənfi təsir göstərdiyini müəyyən etmək məqsədilə məhkəmə yenə də müqayisə vasitəsini əldə etməlidir. Məhkəmələrin bu istiqamətdəki yanaşması birbaşa ayrı-seçkiliklə bağlı nümayiş etdirdiyi yanaşmadan fərqlənmir.

2.4. Qısnama və ayrı-seçkiliyə məruz qoyma göstərişləri

2.4.1. Qısnama və ayrı-seçkiliyə məruz qoyma göstərişlərinə aid məsələlər ayrı-seçkiliyin qadağan olunmasına dair Avropa İttifaqı Direktivlərində

Ayrı-seçkiliyin qadağan olunması sahəsində Aİ qanunvericiliyinin bir hissəsi olan qısanamnın və ayrı-seçkiliyə məruz qoyma barədə göstərişlərin yolverilməzliyi məsələləri nisbətən yeni bir sahədir və bu məsələlərdən daha da müfəssəl müdafiənin təmin olunması üçün istifadə olunur.

Əgər müdafiə olunan əsaslara qarşı həyata keçirilən arzuolunmaz davranış şəxsin ləyaqətini alçaltmaq və/və ya qorxuducu, düşmən, təhqiredici, alçaldıcı və ya aqressiv mühitin yaradılması məqsədi daşıyır və ya bütün bunlarla nəticələnirsə, o zaman ayrı-seçkiliyi qadağan edən direktivlərə əsasən qısnama ayrı-seçkiliyin bir forması kimi qəbul olunur.[42]

Qısnama ayrı-seçkiliyin qadağan olunmasına dair Aİ Direktivlərində ayrı-seçkiliyin bir səciyyəvi forması kimi qələmə verilir. İlk olaraq qısnama birbaşa ayrı-seçkiliyin konkret bir təzahürü kimi qəbul olunurdu. Bu məsələnin ayrıca bir forma səviyyəsinə qaldırılması konseptual düşüncələrdə baş vermiş dəyişikliklərdən deyil, daha çox diskriminativ rəftarın bu cür konkret və təhlükəli formasının tanınması zərurətindən irəli gəlir.

Eyni zamanda, "Gender bərabərliyinə dair" Direktiv də cinsi zəmində qısanamanı ayrı-seçkiliyin səciyyəvi bir forması kimi təsbit edir (əgər arzuolunmaz *"şifahi və yazılı təhqir və ya fiziki"* davranış *"seksual"* xarakter daşıyırsa).[43]

Bu anlayışa əsasən, qısnama faktını sübuta yetirmək üçün müqayisə vasitəsinə heç bir ehtiyac yoxdur. Əslində bu anlayış qısnamanın qəbul etdiyi formalara görə (şifahi və yazılı təhqir və ya fiziki davranış) ümumiyyətlə pis əməl olması faktını və əldə oluna biləcək potensial nəticəsini (insan ləyaqətinin alçaldılması) özündə əks etdirir.

---

[38] *Nimtsin „Freie und Hansestadt Hamburg"-a qarşı* AƏM-dəki C-184/89 [1991] ECR I-297 saylı, 7 fevral 1991-ci il tarixli işi.

[39] *Kovalskanın "Freie und Hansestadt Hamburg"-a* qarşı AƏM-dəki C-33/89 [1990] ECR I-2591 saylı, 27 iyun 1990-cı il tarixli işi.

[40] *De Veerdin (qızlıq soyadı Roks) və başqalarının "Bestuur van de Bedrijfsvereniging voor de Gezondheid, Geestelijke en Maatschappelijke Belangen"-ə və başqalarına qarşı* AƏM-dəki, C-343/92 [1994] ECR I-571 saylı, 24 fevral 1994-cü il tarixli işi.

[41] *Baş vəkil Lüqerin rəyilə bağlı* AƏM-dəki 31 may 1995-ci il tarixli işin 57-58 paraqrafları - *Noltenin "Landesversicherungsanstalt Hannover"-ə qarşı* C-317/93 [1995] ECR I-4625 saylı, 14 dekabr 1995-ci il tarixli işi. Oxşar yanaşma *D.H.-in və başqalarının Çexiya Respublikasına qarşı* AİHK-da baxılmış [GC] 57325/00 saylı, 13 noyabr 2007-ci il tarixli işində (Fəsil 5.2.1-də müzakirə olunur) də nümayiş etdirilmişdir.

[42] "İrqi bərabərliyə dair" Direktivin 2(3)-cü, "Məşğulluq sahəsində bərabərliyə dair" Direktivin 2(3)-cü, "Mallar və xidmətlər sahəsində gender bərabərliyinə dair" Direktivin 2(c), "Gender bərabərliyinə dair" (yenidən baxılmış) Direktivin 2(1)(c) maddələrinə baxın.

[43] "Mallar və xidmətlər sahəsində gender bərabərliyinə dair" Direktivin 2(d) və "Gender bərabərliyinə dair" (yenidən baxılmış) Direktivin 2(1)(d) maddələri.

Aİ səviyyəsində qısnama əleyhinə təlimatların əksəriyyəti "Avropa Komissiyasının qadın və kişilərin ləyaqətinin iş yerlərində müdafiəsinə dair Tövsiyələrinin, həmçinin cinsi zəmində qısnamaya qarşı mübarizəyə dair prosessual məcəlləsinin icra olunması haqqında" Aİ Şurasının 19 dekabr 1991-ci il tarixli Bəyannaməsindən irəli gəlir.[44] Aİ-nin bu sahədəki qanunvericiliyi çox çevik, obyektiv və subyektiv yanaşmanı nəzərdə tutur. İlk növbədə göstərilmiş rəftar nəticəsində qısnama faktının baş verib-verməməsi, məhz zərərçəkmiş şəxsin qavrayışı əsasında müəyyən edilir. Əgər zərərçəkmiş şəxs qısnamanın təzahürlərini öz üzərində faktiki olaraq hiss etməmişdirsə, o, bir iddiaçı qismində bu cür davranışın hədəfi kimi qalanadək zəruri araşdırmaların aparılması davam etdiriləcək.

Baş vermiş davranışın qısnama faktı kimi qiymətləndirilib-qiymətləndirilməməsinə aid məsələlər adətən milli səviyyədə, müvafiq işlər AƏM-ə göndərilməzdən əvvəl dəqiqləşdirilir. Aşağıda təsvir olunmuş işlər vaxtı ilə milli yurisprudensiyada olan işlərdir.

Misal: İsveçin Apellyasiya Məhəkəməsinə göndərilmiş işə əsasən, iddiaçı balaca bir ev iti almaq istəyirdi. Lakin satıcı alıcının homoseksual olduğunu biləndə, iti satmaqdan imtina etmişdir və homoseksualların heyvanlarla cinsi əlaqəyə girdiyini əsas gətirərək, bunu itin xeyrinə etdiyini bildirmişdir. İti satmaqdan imtina, İsveç Apellyasiya Məhəkəməsi tərəfindən mallar və xidmətlər sahəsində birbaşa ayrı-seçkilik kimi qiymətləndirilərək cinsi oriyentasiya zəminində qısnama faktı kimi müəyyən edilmişdir.[45]

Misal: Macarıstanın Bərabər Rəftar Məsələləri üzrə İdarəsinə təqdim olunmuş şikayət ərizəsi müəllimlər barəsində idi. Həmin müəllimlər roman mənşəli şagirdlərə bildirmişdir ki, onların məktəbdəki nalayiq davranışı barədə romanlara qarşı zorakılıq aktları törətməklə tanınmış və milliyyətçi təşkilat olan "Macar Qvardiyasına" artıq məlumat verilib.[46] Müəyyən olunmuşdur ki, müəllimlər öz bəyanatları ilə sözügedən qvardiyanın irqçi baxışlarını dəstəkləyirlər və bununla da qısnama kimi qiymətləndirilən təhlükə və qorxu mühiti yaradırlar.

Bundan başqa, ayrı-seçkiliyin qadağan olunmasına dair direktivlərin hamısı bəyan edir ki, "ayrı-seçkiliyə məruz qoyma göstərişi" də ayrı-seçkiliyin bir forması hesab edilməlidir.[47] Lakin direktivlərdən heç biri bu termin əsasında nəyin nəzərdə tutulduğunu özündə əks etdirmir. Hesab edirik ki, ayrı-seçkiliyə qarşı mübarizə sahəsində müəyyən müsbət nəticə əldə etmək məqsədilə bu termin yalnız icbari xarakter daşıyan göstərişlərlə kifayətlənməyərək, müdafiə olunan əsasları nəzərə almaqla şəxslərlə qeyri-münasib şəkildə rəftara birmənalı şəkildə üstünlük verən və ya şərait yaradan halları da əhatə etməlidir. Bu cür əhatə dairəsi məhkəmələrin yurisprudensiyası çərçivəsində daha da genişləndirilə bilər.

Ayrı-seçkiliyin qadağan olunmasına dair direktivlər ayrı-seçkilik əməllərinə qarşı mübarizə sahəsində cinayət hüququndan istifadə etmək öhdəliyini üzv dövlətlərin üzərinə qoymasalar da, Aİ Şurasının Çərçivə Qərarı müvafiq qruplara qarşı yönəldilmiş irqi mənsubiyyət, dini baxışlar,

[44] "Avropa Komissiyasının qadın və kişilərin ləyaqətinin iş yerlərində müdafiəsinə dair Tövsiyələrinin, həmçinin cinsi zəminində qısnamaya qarşı mübarizəyə dair prosessual məcəlləsinin icra olunması haqqında" Aİ Şurasının 19 dekabr 1991-ci il tarixli Bəyannaməsi", OJ C 27, 04.02.1992, səh. 1; "Avropa Komissiyasının qadın və kişilərin ləyaqətinin iş yerlərində müdafiəsinə dair 92/131/EEC saylı Tövsiyələri", OJ L 49, 24.02.1992, səh. 1.

[45] *Seksual oriyentasiya zəminində ayrı-seçkiliyə qarşı Ombudsmanın A.S.-ə qarşı* İsveç Appelyasiya Məhkəməsindəki T-3562-06 saylı, 11 fevral 2008-ci il tarixli işi. Bu işin ingilis dilindəki xülasəsilə Ayrı-seçkiliyə qarşı hüquqi ekspertlərin Avropa Şəbəkəsində tanış olmaq olar: "Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinin icmalı", 8 iyul 2009-cu il, səh. 69.

[46] Macarıstan Respublikası Bərabər Rəftar Məsələləri üzrə İdarəsinin 654/2009 saylı, 20 dekabr 2009-cu il tarixli qərarı. Bu işin ingilis dilindəki xülasəsilə Ayrı-seçkiliyə qarşı hüquqi ekspertlərin Avropa Şəbəkəsində tanış olmaq olar: "Yeni Hesabat": www.non-discrimination.net/content/media/HU-14-HU_harassment_of_Roma_pupils_by_teachers.pdf.

[47] "Məşğulluq sahəsində bərabərliyə dair" Direktivin 2(4)-cü, "Mallar və xidmətlər sahəsində gender bərabərliyinə dair" Direktivin 4(1)-ci, "Gender bərabərliyinə dair" Direktivin 2(2)(b), "İrqi bərabərliyə dair" Direktivin 2(4)-cü maddələri.

milli mənsubiyyət və ya etnik mənşə zəminində zorakılığın və ya nifrətin təhrikçiliyilə əlaqədar, həmçinin irqçi və ya ksenofobik materialların və çağırışların yayılmasına, genosidin tanınmaması və ya inkar edilməsinə, hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə görə cinayət sanksiyalarının təmin edilməsi öhdəliyini Aİ-yə üzv olan dövlətlərin üzərinə qoyur.[48] Eyni zamanda, üzv dövlətlər irqçi və ya ksenofobik niyyətləri ağırlaşdırıcı hal kimi nəzərə almağa borcludurlar.

Böyük əminliklə qeyd etməliyik ki, qısnama və ayrı-seçkiliyə məruz qoyma göstərişləri ayrı-seçkiliyin bir forması kimi nəzərə alınmaqla yanaşı, xüsusilə irqi mənsubiyyət və ya etnik mənşə zəminində baş verdikdə cinayət hüququ ilə cəzalandırılmalı əməl kimi qiymətləndirilir.

Misal: Bolqarıstan məhəkəmsinə təqdim olunmuş işə əsasən, parlament üzvü bir neçə bəyanat verməklə ölkədəki roman, yəhudi və türk icmalarını və ümumiyyətlə bütün əcnəbiləri şifahi şəkildə təhqir etmişdir. O, bəyan etmişdir ki, bu icmalar bolqarları öz ölkələrini idarə etməkdən çəkindirir, cəzasız qalan cinayətlər törədir və bolqarları münasib tibbi xidmətlərdən istifadə etmək hüququndan məhrum edir. Eyni zamanda, o təkidlə tələb etmişdir ki, insanlar ölkənin bu cür müxtəlif qrupların "müstəmləkəsinə" çevrilməsinin qarşısını alsınlar.[49] Sofiya şəhərinin Regional Məhkəməsi bu bəyanatı qısnama və ayrı-seçkiliyə məruz qoyma göstərişi kimi qiymətləndirmişdir.

2.4.2. Qısnama məsələləri və ayrı-seçkiliyə məruz qoyma göstərişlərini vermə məsələləri Avropa İnsan Hüquqları Konvensiyasında

AİHK qısnama və ya ayrı-seçkiliyə məruz qoyma göstərişlərini vermə əməllərini birbaşa cəzalandırmasa da bu sahəyə aid konkret hüquqları özündə əks etdirir. Beləlikə, qısnama əməlləri AİHK-nın şəxsi həyata və ailə həyatına hörmət hüququnu nəzərdə tutan 8-ci maddəsilə və ya işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmama hüququnu nəzərdə tutan 3-cü maddəsilə qadağan olunur; ayrı-seçkiliyə məruz qoyma göstərişlərini vermə əməlləri isə AİHK-nın başqa maddələrilə, məsələn, kontekstdən asılı olaraq din və ya yığıncaqlar azadlığını nəzərdə tutan 9-cu və ya 11-ci maddələrilə qadağan olunur. Bu səpkidən olan əməllər həqiqətən də diskriminativ xarakter daşıdıqda AİHM müvafiq maddələrin ayrı-seçkiliyi qadağan edən 14-cü maddəsilə birgə pozulması hallarını nəzərdən keçirir. Aşağıda verilmiş misallar, müzakirə etdiyimiz AİHK konteksində nəzərdən keçirilmiş halları özündə əks etdirən işlərdən götürülmüşdür.

Misal: Baçkovski və başqalarının Polşa Respublikasına qarşı işinə əsasən Varşava şəhərinin meri homofob xarakterli bəyanat verərək bildirmişdir ki, cinsi oriyentasiya zəminində ayrı-seçkiliyin qadağan olunduğunu təbliq etmək məqsədilə nəzərdə tutulmuş yürüşün keçirilməsinə icazə verməyəcək.[50] Yürüş haqqında qərar müvafiq inzibati orqana təqdim olunduqda həmin orqan yürüş iştirakçıları arasında toqquşmaların qarşısını almaq niyyəti kimi əsaslar gətirərək bu tədbirə icazə verməmişdir. AİHM müəyyən etmişdir ki, merin bəyanatı müvafiq orqan tərəfindən qərarın çıxarılmasına təsir göstərmişdir və cinsi oriyentasiya məsələsinə aid bu qərar ayrı-seçkiliyə məruz qalmamaq hüququ ilə yanaşı, yığıncaqlar azadlığının da pozulmasına xidmət edirdi.

Misal: Paraskeva Todorovanın Bolqarıstan Respublikasına qarşı işinə əsasən, yerli məhkəmə roman əsilli şəxs barədə hökm çıxararaq ittihamçının şərti cəza vermə barədə

[48] Aİ Şurasının "Cinayət hüququ vasitəsilə irqçiliyin və ksenofobiyanın müəyyən formalarına və təzahürlərinə qarşı mübarizəyə dair" 2008/913/JHA saylı, 28 noyabr 2008-ci il tarixli Çərçivə Qərarı. OJ L 328, 06.12.2008, səh. 55.
[49] Sofiya şəhəri Regional Məhəkəməsinin 2860/2006 saylı, 21 iyun 2006-cı il tarixli mülki iş üzrə 164 saylı qərarı. İşin ingilis dilindəki xülasəsilə FRA-nın informasiya portalında tanış olmaq olar: İş 11-1.
[50] *Baçkovskinin və başqalarının Polşa Respublikasına qarşı* AİHM-dəki 1543/06 saylı, 3 may 2007-ci il tarixli işi.

tövsiyəsini birmənalı şəkildə rədd edərək bildirmişdir ki, cəzasızlıq ab-havası romanlar arasında geniş şəkildə yayıldığından, müttəhimin cəzalandırılması başqaları üçün ibrət dərsi olacaq.[51] AİHM müəyyən etmişdir ki, çıxarılmış hökm iddiaçının ayrı-seçkiliyə məruz qalmamaq hüququ ilə yanaşı, ədalətli məhkəmə araşdırması hüququnu da pozur.

2.5. Xüsusi və ya spesifik tədbirlər

Artıq yuxarıda qeyd olunduğu kimi, dolayı ayrı-seçkiliklə bağlı işlərdə ayrı-seçkilik hallarının baş vermə səbəbi, eyni normaların müvafiq fərqlər nəzərə alınmadan hamıya şamil olunması faktı ilə əlaqədardır. Belə bir vəziyyətin qarşısını almaq və bu cür vəziyyətdən çıxış yollarını tapmaq məqsədilə dövlətlər, işəgötürənlər və xidmət göstərənlər sözügedən fərqləri nəzərə almaqla hüquqi normaların və mövcud təcrübələrinin tənzimlənməsi istiqamətində müvafiq addımların atılmasını təmin etməlidirlər – başqa sözlə onlar öz mövcud siyasətlərini və fəaliyyətlərini tənzimləmək üçün mütləq müəyyən tədbirlər görməlidirlər. Bu istiqamətdə görüləcək işlər BMT kontekstində "xüsusi tədbirlər" adlanır, Aİ qanunvericiliyi konteksində isə buna "spesifik tədbirlər" və ya "müsbət işlər" deyirlər. Dövlətlər xüsusi tədbirlər həyata keçirməklə sadacə olaraq "formal bərabərliyə" deyil, "həqiqi bərabərliyə" nail olmalıdır, başqa sözlə, cəmiyyətdə mövcud olan imtiyazlardan istifadə etmək üçün təklif olunan imkanlardan bərabər səviyyəli istifadəni təmin etməyi bacarmalıdır. Dövlətlər, işəgötürənlər və xidmət göstərənlər xüsusi tədbirlərin görülməsini məqsədəuyğun hesab etməyənədək onlar tərəfindən tətbiq olunan hüquqi normaların və təcrübənin dolayısı ayrı-seçkiliyə zəmin yaratması risklərini artıracaqlar.

Baxılmış işlərdən birilə bağlı AİHM bəyan etmişdir ki, *dövlətlər əsaslı şəkildə fərqli vəziyyətdə olan şəxslərlə fərqli tərzdə rəftaretməyəcəyi təqdirdə AİHK-lə və digər müvafiq qanunvericilik aktları ilə nəzərdə tutulmuş hüquqlardan istifadə kontekstində ayrı-seçkiliyə məruz qalmamaq hüququ daim pozulacaq.*[52] Eyni zamanda, ayrı-seçkiliyin qadağan olunması sahəsində Aİ Direktivləri də müsbət tədbirlərin həyata keçirilməsi imkanlarını birmənalı şəkildə nəzərə alaraq bəyan edirlər ki, *təcrübədə tam bərabərliyə nail olmaq üçün tam bərabərlik prinsipi heç bir üzv dövləti müdafiə olunan əsaslarla əlaqədar qeyri-münasib rəftarın qarşısını almaq və ya bu cür vəziyyəti tənzimləmək məqsədilə spesifik tədbirlərin təmin və ya qəbul edilməsindən çəkindirmir.*[53]

"Məşğulluq sahəsində bərabərliyə dair" Direktivin 5-ci maddəsi əlillərlə bağlı spesifik tədbirlərə aid ümumi qaydaların konkret müddəalarını özündə əks etdirir və fiziki və ya əqli cəhətdən qüsuru olan insanlara bərabər məşğulluq imkanlarının yaradılmasını təmin etmək məqsədilə işəgötürənlər tərəfindən *"münasib yerlərin"* təşkil edilməsini nəzərdə tutur. Bu iş *"konkret bir vəziyyətdə və tələb olunduğu təqdirdə əlilliyi olan şəxsin işləməsinə, iş prosesində iştirak etməsinə və ya iş yerlərində hərəkət etməsinə və yaxud təlimlərdə iştirak etməsinə şərait yaratmaq məqsədilə müvafiq tədbirlərin (əgər bu tədbirlər işəgötürənin üzərinə qeyri-mütənasib yükün qoyulmasına səbəb olmursa) görülməsi" kimi* müəyyən olunur. Bu əlil arabasında sərbəst şəkildə hərəkət etmək üçün iş yerində liftin və ya pandusun və yaxud xüsusi tualetin quraşdırılması kimi sadə işləri özündə əks etdirə bilər.

Misal: Tlimmenosun Yunanıstan Respublikasına qarşı işinə əsasən, milli qanunvericilik cinayət məsuliyyətinə cəlb olunmuş şəxslərin ictimai mühasib peşəsinə yiyələnmələrini

[51] *Paraskeva Todorovanın Bolqarıstan Respublikasına qarşı* AİHM-dəki 37193/07 saylı, 25 mart 2010-cu il tarixli işi.
[52] *Tlimmenosun Yunanıstan Respublikasına qarşı* AİHM-dəki [GC] 34369/97 saylı, 6 aprel 2000-ci il tarixli işinin 44-cü paraqrafı. Eyni zamanda, *Prettinin Böyük Britaniyaya qarşı* AİHM-dəki 2346/02 saylı, 29 aprel 2002-ci il tarixli işinin 88-ci paraqrafı.
[53] "İrqi bərabərliyə dair" Direktivin 5-ci, "Məşğulluq sahəsində bərabərliyə dair" Direktivin 7-ci, "Mallar və xidmətlər sahəsində gender bərabərliyinə dair" Direktivin 6-cı və "Gender bərabərliyinə dair" (yenidən baxılmış) Direktivin 3-cü maddələri (sonuncu Direktivdə bu müddəa nisbətən fərqli şəkildə verilir).

qadağan edir, çünki cinayət məsuliyyətinə cəlb olunma şəxsdə bu peşənin icra olunması üçün tələb olunan düzlüyün və etibarlılığın çatışmazlığına dəlalət edir. Bu iş üzrə iddiaçı, pasifizmə meyilli olan "Yehova Şahidləri" dini icmasının üzvü kimi hərbi xidmətdə olduğu zaman hərbi forma geyməkdən imtina etdiyinə görə cinayət məsuliyyətinə cəlb olunmuşdur. AİHM müəyyən etmişdir ki, etibarlılıq və ya düzlük məsələlərilə əlaqəli olmayan əməllərə görə cinayət məsuliyyətinə cəlb olunmuş şəxslərin bu cür peşələrdən təcrid edilməsi əsassızdır. Dövlət belə bir hüquqi normadan istisnalar nəzərdə tutmadığına görə iddiaçını ayrı-seçkiliyə məruz qoyaraq ayrı-seçkiliyə məruz qalmaqdan müdafiə etməməklə yanaşı, AİHK-nın 9-cu maddəsinə əsasən, onun dini etiqad azadlığını pozmuşdur.

Misal: Kiprin Bərabərlik Təşkilatına təqdim olunmuş işə əsasən gözdən əlil olan iddiaçı dövlət qulluqçusu olmaq üçün imtahanlarda iştirak etmişdir.[54] İddiaçı imtahanı yekunlaşdırmaq üçün əlavə vaxt barədə xahiş etdikdə ona əlavə 30 dəqiqə verilmişdir, lakin bu vaxt hamı üçün ayrılan fasilədən götürülmüşdür. Bərabərlik Təşkilatı müəyyən etmişdir ki, imtahanların aparılması üçün standart prosedurlar mövcud olmadığından, fərqli şəraitdə olan namizədlər üçün münasib yerlər təşkil olunmalıdır və eyni zamanda, iddiaçının digər namizədlərlə ədalətli rəqabət aparması məqsədilə zəruri şəraitin yaradılması istiqamətində kifayət qədər iş görülməmişdir. Bərabərlik Təşkilatı münasib yerlərin fərdi şəkildə yaradılmasını tələb edən işlərin nəzərdən keçirilməsi üçün standart prosedurlarla məşğul olacaq ekspertlər qrupunun yaradılmasını dövlətə tövsiyə etmişdir.

Misal: Əlil arabasında hərəkət edən iddiaçı konkret bir vəzifəyə təyin olunmaması ilə bağlı Təhsil Nazirliyinə qarşı iddia ərizəsilə Fransa məhkəməsinə müraciət etmişdir.[55] İddiaçının ərizəsi namizədlər siyahısında 3-cü idi. İlk 2 namizəd müvafiq vəzifəni tutmaq təklifindən imtina etdikdən sonra bu təklif 3-cü namizədə deyil, 4-cü namizədə göndərilmişdir. İddiaçıya isə əlil arabasında hərəkət etmək üçün münasib olan başqa bir idarədə vəzifə təklif olunmuşdur. Dövlət öz qərarını onunla əsaslandırmışdır ki, o münasib yerlərin təşkili ilə bağlı öz vəzifəsini icra etmək məqsədilə mövcud tikililərdə dəyişikliklərin aparılması üçün sərmayə qoymaq marağında deyil. Məhkəmə müəyyən etmişdir ki, Təhsil Nazirliyi əlillər üçün münasib yerlərin təşkililə bağlı öz vəzifəsini icra etməmişdir və buna hansısa idarəçilik məsələlərilə bəraət qazandırmaq olmaz.

Misal: İspaniya məhkəməsi tərəfindən AƏM-ə göndərilmiş işdə[56] bu ölkənin qanunvericiliyinə əsasən nəzərdə tutulmuş müəyyən ödənişli məzuniyyət hüququnun Aİ-nin gender bərabərliyinə dair hüquqi normaları əsasında da yolverilən olub-olmadığının məyyən edilməsi xahiş olunurdu. Konkret olaraq, İspaniya qanunvericiliyi ataya və anaya iş günü ərzində südəmər uşağı əmizdirmək üçün 1 saat ödənişli fasilə götürmək hüququ verir, o şərtlə ki, uşağın hər iki valideyni işləsin. Ana fərdi əmək fəaliyyətilə məşğul olduğu təqdirdə işləyən atanın yuxarıda göstərilmiş hüquqa malik olmaması faktına görə Aİ Şurasının "Əmək, peşə təlimi və karyera irəliləyişi hüququndan istifadə ilə bağlı qadınlarla kişilər arasında bərabər rəftar prinsipinin icra olunmasına dair" 76/207/EEC saylı Direktivinin müvafiq müddəalarının pozulub-pozulmadığının AƏM tərəfindən müəyyən edilməsi xahiş olunurdu. AƏM bu işdə ödənişli məzuniyyət məsələlərinin iş şərti məsələlərinə mənfi təsir göstərdiyini müəyyən etmişdir, Aİ Şurasının 76/207/EEC saylı Direktivi isə iş şərtilə bağlı cinsi zəmində ayrı-seçkiliyin

[54] Kiprin Bərabərlik Təşkilatına təqdim olunmuş A.K.I. 37/2008 saylı, 8 oktyabr 2008-ci il tarixli iş. Bu işin ingilis dilindəki xülasəsilə Ayrı-seçkiliyə qarşı hüquqi ekspertlərin Avropa Şəbəkəsində tanış olmaq olar: "Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinin icmalı", 8 iyul 2009-cu il, səh. 43.

[55] *Buteyyenin Təhsil Nazirliyinə qarşı* Ruyenin İnzibati Məhkəməsi tərəfindən baxılmış işi üzrə 0500526-3 saylı, 24 iyun 2008-ci il tarixli Qərar. Bu işin ingilis dilindəki xülasəsilə Ayrı-seçkiliyə qarşı hüquqi ekspertlərin Avropa Şəbəkəsində tanış olmaq olar: "Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinin icmalı", 8 iyul 2009-cu il, səh. 46.

[56] Pedro Manuel Roka Álvaresin Sesa Start España ETT SA-ya qarşı AƏM-dəki C-104/09 saylı, 30 sentyabr 2010-cu il tarixli işi.

yol verilməziyini nəzərdə tutur. AƏM atanın ödənişli məzuniyyət götürmək hüququnun ananın məşğulluq statusundan asılı olması barədə şərh vermişdir. Bundan başqa, AƏM belə bir tədbirlə mövcud bərabərsizliklərin aradan qaldırılmadığını və ya azaldılmadığını müəyyən etmişdir, çünki yaranmış vəziyyətdə ata öz uşağına baxmaq üçün məzuniyyət götürə bilmədiyindən fərdi əmək fəaliyyətilə məşğul olan ananın üzərinə əlavə yük düşürdü. Bütün bunlarla əlaqədar olaraq, AƏM milli qanunvericilik normasının tətbiq edilməsinin sözügedən Direktivlə qarşısının alınması qənaətinə gəlmişdir.

Bəzən "xüsusi tədbirlər" termini insanlara müdafiə olunan əsaslarla əlaqədar olaraq çətinliklər deyil, şərait yaradan fərqli rəftarın göstərilməsi üçün də nəzərdə tutulur; məsələn, hansısa bir konkret vəzifənin icrası üçün kişi ilə müqayisədə qadına üstünlük verilir, çünki o qadın namizəddir və işəgötürən ştatda qadınların az təmsil olunması siyasətinə dəyişikliklər etmək niyyətindədir. Bu cür hərəkətləri təsvir etmək üçün istifadə olunan terminologiya çox müxtəlifdir və "müsbət" və ya "əks" ayrı-seçkilik, "güzəştli rəftar", "müvəqqəti xüsusi tədbirlər" və ya "müsbət işlər" kimi bir sıra ifadələri əhatə edə bilər.[57] Bu terminlər adətən ayrı-seçkilikdən əziyyət çəkən şəxslərə qarşı qərəzli davranışın aradan qaldırılması, həmçinin başqaları tərəfindən də bu sahədə istifadə edilə biləcək nümunəvi modellərin yaradılması üçün qəbul olunmuş qısamüddətli və müstəsna xarakter daşıyan funksiyaları özündə əks etdirir.

Qeyri-bərabər vəziyyətdə olan qruplar üçün müsbət tədbirlərin həyata keçirilməsi mümkünlüyü insan hüquqlarına aid BMT müqavilələrinin izah edilməsinə məsuliyyət daşıyan müxtəlif monitorinq orqanları tərəfindən verilmiş təlimatlarla da dəstəklənir. Bu orqanlar vurğulayır ki, həmin tədbirlər müvəqqəti xarakter daşımalıdır və konkret bir bərabərsizlik faktının aradan qaldırılıması üçün tələb olunan müddətdən və məkandan kənara çıxmamalıdır.[58] BMT-nin İrqi Ayrı-seçkiliyin Ləğv Edilməsi üzrə Komitəsinə əsasən bu cür tədbirlərin həyata keçirilməsində onların yeganə məqsədi, mövcud bərabərsizliyi aradan qaldırmaqdan və gələcək natarazlıqların qarşısını almaqdan ibarət olmalıdır.[59] BMT-nin Qadınlara Qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi üzrə Komitəsi tərəfindən işlənib hazırlanmış tərifə əsasən *"bu cür xüsusi tədbirlər güzəştli rəftarı; ünvanlı şəkildə işə cəlb etməni, işə götürməni və işdə irəli çəkməni; konkret müddətlərlə bağlı real məqsədləri; və kvota sistemlərini nəzərdə tuta bilər"*[60]. AƏM-in yuxarıda müzakirə edilmiş presedent hüququna əsasən, bu cür tədbirlərin mütənasibliyi çox ciddi şəkildə nəzərdən keçirilməlidir.

Bununla əlaqədar olaraq, məhkəmələr belə bir kontekstdə baş verən ayrı-seçkiliyi konkret ayrı-seçkilik faktı kimi deyil, ayrı-seçkiliyin qadağan olunması istiqamətində bir müstəsna addım kimi qəbul etməyə meyllidir. Başqa sözlə, məhkəmələr fərqli rəftarın baş vermə faktını qəbul edir, lakin həmin faktın artıq mövcud olan uyğunsuzluğu aradan qaldırmaq məqsədilə baş verməsi ilə əsaslandırır.

[57] Məsələn: BMT-nin İrqi Ayrı-seçkiliyin Ləğv Edilməsi üzrə Komitəsinin "32 saylı Ümumi Tövsiyəsi: "İrqi ayrı-seçkilyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyada əks olunmuş xüsusi tədbirlərin mənası və əhatə dairəsi" (UN Doc. CERD/C/GC/32, 24 sentyabr 2009-cu il); BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitəsinin "13 saylı Ümumi Şərhi: Təhsil almaq hüququ" (UN Doc. E/C.12/1999/10, 8 dekabr 1999-cu il); BMT-nin Qadınlara Qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi üzrə Komitəsinin "25 saylı Ümumi Tövsiyəsi: Konvensiyanın müvəqqəti xüsusi tədbirlərə dair 4(1)-ci maddəsi" (UN Doc. A/59/38(SUPP), 18 mart 2004-cü il); BMT-nin İnsan Hüquqları Komitəsinin "18 saylı Ümumi Şərhi: Ayrı-seçkiliyin ləğv edilməsi" (UN Doc. A/45/40(Vol.I.)(SUPP), 10 noyabr 1989-cu il); BMT-nin İrqi Ayrı-seçkiliyin Ləğv Edilməsi üzrə Komitəsinin "30 saylı Ümumi Tövsiyəsi: Əcnəbilərə qarşı ayrı-seçkilik məsələləri" (UN Doc. HRI/GEN/1/Rev.7/Add.1, 4 may 2005-ci il).

[58] Yuxarıdakı istinada baxın.

[59] BMT-nin İrqi Ayrı-seçkiliyin Ləğv Edilməsi üzrə Komitəsinin "32 saylı Ümumi Tövsiyəsi: "İrqi ayrı-seçkilyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyada əks olunmuş xüsusi tədbirlərin mənası və əhatə dairəsi" (UN Doc. CERD/C/GC/32, 24 sentyabr 2009-cu il, 21-26-cı paraqraflar).

[60] BMT-nin Qadınlara Qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi üzrə Komitəsnin "25 saylı Ümumi Tövsiyəsi: Konvensiyanın müvəqqəti xüsusi tədbirlərə dair 4(1)-ci maddəsinin 1-ci paraqrafı" ((UN Doc. A/59/38(SUPP), 18 mart 2004-cü il, 22-ci paraqraf).

Dövlətlər fərqli rəftarın bu şəkildə əsaslandırılmasına tez-tez müraciət edir. Bunu 2 müxtəlif istiqamətdən izah etmək olar. Faydalanan tərəfin nöqteyi-nəzərindən onunla müdafiə olunan əsaslar kateqoriyasına aid əlamətlərə əsasən və oxşar vəziyyətdə olan başqa şəxslərlə müqayisədə daha əlverişli şəkildə rəftar olunur. Zərərçəkmiş şəxsin nöqteyi-nəzərindən isə o, müdafiə olunan əsaslara malik olmadığından onunla qeyri-münasib şəkildə rəftar olunur. Cəmiyyətdə daha tarazlı nisbəti təmin etmək məqsədilə kişilərin çoxluq təşkil etdiyi iş yerlərində müəyyən vəzifələrin qadınlar üçün ayrılmasını və ya milli azlıq nümayəndələrinin dövlət qulluğuna, məsələn, mühafizə polisi kimi işə götürülməsini bu məsələyə aid səciyyəvi misallar kimi göstərmək olar. Bəzən bu cür tədbirlərə "əks" ayrı-seçkilik deyirlər, çünki cəmiyyətdə əvvəllər baş vermiş tendensiyalara əsasən, qeyri-münasib rəftar gözləyən şəxsə güzəştlər etmək məqsədilə başqaları nisbətən diskriminativ rəftara məruz qalırlar. Bəzən isə bunu "müsbət" addım kimi qələmə verirlər, çünki bu ənənəvi olaraq çətin vəziyyətdə olan əhali qrupunun hansısa bir sahədə irəli çəkilməsilə keçmişdə baş vermiş uyğunsuzluğu aradan qaldırmaq üçün atılmış konkret bir addımdır; bu kontekstdə atılan addım hansısa qruplara qarşı qərəzlilikdən deyil, xeyirxah məqsədlərdən irəli gəlir.

Bu konsepsiya nadir hallarda AİHM-in presedent hüququnda öz əksini tapsa da, Aİ qanunvericiliyi kontekstində daha geniş şəkildə nəzərə alınır və AƏM tərəfindən baxılan və məşğulluq sahəsinə aid olan işlərdə əsas kimi götürülür. Spesifik tədbirlər ayrı-seçkiliyin qadağan olunmasına dair direktivlərdə və AƏM-in presedent hüququnda bir müdafiə vasitəsi kimi, həmçinin bu Bələdçinin 2.6.4.1 yarımbölməsində müzakirə edilən "həqiqi iş şərti" ilə əlaqədar spesifik müdafiə vasitəsi kimi qeyd olunur.

AƏM-in xüsusi tədbirlərlə bağlı əsas işləri, konkret olaraq *Kalankenin,*[61] *Marşalın*[62] *və Abrahamsonun*[63] işləri gender bərabərliyi kontekstindən irəli gəlir. Bu işlərin hər biri konkret olaraq qadın işçilərlə bağlı illər boyu baş vermiş uyğunsuzluqları aradan qaldırmaq məqsədilə görülən xüsusi tədbirlərin əhatə dairəsini müəyyən edir.

Misal: Kalankenin işilə əlaqədar olaraq AƏM müəyyən vəzifələrdə qadınların nisbətən az təmsil olunmaları ilə bağlı vəziyyəti düzəltmək üçün güzəştli rəftarın ciddi şəkildə tərəfdarı olduğunu nümayiş etdirmişdir. Bu iş regional səviyyədə qəbul edilmiş və müəyyən vəzifələrlə və ya karyera üzrə irəliləyişlərlə bağlı avtomatik olaraq qadın namizədlərə üstünlük verən hüquqi norma ilə əlaqədar idi. Hansısa vakansiya üçün təxminən bərabər sayda kişi və qadın namizəd konkursda iştirak etdikdə və əlaqədar sektorda qadın işçilərin az təmsil olunduğu hesab edildikdə üstünlük qadın namizədlərə verilirdi. Vakansiya olan sektorda işçilərin ümumi sayının ən azı yarısını qadınlar təşkil etmədiyi təqdirdə, bu həmin sektorda qadınların az sayda təmsil olunması hesab edilirdi. Sözügedən iş əsasən vakant vəzifəyə seçilməmiş kişi namizəd cənab Kalanke yerli məhkəməyə müraciət edərək cinsi zəmində ayrı-seçkiliyə məruz qaldığını iddia edirdi. Yerli məhkəmə yuxarıda qeyd olunan hüquqi normanıın "Bərabər rəftara dair" Direktivin 2(4)-cü maddəsinə ("Gender bərabərliyinə dair" Direktivin müsbət işlər haqqında 3-cü maddəsinin təkmilləşdirilmiş variantı) uyğun olduğunu dəqiqləşdirməyi xahiş edərək bu işi AƏM-ə göndərmişdir. "Bərabər rəftara dair" Direktivin 2(4)-cü maddəsi bəyan edir ki, *"bu Direktiv konkret olaraq qadınların imkanlarına mənfi təsir göstərən mövcud bərabərsizlikləri*

[61] *Kalankenin "Freie Hansestadt Bremen"-ə qarşı* AƏM-dəki C-450/93 [1995] ECR I-3051 saylı, 17 oktyabr 1995-ci il tarixli işi.
[62] *Marşalın Nordrhein-Vestfalen Torpağına qarşı* AƏM-dəki C-409/95 [1997] ECR I-6363 saylı, 11 noyabr 1997-ci il tarixli işi.
[63] *Abrahamsonun və Leif Andersonun Elizabet Foqelkvistə qarşı* AƏM-dəki C-407/98 [2000] ECR I-5539 saylı, 6 iyul 2000-ci il tarixli işi.

aradan qaldırmaqla kişilər və qadınlar üçün bərabər imkanların yaradılması istiqamətində həyata keçirilən tədbirlərə heç bir xələl yetirmir."[64] AƏM bildirmişdir ki, 2(4)-cü maddə *"özlüyündə diskriminativ xarakter daşısa da, real ictimai həyatda mövcud olan faktiki bərabərsizlik hallarının ləğv edilməsi və ya sayının azaldılması məqsədi daşıyan"* tədbirlərin həyata keçirilməsinə şərait yaratmaq məqsədilə nəzərdə tutulmuşdur.[65] Qəbul olunmuşdur ki, hüquqi norma qanuni olaraq iş yerlərində mövcud olan bərabərsizliklərin aradan qaldırılması məqsədini daşıyır. Bununla əlaqədar olaraq iş yerlərində, o cümlədən, karyera irəliləyişində qadınlara müəyyən üstünlük verən tədbirlər prinsip etibarı ilə qəbul olunandır (əgər onlar heç bir ayrı-seçkiliyə yol vermədən qadınların əmək bazarında rəqabət aparmaq imkanlarını təkmilləşdirmək məqsədilə həyata keçirilmişdirsə).

Lakin eyni zamanda, bərabər rəftar hüququna istənilən istisnanın təfərrüatı ilə izah olunması bildirilmişdir. Müəyyən olunmuşdur ki, sözügedən hüquqi norma *"vəzifəyə təyin olunma və ya karyera irəliləyişi istiqamətində mütləq və qeyd-şərtsiz üstünlüyün qadınlara verilməsini"* təmin edir, bu isə bərabər rəftar hüququ nöqteyi-nəzərindən bərabərsizliyin ləğv edilməsi məqsədinə nail olmaq işi ilə faktiki uyğunsuzluq təşkil edir. Bununla əlaqədar olaraq, bu işdə güzəştli rəftar yol verilməzdir.

Buna baxmayaraq, son zamanlar icraatda olmuş işlər göstərir ki, hüquqi norma hər hansı bir cinsin nümayəndəsinə avtomatik şəkildə və qeyd-şərtsiz üstünlüyün verilməsini nəzərdə tutmadığı təqdirdə spesifik tədbirlər məqbul hesab oluna bilər.

Misal: Marşalın işi də *Kalankenin* işi kimi mahiyyətcə oxşar hüquqi norma ilə əlaqədar idi. Lakin həmin hüquqi norma bəyan edirdi ki, *"əgər konkret kişi namizədə aid olan hansısa səbəblər tarazlığı onun xeyrinə pozmursa",* kişilə müqayisədə üstünlük seçim prosesində bərabər şəkildə iştirak etmiş qadın namizədə verilməlidir Qadın namizəddən fərqli olaraq vəzifəyə təyin olunmaq üçün rədd cavabı almış cənab Marşal əsas götürülmüş hüquqi normanın qanuniliyini şübhə altına qoyaraq yerli məhkəməyə müraciət etmişdir. Öz növbəsində yerli məhkəmə işi AƏM-ə göndərərək əlaqədar hüquqi normanın "Bərabər rəftara dair" Direktivə uyğunluğunun dəqiqləşdirilməsini xahiş etmişdir. AƏM müəyyən etmişdir ki, əgər *"hər bir konkret halda qadın namizədlərlə bərabər şəkildə seçilmiş kişi namizədlərin obyektiv şəkildə, hər bir namizədə xas olan kriteriyaları nəzərə almaqla və qadın namizədlərə üstünlük verməkdən yan keçməklə qiymətləndirilməsini təmin edirsə və bu kriteriyalardan biri və ya bir neçəsi tarazlığı kişi namizədin xeyrinə pozmursa"* sözügedən hüquqi norma bərabərsizliyin ləğv edilməsi məqsədilə uyğunsuzluq təşkil etmir. Beləliklə, bu hüquqi normada nəzərdə tutulan bölgü mütləq üstünlüyə yol vermədiyindən iş yerlərində bərabərsizliyin aradan qaldırılması məqsədilə uyğunluq təşkil edirdi.

Misal: Abrahamsonun işi İsveçin müvafiq hüquq normasının qanuni olması ilə əlaqədar idi. Bu hüquqi norma *Kalankenin* işində bir cinsin nümayəndələrinə qeyd-şərtsiz üstünlük verən qanunvericilik aktı və *Marşalın* işində 2 cinsin nümayəndələri arasında bölgü aparan normativ hüquqi akt ilə müqayisədə özündə bir aralıq yanaşmanı əks etdirirdi. Bu hüquqi norma bəyan edirdi ki, əgər *"namizədlərin ixtisasları arasındakı fərq, seçim qərarının obyektivliyinə aid tələbi pozacaq dərəcədə böyük deyilsə",* müəyyən iş yerində nisbətən az təmsil olunmuş cinsin nümayəndəsi olan və nəzərdə tutulmuş vəzifəni icra etmək üçün kifayət qədər ixtisasa malik namizədə üstünlük verilməlidir. AƏM bu hüquqi norma ilə faktiki olaraq az sayda təmsil olunmuş cinsin nümayəndələrinə avtomatik üstünlüyün verildiyini müəyyən etmişdir. Bu cür üstünlüyün qarşısını alan yeganə şərt ixtisaslar arasında əhəmiyyətli dərəcədə fərqin mövcud

[64] "Bərabər rəftara dair" 76/207/EEC saylı Direktiv. OJ L 39, 14.02.1976, səh. 40.

[65] Bu xülasə ayrı-seçkliyi qadağan edən direktivlərin preambulasında da öz əksini tapmışdır: "Gender bərabərliyinə dair" (yenidən baxılmış) Direktivin 21-ci; "Məşğulluq sahəsində bərabərliyə dair" Direktivin 26-cı; "İrqi bərabərliyə dair" Direktivin 17 paraqrafları.

olmasından ibarət olsa da, bu hüquqi normanın öz məqsədlərilə uyğunluq təşkil etməsi üçün kifayət etmir.

Burada misal gətirilmiş işlər açıq şəkildə göstərir ki, AƏM ədalət prinsipindən yan keçmək üçün spesifik tədbirlərin həyata keçirilməsi istiqamətində şəraitin yaradılması məsələsinə ehtiyatla yanaşır. Yalnız sayı məhdud olan, eyni zamanda, müvafiq spesifik tədbirlər qeyd-şərtsiz olmayan və mütləq xarakter daşımayan hallarda, AƏM yuxarıda qeyd olunan 2(4)-cü maddənin milli qanunvericilik aktları ilə müqayisədə üstün tutulmasına icazə verir.

Ayrı-seçkiliyi qadağan edən Aİ Direktivlərində nəzərdə tutulmuş spesifik tədbirlərə aid məsələlərə rast gəldikdə, mütəxəssislər müəyyən şəxslərdən ibarət konkret qrupa köməklik göstərmək üçün müvafiq "hərəkətlərin" təmin edilməsinə xüsusi diqqət yetirməlidirlər. Yuxarıda müzakirə edilmiş AƏM-in presedent hüququ əsasında sübuta yetirildiyi kimi, spesifik tədbirlərdən istifadənin son çıxış yolu olması birmənalı şəkildə qəbul olunmalıdır. Mütəxəssislər və məhkəmə rəsmiləri xüsusi tədbirlərin həyata keçirilməsini nəzərdə tutan işlərlə məşğul olduqları zaman, xüsusi tədbirlərlə əhatə olunmayanlar da daxil olmaqla bütün namizədlərin, əlaqədar işəgötürən tərəfindən nəzərdən keçirildiyinə və müvafiq vakansiya ilə bağlı obyektiv və ədalətli şəkildə qiymətləndirildiyinə mütləq əmin olmalıdırlar. Bir sıra namizədlərin, o cümlədən hədəf qrupuna daxil olan şəxslərin mövcud vəzifəni bərabər səviyyədə icra etmək iqtidarında olmaları faktı yalnız obyektiv qiymətləndirmə nəticəsində müəyyənləşdirildikdən sonra xüsusi tədbirlərdən istifadə oluna bilər. Yalnız belə olan halda, müvafiq iş yerində əvvəllər baş vermiş ayrı-seçkilik səbəbindən ön plana çəkilən hədəf qrupunun üzvü hədəf qrupuna daxil olmayan şəxsdən əvvəl seçilə bilər.

AİHM xüsusi tədbirlərin həyata keçirilməsini nəzərdə tutan işlərin dərindən öyrənilməsi imkanına hələ ki, malik olmasa da, onun tərəfindən bu səpkidən olan çox az sayda işə artıq baxılmışdır.

Misal: Vintersberqerin Avstriya Respublikasıına qarşı işinə əsasən,[66] AİHM iddianın nə dərəcədə mümkün olub-olmaması ilə bağlı qərar çıxarmışdır. AİHM iddianın nə dərəcədə mümkün olub-olmaması ilə bağlı qərar çıxarmışdır. Dövlət əlil olan iddiaçını tutduğu vəzifədən azad etmişdir. Milli qanunvericiliyə əsasən əlilliyi olan şəxslər işdən azad olunmaya qarşı xüsusi müdafiəyə malikdirlər və əvvəlcə xüsusi komitə tərəfindən onların işdən azad edilməsi barədə təsdiqedici qərar qəbul edilməlidir. İşəgötürən işçinin əlilliyi barədə məlumatsız olarkən onu işdən azad etdikdə, bu cür təsdiqedici qərar keçmiş tarixlə verilir. Əlilliyi olmayan şəxslər üçün bu cür təsdiqedici qərar nəzərdə tutlmayıb. Ərizəçi iddia edirdi ki, əlilliyi olan şəxslərin işdən azad edilməsilə bağlı təsdiqedici qərarın keçmiş tarixlə verilməsi, lakin əlilliyi olmayan şəxslərlə əlaqədar bu cür qərarın tələb olunmaması faktı ayrı-seçkilik kimi qiymətləndirilməlidir. AİHM müəyyən etmişdir ki, belə bir şərtə, faktiki olaraq əlillərin xeyrinə əməl olunur və bunu əks ayrı-seçkiliyin bir nümunəsi kimi əsaslandırmaq olar. Bununla əlaqədar olaraq müvafiq iddia ərizəsi təmin olunmamışdır.

Əsas məqamlar

- Ayrı-seçkiliklə bağlı elə bir hal yaranır ki, şəxs müdafiə olunan əsaslara malik olduğundan qeyri-bərabər vəziyyətə düşür.
- Ayrı-seçkiliyin müxtəlif fomaları mövcuddur: birbaşa ayrı-seçkilik, dolayı ayrı-seçkilik, qısnama, həmçinin ayrı-seçkiliyə məruz qoyma göstərişləri.

[66] *Vintersberqerin Avstriya Respublikasıına qarşı* AİHM-dəki (dostcasına həll olunmuş) 57448/00 saylı, 5 fevral 2005-ci il tarixli işi.

- Birbaşa ayrı-seçkilik fərqli rəftarla səciyyələndirilir: zərər çəkməsi ehtimal olunan şəxsin müdafiə olunan əsaslar kateqoriyasına aid əlamətlərə görə qeyri-münasib rəftara məruz qaldığı nümayiş etdirilməlidir.
- Qeyri-münasib rəftar, zərər çəkməsi ehtimal olunan şəxsin oxşar vəziyyətdə olan, lakin müdafiə olunan əsaslara malik olmayan şəxslə müqayisədə müəyyənləşdirilir.
- Ola bilsin ki, müdafiə olunan əsaslar fərqli rəftarın birbaşa yaranma səbəbi deyil. Fərqli rəftarın birbaşa yaranma səbəbinin müdafiə olunan əsaslardan irəli gəlməsi kifayətdir.
- AƏM və milli məhkəmələr əlaqələndirmə əsasında ayrı-seçkilik anlayışını qəbul etmişdir: hansısa şəxs müdafiə olunan əsaslara malik olan başqa bir şəxslə əlaqələndirilərək qeyri-münasib rəftara məruz qalır.
- Aİ qanunvericiliyində ayrılıqda nəzərdən keçirilən qısnama əməli birbaşa ayrı-seçkiliyin konkret bir təzahürüdür.
- Birbaşa ayrı-seçkiliklə müqayisədə dolayı ayrı-seçkilik, fərqli təsir gücü ilə və ya nəticələrlə səciyyələndirilir: hansısa qrupun müqayisə vasitəsi kimi götürülmüş başqa bir qrupla müqayisəsi nəticəsində çıxarılmış qərara əsasən birincilər qeyri-bərabər rəftara məruz qalırlar.
- Dolayı ayrı-seçkilik faktının sübuta yetirilməsi müdafiə olunan əsaslara malik olan bir qrupun belə əlamətlərə malik olmayan qrupla müqayisədə fərqli təsirli rəftarla və ya məruz qaldığı rəftar nəticəsində fərqli nəticələrlə üzləşməsinə aid dəlillərin təqdim edilməsini nəzərdə tutur.
- Hər bir şəxsin mövcud olan hüquqlardan bərabər səviyyədə istifadəsini təmin etmək məqsədilə dövlətlər, işəgötürənlər və xidmət göstərənlər öz hüquqi normalarını və mövcud təcrübələrini fərqli əsaslara malik qruplara uyğunlaşdırmaq üçün xüsusi və ya spesifik tədbirlər həyata keçirməlidirlər.
- “Xüsusi tədbirlər” və “spesifik tədbirlər” terminləri müdafiə olunan əsaslara malik olan qrupların keçmişdə məruz qaldıqları bərabərsizlikləri aradan qaldırmaq üçün istifadə olunan tədbirlərə şamil olunur. Bu tədbirlər qarşıya qoyulmuş məqsədlərlə mütənasiblik təşkil etdikdə ayrı-seçkiliyin əsaslandırılması üçün də istifadə oluna bilərlər.

2.6. Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinə əsasən qeyri-münasib rəftarın müdafiə edilməsi

2.6.1. Giriş

Müəyyən şəraitdə məhkəmələr fərqli rəftarın baş vermə faktını təsdiqləsə də, bunun qəbul edilən olduğunu bildirir. Aİ qanunvericiliyi əsasında ayrı-seçkiliyin müdafiə edilməsi məsələlərinə yanaşma AİHM-in yanaşma tərzindən fərqlənsə də, bu yanaşmalar mahiyyətcə çox oxşardır.

Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinə əsasən müdafiə “ümumi müdafiə” və ya “daha məhdud, spesifik müdafiə” terminlərilə ifadə oluna bilər. AİHM-in yanaşması istər birbaşa, istərsə də dolayı ayrı-seçkilik kontekstində ümumi müdafiənin tətbiq edilməsini nəzərdə tutur. Aİ qanunvericiliyi bu yanaşmadan fərqli olaraq birbaşa ayrı-seçkiliklə bağlı yalnız daha məhdud, spesifik müdafiənin, dolayı ayrı-seçkilik kontekstində isə yalnız ümumi müdafiənin təmin edilməsini nəzərdə tutur. Başqa sözlə, ayrı-seçkiliyi qadağan edən direktivlərə əsasən birbaşa ayrı-seçkilik halları yalnız o təqdirdə əsaslandırıla bilər ki, həmin hallar sözügedən direktivlərdə birmənalı şəkildə təsbit olunmuş məqsədlərə xidmət etsin.

Ayrı-seçkiliyi qadağan edən direktivlərə əsasən spesifik müdafiə yalnız AİHM tərəfindən tanınmış ümumi müdafiənin daha geniş kontekstində və presedent hüququnda tətbiq edilən ümumi müdafiə ilə uyğun gəldikdə təmin oluna bilər. Faktiki olaraq ayrı-seçkiliyi qadağan edən direktivlərə əsasən spesifik müdafiə işlək olan və məşğulluq sahəsinə uyğunlaşdırılmış ümumi müdafiənin bir törəməsidir.

2.6.2. Ümumi müdafiənin təhlili

Artıq qeyd olunduğu kimi, AİHK-ya əsasən ümumi müdafiə istər birbaşa, istərsə də dolayı ayrı-seçkiliklə əlaqədar təmin olunsa da, Aİ qanunvericiliyinə əsasən yalnız dolayı ayrı-seçkiliklə əlaqədar təmin olunur. AİHM-ə əsasən,

"əgər nisbətən oxşar vəziyyətdə olan şəxslərlə rəftar sahəsindəki fərqlər heç bir məqsədə xidmət etmirsə və ya məntiqli şəkildə əsaslandırılmırsa, başqa sözlə əgər qanuni məqsədə xidmət etmirsə və yaxud istifadə edilmiş vasitələrlə qarşıya qoyulmuş məqsəd arasında məntiqli uyğunluq mövcud deyilsə, bu rəftar diskriminativ xarakter daşıyır."[67]

Ayrı-seçkiliyi qadağan edən Aİ Direktivlərində dolayı ayrı-seçkiliklə bağlı oxşar tərifdən istifadə olunur. "İrqi bərabərliyə dair" Direktiv bəyan edir ki,

"Dolayı ayrı-seçkilik o zaman baş verir ki, neytral norma, meyar və ya mövcud təcrübə, əlaqədar şəxsi irqi mənsubiyyətinə və ya etnik mənşəyinə görə başqa səxlərlə müqayisədə qeyri-bərabər vəziyyətdə qoyur (əgər sözügedən norma, meyar və ya təcrübə qanuni məqsədlərə uyğun və obyektiv şəkildə əsaslandırılmayıbsa və qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün istifadə edilən vasitələr münasib və zəruri deyilsə)."[68]

AİHM tərəfindən və ayrı-seçkiliyi qadağan edən direktivlərdə istifadə olunmuş ifadələrə əsasən bu ayrı-seçkiliyin birbaşa müdafiəsi olmasa da, fərqli rəftarın əsaslandırılmasını nəzərdə tutur və baş vermiş ayrı-seçkilik faktını ört-basdır edir. Lakin zahirən olmasa da, mahiyyətcə məhkəmələr ayrı-seçkiliyin əsaslandırılması məsələlərini bu əmələn müdafiə olunması kimi qəbul edirlər.

Fərqli rəftarı əsaslandırmaq məqsədilə:
- müvafiq hüquqi normanın və ya mövcud təcrübənin qanuni məqsədlərə xidmət etməsi; və
- bu məqsədlərə nail olmaq üçün seçilmiş vasitələrin (yəni fərqli rəftarla nəticələnmiş tədbirlərin) uyğun və zəruri olduğu mütləq nümayiş etdirilməlidir.

Misal: AƏM *"Bilka-Kaufhaus GmbH"-nin "Veber fon Harts"-a qarşı* işi əsasında obyektiv əsaslandırma anlayışının müfəssəl izahını verir.[69] Bu işə əsasən "Bilka" mağazasının yarımştat işçiləri özəl pensiya sistemindən xaric edilmələri barədə şikayət edərək bildirmişdilər ki, belə bir hərəkət qadınlara qarşı dolayı ayrı-seçkilikdir, çünki qadınlar yarımştat işçilərin böyük əksəriyyətini təşkil edirlər. AƏM müəyyən etmişdir ki, əgər mağazanın bu hərəkəti əsaslandırılmazsa, bunu dolayı ayrı-seçkilik hesab etmək olar. Bu hərəkəti əsaslandırmaq məqsədilə sübuta yetirilməlidir ki, *""Bilka" mağazası tərəfindən seçilmiş tədbirlər bu müəssisənin real ehtiyaclarına uyğundur, qarşıya qoyulan məqsədlərə nail olmaq nöqteyi-nəzərindən münasibdir və bununla əlaqədar olaraq zəruridir".* Bilka mağazası tərəfindən bildirilmişdir ki, fərqli rəftarın arxasında duran məqsəd yarımştat işçiləri tənbeh etməkdən, tam ştatda olan işçiləri isə həvəsləndirməkdən ibarət idi, çünki yarımştat işçilər axşam saatları və istirahət günləri işləmək istəmirdilər, bu isə öz növbəsində tələblərə cavab verən işçi heyətin saxlanması işini daha da çətinləşdirirdi. AƏM bu məqsədin qanunauyğun olduğunu müəyyən etmişdir. Lakin yarımştat işçilərin pensiya sitemindən xaric edilməsinin bu məqsədə nail olmaq üçün nə dərəcədə düzgün olduğu aydın deyildi. Görülən tədbirlərin "zərurətinin" sübuta yetirilməsi bərabər rəftar prinsipinə çox az bir səviyyədə müdaxiləyə səbəb ola biləcək digər

[67] *Bördenin Böyük Britaniyaya qarşı* AİHM-dəki [GC] 13378/05 saylı, 29 aprel 2008-ci il tarixli işinin 60-cı paraqrafı.
[68] "İrqi bərabərliyə dair" Direktivin 2(2)(b), "Məşğulluq sahəsində bərabərliyə dair" Direktivin 2(2)(b), "Mallar və xidmətlər sahəsində gender bərabərliyinə dair" Direktivin 2(b), "Gender bərabərliyinə dair" (yenidən baxılmış) Direktivin 2(1)(b) maddələri.
[69] *"Bilka-Kaufhaus GmbH"-nin "Veber fon Harts"-a qarşı* AƏM-dəki 170/84 [1986] ECR 1607 saylı, 13 may 1986-cı il tarixli işi.

əsaslı, alternativ vasitələrin olmadığını nümayiş etdirməyi nəzərdə tutur. Bu işin faktları ilə bağlı hansı qanunların tətbiq edilməsi yerli məhkəmənin ixtiyarına buraxılmışdır.

Misal: B.-nin Böyük Britaniyaya qarşı işində[70] başa düşmək qabiliyyəti olmayan iddiaçı 3 uşaq anası idi. O, vaxtı ilə ödənişlər etmədən Britaniya Hökumətindən 2 növ müavinət alırdı: uşaq pulu və ehtiyacı olanlar üçün maddi yardım. Müavinətlər müvafiq qeydiyyat jurnalına verilmiş sifarişlər əsasında ödənildiyindən faydalanan tərəf xəbərdar edilmişdir ki, o himayəsində olan və ya onunla yaşayan şəxsin başqa bir ünvana köçməsi barədə Əmək və Pensiya Departamentinə məlumat verməyə borcludur, çünki vəziyyətin istənilən fromada dəyişməsi onun bu cür müavinətlərdən faydalanmasına təsir göstərə bilər. Eyni zamanda, ondan uşaqlarının himayəyə götürülməsi barədə də Departamentə məlumat verməyi xahiş olunmuşdur. 2000-ci ilin oktyabr ayında iddiaçının uşaqları himayəyə götürülmüşdür. Lakin iddiaçı bu barədə sözügedən Departamentə məlumat verməmişdir. 2001-ci ilin noyabr ayında o, başa düşmək qabiliyyəti olmayan insanları dəstəkləyən xeyriyyə təşkilatı tərəfindən yardım almağa başlamışdır. Bir aydan sonra xeyriyyə təşkilatı iddiaçının uşaqlarının himayəyə götürülməsi barədə Departamentə məlumat vermişdir. Dövlət katibi gələcəkdə iddiaçıya ödənilən yardımlarda ixtisarlar etməklə artıq ödənilmiş məbləğləri geri qaytarmaq qərarına gəlmişdir. Dövlət təminatı məsələləri üzrə Komissar isə görülən tədbirin məlumat verməmə xətasına münasib olmadığını bildirmişdir, çünki iddiaçı qüvvədə olan normativ hüquqi aktlarla onun üzərinə qoyulan öhdəlikləri pozmuşdur. AİHM qeyd etmişdir ki, şəxsin müəyyən olunmuş əlamətindən və ya statusundan irəli gələn fərqli rəftar AİHK-nın 14-cü maddəsinin əhatə dairəsi çərçivəsində ayrı-seçkilik əməli hesab oluna bilər. Lakin bu maddə müəyyən qruplar arasındakı faktiki bərabərsizlikləri aradan qaldırmaq məqsədilə AİHK-nı imzalamış dövlətə bu qruplarla fərqli şəkildə rəftaretməyi qadağan etmir. Həqiqətən də müəyyən şəraitdə fərqli rəftar əsasında bərabərsizlikləri aradan qaldırmama da AİHK-nın pozulmasına səbəb olur. Sözügedən işdə şikayətçi ayrı-seçkiliyə məruz qaldığını iddia edirdi, çünki onunla, hansısa fakt barədə məlumat vermək öhdəliyini başa düşmək qabiliyyəti olmayan şəxslə belə bir şərti başa düşmək iqtidarında olan şəxslə müqayisədə eyni tərzdə rəftar olunmuşdur. Bununla əlaqədar olaraq, AİHM bildirmişdir ki, artıq ödənilmiş müavinətlərin geri qaytarılıb-qaytarılmaması barədə qərar qəbul etməzdən əvvəl əlaqədar şəxsin başa düşmək qabiliyyətinin və ya əqli imkanlarının qiymətləndirilməsi vəzifəsinin dövlətin üzərinə qoyulması sonrada ödənişlərin geri qaytarılması prosesinə mane olacaq və sosial təminat fondlarında mövcud olan resursların azaldılmasına gətirib çıxaracaq. Bundan başqa, AİHM qeyd etmişdir ki, iddiaçı ilə məlumat vermə öhdəliyini başa düşmək qabiliyyəti olan başqa şəxslərdən fərqli şəkildə rəftaretməmə barədə qərar sosial müdafiə sisteminin maneəsiz fəaliyyətini təmin etməkdən və artıq ödənilmiş müavinətləri bərpa etməkdən ibarət qanuni məqsədlərə xidmət edir. Bununla da, AİHM iddıacı ilə məlumat vermə öhdəliyini başa düşən şəxslərdən fərqli şəkildə rəftaretməmənin obyektiv və məntiqli şəkildə əsaslandırıldığı barədə qənaətə gəlmişdir. Bütün bunların nəticəsində barəsində şikayət edilən davranış əsasında AİHK-nın 1 saylı Protokolunun 1-ci maddəsilə birlikdə baxılmış 14-cü maddənin pozulması müəyyən olunmamışdır.

Misal: Ravivin işində[71] qadın iddiaçı və onun ailəsi Avstriyada Milli Sosialist Partiyasının yəhudilərə qarşı təqiblərindən əziyyət çəkdiyinə görə 1948-ci ildə İzrailə köçmüşdür. 2002-ci ildə "Əsas Sosial Təminat haqqında" Qanuna edilmiş dəyişikliklər əsasında nasistlərin təqibi zamanı pensiyanın sığorta hissəsinin toplanması prosesindən kənarda qalmış şəxslərə pensiya üçün müraciət etmək imkanı verilmişdir. İddiaçı da bu imkandan istifadə edərək pensiya üçün müraciət etmişdir. Lakin onun pensiyasının hesablanması zamanı uşaqların (iddiaçının 3 uşağı var) böyüdülməsi müddəti xaricdə keçirildiyindən uşaqların Avstriyada böyüdülmə müddətindən fərqli meyarlar əsasında hesablanmışdır. İnzibati məhkəmə onun şikayət ərizəsini əsassız hesab edərək təmin etməmişdir.

[70] *B.-nin Böyük Britaniyaya qarşı* AİHM-dəki 36571/06 saylı, 14 fevral 2012-ci il tarixli işi.
[71] *Ravivin Avstriya Respublikasına qarşı* AİHM-dəki 26266/05 saylı, 31 mart 2012-ci il tarixli işi.

AİHM xatırlamışdır ki, AİHK-nın 14-cü maddəsinə əsasən vəsatətin qaldırılması üçün analoji və ya nisbətən oxşar vəziyyətdə olan şəxslərlə fərqli tərzdə rəftar olunmalıdır. Fərqli rəftarın müəyyənləşdirilməsi üçün dövlətlərə verilən qiymətləndirmə çərçivələrinin əhatə dairəsi müvafiq işin şərtlərindən, predmetindən və ilkin şəraitindən asılı olaraq dəyişə bilər. Adətən iqtisadi və ya sosial strategiya ilə bağlı ümumi xarakterli tədbirlərə gəldikdə dövlətə geniş çərçivələr verilir.

Eyni zamanda, AİHM qeyd etmişdir ki, Milli Sosialist Partiyasının təqiblərindən zərər çəkmiş şəxslər üçün xüsusi rejimin yaradılması Avstriyanın sosial təminat qanunvericiliyinin əsas prinsiplərindən bir istisnanı təşkil edir və bu cür şəxslər üçün bir sıra fərqli hüquqi normaların tətbiq edilməsini nəzərdə tutur. AİHM bu cür maddi təminatın könüllü xarakterini və bu təminatla bağlı güzəştli dərəcələrin tətbiq edilməsini nəzərə alaraq müəyyən etmişdir ki, qanuna edilmiş düzəlişlər əsasında bu sistemlə əhatə olunan şəxslər Avstriyada əmək fəaliyyətilə məşğul olmaları səbəbindən yaşa görə pensiya siteminə mütamadi olaraq ödənişlər etmiş şəxslərlə oxşar vəziyyətdə deyillər və xüsusi rejimlə əhatə olunan şəxslərdən ibarət qrup daxilində bu şəxslərin hüquqi vəziyyətindən irəli gələn hər hansı bir elementlə bağlı fərqli rəftara yol verilməmişdir. Nəticədə AİHK-nın 1 saylı Protokolunun 1-ci maddəsilə birlikdə baxılmış 14-cü maddəyə əsasən xaricdə uşaq böyüdülməsi dövrü ilə əlaqədar olaraq ayrı-seçkiliklə bağlı vəsatətin qaldırılması mümkün deyil.

- Fərqli rəftarın mütənasib olub-olmadığını müəyyən etmək məqsədilə qarşıya qoyulmuş məqsədə nail olmaq üçün bərabər rəftar hüququna çox az səviyyəli müdaxiləni nəzərdə tutan başqa bir vasitənin olmaması məhkəmələr qarşısında sübuta yetirilməlidir.
- Başqa sözlə, qarşıya qoyulmuş məqsədə nail olmaq üçün yol verilmiş bərabərsizlik vurula biləcək ən minimal səviyyəli zərər olmalıdır.
- Əldə olunacaq məqsəd bu cür müdaxilə səviyyəsinin əsaslandırılması üçün çox vacibdir.

2.6.3. Ümumi müdafiənin tətbiqi

AƏM məşğulluq kontekstində işçilərin iqtisadi maraqları ilə əlaqədar rəhbərlik tərəfindən qəbul olunmuş qərarlardan irəli gələn fərqli rəftarı müdafiə etməyə meylli olmadığı bir halda maddi əhəmiyyət kəsb edən daha geniş sosial və məşğulluq siyasətinə aid məqsədlərdən irəli gələn fərqli rəftarı qəbul etməyə daha həvəslidir. AƏM böyük sosial əhəmiyyət kəsb edən bu cür işlərlə bağlı dövlətlərə geniş "ixtiyar çərçivələri" təklif edir. Şəxsi ləyaqətin özəyi hesab olunan məsələlərlə, məsələn, irqi mənsubiyyət və ya etnik mənşə, yaşamaq, şəxsi həyat və ya ailə həyatı zəminində ayrı-seçkiliklə əlaqədar fərqli rəftara AİHM tərəfindən AİHK kontekstində yol verilməsi az ehtimal olunandırsa, sosial siyasətin daha geniş, xüsusən də maddi əhəmiyyət kəsb edən, aspektlərilə bağlı fərqli rəftarın qəbul edilməsi daha çox ehtimal olunandır. Bu nöqteyi-nəzərdən AİHM "qiymətləndirmə çərçivələri" terminindən istifadə edir və bu termin fərqli rəftarın əsaslandırılıb-əsaslandırılmamasını müəyyən etmək məqsədilə dövlətlər üçün təklif olunan geniş ixtiyar sahəsinə dəlalət edir. Fərqli rəftar istiqamətində atılmış addımlar "dar" çərçivəli hesab olunduqda, AİHM əsaslı və müfəssəl araşdırmalara yol açır.

2.6.4. Avropa İttifaqının qanunvericiliyində nəzərədə tutulmuş spesifik müdafiə

Yuxarıda qeyd olunduğu kimi, ayrı-seçkiliyi qadağan edən direktivlər bir sıra hallarda fərqli rəftarın əsaslandırılmasına icazə verən spesifik müdafiə növlərini nəzərdə tutur. "Həqiqi iş şərtilə əlaqədar müdafiə" qeyd olunmuş direktivlərin hər birində mövcuddur ("Mallar və xidmətlər sahəsində gender bərabərləyinə dair" Direktivi çıxmaq şərtilə, çünki bu sənəd məşğulluq sahəsini əhatə etmir). Bu şərt işəgötürənlərə şəxsləri müdafiə olunan əsaslar kateqoriyasına aid əlamətlərə əsasən ayırmaq imkanı verir, yəni müvafiq əlamət şəxsin konkret işi görmək

potensialı ilə əlaqəlidirmi və ya həmin işin öhdəsindən gəlmək üçün ixtisas tələb olunurmu.[72] Spesifik müdafiənin digər 2 növünə "Məşğulluq sahəsində bərabərliyə dair" Direktivdə rast gəlmək olar: onlardan biri işçilərin dini və ya əqidəsi zəminində ayrı-seçkiliyinə dini təşkilat olan işəgötürən tərəfindən yol verilməsini nəzərdə tutur ;[73] digər müdafiə növü müəyyən hallarda yaşa görə ayrı-seçkiliyin yol verilməsini nəzərdə tutur.[74] Fərqli rəftarın müdafiə olunması məsələlərinin izah edilməsi işinə AƏM tərəfindən ciddi yanaşma hər bir müstəsna halın çox dar məcrada təfsir olunmasını tələb edir, çünki burada Aİ qanunvericiliyilə insanlar üçün təmin edilmiş hər bir hüququn mahiyyətinə xüsusi diqqət yetirilir.[75]

2.6.4.1. Həqiqi iş şərti

Ayrı-seçkiliyi qadağan edən direktivlərin məşğulluq məsələlərini özündə əks etdirən müddəalarına əsasən:

"Üzv dövlətlər nəzərə almalıdır ki, əgər həmin işin təbiətinə və ya icra edilməsi şəraitinə görə müvafiq əlamət, bu işlə bağlı həqiqi və həlledici şərti təşkil edirsə, rəftar zamanı müdafiə olunan əsaslara aid əlamətlərdən irəli gələn fərqlər ayrı-seçkiliyi təşkil etmir, o şərtlə ki, qarşıya qoyulmuş məqsəd qanunauyğundur və irəli sürülmüş şərt mütənasibdir. "[76]

Əgər həmin əlamət müvafiq şəxsin konkret vəzifəyə yiyələnməsi üçün nəzərdə tutulmuş işi icra etmək bacarığı və ya yararlığı ilə birbaşa əlaqədardırsa, o zaman müdafiənin bu növü işəgötürənlərə şəxsləri müdafiə olunan əsaslar kateqoriyasına aid əlamətlərə əsasən ayırmaq imkanı verir.

Bir sıra məlum peşələr mövcuddur ki, bu peşələrə aid həqiqi iş şərtlərilə əlaqədar bərabərsizliyə yol verilə bilər: AƏM *Komissiyanın AFR-ə qarşı işinə* baxdığı zaman, Komissiyanın cinsi mənsubiyyətə görə ayrı-seçkiliklə əlaqədar bərabərsizliyin miqyasına aid tədqiqatını əsas götürərək barəsində müdafiə tədbirləri tətbiq edilə biləcək konkret peşələri göstərmişdir.[77] İncəsənət sahəsindəki peşələrə xüsusi diqqət yetirilmişdir, çünki konkret işlərlə əlaqədar olaraq müəyyən səciyyəvi əlamətlərə məxsus şəxslər, məsələn, hansısa üslübda ifa üçün yalnız qadın müğənni, müəyyən rolun ifası üçün yalnız gənc aktyor, rəqs üçün yalnız sağlam şəxs, müəyyən növdə moda nümayişi üçün yalnız qadınlar və ya kişilər tələb oluna bilər. Lakin bu konkret peşələrdən ibarət müfəssəl bir siyanın hazırlanması cəhdi kimi qiymətləndirilməməlidir. Burada başqa misallar da gətirmək olar: Çin restoranının orijinallığını qoruyub-saxlamaq üçün yalnız Çin milliyyətindən olan şəxslərin və ya qadınlar üçün fitnes klubunda yalnız qadınların işə götürülməsi.

Misal: AƏM *Komissiyanın Fransa Respublikasına qarşı* işinə baxdığı zaman müəyyən etmişdir ki, müəyyən hallarda, məsələn, kişilər üçün həbsxanalarda ilk olaraq kişi namizədlərin, qadınlar üçün həbsxanalarda isə ilk olaraq qadın namizədlərin işə götürülməsi qanunsuz hesab olunmamalıdır.[78] Lakin belə istisnalar yalnız müvafiq cinsin nümayəndələri tərəfindən icra oluna biləcək işləri nəzərdə tutan vəzifələrlə əlaqədar tətbiq oluna bilər. Sözügedən işə əsasən, Fransanın müvafiq orqanları kişilər tərəfindən icra olunan vəzifələrin sayını olduğu səviyyədə qoruyub-saxlamağa çalışırdı, çünki yalnız kişilər tərəfindən görülə biləcək işlərlə

[72] "Gender bərabərliyinə dair" (yenidən baxılmış) Direktivin 14(2)-ci, "İrqi bərabərliyə dair" Direktivin 4-cü, "Məşğulluq sahəsində bərabərliyə dair" Direktivin 4(1)-ci maddələri.
[73] "Məşğulluq sahəsində bərabərliyə dair" Direktivin 4(2)-ci maddəsi.
[74] "Məşğulluq sahəsində bərabərliyə dair" Direktivin 6-cı maddəsi.
[75] Məsələn, *Constonun Olster Polis İdarəsinin rəisinə qarşı* AƏM-dəki 222/84 [1986] ECR 1651 saylı, 15 may 1986-cı il tarixli işinin 36-cı paraqrafına baxın.
[76] "Gender bərabərliyinə dair" (yenidən baxılmış) Direktivin 14(2)-ci, "İrqi bərabərliyə dair" Direktivin 4-cü, "Məşğulluq sahəsində bərabərliyə dair" Direktivin 4(1)-ci maddələri.
[77] *Komissiyanın AFR-ə qarşı* AƏM-dəki 248/83 [1985] ECR 1459 saylı, 21 may 1985-ci il tarixli işi.
[78] *Komissiyanın Fransa Respublikasına qarşı* AƏM-dəki 318/86 [1988] ECR 3559 saylı, 30 iyun 1988-ci il tarixli işi.

yanaşı, potensial iğtişaşçı-məhbusların qarşısını almaq üçün güc tətbiq elmək lazım gələ bilər. AƏM prinsipcə bu arqumenti qəbul etsə də, Fransanın müvafiq orqanları hansı konkret işlərin yalnız kişilər tərəfindən icra oluna bilməsilə əlaqədar şəffaflıq prinsipinə aid tələbi təmin etməmişdilər: vəzifələrin cinsi mənsubiyyətə görə ümumiləşdirilməsi isə kifayət qədər əsas deyil.

Misal: Constonun işinə əsasən, Şimali İrlandiyada işləyən qadın polis əməkdaşı əmək müqaviləsinin təzələnməməsilə əlaqədar şikayət ərizəsi təqdim etmişdir. Polis rəisi bu qərarı onunla əsaslandırmışdır ki, qadın polis əməkdaşları odlu silahdan istifadə etmək üçün təlim keçməyiblər, çünki *"ciddi daxili çaxnaşmalarla müşahidə olunan vəziyyətdə qadın polis əməkdaşlarının odlu silahla təmin edilməsi əlavə olaraq onlara qarşı cinayətlərin törədilməsi risklərini yaradacaq, bu isə ictimai təhlükəsizliyin təmin olunmasına aid tələblərlə ziddiyyət təşkil edir."* AƏM müəyyən etmişdir ki, təhlükəsizliklə bağlı məsələlər nəzərə alınmalı olsa da, yarana biləcək təhlükə kişilərlə qadınlara bərabər səviyyədə aiddir və qadınlar daha böyük riskə məruz qalmırlar. Əgər əsaslandırma qadınlara xas olan bioloji, məsələn, hamiləlik dövründə uşağın müdafiəsi kimi amillərlə əlaqədar deyilsə, fərqli rəftar qadınların müdafiə olunması barədə ictimai rəyə görə əsaslandırıla bilməz.

Misal: Malburqun işinə görə, həmilə iddiaçı əsasən əməliyyat otağında işləyəcək tibb bacısı (daimi iş yeri) vəzifəsi üçün müraciət etdikdə rədd cavabı almışdır.[79] Rədd cavabı əməliyyat otağında olan zərərli maddələrin təsiri nəticəsində uşağın sağlamlığı üçün təhlükənin yarana bilməsilə əsaslandırılmışdır. AƏM müəyyən etmişdir ki, bu iş yeri daimi olduğundan iddiaçının bu vəzifəni icra etməsinə icazə verilməməsi yalnış bir qərardır, çünki onun əməliyyat otağında işləyə bilməməsi müvəqqəti xarakter daşıyır. Hamilə qadına iş şəraitilə bağlı məhdudiyyətlərin tətbiq edilməsi məqbul olsa da, o, ziyan vura biləcək işlərdən qəti şəkildə kənarlaşdırılaraq tamamilə işləmək imkanından məhrum edilməməlidir.

"Məşğulluq sahəsində bərabərliyə dair" Direktivin Preambulasının 18-ci paraqrafı əməyin mühafizəsi və təhlükəsizliyilə bağlı dövlət sektorunda müəyyən vəzifələr üçün "həqiqi iş şərti"nin müdafiəsinə aid daha konkret müddəaları özündə əks etdirir. Bu, ümumi müdafiəyə aid müddəalar olmasa da, konkret kontekstdə "həqiqi iş şərti"nin müdafiəsindən irəli gələn birbaşa nəticələrlə əlaqədar müddəalar kimi də qəbul edilə bilər:

"Bu Direktiv, konkret olaraq silahlı qüvvələr və polis orqanları, penitensiar xidməti və ya fövqəladə xidmətlər tərəfindən bu cür təşkilatların əməliyyat imkanlarının təmin edilməsindən irəli gələn qanunauyğun məqsədlərlə əlaqədar bir sıra vəzifələrin icrası üçün tələb olunan potensiala malik olmayan şəxslərin işə götürülməsini və ya işdə saxlanmasını nəzərdə tutmur."[80]

Eyni zamanda, bu cür müdafiə böyük fiziki qüvvə tələb edən konkret vəzifələrlə əlaqədar müəyyən yaş həddindən yuxarı olan və ya əlilliyi olan şəxslərə rədd cavabının verilməsilə bağlı yaranmış vəziyyətdə də tətbiq edilə bilər. Məhz bu səbəbdən Direktivin 3(4)-cü maddəsi üzv dövlətlərə icazə verir ki, bu sənəddə əks olunmuş müddəaların silahlı qüvvələrlə əlaqədar tətbiqini birmənalı şəkildə istisna etsin. Bu cür istisnaya aid müddəalar "Gender bərabərliyinə dair" (yenidən baxılmış) Direktivdə əks olunmasa da bu Direktivdən necə istifadə olunduğunu cinsi zəmində ayrı-seçkiliklə və silahlı qüvvələrlə bağlı 2 işi nəzərdən keçirməklə qiymətləndirmək olar. Bu 2 işə hal-hazırda "Gender bərabərliyinə dair" (yenidən baxılmış) Direktivin 14(2)-ci maddəsində öz əksini tapmış, əvvəllər isə "Bərabər rəftara dair" Direktivin 2(2)-ci maddəsində əks olunmuş "həqiqi iş şərti"nin müdafiə olunması məsələsinə əsasən baxılmışdır.

[79] *Malburqun Meklenburq-Vorpommern Torpağına qarşı* AƏM-dəki C-207/98 [2000] ECR I-549 saylı, 3 fevral 2000-ci il tarixli işi.
[80] "Məşğulluq sahəsində bərabərliyə dair" Direktiv, 2000/78/EC, OJ L 303, 2.12.2000, səh.16.

Misal: Sirdarın işinə əsasən xanım iddiaçı hərbi hissədə baş aşbaz vəzifəsində çalışmışdır. O, hərbi hissələrdə "çoxfunksiyalılıq" prinsipinin tətbiq edilməsilə hərbi xərclərin azaldılması səbəbindən aparılmış kadr ixtisarına əsasən xidmətdən xaric edilmişdir.[81] "Çoxfunksiyalılıq" kadr çatışmazlığı səbəbindən hər bir şəxsdən döyüşmək bacarığını tələb edirdi. AƏM qadınların xaric edilməsini kişilərdən ibarət hərbi hissələrdə döyüş qabiliyyətinin təmin edilməsi və "çoxfunksiyalılıq" prinsipinə əməl edilməsi səbəbindən əsaslandırılmasını qəbul edirdi. Bu ondan irəli gəlirdi ki, həmin hissələr adətən hücum xəttinin önündə gedən azsaylı xüsusi təyinatlı hərbi qüvvə hesab olunurdu. AƏM müəyyən etmişdir ki, qarşıya qoyulmuş və döyüş qabiliyyətinin təmin olunmasından ibarət məqsədə nail olmağı tələb edən qaydaya əməl olunmalıdır.

Misal: Kreilin işinə əsasən, xanım iddiaçı hərbi qüvvələrdə elektrik mühəndisi vəzifəsində çalışmaq üçün müraciət etmişdir.[82] Lakin ona rədd cavabı verilmişdir, çünki qadınlar silahdan istifadəni nəzərdə tutan bütün hərbi vəzifələrdən kənarlaşdırılmışdı və hərbi qüvvələrin yalnız tibbi və musiqi xidmətlərində çalışa bilərdilər. AƏM müəyyən etmişdir ki, bu cür istisna çox geniş məna kəsb edir, çünki o, demək olar ki, bütün hərbi vəzifələrə şamil edilə bilər və bu vəzifələrdə çalışan qadınlar bəzi məqamlarda silahdan istifadə etməyi bacarmalıdırlar. İstənilən əsaslandırma konkret vəzifə ilə bağlı icra olunacaq işlə sıx əlaqədə ifadə olunmalıdır. Hökumət tərəfindən verilmiş əsaslandırmanın düzgünlüyü şübhə altına qoyulmuşdur, çünki hətta qadınlar üçün əlçatan olan hərbi xidmətlərdə onlar özünü və başqalarını müdafiə etmək məqsədilə silahdan istifadəyə aid elementar təlimlərdə mütləq qaydada iştirak etməli idilər. Deməli, həyata keçirilmiş tədbir qarşıya qoyulmuş məqsədə nail olmaq üçün mütənasib deyildi. Bundan başqa, əgər bu müdafiə qadınların spesifik vəziyyətinə aid amillərlə (məsələn, onların hamiləlik vaxtı müdafiə olunması zərurətilə) əlaqədar deyilsə, qadınlar üçün daha güclü müdafiənin tələb olunduğunu əsas gətirərək qadınlarla kişilər arasında fərq qoyulmamalıdır.

Gender rolları və sosial münasibətlər vaxtaşırı dəyişdiyindən, konkret təhlükəsizlik və ya fövqəladə xidmətin fəaliyyətinin effektivliyini və ya səmərəliliyini rəhbər tutaraq cinsi zəmində ayrı-seçkiliyin əsaslandırılmasını təmin etmək imkanları getdikcə azalır və bununla əlaqədar olaraq üzv dövlətlərin üzərinə öz məhdudlaşdırıcı tədbirlərini mütamadi olaraq nəzərdən keçirmək öhdəliyi qoyulub.[83]

2.6.4.2. Dini qurumlar

"Məşğulluq sahəsində bərabərliyə dair" Direktiv konkret olaraq *"dini əqidə"* və ya *"dini baxışlar"* əsasında qurulmuş təşkilatlara öz işçilərinə qarşı müəyyən şərtləri irəli sürmək icazəsi verir. Direktivin 4(2)-ci maddəsi bəyan edir ki, bu sənəd *"kilsələrin, həmçinin dini əqidə və ya dini baxışlar əsasında qurulmuş digər dövlət və ya özəl təşkilatların bu qurumlar üçün şəxslərdən vicdanla və bu qurumların xarakterinə uyğun, sədaqətlə işləməyi … tələb etmək hüququna"* müdaxilə etmir. Bundan başqa, dini təşkilatlarda işləyənlər müvafiq təşkilatın dini prinsiplərilə əlaqədar fərqli rəftara imkan verən "həqiqi iş şərti"lə bağlı müdafiədən irəli gələn tələblərlə üzləşə bilərlər.

Beləliklə, əgər qadınların belə vəzifələrdə işləməsi həmin təşkilatların etiqad etdiyi din ilə ziddiyyət təşkil edirsə, 4(1) və 4(2)-ci maddələr kilsə kimi təşkilatlara qadınların keşiş, pastor və ya ruhani vəzifəsinə götürülməməsinə icazə verir. AƏM hələ ki, hansısa işlərə baxaraq bu müddəa ilə bağlı şərhlər vermək imkanına malik olmasa da, yerli səviyyədə bu səpkidən olan

[81] *Sirdarın Ordu Qərargahına və Müdafiə üzrə Dövlət katibinə qarşı* AƏM-dəki C-273/97 [1999] ECR I-7403 saylı, 26 oktyabr 1999-cu il tarixli işi.
[82] *Kreilin AFR-ə qarşı* AƏM-dəki C-285/98 [2000] ECR I-69 saylı, 11 yanvar 2000-ci il tarixli işi.
[83] "Gender bərabərliyinə dair" (yenidən baxılmış) Direktivin 31(3)-cü maddəsi.

iddia ərizələrinə rast gəlmək olar. Aşağıda cinsi oriyentasiya zəminində fərqli rəftarın əsaslandırılması məqsədilə müdafiənin tətbiqi üçün müraciətlə bağlı 2 misal təqdim olunur.

Misal: Finlandiya məhkəməsinin icraatında olan işə əsasən Finlandiyanın Yevangelist Lüteran Kilsəsi şəxsin həmcins şəxslə əlaqədə olduğuna görə kapellan (vikarinin köməkçisi) vəzifəsinə təyin edilməsinə icazə verməmişdir.[84] Vaasa İnzibati Məhkəməsi bu vəzifəni icra etmək üçün heteroseksuallığın həqiqi iş şərti kimi nəzərdə tutulmadığını əsas gətirərək bu qərarı ləğv etmişdir. Əsas diqqət Kilsənin Nizamnaməsində vikarilərin və ya kapellanların təyin olunması ilə əlaqədar cinsi oriyentasiya ilə bağlı heç bir istinadın edilməməsi faktına yetirilmişdir.

Misal: Amikusun işinə əsasən, Böyük Britaniya məhkəməsindən dini işçilər kontekstində həqiqi iş şərtilə bağlı müdafiəni nəzərdə tutan milli qanunvericilik aktlarının "Məşğulluq sahəsində bərabərliyə dair" Direktivlə uyğunluğunu müəyyənləşdirmək xahiş olunmuşdur.[85] Bununla əlaqədar olaraq, bərabər rəftar prinsipindən istənilən istisna halının ətraflı şəkildə açıqlanacağı vurğulanmışdır. Araşdırmalara əsasən, milli qanunvericilik aktları *"mütəşəkkil dini məqsədlər naminə"* məşğulluq sahəsində fərqli rəftara icazə verir və göstərilir ki, bu cür rəftar *"dini təşkilatların məqsədləri"* üçün məşğulluq sahəsində baş verə biləcək fərqli rəftardan daha məhdud xarakter daşıyır. Beləliklə, məhkəmə hökumət tərəfindən verilmiş anlayışla razılaşmışdır: din sahəsində təşviqat və ya təmsil etmə işilə bağlı çox məhdud sayda vəzifələrlə əlaqədar istisnalara yol verilə bilər (məsələn, din xadimlərinin işə götürülməsilə əlaqədar). Bununla belə, dini məktəblər və ya xəstəxanalar kimi dini təşkilatlara təhsil verən müəllimin və ya tibbi xidmətlər göstərən tibb bacısının vəzifəsini *"mütəşəkkil dini məqsədlərin"* bir hissəsi kimi təqdim etmək icazəsi verilmir.

2.6.4.3. Yaşa görə istisnalar

"Məşğulluq sahəsində bərabərliyə dair" Direktivin 6-cı maddəsi yaşa görə fərqli rəftarın 2 cür əsaslandırılmasını nəzərdə tutur.

Maddə 6(1) *"qanunamüvafiq əmək siyasətinin, əmək bazarının və peşə təhsilinin məqsədlərinə"* uyğun olaraq yaşa görə ayrı-seçkiliyə icazə verir, o şərtlə ki, bu mütənasiblik meyarları ilə üst-üstə düşür. Bu Direktivdə fərqli rəftarın imkan daxilində əsaslandırılmasına aid çox az sayda səbəb göstərilir: Maddə 6(1)(b) *"məşğulluq sahəsində yaşla bağlı minimal şərtlərin, peşə təcrübəsinin və ya əmək stajının nəzərə alınmasına"* icazə verir. Lakin bu siyahı müfəssəl hesab edilə bilməz və konkret işlər əsasında artırıla bilər.

6(2)-ci maddə mütənasiblik meyarlarının təmin edilməsini nəzərə almadan özəl təminat sistemlərinə müraciət etmə və bu sistemlərdən faydalanma ilə əlaqədar yaşa görə ayrı-seçkiliyə icazə verir.

Misal: Palacios de la Vilya işinə əsasən, məcburi pensiya yaşı kontekstində 6-cı maddənin tətbiqi məsələlərinə baxılması xahiş olunduqda AƏM ilk dəfə olaraq sözügedən maddənin əhatə dairəsini nəzərdən keçirmək imkanını əldə etmişdir.[86] AƏM məcburi pensiya yaşına aid məsələlərin 6-cı maddə ilə əhatə olunduğunu müəyyənləşdirdikdən sonra bu məsələlərin obyektiv şəkildə əsaslandırılması aspektlərinə diqqət yetirmişdir. AƏM aşağıda sadalananları

[84] Finlandiyanın Vaasa İnzibati Məhkəməsi (Vaasan Hallinto-oikeus), iş No04/0253/3. İşin ingilis dilindəki xülasəsilə FRA-nın informasiya portalında tanış olmaq mümkündür: İş No187-1.

[85] *İddia ərizəsinə əsasən "Amikus MSF Sektion, R"-in Ticarət və Sənaye üzrə Dövlət katibinə qarşı* Böyük Britaniyanın Ali Məhkəməsində [2004] EWHC 860 (Admin) saylı, 26 aprel 2004-cü il tarixli işi. İşin ingilis dilindəki xülasəsilə FRA-nın informasiya portalında tanış olmaq mümkündür: İş No187-1.

[86] *de la Vilyanın Kortefiel Servisios SA-ya qarşı* AƏM-dəki C-411/05 [2007] ECR I-8531 saylı, 16 oktyabr 2007-ci il tarixli işi.

xüsusi əhəmiyyət kəsb edən amillər kimi qəbul etmişdir:

- bu maddədə ilk olaraq əks olunmuş tədbir yüksək işsizliklə müşahidə olunan iqtisadi vəziyyəti nəzərə almaqla əmək bazarında münasib imkanların yaradılmasını nəzərdə tuturdu.
- keçid xarakteri daşıyan tədbirin nəsillər arasında daha yaxşı iş bölgüsünün aparılmasını təmin etmək məqədilə həmkarlar ittifaqları və işəgötürənlərin təşkilatları arasında marağın yaradılması üçün həyata keçirildiyinə aid faktlar mövcuddur.
- 14/2005 saylı Qanun, həmkarlar ittifaqları ilə işəgötürənlərin təşkilatları arasındakı əməkdaşlıq nəticəsində ərsəyə gətirilmişdir və o zamanlar birmənalı şəkildə tələb edirdi ki, sözügedən tədbir *"məşğulluq siyasətinə uyğun gələn və kollektiv müqavilə ilə təsbit olunmuş məqsədlərlə əlaqələndirilsin."*
- yuxarıda qeyd olunan kollektiv müqavilədə öz əksini tapmış məcburi pensiya barədə müddəa *"məşğulluğun təmin edilməsinə dair maraqları"* məzərdə tuturdu.

AƏM bu amilləri nəzərdən keçirdikdən sonra belə bir nəticəyə gəlmişdir ki, *"müvafiq kontekstdə keçid xarakteri daşıyan tədbirin əsas məqsədi konkret olaraq işsizlik səviyyəsini nəzərə almaqla yerli əmək bazarını tənzimləməkdən ibarət idi."* AƏM bu nəticəni əsas götürərək, kollektiv müqavilənin qanunauyğun məqsədlərə xidmət etməsi barədə qərar qəbul etmişdir. AƏM qanunauyğun məqsədə əməl olunduğuna əmin olduqdan sonra bu məqsədə nail olmaq üçün həyata keçirilmiş müvafiq tədbirin nə dərəcədə *"münasib və zəruri"* olduğunu müəyyənləşdirməli idi. AƏM bir daha nəzərə çatdırmışdır ki, üzv dövlətlər sosial siyasət və məşğulluq siyasəti sahəsində geniş ixtiyar sahibi olduğundan bunu belə bir cümlə ilə ifadə etmişdir: *"səciyyəvi müddəalar üzv dövlətlərdəki vəziyyətdən asılı olaraq dəyişə bilər."* Əsas məsələ işçilər tərəfindən *"məntiqəuyğun"* yaşa görə pensiyaya çıxmaq imkanının əldə edilməsindən ibarətdir. Diqqəti cəlb edən başqa bir əsas məqam ondan ibarətdir ki, qeyd olunan səciyyəvi müddəalar həmkarlar ittifaqları ilə işəgötürənlərin təşkilatları arasında imzalanmış kollektiv müqavilə əsasında müəyyənləşdirilirdi və bütün prosesə bir çeviklik əlavə edirdi, çünki pensiyaya çıxmaq barədə qərara icazə verməzdən əvvəl əlaqədar əmək bazarının tələbləri və sözügedən işə aid təkliflər nəzərə alınırdı. Bunun əsasında AƏM cənab Palasiosa mənfi təsir göstərmiş keçid xarakterli tədbirin, həmçinin kollektiv müqavilənin obyektiv şəkildə əsaslandırıldığını və bu səbəbdən də Aİ qanunvericliyinə uyğun olduğunu müəyyən etmişdir. AƏM tərəfindən tətbiq edilmiş yanaşma ayrı-seçkiliyin müdafiəsi ilə bağlı yuxarıda müzakirə edilmiş əsasları rəhbər tutaraq, 6-cı maddənin obyektiv əsaslandırma ilə eyni tərzdə nəzərə alınmasından ibarət idi.

Misal: MakKalloşun Böyük Britaniyayada baxılmış işinə əsasən, məhkəmədən yaş və staj məsələlərini nəzərə alaraq ixtisara görə ödənilən mövcud müavinət sisteminə hüquqi qiymətin verilməsi xahiş olunmuşdur.[87] Aydın məsələdir ki, prinsip etibarı ilə nisbətən cavan işçi heyətlə müqayisədə daha çox iş stajı olan yaşlı işçilərin payına daha böyük məbləğ düşürdü. Böyük Britaniyanın Apellyasiya Məhkəməsi, yaşlı işçilərin sadiqliyinə görə mükafatlandırılması, əmək bazarındakı həssas vəziyyətlərinə görə daha böyük məbləğlə təmin edilməsi və eyni zamanda, gənc kadrlar üçün iş yerlərinin boşalması üçün yaşlı əməkdaşların pensiyaya çıxmasının stimullaşdırılması məqsədilə bir vasitə kimi bu sistemin obyektiv şəkildə əsaslandırılmasının mümkünlüyü ilə razılaşırdı. Lakin obyektiv əsaslandırma məsələsinə necə yanaşmaqla bağlı

[87] *MakKalloşun "Imperial Chemical Industries plc" şirkətinə qarşı* Böyük Britaniyanın Məşğulluq Məsələlərinə dair Apellyasiya Məhkəməsindəki [2008] IRLR 846 saylı, 22 iyul 2008-ci il tarixli işi.

istiqamət verilmişdir və bildirilmişdir ki, obyektiv əsaslandırma ilə əlaqədar olaraq hansısa qərara gəlməzdən əvvəl mütənasibliyin təmin edilməsi üçün müfəssəl təhlilin aparılması tələb olunur.

Misal: *Hütterin* işinə əsasən, AƏM-dən əmək haqqının müəyyənləşdirilməsi üçün 18 yaş tamam olanadək toplanmış iş stajının nəzərə alınmamasını nəzərdə tutan Avstriya qanunvericiliyilə bağlı rəy verilməsi xahiş olunmuşdur. Cənab Hütter və onun xanım həmkarı Grats, Texnologiya Universitetində şagird kimi usta yanında çalışırdılar və şagirdlik müddəti başa çatdıqdan sonra onlara 3 aylıq müqavilə təklif olunmuşdur. Sözügedən qanunvericiliyə əsasən, 18 yaşı yenicə tamam olmuş cənab Hütterin əmək haqqı 6,5 aylıq iş stajına əsasən müəyyən edildiyi halda, ondan 22 ay böyük həmkarının əmək haqqı müvafiq olaraq 28,5 aylıq staja əsasən müəyyənləşdirilmişdir. Bunun nəticəsində, bu şəxslərin aylıq əmək haqqında fərq yaranmışdı, baxmayaraq ki, onların 2-si də bərabər səviyyəli təcrübəyə malik idilər.

Cənab Hütter şikayət edərək belə bir hüquqi normanın 18 yaşı tamam olduqdan sonra iş stajını toplamağa başlamış şəxslər üçün daha münasib olduğunu bildirmişdir. AƏM sözügedən qanunvericiliyin əsas məqsədinin qanunauyğun hesab olunduğunu qəbul etmişdir: (1) tam orta təhsilli şəxslərin peşə təhsili almış şəxslərlə müqayisədə qeyri-münasib vəziyyətə düşməməsi; və (2) usta yanında şagird kimi çalışmağın bahalı olmasının qarşısının alınması və bununla da bu cür peşə təlimi keçmiş gənclərin əmək bazarına inteqrasiyasının təmin edilməsi. AƏM qanunauyğun məqsədin mütənasib və zəruri olduğunu müzakirə edib qiymətləndirərək üzv dövlətin geniş ixtiyar çərçivələrinə malik olduğunu bildirmişdir və obyektiv əsaslandırmanın müvafiq qaydada aparılmadığını müəyyən etmişdir, çünki qanun gənclərə qeyri-mütənasib təsir göstərirdi (xüsusən də əgər onların iş stajı eyni idisə və konkret olaraq iddiaçının timsalında yaş ödəniləcək əmək haqqına mənfi təsir göstərirdisə).

Qeyd olunmalıdır ki, bu yanaşma 4.2-ci bölmədə müzakirə olunmuş *Ştek və başqalarının* işi ilə əlaqədar əsas götürülmüş AİHK kontekstində fərqli pensiya yaşlarını nəzərdən keçirmiş AİHM-in yanaşması ilə də uyğundur. Bu baxımdan məhkəmələrin yaşla bağlı istisnalara yanaşması məşğulluq və sosial siyasət sahələrindəki istisnaların əsaslandırılması istiqamətindəki yanaşmaları ilə üst-üstə düşür.

Əsas məqamlar

- AİHK-ya əsasən, birbaşa ayrı-seçkiliklə bağlı ümumi müdafiə mexanizmləri mövcuddur. Aİ qanunvericiliyinə əsasən isə məşğulluq kontekstilə əlaqələndirilmiş birbaşa ayrı-seçkiliklə bağlı spesifik müdafiə tədbirləri mövcuddur.
- AİHK-ya və Aİ qanunvericiliyinə əsasən, dolayı ayrı-seçkilik obyektiv əsaslandırmanı təşkil edən ümumi müdafiə subyektidir.
- Əgər fərqli rəftar qanuni məqsədlərə xidmət edirsə və bu məqsədlərə nail olma vasitələri mütənasib və zəruridirsə, onda həmin rəftarın əsaslandırılması mümkündür,
- Ayrı-seçkiliyi qadağan edən Aİ qanunvericiliyinə əsasən, dolayı ayrı-seçkiliyə aid ümumi müdafiə ilə yanaşı, daha spesifik müdafiə növləri mövcuddur, xüsusilə də: (i) həqiqi iş şərtlərinin müdafiəsi; (ii) dini qurumlarla əlaqədar istisnaların müdafiəsi; və (iii) yaşa görə ayrı-seçkiliyin müdafiəsi.
- Yaşa görə ayrı-seçkilik yalnız Aİ qanunvericiliyinə əsasən müdafiə olunan əsasdır (əgər bu səpkidən olan birbaşa ayrı-seçkilik obyektiv şəkildə əsaslandırılarsa).

Əlavə ədəbiyyat

Bamforth, Malik and O'Cinneide, Discrimination Law: Theory and Context (London, Sweet and Maxwell, 2008), Chapters 4, 5, 6, 8./*"Ayrı-seçkiliyə dair qanunvericilik: nəzəriyyə və kontekst", fəsillər 4, 5, 6, 8*

Barnard, EC Employment Law (Oxford, Oxford University Press, 2009), Chapters 6, 7, 8, 9, 10./*"Aİ-nin məşğulluq sahəsində qanunvericiliyi", fəsillər 6, 7, 8, 9, 10*

Bercusson, European Labour Law (Cambridge, Cambridge University Press, 2009), Chapters 10, 11, 22./*"Avropa əmək qanunvericiliyi", fəsillər 10, 11, 22*

Dubout, 'L'interdiction des discriminations indirectes par la Cour européenne des droits de l'homme : rénovation ou révolution ? Epilogue dans l'affaire D.H. et autres c. République tchèque, Cour européenne des droits de l'homme (Grande Chambre), 13 novembre 2007', 19 Revue trimestrielle des droits de l'homme, (2008) 75.

Ellis, EU Anti-Discrimination Law (Oxford, Oxford University Press, 2005), Chapter 6./*"Ayrı-seçkiliyin qadağan olunması sahəsində Aİ qanunvericiliyi", fəsil 6*

ERRC/Interights/MPG Strategic Litigation of Race Discrimination in Europe: from Principles to Practice (Nottingham, Russell Press, 2004), Annex 5. /*"Avropada irqi ayrı-seçkiliklə bağlı strateji çəkişmələr: prinsiplərdən təcrübəyə", əlavə 5*

European Network of Legal Experts in the Non-Discrimination Field, The Limits and Potential of the Concept of Indirect Discrimination (Luxembourg, Publications Office, 2008)./*"Dolayı ayr-seçkiliyə dair konsepsiyanın məhdudiyyətləri və potensialları"*

European Network of Legal Experts in the non-discrimination field, Beyond formal equality: positive action under Directives 2000/43/EC and 2000/78/EC (Luxembourg, Publications Office, 2007) – also available in French and German./*"Formal bərabərlikdən kənar: 2000/43/EC və 2000/78/EC saylı Direktivlər əsasında müsbət tədbirlər" (fransız və alman dillərində də mövcuddur)*

European Network of Legal Experts in the non-discrimination field, Age discrimination and European Law (Luxembourg, Publications Office, 2005) – also available in French and German./*Yaşa görə ayrı-seçkilik və Avropa qanunvericiliyi" (fransız və alman dillərində də mövcuddur)*

European Network of Legal Experts in the non-discrimination field, Religion and Belief in Employment (Luxembourg, Publications Office, 2006) – also available in French and German./*Məşğulluq sahəsində din və əqidə məsələləri" (fransız və alman dillərində də mövcuddur)*

Fredman, Discrimination Law (Oxford, Oxford University Press, 2002), Chapter 4./*"Ayrı-seçkiliyə dair qanunvericilik", fəsil 4*

Heyden and von Ungern-Sternberg, 'Ein Diskriminierungsverbot ist kein Fördergebot – Wider die neue Rechtsprechung des EGMR zu Art. 14 EMRK', Europäische Grundrechte-Zeitschrift (2009).

Interights, Non-Discrimination in International Law (London, Interights, 2005), Chapters 3 and 4./*"Beynəlxalq qanunvericilikdə ayrı-seçkiliyin qadağan olunması məsələləri", fəsillər 3 və 4*

Mowbray, The Development of Positive Obligations under the European Convention on Human Rights by the European Court of Human Rights (Oxford, Hart Publishing, 2004), Chapter 7./ *“Avropa İnsan Hüquqları Konvensiyası əsasında Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən müsbət öhdəliklərin inkişaf etdirilməsi”, fəsil 7*

Schiek, Waddington and Bell (eds.), Cases, Materials and Text on National, Supranational and International Non-Discrimination Law (Oxford, Hart Publishing, 2007), Chapters 2, 3 and 7./*“Ayrı-seçkiliyin qadağan olunması sahəsində milli, regional və beynəlxalq qanunvericiliyə aid işlər, materiallar və sənədlər”, fəsillər 2, 3 və 7*

3. Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinin əhatə dairəsi

3.1. Giriş

Ayrı-seçkiliyin qadağan olunmasına dair Avropa qanunvericilyi, birbaşa və dolayı ayrı-seçkiliyə yol verməsə də, müəyyən kontekstlərdə buna icazə verir. Aİ-də ayrı-seçkiliyi qadağan edən qanunvericilik, daxili bazarın fəaliyyətini asanlaşdırmaq məqsədilə tətbiq edilmişdir və bu səbəbdən də ənənəvi olaraq əsasən məşğulluq sahəsini əhatə edirdi. 2000-ci ildə "İrqi bərabərliyə dair" Direktiv tətbiq edildikdən sonra, bu qanunvericiliyin əhatə dairəsi genişləndirilərək mallar və xidmətlər sahəsini, həmçinin dövlət təminat sistemini də əhatə etmişdir, nəzərə alsaq ki, iş yerlərində bərabərliyi təmin etmək üçün məşğulluq sahəsinə təsir göstərən sahələrdə də bərabərliyin təmin edilməsi tələb olunur. "Mallar və xidmətlər sahəsində gender bərabərliyinə" dair Direktiv, cinsi zəmində bərabərlik məsələlərinin əhatə dairəsini mallar və xidmətlər sahəsində də genişləndirmək məqsədilə sonradan qəbul edilmişdir. Lakin cinsi oriyentasiya, əlillik, yaş və ya dini baxışlar zəminində ayrı-seçkiliyi qadağan edən "Məşğulluq sahəsində bərabərliyə dair" Direktiv yalnız məşğulluq kontekstində tətbiq edilir. 1.1.2-ci yarımbölmədə müzakirə olunduğu kimi, bu əsaslara görə müdafiənin mallar və xidmətlər sahəsində, həmçinin sosial təminat sistemində də tətbiq edilməsi məsələsi hal-hazırda qanunverici orqanlar tərəfindən nəzərdən keçirilir.

Yuxarıda qeyd olunan qanunvericilik aktlarından fərqli olaraq AİHK-nın 14-cü maddəsi bu sənəddə təsbit olunmuş əsas hüquq və azadlıqların ayrı-seçkilik olmadan təmin edilməsini nəzərdə tutur. Bundan başqa, AİHK-nın 2005-ci ildə qüvvəyə minmiş 12 saylı Protokolu hətta AİHK-la təsbit olunmamış, lakin milli səviyyədə nəzərdə tutulmuş istənilən hüquqdan istifadə ilə bağlı ayrı-seçkilik əleyhinə qadağanın əhatə dairəsini genişləndirir. Lakin bu Protokol AŞ-yə üzv olan 47 dövlətdən 17-si tərəfindən ratifikasiya edilib və bu 17 dövlətdən 6-sı Aİ-nin üzvüdür. Bu isə Aİ-yə üzv olan dövlətlər arasında ayrı-seçkiliyin qadağan olunmasına dair Avropa qanunvericiliyilə bağlı müxtəlif səviyyədə öhdəliklərin mövcud olması deməkdir.

Bu fəsil ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinin əhatə dairəsini nəzərdən keçirir. İlk olaraq AİHK-nın 14-cü maddəsi və 12 saylı Protokolunun əhatə dairəsi, həmçinin bu sənədin tətbiqi sahəsinin müəyyənləşdirilməsi istiqamətində AİHM tərəfindən qəbul edilmiş metodlar ümumi şəkildə təsvir olunur. Sonra ayrı-seçkiliyi qadağan edən direktivlərlə əhatə olunan və xüsusi əhəmiyyət kəsb edən sahələr, eyni zamanda, bu sahələrin 14-cü maddə ilə əhatə olunan sahələrə uyğun gəlməsi məsələləri nəzərdən keçirilir. Yekunda AİHK-nın Aİ qanunvericiliyinə aid olan konkret kontekstlərdən kənarda şamil edildiyi sahələrin, məsələn, səmərəli hüquqi müdafiə vasitələri və "şəxsi" sahələrin xülasəsi verilir.

3.2. Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinə əsasən müdafiə kimlərə şamil olunur?

İlk növbədə xüsusi diqqət Aİ qanunvericiliyinə və AİHK-ya əsasən müdafiədən faydalananlara yetirilməlidir. AİHK onu imzalamış dövlətin yurisdiksiyasında olan və həmin dövlətin vətəndaşı olub-olmamasından asılı olmayaraq bütün şəxslərə, hətta həmin dövlətin ərazilərinə aid olan, lakin faktiki nəzarəti altında olmayan (məsələn, işğal olunmuş) ərzilərə də müdafiənin şamil edilməsini nəzərdə tutur.[88] AİHK-dan fərqli olaraq, Aİ qanunvericiliyi daha məhdud əhatə dairəsinə malikdir. Aİ qanunvericiliyinə əsasən, vətəndaşlıq zəminində ayrı-seçkiliyin qadağan olunması insanların sərbəst hərəkət etmə hüququ kontekstində tətbiq edilir və yalnız Aİ-yə üzv olan dövlətlərin vətəndaşlarına şamil olunur. Bundan başqa, ayrı-seçkiliyi qadağan edən

[88] *Loizidunun Türkiyə Respublikasına qarşı* AİHM-dəki 15318/89 saylı, 18 dekabr 1996-cı il tarixli işi.

direktivlər bu hüquqi normaların 3-cü ölkə vətəndaşlarına (ÜÖV) şamil edilməsi ilə əlaqədar bir sıra istisnaları özündə əks etdirir. ÜÖV Aİ-yə üzv olan dövlətin vətəndaşı olmayan şəxsdir.

Ayrı-seçkiliyi qadağan edən direktivlər bu hüquqi normaların "Sərbəst hərəkətə dair" Direktivlə tənzimlənən vətəndaşlıq zəminində ayrı-seçkilik məsələlərinə şamil edilməsini birmənalı şəkildə istisna edir.[89] "Sərbəst hərəkətə dair" Direktivə əsasən yalnız Aİ-yə üzv olan dövlətlərin vətəndaşları Aİ-yə üzv olan digər dövlətlərin ərazilərində yaşamaq hüququna malikdirlər. Aİ-yə üzv olan başqa dövlətdə 5 il qanuni şəkildə yaşadıqdan sonra, Aİ vətəndaşı həmin dövlətdə daimi yaşamaq hüququna malikdir və o, "işçi" kateqoriyasına aid şəxslərə şamil olunan eyni hüquqlarla təmin olunur. Əlbəttə, bu o demək deyil ki, digər üzv dövlətlərin vətəndaşları ayrı-seçkiliyi qadağan edən direktivlərlə müdafiə olunmurlar. Məsələn, cinsi oriyentasiyasına görə Yunanıstanda işdən azad edilmiş alman homoseksual öz hüquqlarını müdafiə etmək üçün "Məşğulluq sahəsində bərabərliyə dair" Direktivə əsaslana bilər. Sadəcə olaraq bu o deməkdir ki, şəxs vətəndaşlığa görə ayrı-seçkiliyə məruz qalması barədə şikayət edərək bunu irqi mənsubiyyət və ya etnik mənşə məsələləri çərçivəsinə salmalıdır və ya "Sərbəst hərəkətə dair" Direktivi əsas gətirməlidir.

İstər "İrqi bərabərliyə dair" Direktiv, istərsə də "Məşğulluq sahəsində bərabərliyə dair" Direktiv ölkəyə gəlmə və burada qalma şərtlərilə əlaqədar ÜÖV-lər üçün bərabər rəftar hüququnun təmin edilməsini nəzərdə tutmur. Bundan başqa, "Məşğulluq sahəsində bərabərliyə dair" Direktiv əmək fəaliyyətilə məşğul olma və işlə təmin olunma məsələlərilə əlaqədar ÜÖV-lər üçün bərabər rəftar hüququnun təmin edilməsini də nəzərdə tutmur. Eyni zamanda, "İrqi bərabərliyə dair" Direktiv *"ÜÖV-lərin hüquqi statusundan irəli gələn hər hansı bir rəftarla əlaqədar məsələlərin"* bu Direktivlə əhatə olunmadığını bəyan edir. Lakin bu Direktiv üzv dövlətlər üçün ÜÖV-nın ümumiyyətlə müdafiədən təcrid edilməsinə icazə verməyi nəzərdə tutmur, çünki sənədin preambulasında ÜÖV-lərin məşğulluq sahəsindəki hüquqlarını çıxmaq şərtilə Direktivlə müdafiə olunduğu bəyan edilir. "Gender bərabərliyinə dair" (yenidən baxılmış) Direktiv, həmçinin "Mallar və xidmətlər sahəsində gender bərabərliyinə dair" Direktiv ÜÖV-lərin müdafiəsini istisna etmir.

Lakin ÜÖV-lər ayrı-seçkiliyi qadağan edən direktivlərlə əhatə olunmuş sahələrdə bərabər rəftar hüququndan "Üçüncü ölkə vətəndaşlarına dair" Direktivə əsasən *"uzunmüddətli sakinlər"* hesab olunduqda istifadə edə bilərlər (bu Direktiv digər şərtlərlə yanaşı, Aİ-yə üz olan dövlətin ərazisində 5 il ərzində qanuni yaşamağı nəzərdə tutur).[90] Bundan başqa, "Ailənin yenidən birləşməsinə dair" Direktiv Aİ-yə üzv olan dövlətdə qanuni yaşayan ÜÖV-lərə müəyyən şərtlər əsasında ailə üzvlərilə bu dövlətdə birləşməsinə icazə verir.[91]

Əlbəttə ki, Aİ qanunvericiliyi çərçivəsində mövcud olan belə hüquqi normalar üzv dövlətləri öz milli qanunvericiliklərinə əsasən daha əlverişli şərtlər tətbiq etməkdən çəkindirmir. Eyni zamanda, 4.7-ci bölmədə müzakirə olunduğu kimi, AİHK-dan irəli gələn presedent hüququ göstərir ki, dövlət öz vətəndaşlarının və əcnəbilərin müqayisə olunmayan vəziyyətdə olduqlarını və müəyyən şəraitdə onlarla fərqli şəkildə rəftarın mümkün olduğunu hesab etsə də, prinsip etibarı ilə AİHK-da təsbit edilmiş bütün hüquqlar onu imzalamış dövlətin yurisdiksiyasına düşən bütün şəxslər üçün bərabər səviyyədə təmin olunmalıdır. Bununla əlaqədar olaraq, AİHK ÜÖV-

[89] "Avropa İttifaqı vətəndaşlarının və onların ailə üzvlərinin Avropa İttifaqına üzv olan dövlətlərin ərazilərində sərbəst hərəkət etmək və yaşamaq hüququna dair" 2004/38/EC saylı Direktiv. OJ L 158, 30.4.2004, səh. 77.
[90] "Uzunmüddətli rezident olan üçüncü ölkə vətəndaşlarının stausuna dair" 2003/109/EC saylı Direktiv. OJ L 16, 23.01.2004, səh. 44.
[91] "Ailənin yenidən birləşməsi hüququna dair" 2003/86/EC saylı Direktiv. OJ L 251, 3.10.2003, səh. 12.

lərlə bağlı üzv dövlətlərin üzərinə bəzi sahələrdə Aİ qanunvericiliyinin tələblərindən kənara çıxan öhdəliklər qoyur.

3.3. Avropa İnsan Hüquqları Konvensiyasının əhatə dairəsi: 14-cü maddə və 12 saylı Protokol

3.3.1. Avropa İnsan Hüquqları Konvensiyasına əsasən ayrı-seçkiliyin qadağan olunması xüsusiyyətləri

14-cü maddə, AİHK-da *"…təsbit olunmuş hüquq və azadlıqlardan istifadə"* sahəsində bərabərliyin təmin olunmasını nəzərdə tutur. Məhz bu səbəbdən də, AİHM, AİHK əsasında müdafiə olunan hüquqlardan birinin əhatə dairəsinə düşməyən ayrı-seçkiliklə bağlı şikayətlərə baxmaq səlahiyyətinə malik deyil.

AİHM, 14-cü maddənin ehtimal olunan pozulma hallarına baxarsa, bu bir qayda olaraq maddi hüquqlarla əlaqələndirilmiş şəkildə baş verir. Adətən şikayətçi maddi hüququn və bununla yanaşı 14-cü maddə ilə əlaqədar maddi hüququn pozulduğunu idda edir. Başqa sözlə, onun hüquqlarına müdaxilə, maddi hüquqla nəzərdə tutulmuş normaları təmin etməməklə yanaşı, oxşar vəziyyətdə olan başqa şəxslərin üzləşmədiyi qeyri-münasib rəftara görə diskriminativ hesab oluna bilər. 4-cü fəsildə qeyd edildiyi kimi, AİHM iddiaya baxarkən maddi hüququn pozulduğunu müəyyən etdikdə, iddianın ayrı-seçkiliklə bağlı hissəsinə baxmır (əgər bu işin həmin iddianın yenidən baxılmasını nəzərdə tutduğunu hesab edirsə).

İlk növbədə, bu fəsildə AİHK-la təmin olunan hüquqlar qısa şəkildə nəzərdən keçiriləcək, sonra isə 14-cü maddənin tətbiqi məqsədilə AİHK-nın əhatə dairəsi AİHM tərəfindən necə təfsir olunduğu izah ediləcək.

3.3.1.1. Avropa İnsan Hüquqları Konvensiyası ilə əhatə olunan hüquqlar

14-cü maddə AİHK tərəfindən nəzərdə tutulmuş maddi hüquqlardan birilə əlaqədar baş vermiş ayrı-seçkillik hallarından tam asılı olduğundan, AİHK-la əhatə olunan hüquqların dərk edilməsi zəruridir. AİHK əsasən *"mülki və siyasi"* hüquqlar kimi xarakterizə edilən bir sıra hüquqları özündə əks etdirməklə yanaşı, müəyyən *"iqtisadi və sosial"* hüquqları da müdafiə edir.

AİHK-da öz əksini tapmış maddi hüquqlar son dərəcə geniş diapazona malikdir və yaşamaq hüququ, şəxsi həyata və ailə həyatına hörmət hüququ, həmçinin fikir, vicdan və din azadlığı kimi hüquqlardan ibarətdir.

İddia olunan ayrı-seçkilik məsələsi, AİHK hüququ ilə əhatə olunan sahələrdən birinə aid olduqda, AİHM müvafiq iddia ərizəsinə 14-cü maddənin pozulması prizmasından baxacaq.

Bu, Aİ qanunvericiliyilə AİHK arasında mövcud olan həddindən artıq əhəmiyyətli bir fərqdir və həmin fərq ondan ibarətdir ki, AİHK ayrı-seçkiliyin qadağan olunmasına dair Aİ qanunvericiliyi tərəfindən tənzimlənməyən məsələlərlə əlaqədar ayrı-seçkilikdən müdafiəni təmin edir. Aİ-nin Əsas Hüquqlar Xartiyası, Aİ-nin üzərinə gördüyü tədbirlərlə (o cümlədən ayrı-seçkiliyin qadağan edilməsilə) insan hüquqları sahəsinə müdaxilə etməmək öhdəliyi qoysa da, bu Xartiya üzv dövlətlərə yalnız Aİ qannvericiliyini tətbiq etdikləri zaman şamil olunur. Xartiyanın Aİ-yə üzv olan dövlətlərə bu cür məhdud şəkildə şamil olunmasının səbəbi Aİ-nin özündə qanunvericiliyin icrası üçün inzibati mexanizmlərin mövcud olmaması ilə əlaqadardır – hətta Aİ qanunvericiliyi üzv dövlətlərin hökumətləri tərəfindən həyata keçirilir. Beləliklə, üzv dövlətlərin Aİ-yə müvafiq səlahiyyətlər həvalə etmədikləri sahələrdə Xartiya hüquqi qüvvəyə malik deyil.

Ayrı-seçkiliyin qadağan edilməsinə dair direktivlərin tətbiqinə başlanıldıqdan və müdafiə məsələləri mallar və xidmətlər sahəsini, sosial təminat sistemini əhatə etdikdən sonra AİHK və

direktivlər tərəfindən təklif olunan müdafiə növlərinin əhatə dairəsi arasındakı fərq azalmışdır. Bununla belə, Aİ qanunviciyilə nəzərdə tutulmuş müdafiə ilə əhatə olunan sahələri tamamlayan və AİHK tərəfindən nəzərdə tutulmuş müdafiə ilə əhatə olunan konkret sahələri müəyyən etmək mümkündür. Bu sahələr aşağıda nəzərdən keçiriləcək.

3.3.1.2. Avropa İnsan Hüquqları Konvensiyasında nəzərdə tutulmuş hüquqların əhatə dairəsi

AİHM 14-cü maddəni tətbiq edərkən AİHK-da nəzərdə tutulmuş hüquqların əhatə dairəsilə bağlı çox geniş şərh qəbul etmişdir:

- AİHM dəqiqləşdirmişdir ki, hətta iddianın özü birbaşa maddi hüququn pozulması ilə bağlı olmasa belə, iddialara maddi hüquqla əlaqələndirilən 14-cü maddə əsasında baxa bilər;[92]
- AİHM, AİHK-nın əhatə dairəsinin bu sənəddə nəzərdə tutulmuş hüquqların mənasından daha geniş olduğunu müəyyən etmişdir. Bu səbəbdən də, konkret işlə bağlı faktların AİHK əsasında müdafiə olunan məsələlərə geniş şəkildə aid olması kifayətdir.

Misal: Zərb Adaminin Malta Respublikasına qarşı işinə əsasən, iddiaçı andlı iclasçılar kimi iştirak etmək üçün dəvət olunmuş kişilərin çoxluq təşkil etməsi səbəbindən cinsi zəmində ayrı-seçkiliklə bağlı şikayət etmişdir.[93] AİHK-nın 4(2)-ci maddəsi məcburi əməyi qadağan edir. Lakin AİHK-nın 4(3)(d) maddəsi *"adi vətəndaşlıq vəzifələrinin" "icbari əmək"* terminilə ehtiva olunmadığını bəyan edir. AİHM müəyyən etmişdir ki, konkret "*adi vətəndaşlıq vəzifələri"* bu maddə ilə əhatə olumasa da (başqa sözlə, AİHK andlı iclasçı vəzifəsini icra etmək funksiyasından azad olunma hüququnu nəzərdə tutmasa da) bu işə aid faktlar müvafiq hüququn əhatə dairəsinə düşür. AİHM öz qərarını belə bir faktla əsaslandırmışdır ki, *"adi vətəndaşlıq vəzifələrini"* təşkil edən məsələlər diskriminativ tərzdə tətbiq edildikdə "anormal" hesab oluna bilər.

Misal: E.B.-nin Fransa Respublikasına qarşı işinə əsasən, dövlət orqanları öz partnyoru ilə yaşıyan lezbian qadının övladlığa uşaq götürmək barədə ərizəsini qəbul etməmişdir.[94] Ərizəçi 14-cü maddə ilə əlaqələndirlimiş şəkildə 8-ci maddənin pozulduğunu iddia edirdi. AİHM konkret olaraq birbaşa 8-ci maddənin pozulub-pozulmaması barədə qərar qəbul edilməsinin ondan xahiş olunmadığını bildirmiş və bunu vacib bir məsələ kimi qeyd etmişdir, çünki 8-ci maddə özlüyündə ailə qurmaq və ya övladlığa götürmək hüquqlarının təmin edilməsini nəzərdə tutmur. Lakin AİHM ayri-seçkilik barədə şikayətin konkret bir hüququn əhatə dairəsinə düşməsinin mümkün olduğunu vurğulamışdır. Fransa Respublikası övladlığa götürmək hüququnu nəzərdə tutan milli qanunvericilik bazasına malik olduğundan, bu işə aid faktların 8-ci maddənin əhatə dairəsinə birmənalı şəkildə düşdüyü AİHM tərəfindən müəyyən olunmuşdur. Eyni zamanda, AİHM müəyyən etmişdir ki, işin faktlarına əsasən, sözügedən qadının övladlığa uşaq götürmək xahişinə dövlət orqanları tərəfindən rədd cavabının verilməsində həlledici rolu qadının cinsi oriyentasiyası oynamışdır, bu isə milli qanunvericiliyə əsasən, övladlığa uşaq götürmək hüququna malik digər subay şəxslərlə müqayisədə diskriminativ rəftar hesab olunmuşdur.

Misal: Sidabrasın və Djiautasın Litva Respublikasına qarşı işinə əsasən, iddiaçılar dövlət sektorunda və özəl sektorun müəyyən sahələrinə işə götürülmələrinə qadağa qoymuş dövlət tərəfindən onların şəxsi həyatına hörmət etmə hüququna müdaxilə olunma kimi qiymətləndirərək şikayət etmişdilər.[95] AİHK çərçivəsində əmək hüququnun təmin edilməsi nəzərdə tutulmur. Lakin AİHM bu işin 8-ci maddənin əhatə dairəsinə düşdüyünü müəyyən etmişdir, çünki bu cür qadağa *"onların şəxsi həyatına hörmət hüququna aşkar şəkildə təsir*

[92] Məsələn, *Sommerfeldin AFR-ə qarşı* AİHM-dəki [GC] (No. 31871/96) saylı, 8 iyul 2003-cü il tarixli işi.
[93] *Zərb Adaminin Malta Respublikasına qarşı* AİHM-dəki 17209/02 saylı, 20 iyun 2006-cı il tarixli işi.
[94] *E.B.-nin Fransa Respublikasına qarşı* AİHM-dəki [GC] 43546/02 saylı, 22 yanvar 2008-ci il tarixli işi.
[95] *Sidabrasın və Djiautasın Litva Respublikasına qarşı* AİHM-dəki 55480/00 və 59330/00 saylı, 27 iyul 2004-cü il tarixli işləri.

edərək cəmiyyətdə münasibətlər qurmaq imkanlarına əhəmiyyətli dərəcədə mənfi təsir göstərirdi və yaşayış üçün maddi vəsait əldə etmək istiqamətində ciddi çətinliklər yaradırdı."[96]

Misal: Karsonun və başqalarının Böyük Britaniyaya qarşı işinə əsasən, iddiaçılar onların pensiya məbləğinin Böyük Britaniyada və ya Böyük Britaniya ilə pensiya məsələsinə aid ikitərəfli müqavilə imzalamış dövlətdə yaşayan pensiyaçılar üçün tətbiq olunan əsaslara uyğun hesablanması təklifinə rədd cavabı vermiş hökumət tərəfindən ayrı-seçkiliyə məruz qaldıqlarını iddia edirdilər.[97] Sosial təminat və ya pensiya hüququ AİHK-da nəzərdə tutulmasa da, AİHM dövlətin bu cür hərəkət etmək qərarı əsasında 1 saylı Protokolun 1-ci maddəsilə müdafiə olunan mülkiyyət məsələlərinin gündəmə gəldiyini müəyyən etmişdir.

AİHM oxşar şəkildə müəyyən etmişdir ki, istənilən formada dövlət müavinətlərinin ödənilməsinə aid digər çoxsaylı işlər 14-cü maddənin tətbiqi məqsədilə ya 1 saylı Protokolun[98] 1-ci maddəsinin (çünki bu əmlak kimi qəbul olunur)[99] və ya 8-ci maddəsinin (çünki bu ailə həyatına və ya şəxsi həyata təsir edir) [100] əhatə dairəsinə düşür. Bu cür əlaqələndirmə yuxarıda 3.2-ci bölmədə müzakirə olunan vətəndaşlıq zəminində ayrı-seçkiliyə aid məsələ ilə əlaqədar xüsusi əhəmiyyət kəsb edir.

3.3.1.3. 12 saylı Protokol

12 saylı Protokol *"qanunla nəzərdə tutulmuş istənilən hüquqdan istifadə"* ilə bağlı ayrı-seçkiliyi qadağan etdiyindən yalnız AİHK-da nəzərdə tutulmuş hüquqlara aid 14-cü maddədən daha geniş əhatə dairəsinə malikdir. Protokol müddəalarının mənası barədə AŞ-nin İzahedici Məruzəsində verilmiş şərhlər, bu müddəaların aşağıda verilmiş məsələlərlə əlaqədar olaraq ayrı-seçkiliyin qadağan edilməsinə aid olduğunu bəyan edir:

i. şəxs üçün xüsusən milli qanunlarla nəzərdə tutulmuş istənilən hüquqdan istifadə ilə;
ii. milli qanunlara əsasən dövlət hakimiyyəti orqanının birmənalı öhdəliyindən irəli gələn hüquqdan istifadə ilə (əgər milli qanunlara əsasən əlaqədar orqan konkret tərzdə hərəkət etmək öhdəliyini öz üzərinə götürübsə);
iii. xüsusi səlahiyyətləri icra edən (məsələn, müəyyən dotasiyalar ayıran) dövlət hakimiyyəti orqanının fəaliyyətilə;
iv. dövlət hakimiyyəti orqanı tərəfindən yol verilmiş istənilən başqa əməllə və ya nöqsanla (məsələn, iğtişaşlara qarşı tədbirlər görən hüquq-mühafizə orqanları əməkdaşlarının davranışı ilə).[101]

Eyni zamanda, şərhlərdə göstərilir ki, bu Protokol əsasən şəxsləri dövlət tərəfindən törədilən ayrı-seçkilikdən müdafiə etsə də, adətən dövlət tərəfindən tənzimlənməsi nəzərdə tutulan və fiziki şəxslərlə hüquqi şəxslər arasındakı münasibətlərə şamil edilir: *"məsələn, işə qəbulla bağlı*

[96] Yuxarıda qeyd olunan işin 48-ci paraqrafına baxın.
[97] *Karsonun və başqalarının Böyük Britaniyaya qarşı* AİHM-dəki [GC] 42184/05 saylı, 16 mart 2010-cu il tarixli işi.
[98] 1 saylı Protokolun 1-ci maddəsinin hərtərəfli təhlililə AŞ-nin Hüquqşünaslar üçün İnsan Hüquqları Sahəsində Təhsilə dair "www.coehelp.org/mod/resource/view. php?inpopup=true&id=2123" saytından tanış olmaq olar: Qrqiç, Mataqa, Lonqar və Vilfan "AİHK-ya əsasən Mülkiyyət Hüququ", İnsan Hüquqları üzrə Bələdçi No10, 2007- ci il.
[99] Məsələn, *Stek və başqalarının Böyük Britaniyaya qarşı* [GC] 65731/01 və 65900/01 saylı, 12 aprel 2006-cı il tarixli, pensiya ödənişlərinə və əlilliyə görə müavinətlərə dair, *Andreyevanın Latviya Respublikasına qarşı* [GC] 55707/00 saylı, 18 fevral 2009-cu il tarixli, pensiya ödənişlərinə dair, *Koua Puarenin Fransa Respublikasına qarşı* 40892/98 saylı, 30 sentyabr 2003-cü il tarixli, əlilliyə görə müavinətlərə dair, *Qayqusuzun Avstriya Respublikasına qarşı* 17371/90 saylı, 16 sentyabr 1996-cı il tarixli, işsizlik müavinətinə dair, AİHM-dəki işləri.
[100] Məsələn, *Uellerin Macarıstan Respublikasına qarşı* AİHM-dəki 44399/05 saylı, 31 mart 2009-cu il tarixli, uşaqlı ailələrin dəstəklənməsi məqsədilə sosial müavinətlərinə dair işi.
[101] AİHK-nın (ETS No177) 12 saylı Protokoluna aid İzahedici Məruzənin 22-ci paraqrafı. "http://conventions.coe.int/Treaty/en/ Reports/Html/177.htm" saytında tanış olmaq olar.

müraciətə əsassız rədd cavabının verilməsi, restorana buraxılmama və ya hüquqi şəxslər tərəfindən cəmiyyət üçün göstərilən xidmətlərdən, məsələn, tibbi və ya kommunal xidmətlərdən (sudan və işıqdan) istifadəyə icazə verməmə."[102] Ümumiyyətlə, 12 saylı Protokol şəxslərin üzərinə qoyulmuş və ictimaiyyət üçün mövcud olan malların və xidmətlərin necə təklif olunması barədə qərar çıxarmağa aid vəzifəni icra etməkdən ibarət sırf şəxsi kontekstdən kənara çıxaraq ayrı-seçkiliyi geniş şəkildə qadağan edir.

4.6-cı bölmədə nəzərdən keçirilmiş *Sejdiçin və Fincinin Bosniya və Herseqovina Respublikasına qarşı* işinə AİHM tərəfindən 12 saylı Protokolun 1-ci maddəsinə əsasən baxılarkən AİHM bu Protokolla *"ayrı-seçkiliyin ümumi şəkildə qadağan olunduğunu"* bəyan etmişdir. Eyni zamanda, bildirilmişdir ki, ayrı-seçkiliyə aid işlərin təhlili AİHM tərəfindən 14-cü maddənin kontekstində müəyyən edilmiş təhlilə oxşar bir tərzdə aparılacaq.

3.4. Ayrı-seçkiliyi qadağan olunmasına dair Avropa İttifaqı Direktivlərinin əhatə dairəsi

Ayrı-seçkiliyi qadağan edən direktivlərə əsasən ayrı-seçkilik 3 sahə üzrə qadağan olunur: məşğulluq sahəsi, sosial təminat sistemi, həmçinin mallar və xidmətlər sahəsi. Hal-hazırda "İrqi bərabərliyə dair" Direktiv bu sahələrin 3-nə də şamil olunur. "Məşğulluq sahəsində bərabərliyə dair" Direktivlə sözügedən 3 sahənin əhatə olunmasını təmin edəcək müvafiq qanunvericilik aktları müzakirə predmeti olsa da, hal-hazırda bu Direktiv yalnız məşğulluq sahəsində tətbiq edilir. "Gender bərabərliyinə dair" (yenidən baxılmış) Direktiv, həmçinin "Mallar və xidmətlər sahəsində gender bərabərliyinə dair" Direktiv məşğulluq və mallarla xidmətlər sahəsində tətbiq edilsə də, təminat sisteminə şamil olunmur.

3.4.1. Məşğulluq sahəsi

Məşğulluq sahəsində ayrı-seçkilikdən müdafiə, ayrı-seçkiliyi qadağan edən direktivlərlə nəzərdə tutulmuş və müdafiə olunan bütün əsaslara görə təmin olunur.

3.4.1.1. Əmək hüququndan istifadə

"Əmək hüququndan istifadə" anlayışı AƏM tərəfindən geniş şəkildə təfsir olunur.

Misal: Meyersin Bankrotçuluq məsələləri üzrə əməkdaşa qarşı işinə əsasən, AƏM belə bir qərara gəlmişdir ki, əmək hüququndan istifadə *"bilavasitə əmək münasibətlərinin başlanmasından əvvəl irəli sürülmüş şərtlərlə yanaşı"* şəxsin təklif olunan işlə əlaqədar qərar qəbul etməsindən əvvəl nəzərdən keçirməli olan amillərə təsir göstərən şərtləri də əhatə edir.[103] *Meyersin* işində gəlir səviyyəsindən asılı olaraq ödənilən konkret dövlət müavinətinin verilməsi bu sahəyə aid olan bir məsələdir. Bu onunla əlaqədardır ki, namizəd konkret vəzifəni tutmaq barədə qərarı nəzərdən keçirərkən sözügedən müavinəti almaq hüququna malik olub-olmayacağı məsələsinin təsiri altında idi. Bu səbəbdən də bu cür düşüncələr işə başlamaq qərarına da təsir etmişdir.

Misal: Şnorbusun Hessen Torpağına qarşı işinə əsasən, iddiaçı məhkəmə orqanlarında işləmək üçün yararlılığının bir hissəsi kimi müvafiq təlimlərdə iştirak etmək üçün müraciət etmişdir.[104] Milli qanunlara əsasən bilavasitə təlimdən əvvəl 1-ci, sonra isə 2-ci imtahanın verilməsi nəzərdə tutulur. İddiaçı 1-ci imtahanı verdikdən sonra boş yerlərin olmaması səbəbindən təlimdə iştirakla bağlı rədd cavabı almışdır. Onun təlimdə iştirakı, növbəti mərhələyə, boş yerlər olanadək təxirə salınmışdır. İddiaçı üstünlüyün hərbi xidməti bitirmiş kişi

[102] Yuxarıdakı istinadın 28-ci paraqrafına baxın.
[103] *Meyersin Bankrotçuluq məsələləri üzrə əməkdaşa qarşı* AƏM-dəki C-116/94 [1995] ECR I-2131 saylı, 13 iyul 1995-ci il tarixli işi.
[104] *Şnorbusun Hessen Torpağına qarşı* AƏM-dəki C-79/99 [2000] ECR I-10997 saylı, 7 dekabr 2000-ci il tarixli işi.

namizədlərə verilməsi səbəbindən ayrı-seçkiliyə məruz qalması ilə bağlı şikayət etmişdir. AƏM təlimə buraxılma tarixini tənzimləyən qanunvericiliyin "əmək hüququndan istifadəyə" aid məsələlərin əhatə dairəsinə düşdüyünü müəyyən etmişdir, çünki təlim dövrünün özü ayrılıqda və məhkəmə orqanlarında vəzifəyə yiyələnmə prosesinin bir hissəsi kimi "əmək fəaliyyəti" hesab olunmuşdur.

3.4.1.2. İş şərtləri, o cümlədən işdən azad olunma və ödənişlər

AƏM bu sahəyə hansı məsələlərin aid olduğunu açıqlayarkən çox geniş və obyektiv izahlar vermişdir. Yekun nəticədə bu sahəyə aid hesab olunan əmək münasibətlərindən irəli gələn hər bir şərt nəzərdən keçirilmişdir.

Misal: Meyersin işinə əsasən, tək valideyn olan iddiaçı tək valideynlərə ailə kreditinin təyin edilməsi üçün ehtiyac meyarının hesablanması zamanı istifadə olunmuş metod səbəbindən cinsi zəminində dolayı ayrı-seçkiliklə bağlı şikayət etmişdir.[105] Dövlət müavinəti olan ailə kreditinin verilməsinin sadəcə olaraq sosial təminat məsələsi və ya iş şərtini təşkil edən bir məsələ olduğunun dəqiqləşdirilməsi AƏM tərəfindən həyata keçirilmişdir. AƏM burada göstərilmiş 3 şərt mövcud olduqda sözügedən ailə kreditinin ödənildiyini nəzərə almışdır: iddiaçının gəliri müəyyən edilmiş məbləğdən çox olmamalıdır; kredit üçün müraciət etmiş şəxs və ya onun partnyoru işləməlidir; və kredit üçün müraciət etmiş şəxsin və ya onun partnyorunun öhdəsində uşaq olmalıdır. Sözügedən müavinət sosial təminat sisteminin bir hissəsini təşkil etdiyindən AƏM bu işdə yalnız "Bərabər rəftara dair" Direktivin (artıq bu Direktiv "Gender bərabərliyinə dair" (yenidən baxılmış) Direktivilə əvəz olunub) tətbiq edilməsinin münasib olmaması qənaətinə gəlmişdir. Əksinə bu müavinətin əmək münasibətlərilə əlaqədar verilib-verilməməsini dəqiqləşdirmək üçün daha geniş yanaşmadan istifadə olunmuşdur. Bu işdə ailə krediti sistemindən faydalanmaq üçün iddiaçının özü və ya onun partnyoru ödənişli əmək fəaliyyətilə məşğul olmalı idi. Beləliklə, ailə kreditindən istifadə etmək üçün əmək münasibətlərinin yaradılması tələbi iş şərti kateqoriyasına aid olan bir məsələ idi.

Məşğulluq və iş şərtləri anlayışları ilə bağlı bu cür geniş izahlar verən AƏM nəticədə müəyyən etmişdir ki, iş yerlərində uşaq otaqlarının yaradılması[106] və iş vaxtının azaldılması da əmək hüququnun əhatə dairəsinə aid olan məsələlərdir.[107]

Eyni zamanda, AƏM işdən azad olunma və ödəniş məsələlərilə də əlaqədar çox obyektiv və müfəssəl yanaşma qəbul etmişdir. İşdən azad olunma məsələsinə gəldikdə, demək olar ki, əmək münasibətlərinə xitam verilməsi ilə bağlı bütün vəziyyətlər əhatə olunmuşdur. Məsələn, buraya kadr ixtisarı prosesi[108] və ya icbari pensiya ilə[109] əlaqədar əmək münasibətlərinə xitam verilməsi kimi məsələlər də daxildir.

Ödənişlər anlayışı "Aİ-nin fəaliyyəti haqqında" Müqavilənin 157-ci maddəsində *"işçinin onun işinə görə işəgötürəndən nağd şəkildə və ya başqa formada, birbaşa və ya dolayısı yollarla əldə etdiyi adi baza hissəsi və ya minimum əmək haqqı, yaxud əmək haqqı və yaxud digər müavinətlər və təzminatlar"* kimi müəyyən edilmişdir. Bu anlayış işçinin əmək münasibətlərinə daxil olduqdan sonra əldə etdiyi çoxsaylı müavinətləri əhatə edir. AƏM-də bir sıra işlərə baxılarkən bu anlayışın əhatə dairəsi bir neçə dəfə nəzərdən keçirilmişdir və bunun nəticəsində

[105] *Meyersin Bankrotçuluq məsələləri üzrə əməkdaşa qarşı* AƏM-dəki C-116/94 [1995] ECR I-2131 saylı, 13 iyul 1995-ci il tarixli işi.
[106] *Lommersin nazir van Landbouya qarşı* AƏM-dəki C-476/99 [2002] ECR I-2891 saylı, 19 mart 2002-ci il tarixli işi.
[107] *Jamstalldhetsombudsmannen-in Orebro Lans Landstinq-ə qarşı* AƏM-dəki C-236/98 [2000] ECR I-2189 saylı, 30 mart 2000-ci il tarixli işi.
[108] *Börtonun Britaniya Dəmir Yolu İdarəsinə qarşı* AƏM-dəki 19/81 [1982] ECR 555 saylı, 16 fevral 1982-ci il tarixli işi.
[109] *Palasios de la Vilyanın Cortefiel Servisios SA-ya qarşı* AƏM-dəki, C-411/05 [2007] ECR I-8531 saylı, 16 oktyabr 2007-ci il tarixli işi.

həmin anlayışla bağlı başqa növdə ödənişlər, o cümlədən güzəştli dəmir yol xərcləri,[110] işlədiyi ölkədə yaşamamağa görə müavinət,[111] 13-cü əmək haqqı[112] və qeyri-dövlət təqaüdləri də[113] əhatə olunmuşdur. Hələ də sual doğuran məsələ mövcud əmək münasibətlərindən irəli gələn bütün növ müavinətlərin "ödəniş" terminilə əhatə olunub-olunmaması ilə bağlıdır.

3.4.1.3. Peşə istiqaməti və peşə təlimində iştirak

"Peşə istiqaməti və peşə təlimi" anlayışı məsələsinə AƏM tərəfindən diqqət insanların sərbəst hərəkət kontekstində yetirilmişdir[114] və AƏM geniş bir anlayış qəbul etmişdir.

Misal: Qravyenin işinə əsasən, Fransa vətəndaşı olan bir tələbə, Belçikanın Lyej şəhərindəki Kral Tətbiqi İncəsənət Akademiyasında komiks hazırlama sənətini öyrənmək niyyətində idi.[115] Ondan təhsil almaq üçün qeydiyyat haqqının ödənilməsi tələb olunmuşdur, baxmayaraq ki, bu yerli tələbələrdən tələb olunmurdu. AƏM bəyan etmişdir ki:

"… konkret bir peşə, sənət və ya fəaliyyət növü ilə bağlı hazırlığın keçirilməsini və ya bu cür peşəyə, sənətə, yaxud fəaliyyət növünə yiyələnmək üçün zəruri təlim və ya bacarıqların aşılanmasını təklif edən istənilən təhsil forması şagirdlərin və ya tələbələrin yaşından və səviyyəsindən asılı olmayaraq, hətta belə bir təlim proqramı ümumu təhsil elementlərini özündə əks etdirdikdə belə, peşə təlimi hesab olunur."

Misal: Yuxarıdakı anlayış baytarlıq kurslarında təhsil almaq üçün müraciət etmiş iddiaçı ilə bağlı *Blezonun* işində də tətbiq olunmuşdur.[116] AƏM müəyyən etmişdir ki, hətta proqramın sonunda verilən ixtisas konkret peşəyə, sənətə, yaxud fəaliyyət növünə yiyələnmək üçün tələb olunan ixtisasın əldə olunmasını nəzərdə tutmasa belə, universitet diplomunu da "peşə təlimi" anlayışı ilə əhatə etmək olar. Müvafiq proqram əsasında konkret bir peşəyə, sənətə və ya fəaliyyət növünə yiyələnmək üçün tələb olunan biliklərin, hazırlığın və ya bacarıqların verilməsi kifayətdir. Beləliklə, əgər hansısa bir sənətə yiyələnmə rəsmi şəkildə ixtisasın əldə olunmasını nəzərdə tutmursa və ya universitet diplomu konkret peşə ilə məşğul olmaq üçün rəsmi tələbləri şərtləndirmirsə, müvafiq proqram "peşə təlimi" kimi qəbul oluna bilər. Yeganə istisna halı *"hansısa peşə ilə məşğul olmaq deyil, lakin öz biliklərini təkmilləşdirmək niyyətində olan şəxslər üçün nəzərdə tutulmuş konkret xarakterli müəyyən tədris kurslarından"* ibarətdir.

3.4.1.4. İşçilərin və işəgötürənlərin təşkilatları

Burada işçilərin və işəgötürənlərin təşkilatlarına üzvlüklə və ya bu cür təşkilatların əlçatan olması ilə yanaşı insanların belə təşkilatlardakı iştirakına aid məsələlər də əhatə olunur. Avropa Komissiyasının müvafiq Təlimatlarına əsasən burada həmin təşkilatlarda üzvlük və ya bu təşkilatlar tərəfindən verilən imtiyazlar nöqteyi-nəzərindən ayrı-seçkiliyin baş verməməsi təmin edilməlidir.[117]

---

[110] *Qarlandın "British Rail Engineering Limited" şirkətinə qarşı* AƏM-dəki 12/81 [1982] ECR 455 saylı, 9 fevral 1982-ci il tarixli işi.
[111] *Sabbatininin Avropa Parlamentinə qarşı* AƏM-dəki 20/71 [1972] ECR 345 saylı, 7 iyun 1972-ci il tarixli işi.
[112] *Lyuenin Dendaya qarşı* AƏM-dəki C-333/97 [1999] ECR I-7243 saylı, 21 oktyabr 1999-cu il tarixli işi.
[113] *Barber-in* "*Guardian Royal Exchange Assurance Group"-a qarşı* AƏM-dəki C-262/88 [1990] ECR I-1889 saylı, 17 may 1990-cu il tarixli işi.
[114] "Birlik daxilində işçilərin sərbəst hərəkəti haqqında" 1612/68 saylı Əsasnamənin 7(3)-cü maddəsinə əsasən işçi *"yerli işçilərlə müqayisədə qeyri-münasib şərtlərlə üzləşmədən peşə məktəblərində və təlim mərkəzlərində təlim keçmək hüququna malikdir."* (OJ L 257, 19.10.1968, səh. 2).
[115] *Qravyenin Vil de Lyej-ə və başqalarına qarşı* AƏM-dəki 293/83 [1985] ECR 593 saylı, 13 fevral 1985-ci il tarixli işi.
[116] *Blezonun Lyej Universitetinə və başqalarına qarşı* AƏM-dəki 24/86 [1988] ECR 379 saylı, 2 fevral 1988-ci il tarixli işi.
[117] Aİ Şurasının "İrqi mənsubiyyətindən və ya etnik mənşəsindən asılı olmayaraq insanlar arasında bərabər rəftar prinsipinin icra olunmasına dair" Direktivilə bağlı Təklif, COM(1999) 566 yekun versiya, 25.11.1999.

3.4.1.5. Avropa İnsan Hüquqları Konvensiyası və məşğulluq konteksti

AİHK əmək hüququnu özündə əks etdirməsə də, müəyyən şəraitdə 8-ci maddə məşğulluq sahəsini əhatə edən bir sahə kimi qələmə verilə bilər. *Sidabras və Djiautasın Litva Respublikasına qarşı* yuxarıda qeyd olunmuş işinə əsasən keçmiş DTK agentlərinin dövlət sektorunda və özəl sektorun bəzi sahələrində işə götürülməsi ilə bağlı hökumət tərəfindən qoyulmuş qadağa 14-cü maddə ilə əlaqələndirilərək 8-ci maddənin əhatə dairəsinə düşən bir məsələ kimi qəbul olunmuşdur, çünki bu *"onların şəxsi həyatına hörmət hüququna aşkar şəkildə təsir edərək cəmiyyətdə münasibətlər qurmaq imkanlarına əhəmiyyətli dərəcədə mənfi təsir göstərirdi və yaşayış üçün maddi vəsait əldə etmək istiqamətində çətinliklər yaradırdı".*[118] Əvvəlki işdə olduğu kimi, *Biqayevanın Yunanıstan Respublikasına qarşı* işinə əsasən də müəyyən olunmuşdur ki, 8-ci maddə məşğulluq məsələlərini, o cümlədən müəyyən peşəyə yiyələnmək hüququnu da əhatə edə bilər.[119]

AİHM həmkarlar ittifaqlarına üzvlük zəminində ayrı-seçkiliyi də qadağan edir. Bundan başqa, həmkarlar ittifaqlarını yaratmaq hüququ AİHK-da əlahiddə bir hüquq kimi nəzərdə tutulur.[120]

Misal: Danilenkovun və başqalarının Rusiya Federasiyasına qarşı işinə əsasən, iddiaçılar həmkarlar ittifaqına üzv olmaları səbəbindən işəgötürən tərəfindən sıxışdırılma və qeyri-münasib rəftarla üzləşdiklərini bildirirdilər.[121] Onların mülki iddiasına yerli məhkəmə tərəfindən baxılmamışdır, çünki bu cür ayrı-seçkilik halı yalnız cinayət işinin aparılması nəticəsində müəyyən oluna bilər. Lakin prokuror cinayət işinin qaldırılmasına rədd cavabı vermişdir, çünki cinayətin sübuta yetirilməsi normaları dövlətdən "əsaslı şübhələrdən kənara" çıxaraq, ayrı-seçkiliyin şirkət rəhbərliyi tərəfindən nəzərdə tutulduğunun sübuta yetirilməsini tələb edirdi. AİHM milli qanunvericilik bazasında həmkarlar ittifaqlarına birləşmək azadlığının məhkəmə yolu ilə səmərəli şəkildə müdafiə edilməsi məsələsinin nəzərdə tutulmadığını AİHK-nın 11-ci maddəsinin 14-cü maddə ilə birgə pozulması kimi müəyyənləşdirmişdir.

3.4.2. Sosial təminat sistemindən və sosial sığorta formalarından istifadə

Ayrı-seçkiliyi qadağan edən direktivlərdən yalnız "İrqi bərabərliyə dair" Direktiv sosial təminat sistemindən və sosial sığorta formalarından istifadə sahəsində ayrı-seçkiliyə qarşı geniş müdafiəni nəzərdə tutur. Bunların hamısı birlikdə ümumiyyətlə dövlət tərəfindən idarə olunan səhiyyə, təhsil və sosial sığorta sisteminin təminatlarından istifadə deməkdir. Lakin "Sosial sığorta sahəsində gender bərabərliyinə dair" Direktiv sosial sığortanın çox məhdud bir sahəsilə əlaqədar cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə yol verilməsini qadağan edir.

3.4.2.1. Sosial müdafiə, o cümlədən sosial sığorta və səhiyyə məsələləri

Bu sahənin əhatə dairəsi "İrqi bərabərliyə dair" Direktiv tərəfindən izah edilməməsi səbəbindən qeyri-müəyyəndir və AƏM-in presedent hüququ əsasında hələ də təfsir olunmalıdır. Yuxarıda qeyd olunduğu kimi, "Sosial sığorta sahəsində gender bərabərliyinə dair" Direktiv *"dövlət sosial sığorta sistemləri"*ilə əlaqədar cinsi mənsubiyyət zəminində ayrı-seçkliyə yol verilməsini qadağan edir.[122] 1(3)-cü maddə *"sosial yardımın əlavə və ya əvəz edilməsini nəzərdə tutan"* əvvəlki sistemlərə əlavə olaraq, bu sistemləri xəstəliyə, əlilliyə, yaşa, iş yerində

[118] *Sidabrasın və Djiautasın Litva Respublikasına qarşı* AİHM-dəki 55480/00 və 59330/00 saylı, 27 iyul 2004-cü il tarixli işləri.
[119] *Biqayevanın Yunanıstan Respublikasına qarşı* AİHM-dəki 26713/05 saylı, 28 may 2009-cu il tarixli işi.
[120] Məsələn, *Dəmirin və Baykaranın Türkiyə Respublikasına qarşı* AİHM-dəki 34503/97saylı, 12 noyabr 2008-ci il tarixli işi.
[121] *Danilenkovun və başqalarının Rusiya Federasiyasına qarşı* AİHM-dəki 67336/01 saylı, 30 iyul 2009-cu il tarixli işi.
[122] Bu "Gender bərabərliyinə dair" (yenidən baxılmış) Direktiv əsasında "ödəniş" kimi müəyyən edilmiş "özəl" sistemlərdən fərqli bir sahədir.

bədbəxt hadisəyə və peşə xəstəliklərinə, işsizliyə qarşı müdafiəni təmin edən sistemlər kimi müəyyən edir.

"Sosial müdafiə" dedikdə, nəyin nəzərdə tutulduğu aydın deyil, baxmayaraq ki, "İrqi bərabərliyə dair" Direktivlə bağlı Komissiya təklifinin İzahedici Memorandumu, həmçinin Direktivin mətni "sosial təminat" termini ilə müqayisədə bu ifadənin daha geniş mənaya malik olacağı bidlririlir.[123] Bu ifadənin nəzərdə tutulmuş genişliyini nəzərə alaraq belə anlamaq olar ki, dövlət tərəfindən təklif olunacaq istər maddi, istərsə də digər formada yardımlar əgər sosial təminat kateqoriyası ilə əhatə olunmursa, sosial müdafiə kateqoriyasına aid ediləcək. Bununla əlaqədar olaraq böyük ehtimalla demək olar ki, "İrqi bərabərliyə" dair Direktivin tətbiq olunma sahələri bir-biri ilə kəsişəcək.

Səhiyyə sahəsində ayrı-seçkilikdən müdafiənin əhatə dairəsi də qeyri-müəyyəndir. Görünür ki, bu müdafiə birbaşa tibb müəssisələrində dövlət tərəfindən göstəriləcək xidmətdən istifadə ilə, məsələn, inzibati və tibbi personal tərəfindən göstəriləcək xidmətlər və müalicə ilə bağlı olacaq. Ola bilsin ki, bu müdafiə tibbi xidmətlərin özəl şəkildə göstərilməsinə, lakin pasiyent xərclərinin icbari sığorta sistemləri vasitəsilə ödənilməsinə görə sığorta sahəsinə də şamil ediləcək. Böyük ehtimalla şəxsi irqi mənsubiyyət və ya etnik mənşə zəmində sığortalamama və ya ona artıq tariflər tətbiq etmə də bu cür müdafiənin və ya bir alternativ kimi mallar və xidmətlər sahəsinə şamil olunan müdafiənin əhatə dairəsinə düşəcək.

3.4.2.2. Sosial güzəştlər

"Sosial güzəştlər" terminin əhatə dairəsi şəxslərin sərbəst hərəkət etmək azadlığı kontekstində AƏM-in presedent hüququ vasitəsilə əsaslı şəkildə müəyyənləşdirilmişdir və bu termin həddindən artıq geniş anlayışa malikdir.

Misal: Kristininin işinə əsasən, İtaliya vətəndaşı olan iddiaçı öz uşaqları ilə Fransada yaşayırdı, onun rəhmətlik əri isə sağlığında Aİ qanunvericiliyinə əsasən "işçi" hesab olunurdu.[124] Fransa Dəmir Yolu İdarəsi çoxuşaqlı ailələrə güzəştli gediş haqları təklif edirdi, lakin xanım Kristini Fransa vətəndaşı olmadığından onun bu güzəştdən istifadə etməsinə rədd cavabı verilmişdir. Bu Aİ qanunvericiliyinin məqsədlərinə uyğun olaraq yalnız əmək müqaviləsindən irəli gələn güzəştlərin "sosial güzəşt" hesab olunması ilə əsaslandırılırdı. AƏM bununla razılaşmayaraq müəyyən etmişdir ki, "sosial güzəşt" termini heç bir əmək müqaviləsindən asılı olmayaraq bütün güzəştləri, o cümlədən dəmir yolu nəqliyyatından güzəştli tariflərlə istifadə məsələlərini nəzərdə tutmalıdır.

AƏM *İvenin* işinə əsasən "sosial güzəştləri" bu cür müəyyən etmişdir:

"əmək müqaviləsilə bağlı olub-olmamasından asılı olmayaraq, yerli işçilərə, onların ilk növbədə işçi statusuna malik olmalarına və ya onların sadəcə olaraq milli ərazidə yaşamalarına görə verilən, həmçinin digər üzv dövlətlərin vətəndaşalrına onların Birlik daxilində hərəkətlərinin asanlaşdırılması üçün münasib hesab olunduğundan şamil olunan" güzəştlər.[125]

Bu termini *İvenin* işində verilmiş anlayışa uyğun gələn faktiki olaraq bütün hüquqlara aid etmək olar: mütləq şəkildə və seçim əsasında təmin olunan hüquqlar arasında fərq yoxdur. Eyni zamanda, yuxarıda verilmiş tərif əmək münasibətlərinə xitam verildikdən sonra da verilən və

[123] Aİ Şurasının "İrqi mənsubiyyətindən və ya etnik mənşəsindən asılı olmayaraq insanlar arasında bərabər rəftar prinsipinin icra olunmasına dair" Direktivilə bağlı Təklif, COM(1999) 566 yekun versiya, 25.11.1999.

[124] *Fiorininin (qızlıq soyadı Kristini) SNCF-ə qarşı* AƏM-dəki 32/75 [1975] ECR 1085 saylı, 30 sentyabr 1975-ci il tarixli işi.

[125] *İvenə qarşı cinayət mühakiməsinə dair* AƏM-dəki 207/78 [1979] ECR 2019 saylı, 31 may 1979-cu il tarixli işin 22-ci paraqrafı.

sosial güzəşt hesab olunan hüquqları da əhatə edir, məsələn, pensiya hüququnu.[126] Əslində sərbəst hərəkət konteksində sosial güzəşt termini əməkçi miqranta qəbul etdiyi dövlətin cəmiyyətinə inteqrasiya etmək istiqamətində köməklik göstərə biləcək istənilən güzəştlərə aiddir. Məhkəmələr sosial güzəşt məsələsini təfsir edərkən kifayət qədər sərbəstliyə yol vermişdir. Buna aid misallar aşağıdakılardan ibarətdir:

- faizsiz "doğuş kreditinin" ödənilməsi. Bu kreditin əsas, məntiqi məqsədi doğuşun stimullaşdırılmasından ibarət olsa da AƏM bunu bir sosial üstünlük hesab etmişdir, çünki bu aztəminatlı ailələrin maddi yükünü azaldacaq bir vasitə kimi qəbul olunmuşdur;[127]
- mədəniyyət sahəsində imzalanmış sazişə əsasən xaricdə təhsil alacaq işçiləri dəstəkləmək məqsədilə qrantların verilməsi;[128]
- şəxsin ona qarşı qaldırılmış cinayət işinin materialları ilə öz ana dilində tanış olmaq hüququ.[129]

3.4.2.3. Təhsil

Təhsil almaq sahəsində ayrı-seçkilikdən müdafiə məsələləri ilk olaraq 1612/68 saylı Əsasnamənin 12-ci maddəsinə əsasən insanların sərbəst hərəkət etmələri kontekstində işlənib hazırlanmışdır və xüsusən işçilərin uşaqlarına yönəldilmişdir. Böyük ehtimalla təhsil sahəsi peşə təhsili sahəsilə kəsişəcək. Sadəcə olaraq ali təhsil proqramlarının ümumi biliklərin təkmilləşdirilməsi məqsədi daşıyan peşə təlimlərinin əhatə dairəsindən hansı hallarda xaric edilməsi məsələsinin təhsil sahəsinə aid olub-olmaması aydın deyil.

Misal: Kasaqrandenin Landeshauptstadt München-ə qarşı işinə əsasən iddiaçı AFR-də işləyən İtaliya vətəndaşının qızı idi.[130] AFR-in müvafiq orqanları təhsil sahəsində davamiyyəti təmin etmək məqsədilə orta məktəb şagirdlərinə aylıq müavinətlər ödəyir. AƏM təhsil müəssisələrində davamiyyətin təmin edilməsi məqsədi daşıyan hər bir tədbirin təhsil almaq hüququ kontekstində mütləq nəzərdən keçirilməsi qənaətinə gəlmişdir.

3.4.2.4. Avropa İnsan Hüquqları Konvensiyası və sosial təminat və təhsil məsələləri

AİHK-da sosial təminat hüququ nəzərdə tutulmasa da AİHM-in yurisprudensiyasına əsasən aydın olur ki, sosial təminatın müavinətlər və təqaüdlər kimi formaları 1 saylı Protokolun 1-ci və ya 8-ci maddələrinin əhatə dairəsinə düşür.[131]

AİHK-da tibbi yardım almaq hüququ nəzərdə tutulmasa da, AİHM müəyyən etmişdir ki, səhiyyə ilə bağlı məsələlər, məsələn, şəxsi tibbi sənədlərlə tanış olmaq və onları əldə etmək hüququ,[132] 8-ci və ya 3-cü maddənin əhatə dairəsinə düşür, çünki tibbi xidmətlərdən istifadə etmə hüququndan məhrum olunma o dərəcədə ciddi məsələdir ki, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar kimi hesab olunur.[133] Bununla əlaqədar olaraq, belə bir qənaətə gəlmək olar ki, tibbi yardım almaq hüququ ilə bağlı ayrı-seçkiliyə aid şikayət ərizələri 14-cü maddənin əhatə dairəsinə aid edilməlidir.

---

[126] *Komissiyanın Fransa Respublikasına qarşı* AƏM-dəki C-35/97 [1998] ECR I-5325 saylı, 24 sentyabr 1998-ci il tarixli işi.
[127] *Reynanın Landeskreditbank Baden-Württemberg-ə qarşı* AƏM-dəki 65/81 [1982] ECR 33 saylı, 14 yanvar 1982-ci il tarixli işi.
[128] *Matöççinin Belçika Krallığının Fransa icmasında qarşı* AƏM-dəki 235/87 [1988] ECR 5589 saylı, 27 sentyabr 1988-ci il tarixli işi.
[129] *Mütçə qarşı cinayət mühakiməsinə dair* AƏM-dəki 137/84 [1985] ECR 2681 saylı, 11 may 1985-ci il tarixli iş.
[130] *Kasaqrandenin Landeshauptstadt München-ə qarşı* AƏM-dəki 9/74 [1974] ECR 773 saylı işi.
[131] Konkret olaraq *Andreyevanın Latviya Respublikasına qarşı* [GC] 55707/00 saylı, 18 fevral 2009-cu il tarixli, *Qayqusuzun Avstriya Respublikasına qarşı* 17371/90 saylı, 16 sentyabr 1996-ci il tarixli və *Koua Poirrenin Fransa Respublikasına qarşı* 40892/98 saylı, 30 sentyabr 2003-cü il tarixli, AİHM-dəki işlərinə baxın. Bu işlərin hamısı 4.7-ci bölmədə nəzərdən keçirilir.
[132] *K.H.-nin və başqalarının Slovakiya Respublikasına qarşı* AİHM-dəki 32881/04 saylı, 28 aprel 2009-cu il tarixli işi.
[133] *Slavomir Musialın Polşa Respublikasına qarşı* AİHM-dəki 28300/06 saylı, 20 yanvar 2009-cu il tarixli işi.

Məsələn, təmənnasız yol xərclərindən ibarət müavinətlər formasında sosial güzəştlərdən istifadə etmə hüququnun AİHK-nın əhatə dairəsinə düşüb-düşməməsi aydın deyil; lakin AİHM-in "xeyirxah" təfsiri bu cür işlərin də baxıla biləcəyini ehtimal edir (xüsusən əgər bu cür müavinətlər ailənin faydalanmasını nəzərdə tutursa).

AİHK-nın 1 saylı Protokolunun 2-ci maddəsi təhsil hüququnu ayrıca şəkildə özündə əks etdirir və bununla əlaqədar olaraq AİHM təhsil sahəsində ayrı-seçkiliyə aid şikayətlərə təhsil hüququnun 14-cü maddənin əhatə dairəsinə düşdüyünə görə baxır. AİHK-ya əsasən təhsil sahəsində ayrı-seçkilik halları 2.3.1-ci yarımbölmədə verilmiş *D.H.-nın və başqalarının Çexiya Respublikasına qarşı*[134] və 5.3-cü bölmədə verilmiş *Orşuşun və başqalarının Xorvatiya Respublikasına qarşı*[135] işlərində müzakirə olunur.

Misal: Ponomoryovların işi[136] milli qanunvericiliyə əsasən yalnız Bolqarıstan vətəndaşlarının və müəyyən kateqoriyadan olan əcnəbilərin pulsuz ibtidai və orta təhsil almaq hüququna malik olmaları ilə əlaqədar idi. Müəyyən vaxt ərzində yaşayış icazəsi olmadan anaları ilə birlikdə Bolqarıstanda yaşayan iki rus şagird iddiaçı qismində çıxış edirdi. İddiaçılar AİHM-ə təqdim etdikləri ərizədə Bolqarıstan vətəndaşlarından və daimi yaşayış icazəsi olmayan əcnəbilərdən fərqli olaraq, Bolqarıstanda orta təhsillərini davam etdirmək üçün onlardan təhsil haqqı tələb olunduğundan ayrı-seçkiliyə məruz qalmaları barədə şikayət edirdilər. AİHM bir qayda olaraq dövlətə maddi töhfələr verməyən qısamüddətli və qeyri-qanuni immiqrantların dotasiyalardan asılı olan dövlət xidmətlərindən istifadə imkanlarını azaltmaq üçün dövlətdə qanunla nəzərdə tutulmuş əsasların mövcud olmasını mümkün hesab etmişdir. AİHM təhsilin çətinliklə təşkil olunan və böyük xərclər hesabına idarə olunan bir sahə olduğunu, həmçinin dövlət tərəfindən onun yurisdiksiyasında olan şəxslərin təhsil ehtiyaclarının təmin edilməsi və təhsil ehtiyacları olan bütün şəxsləri qəbul etmək imkanlarının məhdud olması arasında tarazlığın saxlanmasının zəruri olduğunu qəbul edərək, təhsil almaq hüququnun dövlətin bir sıra başqa xidmət sahələrindən istifadə etmək hüququndan fərqli olaraq Konvensiya ilə birbaşa təmin olunduğunu qeyd etmişdir. Təhsil sahəsi bu sahədən istifadə edənləri birbaşa faydalandırmaqla yanaşı, geniş ictimai funksiyalara malik olduğundan və insan hüquqlarının təmin edilməsi üçün həddindən artıq zəruri olduğundan dövlət tərəfindən göstərilən çox spesifik bir xidmət növüdür. İddiaçılar ölkəyə qanunsuz gəlmiş və sonradan dövlət xidmətlərindən istifadə ilə, o cümlədən pulsuz təhsillə bağlı iddia qaldıran şəxslərin vəziyyətində deyildilər. İddiaçılarda daimi yaşayış icazəsi olmadıqda belə, dövlət onların Bolqarıstanda qalmasına faktiki olaraq heç bir etiraz etmirdi və ya onları deportasiya etmək üçün hər hansı bir ciddi niyyəti yox idi. Deməli, qanunsuz immiqrasiya axınının qarşısının alınması və ya geri qaytarılması zərurətilə bağlı istənilən mülahizələrin iddiaçıların işilə heç bir əlaqəsi yox idi. Lakin Bolqarıstanın müvafiq orqanları iddiaçıların təhsil haqqının ödənilməsindən azad edilməsi üçün bu amilləri nəzərə almamışdılar, həmçinin qanunvericilik aktlarında da belə vəziyyətlərlə bağlı istisnalar nəzərdə tutulmamışdır. Deməli, işin hallarından irəli gələn vəziyyəti nəzərə alaraq iddiaçıların vətəndaşlığı və immiqrasiya statusu əsasında onlardan təhsil haqqını ödəmək tələbi əsassız hesab olunmuşdur.

Misal: Ştummerin işində[137] ümumilikdə 28 illik uzun bir müddət ərzində məhbus həyatı yaşayaraq həbsxanada müəyyən müddət ərzində işləmiş iddiaçıya Avstriya qanunlarına əsasən yaşa görə pensiya proqramı şamil edilməmişdir. 1994-cü ildən etibarən ona

[134] *D.H.-nın və başqalarının Çexiya Respublikasına qarşı* AİHM-dəki [GC] 57325/00 saylı, 13 noyabr 2007-ci il tarixli işi.
[135] *Orşuşun və başqalarının Xorvatiya Respublikasına qarşı* AİHM-dəki [GC] 15766/03 saylı, 16 mart 2010-cu il tarixli işi.
[136] *Ponomaryovların Bolqarıstan Respublikasına qarşı* AİHM-dəki 5335/05 saylı, 21 iyun 2011-ci il tarixli işi.
[137] *Ştummerin Avstriya Respublikasına qarşı* AİHM-dəki [GC] 37452/02 saylı, 7 iyul 2011-ci il tarixli işi.

həbsxanada işlədiyi müddətlərlə əlaqədar olaraq işsizlikdən sığortalanma proqramı şamil edilmişdir və o azadlığa çıxdıqdan sonra işsizliyə görə müavinət və fövqəladə hallar üçün nəzərdə tutulmuş yardım alırdı. AİHM xatırlamışdır ki, dövlətlər pensiya məsələlərilə bağlı geniş qiymətləndirmə çərçivələrinə malikdirlər və bu məsələ həbsxanalarda əmək fəaliyyətindən və məhbusların sosial təminatından ibarət ümumi bir sistemin səciyyəvi xüsusiyyəti kimi qəbul olunmalıdır. Avropada məhbusların sosial müdafiəsi məsələlərilə bağlı ümumi razılıq əldə olunmayıb. Avropa Şurasına üzv olan dövlətlərin böyük əksəriyyəti məhbusları sosial müdafiənin bəzi növlərilə təmin etdikləri bir vaxtda, bu dövlətlərdən yalnız bir neçəsi yaşa görə pensiya proqramını bu cür şəxslərə şamil edir. Avstriya kimi bəzi dövlətlər məhbusları bəzi sosial müdafiə növlərilə təmin edərək onlara müvafiq sosial təminat fondlarına könüllü şəkildə ödənişlər etmək imkanı vermişdir. Əlavə olaraq, Avstriya qanunvericiliyi məhbus olduqları zaman əmək fəaliyyətilə məşğul olmuş şəxslərin bəzi mill sosial-müdafiə proqramlarından istafadə etmələrini və tibbi xidmətlə, həmçinin bədbəxt hadisə zamanı tibbi xidmətlə təmin olunmalarını nəzərdə tutur və bu ölkədə 1994-cü ildən etibarən əmək fəaliyyətilə məşğul olmuş məhbuslara işsizlikdən sığortalanma proqramı da şamil olunur. İddiaçı yaşa görə pensiya hüququna malik olmasa da onun ümumiyyətlə sosial təminatsız qalmaması çox vacib bir məsələ kimi qəbul olunmuşdur. Belə ki, həbsxanadan çıxdıqdan sonra ona işsizlik müavinəti və müvafiq olaraq, fövqəladə hallar üçün nəzərdə tutulmuş yardım, həmçinin mənzil pulu ödənilirdi ki, bunlar hamısı bir yerdə 720 Avro təşkil edirdi və demək olar ki, Avstriyada ödənilən minimum pensiya məbləğinə bərabər idi. Ümumiyyətlə, dəyişən standartlar kontekstində dövləti sığorta proqramlarına üstünlük verdiyinə görə qınamaq olmaz, çünki məhz bu proqramlar məhbusların azadlığa çıxdıqdan sonra cəmiyyətə reinteqrasiyası istiqamətində daha münasib hesab olunur. Bu iş vasitəsilə gündəmə gətirilmiş məsələnin Avstriya tərəfindən nəzərdən keçirilməsi tələb olunsa da, AİHM müəyyən etmişdir ki, bu dövlət həbsdə olduqları zaman əmək fəaliyyətilə məşğul olmuş şəxslərə yaşa görə pensiya proqramını tətbiq etməməklə ona bu cür məsələlərlə bağlı verilmiş geniş qiymətləndirmə çərçivələrindən kənara çıxmamışdır.

3.4.3. Mallarla və xidmətlərlə, o cümlədən yaşayış yerilə təmin olunma hüququndan istifadə

Mallarla və xidmətlərlə, o cümlədən yaşayış yerilə təmin olunma hüququndan istifadə sahəsində ayrı-seçkilikdən müdafiə, "İrqi bərabərliyə dair" Direktivə əsasən irqi mənsubiyət zəminində, həmçinin "Mallar və xidmətlər sahəsində gender bərabərliyinə dair" Direktivə əsasən cinsi mənsubiyyət zəminində təmin olunur. "Mallar və xidmətlər sahəsində gender bərabərliyinə dair" Direktivin 3(1)-ci maddəsi müdafiənin əhatə dairəsini dəqiqləşdirərək bu cür müdafiənin *"istər özəl, istərsə də dövlət sektorunda, o cümlədən dövlət orqanlarında, hansısa konkret şəxsdən asılı olmayaraq mövcud olan, həmçinin şəxsi həyat və ailə həyatı sahəsindən, o cümlədən bu sahə kontekstində baş vermiş sövdələşmədən kənar təklif olunan"* mallara və xidmətlərə şamil olunduğunu bəyan edir. Direktivin preambulasının 13-cü paraqrafına əsasən, bu müdafiə *"media və reklam materiallarına"*, həmçinin *"dövlət və özəl təhsil sahəsinə"* birmənalı şəkildə şamil olunmur, lakin belə bir istisna təhsil sahəsini hərtərəfli şəkildə əhatə edən "İrqi bərabərliyə dair" Direktivin əhatə dairəsini qəti şəkildə məhdudlaşdırmır. Eyni zamanda, "Mallar və xidmətlər sahəsində gender bərabərliyinə dair" Direktiv "Aİ-nin fəaliyyəti haqqında" Müqavilənin 57-ci maddəsinə də istinad edir:

"Bu Müqavilə kontekstində xidmətlər o təqdirdə "xidmət" hesab olunur ki, bir qayda olaraq mükafatlandırma müqabilində göstərilir …

Konkret olaraq aşağıda sadalananlar "xidmət" hesab olunur:
(a) sənaye xarakterli fəaliyyət növləri;
(b) kommersiya xarakterli fəaliyyət növləri;
(c) sənət işləri;

(d) peşə fəaliyyəti."

Göründüyü kimi, bu sahə dövlət və özəl təhsil sektorunu çıxmaq şərtilə, malların və ya xidmətlərin bir qayda olaraq mükafatlandırma müqabilində təmin olunmasından ibarət istənilən sahəni əhatə edir, əgər bu mallar və xidmətlər tamamilə şəxsi məsələlərə aid deyilsə.

Yerli orqanlardan əldə edilmiş faktlar göstərir ki, adətən bu sahəyə aid işlərin ssenariləri barlardan,[138] restoranlardan və gecə klublarından,[139] mağazalardan[140] və belə müəssisələrdə göstərilən xidmətlərdən istifadə, eyni zamanda, sığorta alma[141] məsələlərindən, həmçinin "özəl" satıcıların, məsələn, kinoloqların[142] hərəkətlərindən ibarətdir. Səhiyyə məsələləri konkret olaraq "İrqi bərabərliyə dair" Direktivlə əhatə olunsa da, bu məsələləri xidmətlər sahəsinə də aid etmək olar, xüsusən də əgər bu özəl səhiyyə sektoru ilə əlaqədardırsa və ya xəstələr öz müalicə xərclərini ödəmək məqsədilə mütləq xəstəliyə görə icbarı sığorta almalıdırlarsa. Bu nöqteyi-nəzərdən, AƏM xidmətlərin sərbəst hərəkəti kontekstində bu xidmətləri mükafatlandıma müqabilində kommersiya qurumu tərəfindən göstərilən tibbi xidmətlər kimi təfsir etmişdir.[143]

"İrqi bərabərliyə dair" Direktiv yaşayış yerilə təmin olunma anlayışını özündə əks etdirmir. Lakin bu məsələnin insan hüquqlarına aid beynəlxalq hüquq kontekstində, konkret olaraq Aİ-nin Əsas Hüquqlar Xartiyasının 7-ci maddəsilə nəzərdə tutulmuş hər kəsin mənzil toxunulmazlığı hüququ, AİHK-nın 8-ci maddəsi (nəzərə alsaq ki, Aİ-yə üzv olan bütün dövlətlər bu sənədi imzalayıb, Aİ isə bunu yaxın gələcəkdə edəcək), həmçinin "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktın (bu sənəd bütün üzv dövlətlər tərəfindən imzalanıb) 11-ci maddəsində əks olunmuş münasib həyat səviyyəsi hüququ kontekstində təfsir olunması təklif olunur. AİHM yaşayış yerilə təmin olunma hüququnu geniş şəkildə təfsir edərək buraya hətta qeyri-qanuni şəkildə yerləşdirilmiş furqonlar və ya treylerlər kimi səyyar yaşayış yerlərini də daxil edir[144]. BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitəsinə əsasən münasib yaşayış yeri bir sıra tələblərə cavab verməlidir. Konkret olaraq belə bir yer müxtəlif ünsürlərdan müdafiəni təmin etmək üçün kifayət qədər keyfiyyətli olmalıdır, sakinlərin mədəni tələblərini özündə əks etdirməlidir (bu avtomobillərə, furqonlara, düşərgələrə və digər qeyri-daimi tikililərə də aiddir), kommunal xidmətlərlə təmin olunmalıdır və sanitariya qovşağına qoşulmalıdır, həmçinin münasib infrastruktur vasitəsilə ictimai xidmətlərə və iş imkanlarına çıxışı olmalıdır.

---

[138] Macarıstan Respublikası Bərabər Rəftar Məsələləri üzrə İdarəsi tərəfindən baxılmış 72 saylı, 2008-ci il aprel tarixli iş. İşin ingilis dilindəki xülasəsilə FRA-nın informasiya portalında (İş 322-1) və Ayrı-seçkiliyə qarşı hüquqi ekspertlərin Avropa Şəbəkəsində 8(iyul 2009-cu il) tanış olmaq olar: "Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinin icmalı (səh. 49)".

[139] *"Escape" bar-restoranının Etnik Mənşə Zəminində Ayrı-seçkilik əleyhinə Ombudsmana qarşı* İsveç Krallığının Ali Məhkəməsindəki T-2224-07 saylı, 1 oktyabr 2008-ci il tarixli işi. İşin ingilis dilindəki xülasəsilə FRA-nın informasiya portalında (İş 365-1) və Ayrı-seçkiliyə qarşı hüquqi ekspertlərin Avropa Şəbəkəsində 8(iyul 2009-cu il) tanış olmaq olar: "Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinin icmalı (səh. 68)".

[140] Avstriya Respublikası Dublinq Dairə Məkəməsi tərəfindən baxılmış GZ 17 C 1597/05f-17 saylı, 23 yanvar 2006-cı il tarixli iş. İşin ingilis dilindəki xülasəsilə FRA-nın informasiya portalında (İş 1-1) tanış olmaq olar. Original mətnlə: "http://infoportal.fra.europa.eu/InfoPortal/caselawDownloadFile. do?id=1" saytında tanış olmaq olar.

[141] *Lenormanın Balensiyə qarşı* Nom Apellyasiya Məhkəməsindəki 08/00907 saylı, 6 noyabr 2008-ci il tarixli və Fransa Respublikası Kassasiya Məhkəməsinin Cinayətlərə dair İşlər üzrə Palatasındakı M 08-88.017 və 2074 saylı, 7 aprel 2009-cu il tarixli işləri. İşin ingilis dilindəki xülasəsilə Ayrı-seçkiliyə qarşı hüquqi ekspertlərin Avropa Şəbəkəsində 9 (dekabr 2009-cu il) tanış olmaq olar: "Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinin icmalı (səh. 59)".

[142] *Cinsi Oriyentasiya zəminində Ayrı-seçkilik Əleyhinə Ombudsmanın A.S.-ə qarşı* Svea Apellyasiya Məhkəməsindəki T-3562-06 saylı, 11 fevral 2008-ci il tarixli işi. İşin ingilis dilindəki xülasəsilə Ayrı-seçkiliyə qarşı hüquqi ekspertlərin Avropa Şəbəkəsində 8 (iyul 2009-cu il): "Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinin icmalı (səh. 69)" tanış olmaq olar.

[143] *Kolun "Union des Caisses de Maladi"-yə qarşı* C-158/96 saylı [1998] ECR I-1931, 28 aprel 1998-ci il tarixli, *Peerbumsun "Stichting CZ Groep Zorgverzekeringen"-ə qarşı* C-157/99 [2001] ECR I-5473 saylı, 12 iyul 2001-ci il tarixli və *Müller Faurènin "Onderlinge Waarborgmaatschappij"-ə qarşı* C-385/99 [2003] ECR I-4509 saylı, 13 may 2003-cü il tarxli AƏM-dəki işləri.

[144] *Bukleyin Böyük Britaniyaya qarşı* AİHM-dəki 20348/92 saylı, 25 sentyabr 1996-cı il tarixli işi.

Eyni zamanda, yaşayış yeri istənilən təcavüzdən müdafiə olunmaq üçün münasib və maddi imkanlara uyğun olmalıdır.[145] Yaşayış yerinin izahı Avropa İttifaqı Əsas Hüquqlar Agentliyinin (FRA) *"Romanların və köçərilərin yaşayış yerilə bağlı vəziyyəti: Bərabərlik istiqamətində addımlar"*[146] adlı qısa hesabatında öz əksini tapmış yanaşmada da verilir.

Bu yanaşmaya əsasən, yaşayış yerilə təmin olunma əmlakın konkret şəxsə icarəyə verilməsi və ya satılması barədə qərar qəbul edərkən dövlət və ya özəl mənzil sahibləri və daşınmaz əmlak agentlikləri tərəfindən sadəcə olaraq bərabər rəftarın göstərilməsini nəzərdə tutmur. Burada həmçinin yaşayış yerinin yerləşməsi (məsələn, konkret etnik qrupun aşağı keyfiyyətli və ya ucqar yaşayış yeri), saxlanması (məsələn, konkret qrupun məskunlaşdığı yaşayış yerinə xidmətlərin göstərilib-göstərilməməsi) və icarəyə verilməsi (məsələn, konkret qrup tərəfindən icarəyə götürülmüş yerlə bağlı icarə müddətlərinə əməl edib-etməmə, yüksək icarə haqqları və ya behlər) baxımından bərabər rəftar hüququnun təmin edilməsi də nəzərdə tutulur.

Misal: Belçikada icarəçi mənzilini Konqodan olan şəxslərə icarəyə verməkdən imtina etdiyinə görə Cinayət Məcəlləsinə əsasən cinayət məsuliyyətinə cəlb olunaraq Mülki Məcəlləyə uyğun olaraq cərimələndirilmişdir. Keçmiş icarəçilər tərəfindən verilmiş qənaətbəxş arayışlara və münasib gəlir barədə dəlillərə baxmayaraq, həmin icarəçi keçmişdə ödənişlərə görə əcnəbilərlə problemləri olması səbəbindən konqolularla icarə müqaviləsi imzalamaqdan imtina etmişdir.[147]

Misal: Boltsano Muxtar Vilayəti məhkəməsi tərəfindən AƏM-ə istiqamətləndirilmiş Servet Kamberayın işi[148] mənzil pulundan ibarət maddi yardımın necə təyin edilməsi meyarları ilə əlaqədar idi. İşi istiqamətləndirmiş məhkəmə hər bir kateqoriyanın sayı əsasında müəyyənləşdirilmiş orta miqdarlı parametrləri və hər kateqoriyanın ehtiyaclarını əsas götürülərək bu cür maddi yardımın Muxtar Vilayətin etnik qrupları və 3-cü ölkə vətəndaşları arasında mütənasib şəkildə bölüşdürüldüyünü bilərək əlaqədar milli hüquqi normaların 2000/43 və 2003/109 saylı Direktivlərə nə dərəcədə uyğun olması barədə qərar çıxarmağı xahiş etmişdir, çünki aparılmış bölüşdürmə nəticəsində 3-cü ölkə vətəndaşlarının qeyri-münasib rəftara məruz qalmaları məsələsi gündəmə gəlmişdir. Belə şəxslərdən olan cənab Kamberay Albaniya vətəndaşıdır. O, 1994-cü ildən etibarən Boltsano Muxtar Vilayətində yaşayır və işləyir. O, daimi yaşayış icazəsinə də malikdir. 2010-cu ildə onun mənzil pulu almaqla bağlı ərizəsinə 3-cü ölkə vətəndaşları üçün nəzərdə tutulmuş müvafiq maliyyə vəsaitlərinin bitməsi səbəbindən rədd cavabı verilmişdir.

AƏM 2000/43 saylı Direktivin yalnız irqi mənsubiyyət və ya etnik mənşə zəminində birbaşa və ya dolayı ayrı-seçkilik hallarına tətbiq edilməsi qənaətində idi. Həmin Direktivin 3-cü maddəsi vətəndaşlıq mənsubiyyəti zəminində fərqli rəftar məsələlərinin bu Direktivlə əhatə olunmadığını bəyan edir. Deməli, sözügedən Direktivin icrası üçüncü ölkə vətəndaşlarının və vətəndaşlığı olmayan şəxslərin üzv dövlətin ərazisinə gəlmək, burada qalmaq və belə statuslarla əlaqədar rəftar məsələlərinə aid normativ-hüquqi aktlara və tələblərə xələl yetirmir. Buna rəğmən, 2003/109 saylı Direktivin 11(1)(d) maddəsi sosial təminat, sosial yardım və sosial müdafiə kontekstində uzunmüddətli sakinlərin bərabər rəftar hüququna malik olmalarını nəzərdə tutur. Bu cür anlayışlar milli qanunlarla müəyyənləşdirilib və Aİ qanunvericiliyinə

[145] BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitəsinin "4 saylı Ümumi Şərhi: Münasib yaşayış yeri ilə təmin olunma hüququ (11(1)-ci maddə)" UN. Doc. E/1992/23, 13 dekabr 1991-ci il.

[146] FRA-nın "Romanların və köçərilərin yaşayış yerilə bağlı vəziyyəti: Bərabərlik istiqamətində addımlar" adlı qısa Hesabatı (Vyana, FRA, mart 2010-cu il).

[147] "Correctionele Rechtbank van Antwerpen"-nin (Belçika Krallığı), 6 dekabr 2004-cü il tarixli qərarı. İşin ingilis dilindəki xülasəsilə FRA-nın informasiya portalında tanış olmaq olar: İş 15-1, mətnin əsli "http://infoportal.fra.europa.eu/InfoPortal/ caselawDownloadFile.do?id=15" saytında mövcuddur.

[148] *Servet Kamberayın Istituto per L'Edilizia Sociale Della Provincia Autonomia di Bolzano (IPES)-ə və başqalarına qarşı* C-571/10 saylı, 24 aprel 2012-ci il tarixli işi.

əsasən hansısa müstəqil və vahid anlayışlar mövcud deyil. Lakin milli qanunlar əsasında müəyyən edilmiş anlayışlara istinad etmə qeyd olunmuş Direktivin səmərəliliyinin qarşısının alınması ilə nəticələnə bilməz və sosial müdafiə sahəsindəki hüquqlardan istifadə etmə istiqamətində bərabər rəftar prinsipinin tətbiq olunma sahəsini azalda bilməz. Beləliklə, 11(4)-cü maddə üzv dövlətlərə uzunmüddətli sakin statusu daşıyıcılarının bərabər rəftar hüququnun məhdudlaşdırılmasına imkan verən maddə kimi təfsir olunmalıdır, lakin bu cür məhdudlaşdırma əsas xidmətlərlə, o cümlədən ərzaq məhsulları, yaşayış yeri və tibbi xidmətlərlə təmin olunma hüquna şamil olunmur. Belə bir təfsir Aİ-nin Əsas Hüquqlar Xartiyasının 34-cü maddəsinə uyğundur və bunun əsasında Aİ kifayət qədər vəsaiti olmayan bütün şəxslərin layiqli yaşayışını təmin etmək məqsədilə sosial yardım və mənzil pulu əldə etmək hüququnu tanıyır və bu hüquqa hörmət edir.

3.4.3.1. Avropa İnsan Hüquqları Konvensiyası və mallar, xidmətlər və yaşayış yeri ilə təmin olunma məsələləri

AİHM-in təfsirinə əsasən 8-ci maddə şəxsi həyata, o cümlədən iqtisadi və sosial xarakterli əlaqələrə malik olmaq üçün müvafiq nəticələri özündə əks etdirə biləcək fəaliyyət növlərinə aid halları əhatə edir. Eyni zamanda, AİHM 8-ci maddəyə əsasən mənzil toxunulmazlığı hüququnun izah olunması ilə bağlı çox geniş yanaşmaya yol verir. Qeyd olunduğu kimi, ev anlayışına furqonlar və treylərlər kimi nisbətən "qeyri-ənənəvi" yaşayış yerləri də daxildir. AİHM dövlət mənzil-kommunal təsərrüfatının uzun müddət ərzində pis şəraitdə olmasını və sakinlər üçün çətinliklər yaratmasını qeyri-insani rəftarı təşkil edə bilən bir amil hesab edir.

Misal: Moldovanın və başqalarının Rumıniya Respublikasına qarşı (No. 2) işinə əsasən, iddiaçılar sonradan çox gərgin bir şəraitdə sökülmüş evlərindən çıxarılmışdılar.[149] Evlərin yenidən tikilməsi prosesi həddindən artıq ləng gedirdi və onlar üçün müvəqqəti olaraq ayrılmış yaşayış yerləri çox keyfiyyətsiz idi. AİHM bəyan etmişdir ki:

"… iddiaçıların son 10 il ərzindəki yaşayış şəraiti, xüsusən də həddindən artıq sıx şəkildə yaşamaları ilə bağlı vəziyyəti və antisanitariya mühiti və bütün bunların iddiaçıların səhhətinə və rifahına çox zərərli təsirin göstərməsi, üstəgəl onların bu cür şəraitdə yaşamalı olduqları müddət və müvafiq orqanların bu məsələyə ümumi münasibəti iddiaçıların ləyaqətini alçaldaraq, onlarda alçalma və təhqir olunma kimi hisslərin yaranmasına səbəb olaraq ümumi psixi durumlarının kəskin şəkildə pisləşməsilə nəticələnməyə bilməzdi."

AİHM digər amillərlə yanaşı, bu cür qənaəti rəhbər tutaraq AİHK-nın 3-cü maddəsinə zidd olaraq alçaldıcı rəftarın baş verdiyini müəyyən etmişdir, baxmayaraq ki, yuxarıda verilmiş bəyanatın ifadə olunma tərzi bu cür qənaətə gəlmək üçün təkcə yaşayış yerindəki şəraitin təsvir olunmasının kifayət etdiyini göstərir.[150]

Misal: Dokiçin Bosniya və Herseqovina Respublikasına qarşı işinə əsasən, ərizəçi onun mülkiyyət hüququna müdaxilə olunduğunu iddia edirdi.[151] Ərizəçi keçmiş Yuqoslaviyanın süquta uğramasından əvvəl hərbi məktəbdə mühazirələr oxuyurdu və həmin ölkənin silahlı qüvvələrinin əməkdaşı idi. O, Sarayevo şəhərində mənzil almışdı, lakin Bosniya və Herseqovinada müharibə başladıqdan sonra məktəb hazırkı Serbiya Respublikasının ərazisinə köçürüldüyündən iddiaçı da oraya gedərək Serbiyanın hərbi qüvvələrinə üzv olmuşdur. Münaqişə başa çatdıqdan sonra Bosniya və Herseqovinanın yerli orqanları onun mülkiyyət

[149] *Moldovanın və başqalarının Rumıniya Respublikasına qarşı (No. 2)* AİHM-dəki 41138/98 və 64320/01 saylı, 12 iyul 2005-ci il tarixli işləri.
[150] AİHM-in presedent hüququ müəyyən şəraitdə diskriminativ rəftarın alçaldıcı rəftara bərabər tutulduğunu göstərir. Məsələn, *Smit və Qreydinin Böyük Britaniyaya qarşı* AİHM-dəki 33985/96 və 33986/96 saylı, 27 sentyabr 1999-cu il tarixli işlərinə baxın.
[151] *Dokiçin Bosniya və Herseqovina Respublikasına qarşı* AİHM-dəki 6518/04 saylı, 27 may 2010-cu il tarixli işi.

hüququnu bərpa etməkdən imtina etmişdilər. Milli səviyyədə qəbul edilmiş qərar iddiaçının Bosniya və Herseqovinanın ərazisindəki hərbi əməliyyatlarda iştirak etmiş xarici hərbi qüvvələrdə xidmət etməklə vətənə xəyanət etməsi ilə əsaslandırılırdı. AİHM bu işə AİHK-nın digər maddələrilə yanaşı, 14-cü maddəsi əsasında baxaraq yuxarıdakı qərarın sadəcə olaraq iddiaçının etnik mənşəyindən irəli gəldiyini hesab etmişdir (müəyyən şəxsin hansısa silahlı qüvvələrdə xidmət etməsi onun etnik mənşəyinin göstəricilərindən biridir), lakin bu iddiaçının sözügedən silahlı qüvvələrinə formal mənsubiyyətindən başqa faktiki olaraq hansısa xainlik əməlinin göstəricisi kimi qəbul olunmamalıdır. Bununla əlaqədar olaraq, iddiaçının mülkiyyət hüququnun bərpa olunmaması və ya onun üçün təzminatın ödənilməməsi, yaxud alternativ mənzilin təqdim olunmaması onun mülkiyyət hüququnun pozulması kimi qiymətləndirilmişdir.

Misal: Bahın işində[152] Syerra-Leone vətəndaşı olan qadın iddaçıya Böyük Britaniyada qalmaq üçün müddətsiz icazə verilmişdir. Müvafiq olaraq onun azyaşlı oğlu da dövlət fondlarına yardım üçün müraciət etmədən anası ilə birlikdə qalmaq icazəsi almışdır. İddiaçının oğlu onun yanına gəldikdən sonra iddiaçının kirayə götürdüyü otağın sahibi onun oğlunun da bu otaqda qala bilməyəciyini bildirmişdir. Belə olduqda, o, münasib yaşayış yeri tapmaq məqsədilə yerli orqanlara müraciət etmişdir. Yerli orqanlar kömək göstərməyə razılıq vemişdi, lakin onun oğlu immiqrasiya nəzarəti altında olduğundan ona növbədəkənar xidmət göstərməkdən imtina etmişdilər, baxmayaraq ki, qeyri-ixtiyari evsiz şəxs statusu ona təxirəsalınmadan köməkliyin göstərilməsinə icazə verirdi. AİHM iddiaçının məruz qaldığı fərqli rəftarın onun vətəndaşlıq mənsubiyyətdən deyil, oğlunun şərti immiqrant statusuna malik olmasından irəli gəldiyini müəyyən etmişdir. İmmiqrant statusu ilə bağlı seçim etmək elementinin mövcudluğunu nəzərə alaraq, bu zəmində baş vermiş fərqli rəftar üçün tələb olunan əsaslandırma təbii və demək olar ki, dəyişilməz şəxsi əlamətlər əsasında baş vermiş ayrı-seçkilik üçün nəzərdə tutulmuş əsaslandırma kimi əsaslı olmaya bilər. Bu işin predmeti, yəni ehtiyacı olanların yaşayış yerilə təmin edilməsi məsələsi öz xarakterinə görə sosial-iqtisadi bir məsələ olduğundan, dövlətə nisbətən geniş qiymətləndirmə çərçivələri təklif olunmuşdur. İddiaçıya növbədənkənar xidmətin göstərilməsindən imtina olunduqda heç bir özbaşınalığa yol verilməmişdir. Oğlunun Böyük Britaniyaya gəlmək üçün icazəsinə əlavə edilmiş şərtlər barədə tam məlumatlı olan iddiaçı oğlunu bu ölkəyə gətirdikdə onun buradakı yaşayışının təmin edilməsi üçün müvafiq dövlət fondlarına müraciət etməmək tələbilə faktiki olaraq razılaşmışdır. Öz statusuna görə növbədənkənar xidmət hüququna malik olan, Böyük Britaniyada qanunsuz yaşayan və ya kömək üçün dövlət fondlarına müraciət etməmək şərtilə bu ölkəyə gələn, həmçinin heç bir şərt olmadan gələn şəxslər arasında fərqlərin qoyulması əsaslandırılandır. Bu işdə qanunvericilik çox mühüm bir məqsədə, daha konkret desək son dərəcə məhdud resursların müxtəlif kateqoriyalı namizədlər arasında ədalətli şəkildə bölüşdürülməsi işinə xidmət edir. AİHM evsiz qalmaq təhlükəsilə üzləşmiş iddiaçının nəticədə böyük ehtimalla keçirdiyi narahatlıq hisslərini diqqətsiz qoymayaraq qeyd etmişdir ki, o faktiki olaraq heç vaxt evsiz qalmamışdır və onun oğlu ilə birgə evsiz qalmaq təhlükəsi yaransa idi yerli orqanlar qanunla nəzərdə tutulmuş başqa öhdəliklərə əsasən onlara kömək göstərməli olacaqdılar. Belə olan təqdirdə onunla növbədənkənar qaydada rəftar olunanlarla bərabər şəkildə rəftar olunacaqdı: yerli orqanlar ona başqa bir inzibati ərazidə özəl sektor tərəfindən icarəyə verilən yaşayış yeri tapacaq idi və həmin ərazidə 17 ay ərzində yaşayış yeri ilə təmin olunacağını təklif edəcək idi. Bununla da, iddiaçının məruz qaldığı rəftar məntiqli və obyektiv şəkildə əsaslandırılmışdır.

3.4.4. Ədalət mühakiməsi hüququndan istifadə

Ayrı-seçkiliyi qadağan edən direktivlərdə mallara və xidmətlərə aid hüquqlar sırasında ədalət mühakiməsi hüququndan istifadə məsələsi konkret şəkildə qeyd olunmasa da, bu hüququn müəyyən dərəcədə həmin sıraya aid olduğunu ehtimal etmək olar, çünki məhkəmələr

[152] *Bahın Böyük Britaniyaya qarşı* AİHM-dəki 56328/07 saylı, 27 sentyabr 2011-ci il tarixli işi.

mükafatlandırma müqabilində ictimaiyyət üçün dövlət xidmətlərini göstərir. Eyni zamanda, ayrı-seçkiliyi qadağan edən direktivlər insan hüquqlarının bu direktivlərə uyğun təmin edilməsinə şərait yaratmaq məqsədilə məhkəmə və/və ya inzibati prosedurlarının təşkil olunmasını üzv dövlətlərdən tələb edir.[153] Bundan başqa, Aİ qanunvericliyinin birmənalı şəkildə müəyyən etdiyi prinsip insanların bu qanunvericilikdən irəli gələn hüquqlara əsasən *"səmərəli ədalət mühakiməsi hüququndan"* faydalanmasını nəzərdə tutur.[154] Beləliklə, mallar və xidmətlərə aid hüquqlarda ədalət mühakiməsi hüququnun əks olunduğu qeyd edilməsə də, bu hüququn sözügedən direktivlərin icrasının təmin edilməsilə əlaqədar əlahiddə bir hüquq kimi (ayrı-seçkilik halının sübuta yetirilib-yetirilməməsi tələbindən asılı olmayaraq) mövcud olması nəzərə alınmalıdır.

3.4.4.1. Avropa İnsan Hüquqları Konvensiyası və ədalət mühakiməsi

Ədalət mühakiməsi hüququndan istifadə AİHK-nın 6-cı maddəsində nəzərdə tutulmuş ədalətli məhkəmə araşdırması kontekstində əlahiddə bir hüquq kimi təmin olunur. AİHM ədalət mühakiməsi hüququndan istifadə sahəsində ayrı-seçkilik halları ilə bağlı bir neçə işə baxmışdır.

Misal: Paraskeva Todorovanın Bolqarıstan Respublikasına qarşı işinə əsasən, yerli məhkəmənin milli azllıqlar arasında cəzasızlıq ab-havasının öhdəsindən gəlmək zərurətini qeyd etməklə iddiaçıya şərti cəzanın verilməsi məsələsini rədd etməsi 14-cü maddə ilə birgə 6-cı maddənin pozulması kimi qəbul olunmuşdur.[155]

Misal: Yuxarıda müzakirə edilmiş *Moldovanın və başqalarının Rumıniya Respublikasına qarşı (No2)* işinə əsasən müəyyən edilmişdir ki, mülki və cinayət işi üzrə araşdırmaların yekunlaşdırılması istiqamətində baş vermiş hədsiz ləngimələr (ilk qərarın çıxarılması 7 il çəkmişdir) 6-cı maddənin pozulması hesab olunur.[156] Ləngimələrin çoxsaylı prosessual səhvlər səbəbindən baş verməsi müəyyən olunmuşdur və bu fakt dövlət orqanlarının roman mənşəli iddiaçılara qarşı geniş yayılmış diskriminativ rəftarla birlikdə (14-cü maddə ilə birgə) 6-cı maddənin pozulması kimi qəbul olunmuşdur.

Misal: Anakomba Yulanın Belçika Krallığına qarşı işinə görə, milli qanunvericiliyə əsasən, iddiaçının Belçika vətəndaşı olmaması səbəbindən nikahdan kənar doğulmuş uşağın atası olan və onlardan ayrı yaşayan şəxsin atalıq hüquqlarını təsdiq etmək üçün dövlət vəsaitlərindən istifadə edə bilməməsi 14-cü maddə ilə birgə 6-cı maddənin pozulması kimi müəyyənləşdirilmişdir.[157] Bu əcnəbilərin dövlət vəsaiti hesabına mütləq qaydada faydalanması hüququna malik olmaları demək deyil. Sadəcə olaraq bu işin vəziyyətinə gəldikdə, AİHM bir neçə amili, o cümlədən iddiaçının öz yaşayış icazəsinin etibarlılıq müddətinin artırılması məqsədilə artıq müraciət etməsinə baxmayaraq, o zaman etibarlı yaşayış icazəsinə malik olmaması səbəbindən rədd cavabı alması məsələsini əsas götürmüşdür. Bundan başqa, AİHM-in rəhbər tutduğu başqa bir fakt ondan ibarət idi ki, atalıq hüququnun təsdiq edilməsilə bağlı 1 illik qadağaya əsasən, onun yaşayış icazəsinin etibarlılıq müddətinin artırılmasından asılı olmayaraq dövlət vəsaitlərindən istifadə üçün müraciət etmə məqsədilə əlavə olaraq 1 il

[153] "Məşğulluq sahəsində bərabərliyə dair" Direktivin 9(1)-ci, "Gender bərabərliyinə dair" (yenidən baxılmış) Direktivin 17(1)-ci, "Mallar və xidmətlər sahəsində gender bərabərliyinə dair" Direktivin 8(1)-ci, "İrqi bərabərliyə dair" Direktivin 7(1)-ci maddələri.

[154] Məsələn, *Vassilakis və başqalarının Dimos Kerkirasa qarşı* C-364/07 [2008] ECR I-90 saylı, 12 iyun 2010-cu il tarixli; *Sahlstedtin və başqalarının Komissiyaya qarşı* C-362/06 [2009] ECR I-2903 saylı, 23 aprel 2009-cu il tarixli; *Anqelidakinin və başqalarının "Organismos Nomarkhiaki Aftodiikisi Rethimnis"-ə qarşı* C-378/07 [2009] ECR I-3071 saylı, 23 aprel 2009-cu il tarixli, AƏM-dəki işlərinə baxın.

[155] *Paraskeva Todorovanın Bolqarıstan Respublikasına qarşı* AİHM-dəki. 37193/07 saylı, 25 mart 2010-cu il tarixli işi.

[156] *Moldovanın və başqalarının Rumıniya Respublikasına qarşı (No. 2)* AİHM-dəki 41138/98 və 64320/01 saylı, 12 iyul 2005-ci il tarixli işləri.

[157] *Anakomba Yulanın Belçika Krallığına qarşı* AİHM-dəki 45413/07 saylı, 10 mart 2009-cu il tarixli, 4.7-ci bölmədə müzakirə olunan işi.

də gözləməli olacağı məntiqsiz hesab olunurdu.

3.5. Avropa İnsan Hüquqları Konvensiyasının Avropa İttifaqı qanunvericiliyindən kənar tətbiqi

Yuxarıda bir sıra işlər müzakirə edilmişdir ki, həmin işlərdə AİHK-dan irəli gələn müdafiə, ayrı-seçkiliyi qadağan edən direktivlərdən irəli gələn müdafiə ilə üst-üstə düşürdü. Lakin bu işlərlə yanaşı AİHK əsasında əlavə müdafiəni nəzərdə tutan bir sıra digər vacib sahələr mövcuddur.

3.5.1. "Şəxsi" sahə: şəxsi həyat və ailə həyatı, övladlığa götürmə, mənzil və nikah[158]

Bu cür vacib sahələrdən biri ailə həyatı və şəxsi həyat sahəsidir ki, burada üzv dövlətlər qanunvericilik nöqteyi-nəzərindən Aİ-ni müfəssəl səlahiyyətlərlə təmin etməyiblər. Bu sahə ilə bağlı AİHM-ə təqdim olunmuş işlər vərəsəlik qaydaları ilə, boşanmış valideynlərin öz uşaqlarını görməklə və atalıq məsələlərilə əlaqədar fərqli rəftar hallarına baxmağı nəzərdə tuturdu.

Aşağıdakı fəsillərdə müzakirə olunduğu kimi, məhz *Mazurekin Fransa Respublikasına,*[159] *Sommerfeldin AFR-ə*[160] və *Rasmussenin Danimarka Krallığına*[161]*qarşı* işləri vərəsəlik qaydaları ilə, boşanmış valideynlərin öz uşaqlarını görməklə və atalıq məsələlərilə əlaqədar fərqli rəftar hallarına baxmağı nəzərdə tuturdu. 8-ci maddəni övladlığa götürmək məsələlərinə də şamil etmək mümkündür. Yuxarıda müzakirə olunmuş *E.B.-nin Fransa Respublikasına qarşı* işi də övladlığa götürmə məsələlərinin AİHK-nın əhatə dairəsinə daxil edilməsinin mümkünlüyünü nümayiş etdirdi, baxmayaraq ki, övladlığa götürmə hüququ AİHK-da faktiki olaraq əks olunmayıb. Bundan əlavə, AİHM presedent hüququnu rəhbər tutaraq 8-ci maddənin ümumi əhatə dairəsini belə təfsir etmişdir:

"… AİHK-nın 8-ci maddəsi kontekstində verilmiş "şəxsi həyat" anlayışı geniş əhəmiyyət kəsb edərək digər hüquqlarla yanaşı, *başqa insanlarla münasibətlər qurmaq və bu münasibətləri inkişaf etdirmək, … şəxsən inkişaf etmək … və ya öz müqəddaratını müəyyən etmək hüquqlarının təmin edilməsini nəzərdə tutur. Bu anlayış 8-ci maddə ilə müdafiə olunan "şəxsi" sahənin əhatə dairəsinə aid adlar, …, gender özünəməxsusluğu, cinsi oriyentasiya və cinsi həyat kimi elementləri, həmçinin övlad sahibi olmaq və olmamaq barədə qərarlara hörmət etmək hüququnu əhatə edir."*[162]

Göründüyü kimi, 8-ci maddənin əhatə dairəsi həddindən artıq genişdir. AİHK başqa sahələrə də şamil oluna bilər, xüsusən də 12-ci maddə ilə müdafiə olunan nikah sahəsinə.

Misal: Munyos Diasın İspaniya Krallığına qarşı işinə əsasən, iddiaçı öz həyat yoldaşı ilə roman adətlərinə əsasən nikah bağlamışdır, lakin bu nikah milli qanunvericiliyə uyğun olmadığından rəsmi hesab olunmurdu.[163] Buna baxmayaraq, dövlət orqanları iddiaçı ilə onun adına rəsmiləşdirilmiş və nikahı barədə qeydlər aparılmış şəxsiyyəti təsdiq edən sənədlərə, həmçinin bu ailənin "ev dəftərinə" uyğun rəftar edirdi, o müvafiq müavinətlərlə də təmin olunurdu. İddiaçı həyat yoldaşını itirdikdən sonra ailə başçısının ölümü ilə əlaqədar verilən pensiya üçün dövlət orqanlarına müraciət etmişdir, lakin o, nikaha milli qanunvericiliyə əsasən daxil olmadığından rədd cavabı almışdır. AİHM dövlət tərəfindən iddiaçı ilə onun nikahı qanuni

[158] AİHK-nın 8-ci maddəsinin əhatə dairəsinə aid şərhlə AŞ-nin Hüquqşünaslar üçün İnsan Hüquqları Sahəsində Təhsilə dair "www.coehelp.org/mod/resource/view. php?inpopup=true&id=1636" saytından tanış olmaq olar: Kilkelli "Şəxsi həyata və ailə həyatına hörmət hüququ", İnsan Hüquqları üzrə Bələdçi No. 1, 2001-ci il.
[159] *Mazurekin Fransa Respublikasına qarşı* AİHM-dəki 34406/97 saylı, 1 fevral 2000-ci il tarixli işi.
[160] *Sommerfeldin AFR-ə qarşı* AİHM-dəki 31871/96 saylı, 8 iyul 2003-cü il tarixli işi.
[161] *Rasmussenin Danimarka Krallığına qarşı* AİHM-dəki 8777/79 saylı, 28 noyabr 1984-cü il tarixli işi.
[162] *E.B.-nin Fransa Respublikasına qarşı* AİHM-dəki [GC] 43546/02 saylı, 22 yanvar 2008-ci il tarixli işinin 43-cü paraqrafı.
[163] *Munyos Diasın İspaniya Krallığına qarşı* AİHM-dəki 49151/07 saylı, 8 dekabr 2009-cu il tarixli işi.

olduğu kimi rəftar olunduğundan onun digər "insaflı" (texniki səbəbdən rəsmi nikahda olmayan, lakin özlərini rəsmi nikahda olduqları kimi hesab edən) həyat yoldaşları ilə müqayisə olunan vəziyyətdə olduğunu və ailə başçısının ölümü ilə əlaqədar verilən pensiyanı əldə etmək hüququna malik olduğunu müəyyən etmişdir. Eyni zamanda, AİHM müəyyən etmişdir ki, nikahın rəsmi hesab olunması ilə bağlı müraciətə rədd cavabının verilməsi ayrı-seçkilik halı kimi qiymətləndirilməsə də (14-cü maddə ilə birgə 12-ci maddə əsasında), iddiaçı ilə digər "insaflı" həyat yoldaşları ilə olduğu kimi rəftaretməmə və ona müvafiq pensiyanın verilməməsi ayrı-seçkilik halı kimi qiymətləndirilməlidir (14-cü maddə ilə birgə 1 saylı Protokloun 1-ci maddəsini rəhbər tutaraq).

Misal: Şərifə Yığıtın Türkiyə Respublikasına qarşı işində[164] ərizəçi 1976-cı ildə dini nikaha daxil olmuşdur. Onun həyat yoldaşı 2002-ci ildə vəfat etmişdir. 2003-cü ildə o öz adından və qızının adından iddia ərizəsi təqdim edərək onun nikahının rəsmən tanınmasını və qızının müvafiq reyestrlərdə həyat yoldaşının övladı kimi göstərilməsini xahiş etmişdir. Əyalət məhkəməsi onun ərizəsinin 2-ci hissəsini təmin edərək onun nikahının tanınmasına rədd cavabı vermişdir. Bundan başqa, iddiaçı pensiya fonduna müraciət edərək vəfat etdiyi həyat yoldaşının yaşa görə pensiyasının ona ödənilməsi, həmçinin tibbi sığorta üzrə müavinətlərin onun və qızının adına keçirilməsini tələb etmişdir. Nəticədə iddiaçının nikahı qanuni şəkildə tanınmadığından müavinətlər onun qızına verilmişdir. AİHM qeyd etmişdir ki, yerli qanunvericliyə və presedent hüququna əsasən yalnız Mülki Məcəlləyə uyğun olaraq nikahda olan şəxs öz həyat yoldaşının sosial müdafiə məsələlərilə bağlı hüquq və vəzifələrinə varis ola bilər. Lakin iddiaçı sosial müdafiə sahəsində mövcud olan müavinətlərə həyat yoldaşının hüquq və vəzifələrinin ona keçməsi əsasında yiyələnmək üçün qanuni varis olduğunu sübuta yetirə bilməmişdir, baxmayaraq ki, vətəndaş nikahını idarə edən həqiqi və formal şərtlərin əsasında duran qaydalar birmənalı və əlçatan, həmçinin bu cür nikaha daxil olmaq üçün mexanizmlər şəffaf idi və belə nikaha daxil olmaq istəyən şəxslərin üzərinə hansısa hədsiz öhdəliklər qoymurdu. Eyni zamanda, iddiaçının rəsmi nikaha daxil olmaq üçün kifayət qədər vaxtı, 26 ili var idi. Deməli, vaxtılə öz vəziyyətini tənzimləmək üçün görülmüş tədbirlərin ağır və ləng xarakterli inzibati prosedurlarla qarşısının alındığı barədə hansısa iddalar əsaslı hesab oluna bilməz. Bununla yanaşı, iddiaçının və onun partnyorunun nikahın dini formasını seçməsi, həmçinin rəsmi nikaha daxil olmaması iddiaçının səmərəli ailə həyatında aparıcı rol oynamağının qarşısını almaq üçün inzibati və ya cinayət cəzalarının tətbiq edilməsini nəzərdə tutmurdu. 8-ci maddə dövlət üzərinə dini nikahları tanımaq öhdəliyi qoyan bir maddə kimi təfsir oluna bilməz və ya dövlətdən rəsmi nikaha daxil olmamış cütlüklərdən ibarət konkret bir kateqoriya üçün xüsusi rejimin təşkil olunmasını da tələb edə bilməz. Beləliklə, iddiaçının qanunvericiliyə uyğun olaraq varis statusuna yiyələnməməsi onun hüquqlarının 8-ci maddəyə əsasən pozulmasına dəlalət etmir.

Beləliklə, insan ləyaqətinin müdafiə edilməsi adətən AİHM-dən daha konkret qərarların qəbul edilməsini tələb etsə də, hüquqları pozula biləcək və həssas vəziyyətdə olan şəxslərin narahatlıqlarını nəzərə ala biləcək bu qərarlar tarazlaşdırılmış şəkildə olmalıdır.

Misal: Sommerfeldin AFR-ə qarşı işi atanın öz uşağını görmək məsələlərini tənzimləyən AFR-in qanunvericiliyilə bağlıdır.[165] Milli qanunvericiliyə əsasən, uşağın valideynləri rəsmi nikahda olmadığı təqdirdə, anaya atanın uşağı görməsinə rədd cavabı vermək hüququ verilir. Belə olduqda, ata rədd cavabını qəbul etməmək üçün məhkəməyə müraciət etməlidir. Dövlət bu qanunvericiliyin qeyri-diskriminativ xarakter daşıması qənaətində idi, çünki adətən ailədən

[164] *Şərifə Yığıtın Türkiyə Respublikasına qarşı* AİHM-dəki [GC] 3976/05 saylı, 2 noyabr 2010-cu il tarixli işi.

[165] *Sommerfeldin AFR-ə qarşı* AİHM-dəki [GC] 31871/96 saylı, 8 iyul 2003-cü il tarixli işinin 93-cü paraqrafı. Həddindən artıq oxşar faktlarla bağlı *Şahinin AFR-ə qarşı* [GC] 30943/96 saylı, 8 iyul 2003-cü il tarixli işi ilə də tanış olun. Eyni zamanda,, *Mazurekin Fransa Respublikasına qarşı* AİHM-dəki 34406/97 saylı, 1 fevral 2000-ci il tarixli, "Müdafiə olunan əsaslar" adlı 4-cü fəsildə müzakirə edilmiş nikahdan kənar doğulmuş uşaqlarla əlaqədar fərqli rəftara aid işə baxın.

kənarda olan atalar öz uşaqlarına çox az maraq göstərirlər. AİHM ataların öz uşaqları ilə görüşmək hüququna aid işlərlə əlaqədar olaraq dövlətin vəziyyəti qiymətləndirmə çərçivələrinin çox dar olduğunu müəyyən etmişdir. Bundan başqa, AİHM bəyan etmişdir ki, *"nikahdan kənar və ya rəsmi nikahdan doğum əsasında fərqli rəftar məsələlərinə AİHK çərçivəsində baxılması üçün həddindən artıq əsaslı səbəblər irəli sürülməlidir … Tərəflərin birlikdə rəsmi nikahda olmadan yaşaması nəticəsində doğulmuş uşağın atası ilə rəsmi nikahdan doğulmuş uşağın atası kimi eyni tərzdə rəftar olunmalıdır."* AİHM dövlət tərəfindən verilmiş izahla bu cür fərqli rəftarın əsaslandırılmadığını müəyyən etmişdir.

Yuxarıda göstərilən işə əsasən, AİHM atanın öz uşağı yanında olması marağının uşağın ata ilə əlaqə saxlamaq marağı ilə üst-üstə düşdüyünü hesab etmişdir. Lakin uşağın maraqları atanın maraqları ilə potensial ziddiyyət təşkil etdikdə, dövlət uşağın daha yaxşı müdafiə olunması yollarını müəyyənləşdirərkən daha geniş çərçivəli qərarlara əl ata bilər.

Misal: Rasmussenin Danimarka Krallığına qarşı işinə əsasən, ata öz atalıq hüquqlarının müdafiə olunması istiqamətində ona mane olan, lakin qanunla nəzərdə tutulmuş məhdudiyyətlərlə bağlı şikayət etmişdir.[166] AİHM bunu cinsi zəmində fərqli rəftar kimi, lakin bu cür rəftarın əsaslı olduğunu müəyyənləşdirmişdir. Qanunla nəzərdə tutulmuş bu məqsədlə əlaqədar uşağın təhlükəsizliyini və özünəəminliyini təmin etmək və öz atalıq hüquqlarını müdafiə etdikdən sonra həmin hüquqlardan sui-istifadənin qarşısını almaq üçün əməl olunmuşdur. AİHK-nı imzalamış dövlətlər arasında bu kimi məsələlərə vahid yanaşma nümayiş etdirilmədiyindən AİHM konkret bu işlə bağlı dövlətə geniş ixtiyar çərçivələri verməklə fərqli rəftarın əsaslı olduğunu müəyyənləşdirmişdir.[167]

3.5.2. Siyasi fəaliyyətdə iştirak: fikir ifadə etmək azadlığı, yığıncaqlar və birləşmək azadlığı və azad seçkilərə aid məsələlər

Avropa Şurasının əsas məqsədlərindən biri demokratiyanın təşviq edilməsindən ibarətdir. Bu məsələ siyasi fəaliyyətdəki iştirakın təşviq olunmasını təmin edən AİHK-da verilmiş bir sıra hüquqlarda öz əksini tapmışdır. Aİ qanunvericiliyi bu məsələlərlə bağlı məhdud çeşidli hüquqlar (konkret olaraq Aİ vətəndaşlarının bələdiyyə seçkilərində və Avropa Parlamentinə seçkilərdə iştirak etmək hüququ) təklif etdikdə, AİHK səs vermək və seçkilərdə iştirak etmək hüquqlarına zəmin yaradan müddəalarla yanaşı fikir ifadə etmək azadlığından yığıncaqlar və birləşmək azadlıqlarınadək hüquqları özündə əks etdirir.

Misal: Yuxarıda müzakirə olunan *Başkovskinin və başqalarının Polşa Respublikasına qarşı* işinə əsasən, cinsi oriyentasiya zəminində ayrı-seçkilik barədə biliklərin artırılması məqsədilə yürüşün keçirilməsinə rədd cavabının verilməsi, üstəgəl merin geniş ictimaiyyət qarşısında homofob bəyanatlar verməsi dinc toplaşmaq azadlığının (11-ci maddə) 14-cü maddə ilə birgə pozulması kimi qiymətləndirilmişdir.[168]

Birləşmək azadlığı siyasi partiyaların yaradılması istiqamətində müdafiəni təmin etmək məqsədilə nəzərə alınmalıdır və AİHM bu cür müdaxilədən yüksək səviyyədə müdafiə nəzərdə tutur.[169] Eyni zamanda, bu Bələdçinin 4.11-ci bölməsində qeyd olunduğu kimi siyasi debatlar kontekstində söz azadlığı hüququna istənilən müdaxilə çox ciddi şəkildə nəzərdən keçirilir.[170]

[166] *Rasmussenin Danimarka Krallığına qarşı* AİHM-dəki 8777/79 saylı, 28 noyabr 1984-cü il tarixli işi.
[167] *Rasmussenin Danimarka Krallığına qarşı* AİHM-dəki 8777/79 saylı, 28 noyabr 1984-cü il tarixli işinin 40-42 paraqrafları.
[168] *Başkovskinin və başqalarının Polşa Respublikasına qarşı* AİHM-dəki 1543/06 saylı, 3 may 2007-ci il tarixli işi.
[169] Məsələn *Sosialist Partiyasının və başqalarının Türkiyə Respublikasına qarşı* AİHM-dəki 21237/93 saylı, 25 may 1998-ci il tarixli işi.
[170] *Kastelsin İspaniya Krallığına qarşı* AİHM-dəki 11798/85 saylı, 23 aprel 1992-ci il tarixli işi.

3.5.3. Səmərəli hüquqi müdafiə vasitələri

Yaşamaq (2-ci maddə), həmçinin işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və yaxud cəzaya məruz qalmamaq (3-cü maddə) kimi maddi hüquqları təmin etməklə yanaşı, bu maddələr dövlətin üzərinə həyatdan məhrum etmə ilə və ya burada qeyd olunmuş ləyaqəti alçaldan rəftarla nəticələnmiş halları araşdırmaq vəzifəsini qoyur. *Naçovanın və başqalarının, həmçinin Turan Çakırın işlərilə* bağlı AİHM bəyan etmişdir ki, burada 2-ci və 3-cü maddələrin pozulması arxasında duran mümkün irqçilik motivlərinın araşdırılması ilə bağlı konkret vəzifə nəzərdə tutulur və bu vəzifəyə əməl etməmə həmin maddələrin 14-cü maddə ilə əlaqələndirilmiş şəkildə pozulması hesab olunur.[171]

Misal: Turan Çakırın Belçika Krallığına qarşı işinə əsasən, iddiaçı onun saxlanması zamanı ağır və çoxsaylı bədən xəsarətlərinin yetirilməsilə, həmçinin hədə-qorxu gəlmə və irqçi təhqirlərlə müşayiət olunan polis əməkdaşlarının qəddarlığı barədə şikayət etmişdir.[172] AİHM nümayiş etdirilmiş zorakılıq nəticəsində iddiaçının qeyri-insani və ləyaqəti alçaldan rəftara məruz qalmamaq hüququnun (AİHK-nın 3-cü maddəsi) pozulduğunu müəyyən etmişdir. Eyni zamanda, AİHM iddiaçının alçaldıcı rəftara məruz qalması barədə şikayətinin dövlət tərəfindən müvafiq qaydada araşdırmaq iqtidarında olmamasını dövlətin sözügedən maddəyə əsasən prosessual öhdəliklərinə əməl etməməsi kimi qiymətləndirmişdir. Bundan başqa, araşdırmanın müvafiq qaydada aparılmaması nəticəsində 3-cü maddə ilə birgə ayrı-seçkiliyə məruz qalmamaq hüququnun pozulduğu da müəyyən olunmuşdur, çünki dövlət alçaldıcı rəftar barədə iddiaları araşdırmaqla yanaşı, həmin rəftarın irqçilikdən irəli gəldiyindən, diskriminativ xarakter daşıması barədə iddiaları da araşdırmağa borclu idi.

Misal: Naçovanın və başqalarının Bolqarıstan Respublikasına qarşı işi iki roman mənşəli əsgərin icazə olmadan hərbi hissəni tərk etdiyindən onları saxlamağa çalışan hərbi polis əməkdaşı tərəfindən güllələnməsi barədədir.[173] Hadisə baş verdiyi zaman əsgərləri qətlə yetirmiş zabit yanındakı şəxsə "Siz, lənətə gəlmiş qaraçılar!" qışqıraraq müraciət etmişdir. AİHM ölüm hallarının dövlət tərəfindən müvafiq qaydada araşdırılmaması ilə zərərçəkmiş şəxslərin yaşamaq hüququnun (AİHK-nın 2-ci maddəsinə əsasən) nəinki mahiyyətcə, eyni zamanda, prosessual qaydada da pozulduğunu müəyyən etmişdir. Eyni zamanda, müəyyən olunmuşdur ki, araşdırmanın aparılmaması 2-ci maddə ilə birgə ayrı-seçkiliyə məruz qalmamaq hüququnun pozulmasına gətirib çıxarmışdır, çünki dövlət konkret olaraq ayrı-seçkiliyin arxasında duran mümkün səbəblərin araşdırılımasına da məsuliyyət daşıyır.

İşlərin hər ikisi dövlət məmurlarının əməllərilə əlaqədar olsa da, dövlətin vəzifəsi cinayətdən zərər çəkmiş şəxsləri müdafiə etmək məqsədilə məsələyə müdaxilə etməkdən ibarətdir və bu cür cinayət əməllərini sonradan araşdırmaq vəzifəsi özəl qurumlarla da bağlı gündəmə gəlir.

Misal: Yehova Şahidləri Qldani İcmasına üzv olan şəxslərin və başqalarının Gürcüstan Respublikasna qarşı işinə əsasən, Yehova Şahidlərinin bir qrup üzvü ultra ortodoksal qrup tərəfindən hücuma məruz qalmışdır.[174] Eyni zamanda, zorakılığın qarşısını almaq üçün polisin heç bir tədbir görmədiyi də qeyd olunmuşdur. Polis orqanları hücum edən şəxslərin şəxsiyyətini müəyyən edə bilmədiyini bəyan edən kimi bu hadisə ilə bağlı başlanmış istintaq dayandırılmışdır. AİHM müəyyən etmişdir ki, zərərçəkmiş şəxsləri dini zəmində zorakılıqdan

[171] *Naçovanın və başqalarının Bolqarıstan Respublikasına qarşı* [GC] 43577/98 və 43579/98saylı, 6 iyul 2005-ci il tarixli, *Turan Çakırın Belçika Krallığına qarşı* 44256/06 saylı, 10 mart 2009-cu il tarixli və *Şeciçin Xorvatiya Respublikasına qarşı* 40116/02 saylı, 31 may 2007-ci il tarixli, AİHM-dəki işləri.
[172] *Turan Çakırın Belçika Krallığına qarşı* AİHM-dəki 44256/06 saylı, 10 mart 2009-cu il tarixli işi.
[173] *Naçovanın və başqalarının Bolqarıstan Respublikasına qarşı* AİHM-dəki [GC] 43577/98 və 43579/98 saylı, 6 iyul 2005-ci il tarixli işləri.
[174] *Yehova Şahidləri Qldani İcmasına üzv olan şəxslərin və başqalarının Gürcüstan Respublikasna qarşı* AİHM-dəki 71156/01 saylı, 3 may 2007-ci il tarixli işi.

müdafiə etmək üçün polis orqanlarının tədbir görə bilməməsi və sonradan müvafiq istintaq işini apara bilməməsi 3-cü maddənin (qeyri-insanı və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamaq hüququ) və 9-cu maddənin (din azadlığı hüququ) 14-cü maddə ilə birgə pozulması kimi qiymətləndirilmişdir, çünki bu hadisə dini zəminində baş vermişdir.

Ehtimal etmək olar ki, Aİ Şurasının "İrqçiliyin və ksenofobiyanın müəyyən formalarına və təzahürlərinə qarşı cinayət hüququ vasitəsilə mübarizəyə dair" Çərçivə Qərarı kontekstində Aİ qanunvericiliyi də oxşar bir vəzifəni nəzərdə tuta bilər (bu məsələ Bələdçinin 4.6-cı bölməsində müzakirə olunur).[175] Lakin sözügedən Çərçivə Qərarı şəxsə qarşı törədilmiş cinayətlə əlaqədar irqçilik motivlərinin olub-olmamasının araşdırılması üçün hansısa konkret vəzifəni nəzərdə tutmur.

3.5.4. Cinayət hüququna aid məsələlər

AİHK Bələdçinin 3.5.3-cü yarımbölməsində qeyd olunan səmərəli hüquqi müdafiə vasitələrindən əlavə, bu Konvensiyada nəzərdə tutulmuş bir sıra hüquqlar, o cümlədən ədalətli məhkəmə araşdırması, qanunsuz saxlanılmamaq, cinayət törədildiyi zaman tətbiq edilməli olan cəzadan daha ağır cəzaya məruz qalmamaq və eyni cinayət əməlinə görə 2 dəfə cinayət məsuliyyətinə cəlb olunmamaq, yaşamaq və qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamaq hüquqları vasitəsilə cinayət hüququna aid bir sıra məsələlərə toxunur.

Misal: Opuzun Türkiyə Respublikasına qarşı işinə əsasən polis və məhkəmə orqanları məişət zəminində zorakılıq məsələlərini tənzimləyən qanunvericiliyi müvafiq qaydada tətbiq edə bilmədiyindən AİHM cinsi zəmində dolayı ayrı-seçkilik halının baş verməsilə birgə, yaşamaq, həmçinin qeyri-insanı və ya ləyaqəti alçaldan rəftara məruz qalmamaq hüquqlarının pozulduğunu da müəyyən etmişdir.[176]

Misal: D.G.-nin İrlandiya Respublikasına və *Buamarın Belçika Krallığına qarşı* işlərinə (4.5-ci bölmədə müzakirə olunmuşdur) əsasən, iddiaçılar dövlət orqanları tərəfindən saxlanılmışdır.[177] Bu işlə bağlı AİHM belə bir qərara gəlmişdir ki, azadlıq hüququ pozulsa da, ayrı-seçkiliyə yol verilməmişdir, çünki fərqli rəftar azlıqların müdafiə olunması məqsədlərilə əsaslandırılmışdır.

Əsas məqamlar

- ÜÖV-lər ayrı-seçkiliyi qadağan edən direktivlərlə geniş şəkildə əhatə olunmuş sahələrdə bərabər rəftar hüququndan "Üçüncü ölkə vətəndaşlarına dair" Direktivə əsasən *"uzunmüddətli sakinlər"* hesab olunduqda istifadə edə bilərlər.
- ÜÖV-lər *"uzunmüddətli sakinlər"* hesab olunmadıqda ayrı-seçkiliyi qadağan edən direktivlərə əsasən məhdud müdafiədən istifadə edə bilərlər:
  - onlar cinsi oriyentasiyalarından, yaşlarından, əlillik dərəcələrindən və ya dinlərindən yaxud əqidələrindən asılı olmayaraq, peşə təlimlərində iştirak etmək və layiqli iş şəraitini tələb

[175] Aİ Şurasının "İrqçiliyin və ksenofobiyanın müəyyən formalarına və təzahürlərinə qarşı cinayət hüququ vasitəsilə mübarizəyə dair" 2008/913/JHA saylı, 28 noyabr 2008-ci il tarixli Çərçivə Qərarının 55-ci səhfəsi. Qeyd olunmalıdır ki, AİHM bir qrup şəxsə qarşı onların mənşəsinə və ya hansısa konkret etnik qrupa, milliyyətə, irqə və ya dinə mənsub olub-olmamasına görə yönəldilmiş ayrı-seçkiliyə, nifrətə və zorakılığa təhrik etməni AİHK-lə müdafiə olunan fikir ifadə etmək azadlığının konkret şəkildə məhdudlaşdırılması kimi hesab olunduğunu qəbul edir. Məsələn, *Le Penin Fransa Respublikasına qarşı* 18788/09 saylı, 20 aprel 2010-cu il tarixli, *Ferenin Belçika Krallığına qarşı* 15615/07 saylı, 16 iyul 2009-cu il tarixli, *Uillemin Fransa Respublikasına qarşı* 10883/05 saylı, 16 iyul 2009-cu il tarixli və *Balsytė-Lideikienėnin Litva Respublikasına qarşı* 72596/01 saylı, 4 noyabr 2008-ci il tarixli, AİHM-dəki işlərinə baxın.

[176] *Opuzun Türkiyə Respublikasına qarşı* AİHM-dəki 33401/02 saylı, 9 iyun 2009-cu il tarixli işi.

[177] *D.G.-nin İrlandiya Respublikasına* qarşı 39474/98 saylı, 16 may 2002-ci il tarixli və *Buamarın Belçika Krallığına qarşı* 9106/80 saylı, 29 fevral 1988-ci il tarixli, AİHM-dəki işləri.

etmək hüququndan istifadə edə bilərlər, lakin işlə təmin olunma sahəsində ölkə vətəndaşları ilə bərabər hüquqa malik deyillər;
  - ÜÖV-lər "Mallar və xidmətlər sahəsində gender bərabərliyinə dair" Direktivə və "Gender bərabərliyinə dair" (yenidən baxılmış) Direktivə əsasən məşğulluq, mallar və xidmətlər sahəsində cinsi zəmində ayrı-seçkiliyə məruz qalmamaq hüququna malikdirlər.
- ayrı-seçkiliyi qadağan edən direktivlərə əsasən, ayrı-seçkiliyə məruz qalmamaq hüququ geniş əhatə dairəsinə malikdir:
  - irqi mənsubiyyət və etnik mənşə zəminində ayrı-seçkiliyə məruz qalmamaq hüququ ən geniş şəkildə məşğulluq, sosial təminat, həmçinin mallar və xidmətlər sahəsində təmin olunur;
  - cinsi mənsubiyyətə görə ayrı-seçkilik məşğulluq, (sosial təminat sistemilə müqayisədə daha məhdud xarakter daşıyan) sosial sığorta, həmçinin mallar və xidmətlər sahələrində qadağan olunur;
  - cinsi oriyentasiyaya, əlilliyə, dinə və ya əqidəyə və yaşa görə ayrı-seçkiliyə məruz qalmamaq hüququ hal-hazırda yalnız məşğulluq sahəsində təmin olunur.
- AİHK müdafiə olunan əsaslardan ibarət müfəssəl bir siyahını özündə əks etdirir. Hər bir şəxs yerli orqanlara, məhkəmələrə və əlbəttə ki, AİHM-ə müraciət etdiyi zaman AİHK-ya istinad edə bilər.
- AİHM ayrı-seçkilik barədə iddiaları özündə əks etdirən şikayət ərizəsini qəbul etdikdə, ona yalnız 14-cü maddəni rəhbər tutaraq maddi hüquq kontekstində və ya həmin maddə ilə əlaqələndirilmiş şəkildə baxa bilər.
- İddia ərizəsi yalnız 14-cü maddəni əsas gətirərək təqdim oluna bilməz, belə bir ərizə AİHK-da nəzərdə tutulmuş maddi hüquqlarla bağlı iddia ilə əlaqələndirilməlidir. İddiaçının müvafiq hüquqla əsaslandırılmış konkret məsələyə geniş şəkildə istinad etməsi kifayət edər.
- AİHK-nın 12 saylı Protokolu ayrı-seçkiliyi ümumiyyətlə qadağan edən əlahiddə hüququ özündə əks etdirir. Bu Protokol milli qanunvericiliklərlə və ya təcrübə ilə təsbit olunmuş və yaxud bu qanunvericiliklərlə təcrübədən irəli gələn hüquqlardan qaynaqlanır və ayrı-seçkiliyin bu Protokolda verilmiş məzmunu 14-cü maddadə verilmiş məzmunu ilə eynidir.
- AƏM-in yanaşması Aİ qanunvericiliyində nəzərdə tutulmuş insan hüquqlarından hərtərəfli şəkildə istifadə etmək məqsədilə bu hüquqların tətbiq olunma sahələrini həddindən artıq geniş şəkildə izah etməkdən ibarətdir.
- İstər AİHK-da nəzərdə tutulmuş maddi hüquqlar, istərsə də 14-cü maddənin tətbiq edilməsi məqsədilə bu hüquqların necə təfsir olunması baxımından AİHK-nın əhatə dairəsi ayrı-seçkiliyi qadağan edən Aİ Direktivlərinin əhatə dairəsindən nəzərəçarpan dərəcədə genişdir.
- Ayrı-seçkiliyi qadağan edən direktivlərin əhatə dairəsindən və xüsusən də Aİ-nin səlahiyyət dairəsindən əhəmiyyətli dərəcədə kənarda qalan (və beləliklə Əsas Hüquqlar Xartiyasının əhatə dairəsindən kənarda qalan) və xüsusi əhəmiyyət kəsb edən sahələr şəxsi həyat və ailə həyatı hüququna, siyasi fəaliyyətdə iştirakla əlaqədar hüquqlara və cinayət hüququna aid məsələlərlə əlaqədardır.
- Ayrı-seçkilikdən zərər çəkmiş şəxslər tərəfindən təqdim olunacaq iddia ərizələrinin ayrı-seçkiliyi qadağan edən direktivlərin və ya AİHK-nın əhatə dairəsinə aid olması məsələsini diqqətlə nəzərdən keçirmələri məhkəmə çəkişmələrilə bağlı öz yanaşmalarını müəyyən etdikləri zaman xüsusi əhəmiyyət kəsb edir.

Əlavə ədəbiyyat

Bell, 'Beyond European Labour Law? Reflections on the EU Racial Equality Directive', 8 European Law Journal (2002) 384./*"Avropa əmək qanunvericiliyindən kənar? Aİ-nin "İrqi bərabərliyə dair" Direktivi ilə bağlı mülahizələr"*

Boccadoro, 'Housing Rights and Racial Discrimination', in European Network of Legal Experts on the Non-Discrimination Field, 8 European Anti-Discrimination Law Review (July 2009) 21./*"Mənzil toxunulmazlığı hüququ və irqi ayrı-seçkilik"*

Brosius-Gersdorf, ‘Ungleichbehandlung von Imam-Ehe und Zivilehe bei der Gewährung von Sozialversicherungsleistungen in der Türkei aus völkerrechtlicher Sicht: der Fall Şerife Yiğit vor dem Europäischen Gerichtshof für Menschenrechte’, Europäische Grundrechte-Zeitschrift (2009).

Cousins, ‘The European Convention on Human Rights and Social Security law’, 10.1 Human Rights Law Review (2010) 191./*“Avropa İnsan Hüquqları Konvensiyası və sosial təminat qanunvericiliyi”*

Edel, The prohibition of discrimination under the European Convention on Human Rights, Human Rights Files, No. 22, 2010./*“Avropa İnsan Hüquqları Konvensiyası əsasında ayrı-seçkiliyin qadağan edilməsi, insan hüquqlarına aid işlər”*

Equinet, Combating Discrimination in Goods and Services (Equinet, 2004)./*“Mallar və xidmətlər sahəsində ayrı-seçkiliyə qarşı mübarizə”*

ERRC/Interights/MPG Strategic Litigation of Race Discrimination in Europe: from Principles to Practice (Nottingham, Russell Press, 2004), Annex 5.c./*“Avropada irqi ayrı-seçkiliklə bağlı strateji çəkişmələr: prinsiplərdən təcrübəyə”, əlavə 5.c*

Kapuy, ‘Social Security and the European Convention on Human Rights: How an Odd Couple has Become Presentable’, 9.3 European Journal of Social Security (2007) 221./*“Sosial təminat və Avropa İnsan Hüquqları Konvensiyası: yaşlı ər-arvadın ləyaqətli olması üçün nə lazımdır”*

Sánchez-Rodas Navarro, ‘El Tribunal Europeo de Derechos Humanos y la pension de viudedad en caso de unión celebrada conforme al rito gitano’, Aranzadi Social (2009) 18.

Sudre (ed.), Le droit à la non-discrimination au sens de la Convention européenne des droits de l’homme : actes du colloque des 9 et 10 novembre 2007 (Bruxelles: Bruylant/Nemesis, 2008).

4. Müdafiə olunan əsaslar

4.1. Giriş

Ayrı-seçkiliyi qadağan edən Avropa direktivləri müdafiə olunan müəyyən əsasları rəhbər tutaraq fərqli rəftarı yolverilməz hesab edir, həmçinin bir sıra təsbit edilmiş və məhdud xarakter daşıyan və cinsi mənsubiyyətə ("Mallar və xidmətlər sahəsində gender bərabərliyinə dair" və "Gender bərabərliyinə dair" (yenidən baxılmış) Direktivlər), cinsi oriyentasiyaya, əlilliyə, yaşa və ya dinə və yaxud əqidəyə ("Məşğulluq sahəsində bərabərliyə dair" Direktiv), irqi mənsubiyyətə və ya etnik mənşəyə ("İrqi bərabərliyə dair" Direktiv) aid əsasları özündə əks etdirir. Bu direktivlərədən fərqli olaraq AİHK həmin direktivlərdə əks olunmuş əsaslarla müəyyən dərəcədə üst-üstə düşən, lakin ümümilikdə daha geniş əhatə dairəsinə malik əsaslardan ibarət müfəssəl bir siyahını özündə əks etdirir. AİHK-nın 14-cü maddəsi *"cins, irq, dərinin rəngi, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya digər hər hansı əlamətlərə görə"* ayrı-seçkiliyin qadağan olunduğunu bəyan edir. Bu maddədə göstərilmiş *"digər hər hansı əlamətlər"* kateqoriyası AİHM-ə ayrı-seçkiliyi qadağan edən direktivlərlə birmənalı şəkildə müdafiə olunan, daha konkret desək, əlilliyə, yaşa və cinsi oriyentasiyaya aid əsasları digərlərilə yanaşı buraya daxil etmək imkanı vermişdir.

1-ci fəsildə Aİ-nin Əsas Hüquqlar Xartiyasının 21-ci maddəsində də ayrı-seçkiliyin qadağan olunması məsələsinin nəzərdə tutulduğu qeyd olunmuşdur. Bu Xartiya Aİ təsisatlarının üzərinə müvafiq öhdəliklər qoymaqla yanaşı, Aİ qanunvericiliyini şərh və tətbiq etdikləri zaman üzv dövlətlərə də şamil olunur. Xartiyanın ayrı-seçkiliklə bağlı müddəası həm AİHK-da, həm də ayrı-seçkiliyi qadağan edən direktivlərdə əks olunmuş əsasların birləşməsini özündə əks etdirir, baxmayaraq ki, geniş məna kəsb edən *"digər hər hansı əlamətlər"* ifadəsi burada qeyd olunmur.

"Müdafiə olunan əsas" şəxsə aid olan, lakin fərqli rəftar və ya konkret faydadan istifadə etmək üçün münasib hesab olunmayan bir əlamətdir.

4.2. Cinsi mənsubiyyət

Cinsi mənsubiyyətə görə ayrı-seçkilik nisbətən aydın bir anlayışdır və şəxsin kişi və ya qadın olması faktına əsasən baş vermiş ayrı-seçkilik hallarını əhatə edir. Bu, Aİ sosial siyasətinin ən inkişaf etdirilmiş aspektidir və uzun müddət ərzində cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə məruz qalmamaq bu siyasətin təməl hüququnu təşkil edirdi. Bu zəmində müdafiənin inkişaf etdirilməsi 2 məqsədə: 1) getdikcə daha da böyüyən bazarda rəqabətlə bağlı çatışmazlıqları aradan qaldırmağa zəmin yaratmaqla iqtisadi məqsədə və 2) Avropa İttifaqını sosial inkişafa, həmçinin yaşayış və iş şəraitinin yaxşılaşdırılmasına yönəldən bir vasitə ilə təmin etməklə siyasi səviyyəli məqsədə xidmət edirdi. Bununla əlaqədar olaraq, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin qarşısının alınması, Aİ-nin keçmiş və hazırkı əsas funksiyasıdır. Bərabərliyin təmin edilməsi işinin sosial və iqtisadi əhəmiyyəti Əsas Hüquqlar Xartiyasına əsas yer ayırmaqla bir daha vurğulanmışdır. Bununla yanaşı, AİHK-ya əsasən də cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə məruz qalmamaq məsələsi əsaslı şəkildə işlənilmişdir.

Adətən cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə aid işlər kişilərlə müqayisədə qadınların nisbətən əlverişsiz rəftara məruz qalmasını nəzərdə tutsa da, bu heç də həmişə belə olmur.

Misal: Defrenin "SABENA" şirkətinə qarşı işinə əsasən, iddiaçı kişi həmkarları ilə müqyisədə eyni xidməti vəzifələri icra etsə də, onlardan nisbətən az əmək haqqı alması barədə şikayət edirdi.[178] AƏM bu işdə birmənalı olaraq cinsi zəmində ayrı-seçkilik halının baş verməsi qənaətinə gəlmişdir. AƏM bu barədə qərar qəbul edərkən Birliyin iqtisadi və sosial hədəflərini ön plana çəkməklə yanaşı, Aİ-nin bu hədəflər istiqamətində irəliləməsində ayrı-seçkiliyin qadağan olunması işinin də yardımçı olduğunu vurğulamışdır.

[178] *Defrenin "SABENA" şirkətinə qarşı* AƏM-dəki 43/75 [1976] ECR 455 saylı, 8 aprel 1976-cı il tarixli işi.

Misal: Konstantin Markinin işində[179] Rusiya ordusunda xidmət edən iddiaçı radio kəşfiyyat qoşunlarında qadınların da işlədiyi operator vəzifəsində çalışırdı. İddiaçı həyat yoldaşı ilə boşandıqdan sonra uşaq onunla qalmışdır. Buna görə iddiaçı qanunla nəzərdə tutulmuş 3 illik atalıq məziniyyəti üçün müraciət etmişdir. Bu cür məzuniyyət yalnız qadın hərbiçilərə verildiyindən o rədd cavabı almışdır. AİHM obyektiv və məntiqli əsaslandırma olmadıqda fərqli rəftarın diskriminativ hesab olduğunu xatırlamışdır. Silahlı qüvvələr kontekstinə gəldikdə, AİHM bu təşkilat tərəfindən öz işçilərinə hüquq və azadlıq nöqteyi-nəzərindən bəzi məhdudiyyətlərin qoyulmasının mümkün olduğunu qeyd etmişdir. Hər bir dövlət özünəməxsus hərbi nizam-intizam sistemini təşkil etmək hüququna malikdir və bununla əlaqədar olaraq çox geniş qiymətləndirmə çərçivələrindən istifadə edir. Ordunun müvafiq qaydada fəaliyyət göstərməsini bu cür fəaliyyətə xələl yetirə biləcək əməllərin qarşısını almaq üçün nəzərdə tutulmuş sərt hüquqi normalar olmadan təsəvvür etmək çox çətindir. Lakin dövlət bu cür qaydaları rəhbər tutaraq hərbiçilərin şəxsi həyata hörmət hüququndan istifadə etmələrinin qarşısını almamalıdır. AİHK-nın 8-ci maddəsi dövlət üzərinə atalıq məzuniyyətinin mütləq qaydada təmin olunması ilə bağlı hansısa öhdəliklər qoymasa da, AİHM hesab etmişdir ki, bu cür məzuniyyət valideynlərdən birinin evdə qalmaqla uşağa baxmasına imkan verdiyindən AİHK 8-ci maddəsinin mənasına uyğun olaraq ailə həyatını təşviq edir. Bunu nəzərə aldıqda demək olar ki, analoji vəziyyətdə qadın və kişi hərbiçilərlə fərqli rəftar əsaslandırılmamışdır. Başqa sözlə, kişi hərbiçilərin qadın hərbiçilərə şamil olunan valideyn məzuniyyətindən məhrum edilməsi məntiqli və obyektiv şəkildə əsaslandırılmış hesab oluna bilməz. Bununla əlaqədar olaraq, işin hallarına əsasən AİHK-nın 14-cü maddəsinin 8-ci maddə ilə birgə pozulduğu müəyyən edilmişdir.

Yuxarıda müzakirə olunan *Bilkanın* işinə əsasən, AƏM yarımştat işçilərin özəl pensiya sistemindən xaric edilməsini münasib işçi heyətin komplektləşdirilməsi məqsədilə tam ştatda olan işçilərin stimullaşdırılması ilə əsaslandıran rəhbər işçinin idarəetmə mülahizələrindən irəli gələn fərqli rəftar halı ilə üzləşmişdir. AƏM bu işlə əlaqədar olaraq belə bir tədbirin fərqli rəftarın nəticəsilə mütənasiblik təşkil etdiyini hesab edib-etməməsini birmənalı şəkildə bəyan etməmişdir. Lakin aşağıda verilmiş işlə bağlı mövqe daha dəqiq şəkildə ifadə olunmuşdur.

Misal: Hillin və Stepltonun işinə əsasən, hökumət dövlət qulluğunda yeni iş bölgüsü sisteminin tətbiqinə başlamışdır və bu sistemə əsasən konkret bir vəzifə müvəqqəti olaraq iki şəxs tərəfindən icra oluna bilərdi ki, onlar ştat cədvəli üzrə tam iş vaxtının 50%-ni işləyərkən müvafiq olaraq əmək haqqının 50%-ni alacaqdılar.[180] Sonra həmin vəzifələrin icrası tam şəkildə mövcud olduqda, işçilər öz vəzifələrinə qayıda biləcəkdilər. Dövlət qulluğunda mövcud olan qayda tam ştatda olan işçilərə əmək haqqı cədvəli üzrə hər il 1 pillə irəliləmək imkanı verirdi. Lakin, barələrində iş bölgüsü sistemi tətbiq edilmiş işçilər il ərzində yalnız yarı pillə irəliləmək imkanı əldə edirdi və müvafiq olaraq 2 il ərzində bir pillə irəliləyə biləcəkdilər. Bu iş üzrə 2 iddiaçı öz xidməti vəzifələrinin icrasına tam ştat işçi kimi qayıtdıqdan sonra əmək haqqı cədvəli üzrə irəliləmə prosedurunun onlarla bağlı necə tətbiq olunması ilə əlaqədar şikayət etmişdir. AƏM bu işdə cinsi zəmində dolayı ayrı-seçkilik halının baş verdiyini müəyyən etmişdir, çünki iş bölgüsü sistemində iştirak edən işçilərin böyük əksəriyyətini qadınlar təşkil edirdi. Dövlət baş vermiş fərqli rəftarın əsaslı olduğunu bildirirdi, çünki bu cür rəftar əmək haqqı üzrə irəliləmənin xidməti vəzifənin faktiki icra olunma müddətindən asılı olaraq həyata keçirilməsi prinsipinə əsaslanırdı. AƏM belə bir bəyanatın demək olar ki, obyektiv meyarlarla təmin olunmadığını müəyyən etmişdir, çünki digər şəxslərin xidməti vəzifələrinin icra olunma müddətinin onların faktiki iş saatları əsasında hesablanmasına dair heç bir dəlil yox idi. Bununla əlaqədar olaraq, AƏM bəyan etmişdir ki, *"işəgötürən iş bölgüsü sistemindən irəli gələn*

[179] *Konstantin Markinin Rusiya Federasiyasına qarşı* AİHM-dəki 30078/06 saylı, 22 mart 2012-ci il tarixli işi.
[180] *Hillin və Stepltonun Vergilər İdarəsinin Komissiyasına və Maliyyə Departamentinə qarşı* AƏM-dəki C-243/95 [1998] ECR I-3739 saylı, 17 iyun 1998-ci il tarixli işi.

ayrı-seçkiliyi bu cür ayrı-seçkiliyə əl atmayacağı təqdirdə sadəcə olaraq xərclərin artması ilə əsaslandıra bilməz."

Beləliklə, AƏM-in sadəcə olaraq rəhbər işçinin maddi və ya idarəetmə mülahizələrindən irəli gələn və cinsi mənsubiyyət zəminində diskriminativ rəftarla bağlı əsaslandırmanı dərhal qəbul etməkdən uzaq olduğu görünür.

Misal: Ünal Təkəlinin Türkiyə Respublikasına qarşı işinə əsasən, iddiaçı nikahdan sonra qadının üzərinə öz həyat yoldaşının soyadını götürmək öhdəliyi qoyan milli qanunvericilik barədə şikayət edirdi.[181] Milli qanunlar qadınlara öz qızlıq soyadlarının öz həyat yoldaşlarının soyadlarına əlavə etməklə saxlanmasına icazə versə də, AİHM bu iş əsasında cinsi zəmində zorakılıq halının baş verdiyini müəyyən etmişdir, çünki sözügedən qanunlar kişilər üzərinə nikahdan sonra öz soyadlarını dəyişmək öhdəliyi qoymur.

Misal: Zərb Adaminin Malta Respublikasına qarşı işinə əsasən, iddiaçı andlı iclasçısı kimi dəvət olunarkən ayrı-seçkiliyə yol verilmişdir, çünki təcrübəyə görə andlı iclasçıların siyahısı adətən kişilər tərəfindən tərtib olunaraq bu cinsin nümayəndələrindən də təşkil olunur.[182] Mövcud statistikaya əsasən son 5 il ərzində andlı iclasçılarıın 95%-ni kişilər təşkil edirdi və AİHM müəyyən etmişdir ki, öz vətəndaşlıq vəzifələrini yerinə yetirmək nöqteyi-nəzərindən kişilər və qadınlar müqayisə edilən vəziyyətdə olduğundan belə bir halı ayrı-seçkilik hesab etmək olar.

Misal: Belçika qanunvericiliyinə əsasən mükafatların və müvafiq ödənişlərin hesablanması zamanı cinsi mənsubiyyətin bir amil kimi istifadəsinə icazə verməsilə əlaqədar AƏM *Association belge des Consommateurs Test-Achats ASBL-in və başqalarının Nazirlər Şurasına qarşı* işinə[183] baxırdı. Bu qanunun qismən ləğv edilməsini nəzərdə tutan Aİ Şurasının 2004/113/EC saylı Direktivinin 5(2)-ci maddəsi əsasında mümkün olur. İddiaçılar qismən ləğv etmə şərtindən istifadə edən Belçika qanunvericiliyinin kişilərlə qadınlar arasında bərəbərlik prinsipilə ziddiyyət təşkil etdiyini bildirirdilər. Belçikanın Konstitusiya Məhkəməsi Aİ Şurasının 2004/113/EC saylı Direktivinin 5(2)-ci maddəsinin 5(1)-ci maddəsinə, daha konkret desək bu maddə ilə nəzərdə tutulmuş bərabərlik və ayrı-seçkiliyin qadağan edilməsi prinsipinə nə dərəcədə uyğun olduğununun müəyyən edilməsini AƏM-dən xahiş edirdi. İlk növbədə, AƏM qadınlarla kişilər arasında bərabər rəftar prinsipini təmin edən direktivin müvafiq müddəalarını müəyyən etmişdir. AƏM yuxarıda qeyd olunan Direktivin qəbul edildiyi zaman sığorta xidmətlərinin göstərilməsi sahəsində cinsi mənsubiyyətlə bağlı sığorta amillərindən istifadənin geniş yayıldığını xatırlamışdır və bu səbəbdən də keçid dövrünün mövcud olması münasib hesab olunmuşdur. Direktivin 5(1)-ci maddəsi mükafatların və ödənişlərin hesablanmasında cinsi mənsubiyyətin bir amil kimi əsas götürülməsindən irəli gələn fərqlərin 2007-ci il dekabrın 21-nədək ləğv edilməsini nəzərdə tutduğu bir zaman həmin sənədin 5(2)-ci maddəsi Aİ-yə üzv olan bəzi dövlətlərə şəxslərin mükafatlarında və ödənişlərində mütənasib fərqlərin yol verilməsinə icazə verirdi (əgər müvafiq və dəqiq sığorta məlumatlarından və digər statistik məlumatlardan irəli gələn risklərin qiymətləndirilməsində cinsi mənsubiyyətin əsas amil kimi nəzərə alınması həlledici rol oynayırdısa). Direktivin milli qanunvericiliyə transformasiyasından 5 il sonra, yəni 2012-ci il dekabrın 21-də Aİ-yə üzv olan dövlətlərdən ən yeni sığorta məlumatlarını və digər statistik məlumatları, həmçinin Direktivin milli qanunvericiliyə transformasiyasından 3 il sonra Komissiyaya təqdim edilmiş hesabatı nəzərə almaqla yuxarıda qeyd olunan məsələ ilə bağlı edilmiş güzəştlərin əsaslandırılmasını bir daha yoxlamaq tələb olunmuşdur. Nazirlər Şurası kişilər və qadınlar üçün sığorta riskləri səviyyələrinin (müvafiq

[181] *Ünal Təkəlinin Türkiyə Respublikasına qarşı* AİHM-dəki 29865/96 saylı, 16 noyabr 2004-cü il tarixli işi.
[182] *Zərb Adaminin Malta Respublikasına qarşı* AİHM-dəki 17209/02 saylı, 20 iyun 2006-cı il tarixli işi.
[183] *Association belge des Consommateurs Test-Achats ASBL-in və başqalarının Nazirlər Şurasına qarşı* AƏM-dəki C-236/09 saylı, 1 mart 2011-ci il tarixli işi (Böyük Palata).

statistikaya əsasən) fərqli ola biləcəyini nəzərə almaqla sığorta polisinin sahibi olan kişi və qadınların əlaqədar vəziyyətinin müqayisə edilən olub-olmaması ilə bağlı müəyyən şübhələr ifadə etmişdir. AƏM belə bir arqumenti rədd edərək bəyan etmişdir ki, qadınlarla kişilər arasında bərabər rəftar prinsipinin tətbiqinə aid məqsədlər üçün kişilərin və qadınların müvafiq sığorta müqavilələrinə əsasən payına düşən sığorta mükafatları və ödənişlərilə əlaqədar müvafiq vəziyyətləri müqayisə edilən hesab olunur. Bununla əlaqədar olaraq, 5(2)-ci maddə əsasında kişilərlə qadınlar arasında bərabər rəftarın qismən ləğv edilməsinin qeyri-müəyyən müddət ərzində mümkün olması riski yaranırdı. Belə bir maddə qadınlarla kişilər arasında bərabər rəftara aid məqsədə nail olma prosesinin əleyhinə işləyir. Bu səbəbdən də Məhkəmə müvafiq dövr başa çatdıqdan sonra, daha dəqiq desək 2012-ci il dekabrın 21-dən etibarən 5(2)-ci maddənin etibarsız hesab edilməsi qənaətinə gəlmişdir.

Misal: Latviya məhkəməsi tərəfindən istiqamətləndirilmiş işdə[184] Aİ Şurasının "Hamilə işçilərin əməyinin mühafizəsinə dair" 92/85/EEC saylı Direktivilə əlaqədar müvafiq qərarın çıxarılması AƏM-dən xahiş olunmuşdur. Bu Direktiv hamiləliyin başlandığı gündən analıq məziniyyətinin sonunadək müvafiq şəxsin işdən azad edilməsini qadağan etməyi Aİ-yə üzv dövlətlərdən tələb edir. Müvafiq şəxs dövlət şirkətinin idarə heyətinin üzvü olduqda bu qadağanın tətbiq edilib-edilməməsinə və həmin şəxsin bu Direktivə əsasən işçi hesab olunub-olunmamasına aid məsələlərinin nəzərdən keçirilməsi AƏM-dən xahiş olunmuşdur. Bununla əlaqədar olaraq, həmin şirkətə eyni zamanda, aksionerlər və hamilər şuraları tərəfindən nəzarət olunduğunu nəzərə almaqla idarə heyətinin üzvü olan şəxslərin rolunun və onların fəaliyyət göstərdikləri zaman müstəqillik səviyyəsinin müəyyənləşdirilməsi tələb olunurdu. Eyni zamanda, "Əmək, peşə təlimi və karyera irəliləyişi hüququndan istifadə ilə bağlı qadınlarla kişilər arasında bərabər rəftar prinsipinin icra olunmasına dair" 76/207/EEC saylı Direktivin də nəzərdən keçirilməsi zəruri idi. AƏM şirkətin idarə heyətinin üzvünə işçi statusunun aşağıdakı şərtlərlər verilməsinin mümkün olduğunu hesab etmişdir: o şirkət üçün xidmətlər göstərirdi və şirkətin ayrılmaz bir hissəsi hesab olunurdu; müəyyən müddət ərzində idarə heyətinin üzvü öz işini şirkətin başqa bir qurumunun rəhbərliyi və ya nəzarətilə aparırdı; və idarə heyəti üzvünün vəzifələrinin icrasına görə ödənişlər alırdı. Aİ Şurasının 92/85/EEC saylı Direktivi idarə heyəti üzvünün heç bir məhdudiyyət olmadan vəzifəsindən kənarlaşdırılmasına icazə verən yerli qanunvericilik aktlarını qadağan edən sənəd kimi qəbul olunmalıdır (əgər sözügedən şəxs "hamilə işçi" hesab olunursa). Bundan başqa, AƏM belə bir qənaətə gəlmişdir ki, hətta əgər işçi Aİ Şurasının 92/85/EEC saylı Direktivinin məqsədləri üçün "hamilə işçi" hesab olunmadıqda belə idarə heyəti üzvünün hamiləliyə və ya əsasən hamiləliyə görə vəzifəsindən kənarlaşdırılması yalnız qadınları əhatə etdiyindən Aİ Şurasının 76/207/EEC saylı Direktivinə zidd olaraq cinsi zəmində birbaşa ayrı-seçkilik hesab olunmalıdır.

Misal: Rijksdienst voor Pensioenen-in Elizabet Bruverə qarşı işində[185] 1960-1998-ci illərdə Belçikada yaşayaraq Hollandiyada işləmiş xanım Bruverin vəziyyətinin nəzərdən keçirilməsi AƏM-dən xahiş olunmuşdur. O, pensiyaya çıxdıqdan sonra 65 yaşınadək Belçika Dövlətindən pensiya almaq hüququnu əldə etmişdir, sonra isə müvafiq öhdəlik Hollandiya Dövlətinə keçəcək idi. Nəticədə Belçika Dövləti ona pensiya ödəməyə hazır idi. O, Aİ-yə üzv olan başqa dövlətdə işlədiyindən onun pensiyası dövlət tərəfindən müəyyən edilən şərti və vahid əmək haqqı dərəcəsi əsasında hesablanırdı. 1995-ci ilədək kişilər və qadınlar üçün nəzərdə tutulmuş şərti əmək haqqının məbləği fərqlənirdi. Xanım Bruver ayrı-seçkiliyin qanunsuz olduğunu əsas gətirərək ona ödəniləcək pensiyanın məbləğini şübhə altına almışdır. Belçika Dövləti fərqlərin obyektiv səbəblərlə, faktiki olaraq ödənilən əmək haqqları arasında mövcud olan fərqlə və pensiyanın hesablanması zamanı bu fərqin əks olunması zərurətilə əsaslandırıldığından ayrı-seçkiliyin baş vermədiyini bildirmişdir. Kişilər və qadınlar arasında sosial təminat məsələlərilə bağlı bərabər rəftar prinsipini təmin edən Aİ Şurasının 79/7/EEC saylı Direktivi Aİ-yə üzv olan

[184] *Dita Danosanın LKB Līzings SIA-yə qarşı* AƏM-dəki C-232/09 saylı, 11 noyabr 2010-cu il tarixli işi.
[185] *Rijksdienst voor Pensioenen-in Elizabet Bruverə qarşı* AƏM-dəki C-577/08 saylı, 29 iyul 2010-cu il tarixli işi.

dövlətlər tərəfindən 1984-cü il dekabrın 23-dək tətbiq edilməli idi. Həmin tarixə yaxın bir vaxtda bu iş AƏM-ə təqdim olunmuşdur və Belçika Dövləti qeyri-bərabər rəftarın baş verdiyini etiraf edərək yaranmış vəziyyəti düzəltmək üçün görüləcək tədbirlər barədə məlumat vermişdir. Buna baxmayaraq, AƏM sözügedən Direktivin qüvvəyə minməsi tarixindən sonra ona zidd olan (fərqin yaranmasına səbəb olan qanunvericilik kimi) qanunvericiliyin məhz bu Direktivlə qadağan olunacağını müəyyən etmişdir. Direktivin qüvvəyə minməsi üçün müəyyən edilmiş son tarixədək yuxarıda qeyd olunmuş qanunvericililk müvafiq müqavilənin bərabər ödənişləri tənzimləyən müddəalarının ("Aİ-nin fəaliyyəti haqqında" Müqavilənin 157-ci, sabiq "Avropa İqtisadi Birliyinin yaradılması haqqında" Müqavilənin 141-ci maddəsi) əhatə dairəsinə düşmürdü. Eyni zamanda, AƏM qəbul olunacaq qərarın (Barberin C-262/88 saylı işində olduğu kimi) müvəqqəti olaraq məhdudlaşdırılmış şəkildə və yalnız yaranmış borclarla əlaqədar tətbiq edilməsi barədə Belçika Dövlətinin təklifini rədd etmişdir. AƏM bu cür məhdudiyyətlərin maddi məsələlərlə əsaslandırılmasının yolverilməz olduğunu müəyyən etmişdir. Bundan başqa, əlaqədar Aİ qanunvericliyi müddəalarının tətbiqindən irəli gələn nəticələrlə bağlı kəsərli və obyektiv qeyri-müəyyənlik yarana bilərdi. AƏM işlərin dövlət tərəfindən düzgün aparılmadığını hesab etmişdir və əmək haqqlarındakı fərqin obyektiv amillərlə deyil, sadəcə olaraq adi ayrı-seçkiliklə əlaqədar olduğunu Belçikanın müvafiq orqanları tərəfindən nəzərə alınmasını tələb etmişdir. Eyni zamanda, Belçika onun milli qanunvericiliyinin Aİ qanunvericliyinə uyğun olmaması səbəbindən Avropa Komissiyası tərəfindən tədbirlərin görülməyəcəyinə ümid etməməlidir.

Gender özünəməxsusluğu "hər bir şəxsin daxilən və fərdi şəkildə dərindən hiss etdiyi və doğulduğu zaman müəyyən edilmiş cinsinə uyğun gələn və ya gəlməyən gender təəssüratlarını, o cümlədən bədən quruluşu ilə bağlı hisslərini (tibbi, cərrahi və ya digər vasitələrlə bədənin və ya bədən funksiyalarının könüllü şəkildə dəyişdirilməsi baş verə bilər), həmçinin geyim, danışıq tərzi və incəlik də daxil olmaqla genderin digər təzahürlərini" bildirir.[186]

"Cinsi mənsubiyyət" anlayışı iddiaçının cinsilə əlaqədar diskriminativ rəftara aid halları əhatə etmək üçün təfsir olunaraq gender özünəməxsusluğu ilə bağlı müəyyən dərəcədə məhdud xarakterli müdafiəyə imkan yaratmışdır.

Beləliklə, gender özünəməxsusluğunun daha geniş şəkildə qəbul olunmuş anlayışı yalnız cinsi dəyişmək üçün əməliyyat olunmuş şəxsləri ("transseksualları") deyil, öz gender özünəməxsusluğunu ifadə etmək üçün başqa vasitələr seçmişləri, məsələn, transvestitləri və ya əks cinsin nümayəndələrinə məxsus paltarları geyinənləri və yaxud adətən əks cinsin nümayəndələrinə xas olan danışıq tərzini təkrarlayan və ya onlara məxsus kosmetikanı istifadə edənləri əhatə edir.

P.-nin S.-ə və Kornuol şəhər administrasiyasına qarşı işinə əsasən, ayrı-seçkiliyi qadağan edən direktivlərdə nəzərdə tutulmuş "cinsi mənsubiyyət"lə bağlı əsaslar şəxsə qarşı ayrı-seçkiliklə əlaqədar tətbiq olunmuşdur, çünki o, *"əməliyyat yolu ilə cinsini dəyişmək niyyətində idi və ya artıq cinsini dəyişmişdir"*. Hesab etmək olar ki, Aİ qanunvericiliyində təfsir olunduğu kimi, hal-hazırda cinsi mənsubiyyətlə bağlı əsaslar gender özünəməxsusluğunu sadəcə olaraq dar bir kontekstdə müdafiə edir.

Misal: K.B.-nin "NHS" Pensiya Agentliyinə qarşı işi K.B.-nin transseksual partnyorunun dul

[186] Geniş şəkildə qəbul olunmuş bu anlayış "www.yogyakartaprinciples.org/principles_en.htm" saytında mövcud olan "Cinsi oriyentasiya və gender özünəməxsusluğu ilə əlaqədar insan hüquqlarına aid beynəlxalq qanunvericiliyin tətbiqinə dair Yoqyakarta Prinsiplərindən" (mart 2007-ci il) götürülmüşdür. Bu Prinsiplər insan hüquqlarına aid beynəlxalq qanunvericilik üzrə müstəqil ekspertlər qrupu tərəfindən qəbul olunmuşdur.

kişilər üçün nəzərdə tutulmuş pensiya ilə bağlı müraciətinə rədd cavabının verilməsi barədə idi.[187] Rədd cavabı rəsmi nikahda olmaq tələbinin bu transseksual cütlük tərəfindən təmin oluna bilməməsilə əlaqədar idi: həmin vaxt İngiltərə qanunlarına əsasən transseksuallar nikaha daxil ola bilməzdilər.

AƏM bu işin ayrı-seckilik tərkibli olub-olmadığını nəzərdən keçirərkən cinsi zəmində ayrı-seçkiliyə yol verilmədiyini hesab etmişdir, çünki ailə başçısının ölümü ilə əlaqədar pensiyanın kimə şamil olunacağını müəyyənləşdirilərkən faydalanan şəxsin qadın və ya kişi olmasından asılı olmayaraq qeyri-münasib rəftara yol verilməmişdir. Bundan sonra AƏM işin hallarına baxılma istiqamətini dəyişərkən diqqəti nikah məsələsinə yönəltmişdir. Transseksualların heç zaman nikaha daxil olmaq hüququna malik olmadıqları və bununla əlaqədar olaraq, ailə başçısının ölümü ilə bağlı verilən pensiyadan heç zaman faydalana bilməyəcəyi müəyyənləşmişdir, baxmayaraq ki, heteroseksuallar bu hüquqa malik idi. Bütün bunlarla əlaqədar olaraq, *Kristin Qodvinin* AİHM tərəfindən baxılmış işi[188] nəzərdən keçirilmişdir. AƏM bu işin təhlilindən irəli gələn nəticələri rəhbər tutaraq, transseksualların öz partnyorlarının payına düşən müavinətlərdən faydalanmasının qarşısını aldığına görə sözügedən Britaniya qanunvericiliyinin bərabər rəftar prinsipinə uyğun gəlmədiyini müəyyənləşdirmişdir.

Misal: Oxşar mülahizələr *Riçardsın* işi ilə də bağlı gündəmə gəlmişdir.[189] Doğulduğu zaman kişi cinsinə məxsus olan Riçards sonradan əməliyyat yolu ilə öz cinsini dəyişmişdir. Həmin iş isə Böyük Britaniyada dövlət pensiyasının verilməsilə əlaqədar idi və həmin vaxt bu ölkədə qadınlar 60, kişilər isə 65 yaşından etibarən dövlət pensiyasını almaq hüququna malik idilər. Riçards onun 60 yaşı tamam olduqda pensiya üçün müraciət etmişdir, lakin rədd cavabı almışdır və bu onun qanuni olaraq kişi kimi tanındığından 65 yaşı tamam olmayanadək dövlət pensiyası üçün müraciət etmək hüququna malik olmaması ilə izah olunmuşdur. AƏM iddiaçının cinsi zəmində qeyri-bərabər rəftara yol verildiyi qənaətində idi və bunun nəticəsi olaraq bu cür rəftar sosial təminat məsələlərilə bağlı "Kişilərlə qadınlar arasında bərabər rəftar prinsipinin qabaqçıl şəkildə icra olunmasına dair" Direktivin 4(1)-ci maddəsilə ziddiyyət təşkil etdiyindən diskriminativ hesab olunmuşdur.[190]

AİHM gender özünəməxsusluğu məsələsinin 14-cü maddəyə görə müdafiə olunan əsas kimi əhatə olunub-olunmaması barədə hələ də qərar qəbul etməyib və bu müdafiənin yalnız "transseksuallara" şamil olunacağını və ya gender özünəməxsusluğu anlayışının daha geniş şəkildə təfsir olunacağını hələ də bildirməyib. Bu AİHM-in ümumiyyətlə gender özünəməxsusluğu məsələlərilə məşğul olmamasına dəlalət etmir. Belə ki, AİHM hər bir insanın şəxsi həyatının bir hissəsini təşkil edən cinsi oriyentasiya kimi gender özünəməxsusluğunun da dövlət müdaxiləsindən azad olduğunu müəyyən etmişdir.

Misal: Kristin Qudvinin və İ-nin Böyük Britaniyaya qarşı işləri də kifayət qədər oxşar faktlara toxunurdu.[191] Əməliyyat nəticəsində kişi cinsini qadın cinsinə dəyişmiş iddiaçının ikisi də öz hazırkı cinslərini göstərmək məqsədilə doğum haqqında şəhadətnamələrində dəyişikliklərin edilməsi üçün müraciətlərinə hökumət tərəfindən rədd cavabının verilməsilə bağlı şikayət etmişdir. Başqa sənədlərin və iddiaçıların adlarının dəyişdirilməsi mümkün olsa da, doğum

[187] *K.B.-nin "NHS" Pensiya Agentliyinə qarşı* AƏM-dəki C-117/01 [2004] ECR I-541 saylı, 7 yanvar 2004-cü il tarixli işi.
[188] *Kristin Qodvinin Böyük Britaniyaya qarşı* AİHM-dəki [GC] 28957/95 saylı, 11 iyul 2002-ci il tarixli işi.
[189] *Riçardsın Əmək və Pensiya üzrə Dövlət katibinə qarşı* AƏM-dəki C-423/04 [2006] ECR I-3585 saylı, 27 aprel 2006-cı il tarixli işi.
[190] Aİ Şurasının "Sosial təminat məsələlərilə bağlı kişilərlə qadınlar arasında bərabər rəftar prinsipinin qabaqçıl şəkildə icra olunmasına dair" 79/7/EEC saylı, 19 dekabr 1978-ci il tarixli Direktivi, OJ 1979 L 6, səh. 24.
[191] *Kristin Qoodvinin Böyük Britaniyaya qarşı* [GC] 28957/95 saylı, 11 iyul 2002-ci il tarixli, *I-nin Böyük Britaniyaya qarşı* [GC] 25680/94 saylı, 11 iyul 2002-ci il tarixli, AİHM-dəki işləri. Eyni zamanda, *L.-in Litva Respublikasına qarşı* AİHM-dəki 27527/03 saylı, 11 sentyabr 2007-ci il tarixli işi.

haqqında şəhadətnamələr qanunamüvafiq şəkildə müəyyən məqsədlərlə dəyişdirilməmiş qaldığından bu iddiaçıların məşğulluq və sosial təminat məsələlərilə bağlı müraciət etdikləri təqdirdə öz qanuni cinsi mənsubiyyətini açıqlayarkən xəcalət və alçalma hissləri keçirəcəkləri demək idi. AİHM bu səpkidən olan keçmiş işlərin əksini əsas götürərək bu cür qadağa nəticəsində şəxsi həyata hörmət hüququnun və 12-ci maddəyə əsasən nikah hüququnun pozulduğunu iddia etsə də, 14-cü maddənin pozulub-pozulmaması məsələsini nəzərdən keçirməmişdir.

Misal: Van Kükün işinə əsasən, əməliyyat yolu ilə cinsini dəyişmiş və hormonal müalicə almış iddiaçıya özəl tibbi sığorta şirkətindən onun xərclərinin ödənilməsilə bağlı müraciətinə rədd cavabı verilmişdir.[192] İddiaçının sığorta şirkətinə qarşı şikayətinə baxmış AFR-in Apellyasiya Məhkəməsi tibbi prosedurun müvafiq müqavilədə nəzərdə tutulanlardan fərqli olaraq "zəruri" olmadığından iddiaçının xərclərin ödənilməsi hüququna malik olmadığını müəyyən etmişdir. AİHM gender özünəməxsusluğunun xüsusiyyətlərini və bərpaolunmaz tibbi prosedurlardan keçmək barədə qərarın ciddiliyini nəzərə alaraq milli məhkəmənin bu cür yanaşması səbəbindən AİHK-nın 6-cı maddəsinin pozulması nəticəsində iddiaçının ədalətli məhkəmə araşdırması hüququnun pozulması ilə yanaşı, AİHK-nın 8-ci maddəsilə nəzərdə tutulmuş şəxsi həyata hörmət hüququnun pozulduğunu da müəyyən etmişdir. Lakin AİHM qəbul edilmiş qərarın 14-cü maddəyə uyğun olub-olmaması məsələsinə baxmamışdır, çünki əsasən eyni faktlar bu maddənin kontekstində nəzərdən keçirilməli idi.

Ümumiyyətlə, belə bir vəziyyət yaranıb ki, gender özünəməxsusluğu ilə bağlı əsasları əhatə edən qanunvericilikdə istər Avropa, istərsə də milli səviyyədə əsaslı dəqiqləşdirmələrin aparılması tələb olunur. Bu sahəni tənzimləyən milli qanunvericilik bazalarının vəziyyətinə dair son zamanlar aparılmış monitorinqlər göstərir ki, Avropada bu məsələ ilə bağlı ardıcıl bir yanaşma mövcud deyil və dövlətlər əsasən "gender özünəməxsusluğunu" "cinsi oriyentasiyanın" bir hissəsi kimi qəbul edənlərə və bunu "cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin" bir hissəsi kimi hesab edənlərə bölünür.[193]

Pensiya yaşı ilə bağlı cinsi zəmində fərqli rəftardan irəli gələn bir sıra işlər göstərir ki, AİHM bu işlərə aid maliyyə və sosial siyasət məsələlərilə əlaqədar dövlətlər üçün geniş qiymətləndirmə çərçivələri təklif edir.[194]

Misal: *Ştekin və başqalarının Böyük Britaniyaya qarşı* işinə əsasən, iddiaçılar qadınlara və kişilərə şamil olunan pensiya yaşının fərqli olması nəticəsində onların hər birinə pensiya yaşına əsasən müəyyənləşdirilmiş və ödənilmiş müavinətlərdəki dəyişikliklərə görə qeyri-münasib vəziyyətdə olmaları ilə bağlı şikayət edirdilər.[195] AİHM yalnız *"həddindən artıq əsaslı səbəblər"* mövcud olduqda cinsi zəmində ayrı-seçkiliyin prinsip etibarı ilə əsaslandırılmasının mümkün olduğunu müəyyənləşdirmişdir. Lakin, *"iqtisadi və ya sosial strategiya xarakterli ümumi tədbirlərə gəldikdə, AİHK-ya əsasən dövlətlər üçün bir qayda olaraq geniş çərçivələr verilir … Dövlət orqanları öz cəmiyyətlərilə və onun ehtiyacları ilə birbaşa tanış olduğundan sosial və ya iqtisadi zəmində ictimai maraqların nədən ibarət olduğunu müəyyən etmək baxımından beynəlxalq hakimlərlə müqayisədə prinsip etibarı ilə daha yaxşı mövqedədirlər və AİHM yerli*

[192] *Van Kükün AFR-ə qarşı* AİHM-dəki 35968/97 saylı 12 iyun 2003-cü il tarixli işi.
[193] FRA "Aİ-yə üzv olan dövlətlərdə homofobiya və cinsi oriyentasiya zəminində ayrı-seçkilik: Hissə I – Hüquqi Təhlil" (Vyana, FRA, 2009-cu il), səh. 129-144; İnsan Hüquqları üzrə Komissarlıq "İnsan hüquqları və Gender özünəməxsusluğu" (AŞ-nin İnsan Hüquqları üzrə komissarı Tomas Hamarberqin tətdqiqat məruzəsi, Strasburq, 29 iyul 2009-cu il, CommDH/IssuePaper (2009)2).
[194] Eyni zamanda,, bu işlər fərqli rəftarın əsaslandırılması ilə bağlı gərəkli müzakirələr üçün zəmin yaradır və bununla da bizim Bələdçidə təsvir olunmuş əsaslandırma məsələsinə aid müzakirələri inkişaf etdirmək üçün bu məsələnin daha da ətraflı öyrənilməsini nəzərdə tutur.
[195] *Ştekin və başqalarının Böyük Britaniyaya qarşı* AİHM-dəki 65731/01 və 65900/01 saylı, 12 aprel 2006-cı il tarixli işləri.

qanunverici orqanların siyasətlə bağlı etdikləri seçimə hörmətlə yanaşır, əgər bu seçim aşkar qaydada və məntiqli şəkildə əsaslandırılmışdırsa." AİHM qadınlarda və kişilərdə pensiya yaşlarının fərqli olmasını ilk növbədə "xüsusi tədbirlərin" bir faktiki forması kimi müəyyən etmişdir və bu tədbirlər qadınların ailədəki ənənəvi rolunu nəzərə alaraq əziyyət çəkməmələri və müstəqil maddi gəlirdən məhrum edilməmələri üçün maddi çətinliklərinin ödənilməsi üçün nəzərdə tutulub. Eyni zamanda, dövlət tərəfindən qadınlarla kişilərin pensiya yaşının bərabərləşdirilməsi istiqamətində ardıcıl tənzimləmə işlərinin aparılması, həmçinin bu işlərin nə qədər vaxt çəkəcəyi və ya tez bir vaxtda həyata keçiriləcəyi nöqteyi-nəzərindən dövlətin mövcud qiymətləndirmə çərçivələrindən kənara çıxmadığı müəyyənləşmişdir.[196]

Məşğulluq siyasətinin daha geniş aspektləri zəminində əsaslandırılmış fərqli rəftara aid işlərlə əlaqədar olaraq oxşar yanaşma AƏM tərəfindən qəbul olunmuşdur.

Misal: Şnorbusun işində Hessen Torpağı Ədliyyə Nazirliyinin məhkəmə orqanlarında işləmək məqsədilə praktiki təlimlərdə iştirak etmək üçün üstünlüyün məcburi hərbi və ya alternativ xidmətdə olmuş kişi namizədlərə verilməsindən ibarət təcrübə cinsi zəmində dolayı ayrı-seçkilik kimi qiymətləndirilmişdir.[197] Lakin AƏM bu təcrübənin obyektiv şəkildə əsaslandırıldığını müəyyən etmişdir, çünki bu məcburi hərbi xidmətin kişi namizədlərin karyerasına göstərdiyi ləngidici təsirin qarşısını almaq üçün nəzərdə tutulmuşdur.

Misal: Meqnerin və Şeffelin işi həftədə 15 saatdan çox olmayan yarımştat və qısamüddətli işçilərin xəstəliklə və qocalıqla bağlı icbari sığorta sistemlərindən kənarlaşdıran, həmçinin işsizliklə bağlı sığorta sisteminə ödənişlər etmək öhdəliyindən azad edən AFR qanunvericiliyilə əlaqədar idi.[198] Bu hüquqi normanın əsasən yarımştat və qısamüddətli işlərdə çalışan qadınlara qarşı potensial şəkildə dolayı ayrı-seçkilik xarakteri daşıması müəyyən olunmuşdur. AƏM dövlətin bu məsələ ilə bağlı mövqeyini qəbul etmişdir. Dövlətin mövqeyi ondan ibarət idi ki, sözügedən yarımştat və qısamüddətli işçilərin bu sistemə daxil edilməsi sistemin maddi cəhətdən bütövlükdə yenidən baxılması ilə nəticələnəcəkdi, çünki bundan sonra həmin sistemin yalnız işçilərin ödənişləri hesabına maliyyələşdirilməsi mümkün olmayacaqdı. Eyni zamanda, AƏM bu cür yarımştat və qısamüddətli işçilərə olan tələbi və dövlət tərəfindən bu tələbin yalnız həmin işçilərin qeyd olunan sosial sığorta sistemlərindən kənarlaşdırılması ilə dəstəklənməsinin mümkün olduğunu da qəbul etmişdir. Bu cür yanaşma tətbiq edilməsə belə, qeyd olunan işlərə yenə işçilər qəbul olunacaqdı, lakin işə qəbul qanunsuz əsaslarla aparılacaqdı. AƏM dövlətin qanunla nəzərdə tutulmuş sosial siyasətə aid məqsədlər güdməsini və bununla əlaqədar olaraq, "sosial və məşğulluq siyasətinin" həyata keçirilməsi üçün münasib tədbirlərin seçilməsi istiqamətində dövlətə "geniş ixtiyar çərçivələrinin" verildiyini qəbul etmişdir. Məhz bu səbəbdən də fərqli rəftar əsaslandırılmışdır.

Bunu aşağıda verilmiş işlə müqayisə etmək olar: həmin işə əsasən, AƏM cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin sosial siyasət kontekstində əsaslandırılmasını qəbul etməmişdir, baxmayaraq ki, bu işin arxasında böyük dövlət xərcləri dururdu.

[196] Eyni zamanda, *Barrounun Böyük Britaniyaya* qarşı AİHM-dəki 42735/02 saylı, 22 avqust 2006-cı il tarixli işinin 20-24, 37-ci, *Pirsonun Böyük Britaniyaya qarşı* AİHM-dəki 8374/03 saylı, 22 avqust 2006-cı il tarixli işinin 12-13, 25-ci və *Uolkerin Böyük Britaniyaya qarşı* AİHM-dəki 37212/02 saylı, 22 avqust 2006-cı il tarixli işinin 19-20, 37-ci paraqraflarına baxın.

[197] *Şnorbusun Hessen Torpağına qarşı* AƏM-dəki C-79/99 [2000] ECR I-10997 saylı, 7 dekabr 2000-ci il tarixli işi.

[198] *Meqnerin və Şeffelin Innungskrankenkasse Vorderpfalz-a qrşı* AƏM-dəki C-444/93 [1995] ECR I-4741 saylı, 14 dekabr 1995-ci il tarixli işi. Eyni zamanda, *Noltenin Landesversicherungsanstalt Hannover-ə qarşı* AƏM-dəki C-317/93 [1995] ECR I-4625 saylı, 14 dekabr 1995-ci il tarixli işi.

Misal: De Veerdin qızlıq soyadı, Roks və başqalarının işi əmək qabiliyyətinin itirilməsinə görə müavinətə dair milli qanunvericiliklə bağlı idi.[199] Əmək qabiliyyətinin itirilməsindən əvvəl mövcud olan gəlirlərindən asılı olmayaraq, kişilər və subay qadınlar üçün əmək qabiliyyətinin itirilməsinə görə müavinətə dair milli qanunvericiliyin tətbiqinə 1975-ci ildən başlanılmışdır. 1979-cü ildə bu qanunvericiliyə dəyişikliklər edilmişdir və bu cür müavinət ərli qadınlar üçün də əlçatan olmuşdur. Lakin eyni zamanda, faydalanacaq tərəfin əvvəlki illərdə konkret səviyyədə gəlir əldə etməsi şərti də bu qanunvericiliyə əlavə edilmişdir. Bu qanunvericiliyin digər səbəblərlə yanaşı, gəlirlə bağlı şərt əsasında qadınları dolayı yollarla ayrı-seçkiliyə məruz qoyması mübahisələrə səbəb olmuşdur, çünki kişilərlə müqayisədə qadınların tələb olunan gəlirin qazanmaları az ehtimal olunan idi. Dövlət bu cür fərqli rəftarın dövlət xərclərinin qarşısını almaq məqsədilə büdcə mülahizələrilə əsaslandırıldığını bildirmişdir. Hansı kateqoriyadan olan şəxslərin sosial müavinətlərdən faydalanması məsələsinin Aİ qanunvericiliyinə əsasən dövlət tərəfindən tənzimlənməli olduğu təqdirdə, AƏM bu cür tənzimləmə prosesinin diskriminativ tərzdə həyata keçirilməsinin yol verilməzliyini müəyyən etmişdir.

Bu 2 iş öz faktlarına görə tutuşdurula bilər və *De Uerdin qızlıq soyadı, Roks və başqalarının işi* bir "qayda" *Meqnerlə Şeffelin* işi isə "istisna" kimi qəbul olunmalıdır. Aİ qanunvericiliyi üzv dövlətlərin üzərinə hansısa konkret sosial təminat sistemini qəbul etmək öhdəliyini qoymur, lakin müəyyən bir sistem qəbul edildikdə məhkəmə müəyyən qrupların sadəcə olaraq maddi mülahizələrə əsasən bu sistemdən kənar qalmasına icazə vermir, çünki bu cür kənarlaşdırma bərabər rəftar prinsipini əhəmiyyətli dərəcədə zəiflətməklə bu sahədə sui-istifadələrə yol açа bilər. Lakin fərqli rəftar təminat sisteminin xəstəliyə və işsizliyə görə sosial sığorta sahəsində ədalətsizliyin qarşısını ala biləcək yeganə vasitədirsə və qeyri-bərabər rəftar xarakterli bu tədbir insanları yalnız tənzimlənməyən işlə məşğul olmağa vadar edəcəksə münasib hesab oluna bilər.

Cinsi oriyentasiya "hər bir şəxsin əks cinsin, onunla eyni cinsin və ya hər iki cinsin nümayəndələrinə dərin emosional, aşiqanə və seksual meylini, həmçinin onlarla intim münasibətlərini bildirir."[200]

4.3. Cinsi oriyentasiya

Adətən cinsi oriyentasiyaya görə ayrı-seçkiliklə bağlı işlər şəxsin homoseksual və ya biseksual olması səbəbindən qeyri-münasib rəftara məruz qalmasını nəzərdə tutur, lakin müdafiə olunan əsaslar heteroseksual olma səbəbindən ayrı-seçkiliyə məruz qalmanı qadağan edir.

Misal: İsveçin Cinsi Oriyentasiya Zəminində Ayrı-seçkilik Əleyhinə Ombudsmanına təqdim olunmuş işə əsasən heteroseksual qadın İsveçin lezbiyanlar, homoseksuallar və transseksualların hüquqları üzrə milli federasiyasına təhlükəsiz cinsi əlaqə məsələləri üzrə məsul şəxs vəzifəsində işləmək üçün müraciətinə rədd cavabının verilməsilə bağlı şikayət etmişdir.[201] Federasiyadan ona bildirmişdilər ki, onlar özü kimiləri vasitəsilə fəaliyyət dairəsini genişləndirmək məqsədilə özünü homoseksual və ya biseksual hesab edən kişini bu işə götürmək niyyətindədir. Müəyyən olunmuşdur ki, ərizəçi bu işə düzəlmək üçün homoseksual və ya biseksual kişilə müqayisə olunan vəziyyətdə olduğunu iddia edə bilməz (və bununla

[199] *De Veerdin (qızlıq soyadı Roks) və başqalarının "Bestuur van de Bedrijfsvereniging voor de Gezondheid, Geestelijke en Maatschappelijke Belangen"ə və başqalarına qarşı* AƏM-dəki, C-343/92 [1994] ECR I-571 saylı, 24 fevral 1994-cü il tarixli işi.

[200] Geniş şəkildə qəbul olunmuş bu anlayış "www.yogyakartaprinciples.org/principles_en.htm" saytında mövcud olan "Cinsi oriyentasiya və gender özünəməxsusluğu ilə əlaqədar insan hüquqlarına aid beynəlxalq qanunvericiliyin tətbiqinə dair Yoqyakarta Prinsiplərindən" (mart 2007-ci il) götürülmüşdür.

[201] Obmudsmanın 262/06 saylı işlə bağlı 21 iyun 2006-cı il tarixli qərarı.

əlaqədar olaraq, qeyri-münasib rəftara məruz qaldığını sübuta yetirə bilməz) və istənilən halda bu cür fərqli rəftarın həqiqi iş şərtilə bağlı sübuta yetirilməsi mümkündür.

AİHK-nın 14-cü maddəsi "cinsi oriyentasiya" məsələsini müdafiə olunan əsaslar arasında birmənalı şəkildə nəzərdə tutmasa da, AİHM bu məsələnin bir sıra işlərlə bağlı 14-cü maddə əsasında müdafiə olunan "digər" əsaslar sırasına daxil edildiyini birmənalı şəkildə bəyan etmişdir.[202]

Misal: S.L.-in Avstriya Respublikasına qarşı işinə əsasən, iddiaçı qarşılıqlı razılıq əsasında kişilər arasında cinsi münasibətləri cinayət tərkibli əməl hesab edən (tərəflərdən birinin yaşı 18-dən aşağı idi) mövcud milli qanunvericilik barədə şikayət etmişdir.[203] Bundan fərqli olaraq, qadınlara artıq 14 yaşından istər lezbiyan, istərsə də heteroseksual xarakterli cinsi münasibətlərə daxil olmaq icazəsi verilirdi. AİHM bu işdə cinsi oriyentasiya zəminində ayrı-seçkiliyə yol verildiyini müəyyən etmişdir.

Misal: E.B.-nin Fransa Respublikasına qarşı işinə əsasən, iddiaçıya onun evində kişi funksiyalarını icra edəcək şəxsin olmaması səbəbindən övladlığa uşaq götürmək barədə ərizəsinə rədd cavabı verilmişdir.[204] Milli qanunvericilik tənha valideynə övladlığa uşaq götürməyə icazə verir, lakin AİHM dövlət orqanları tərəfindən verilmiş rədd cavabının ilk növbədə iddiaçının başqa bir qadınla əlaqədə olması və onunla yaşaması faktından irəli gəldiyini müəyyən etmişdir. Bununla əlaqədar olaraq, AİHM cinsi oriyentsiya zəminində ayrı-seçkiliyin baş verdiyini müəyyənləşdirmişdir.

Misal: X-in Türkiyə Respublikasına qarşı işində[205] saxlanıldıqdan sonra iddiaçı təcridxanada digər məhbuslarla bir kameraya yerləşdirilmişdir. Onun harada yerləşdirilməsi barədə qərar qəbul edilərkən homoseksual olması nəzərə alınmamışdır. İddiaçı digər məhbuslar tərəfindən cinsi təcavüzə məruz qalmamaq üçün təcridxananın başqa blokuna, digər homoseksual məhbusların qaldığı yerə köçürülməsini xahiş etmişdir. Bunun əvəzinə təcridxana rəhbərliyi onu zorakı, uşaq zorakılığı və ağır cinayətlər törətmiş canilər üçün nəzərdə tutulmuş digər blokda birnəfərlik kameraya köçürmək qərarına gəlmişdir, baxmayaraq ki, iddiaçı zorakı cinayət törətməmişdir. İddiaçı ümumi əraziyə və açıq havaya çıxarılmadığından həmin kamerada tək məhbusluqdan əziyyət çəkirdi. Eyni zamanda, o, yer çatışmazlığından (çarpayıdan və tualetdən ibarət kameranın ümumi sahəsi 7m^2 təşkil edirdi) və ümumi gigiyena şəraitindən (kamerada siçovullar var idi) narazı idi. Bu cür şəraitdə 1 ay qaldıqdan sonra iddiaçıya psixoloji sarsıntı diaqnozu qoyulmuşdur və o psixiatriya hospitalına köçürülmüşdür. Hospitaldan çıxsdıqdan sonra iddiaçı həbsxananın standart kamerasına yerləşdirilmişdir və orada yuxusuzluqdan və depressiyadan əziyyət çəkirdi. AİHM iddiaçının şəxsi həyatının son dərəcə intim və həssas aspektlərinə müdaxilə edildiyindən onun məruz qaldığı rəftarın yalnız həddindən artıq güclü səbəblər əsasında əsaslandırılmasının mümkün ola biləcəyini bildirmişdir. Cinsi mənsubiyyət və seksual həyat məsələlərinə gəldikdə, dövlətin qiymətləndirmə çərçivələri çox dardır və istənilən müdaxilə, qanunilik, zəruriyyət və mütənasiblik tələblərinə cavab verməlidir. Konkret olaraq bu işlə bağlı AİHM bu cür tədbirlərin iddiaçının fiziki mühafizəsini təmin etmək üçün deyil, sadəcə olaraq onun cinsi oriyentasiyası ilə əlaqədar görülməsi qənaətinə gəlmişdir. Bununla da AİHM AİHK-nın 3 və 14-cü maddələrinin pozulması ilə iddiaçının cinsi oriyentasiya zəminində diskriminativ rəftara məruz qaldığını müəyyən etmişdir.

[202] Məsələn, *Frettenin Fransa Respublikasına qarşı* AİHM-dəki 36515/97 saylı, 26 fevral 2002-ci il tarixli işinin 32-ci paraqrafına baxın.
[203] *S.L.-in Avstriya Respublikasına qarşı* AİHM-dəki 45330/99 saylı, 9 yanvar 2003-cü il tarixli işi.
[204] *E.B.-nin Fransa Respublikasına qarşı* AİHM-dəki [GC] 43546/02 saylı, 22 yanvar 2008-ci il tarixli işi.
[205] *X-in Türkiyə Respublikasına qarşı* AİHM-dəki 24626/09 saylı, 9 oktyabr 2012-ci il tarixli işi.

Eyni zamanda, AİHM-in faktiki olaraq AİHK-nın şəxsi həyata hörmət hüququna aid 8-ci maddəsi əsasında da hökumətin cinsi oriyentasiya məsələlərinə müdaxiləsindən də müdafiə etdiyi qeyd olunmalıdır. Beləliklə, əgər bu məsələ ilə bağlı diskriminativ rəftara yol verilmişdirsə, bu cür rəftarın mövcudluğunun sübuta yetirilməsi tələb olunmadan, sadəcə 8-ci maddənin pozulduğunu iddia etmək kifayətdir.

Misal: Dadgenin Böyük Britaniyaya qarşı işi böyüklər arasında qarşılıqlı razılıq əsasında homoseksual cinsi əlaqələri cinayət tərkibli əməl hesab edən milli qanunvericiliklə əlaqədar idi.[206] İddiaçı homoseksual olduğundan cinayət təqibinə məruz qalma riskindən qorxması ilə əlaqədar şikayət edirdi. AİHM belə bir yanaşma nəticəsində iddiaçının şəxsi həyatına hörmət hüququnun pozulduğunu müəyyən etmişdir, çünki şəxsi həyat insanın cinsi həyatını da nəzərdə tutur. Eyni zamanda, müəyyən olunmuşdur ki, ictimai mənəviyyətin qorunması özü-özlüyündə qanuni bir məqsəd olsa da, bu məqsəd şəxsi həyata belə bir səviyyədə müdaxilə olunmadan təmin edilməlidir.

AİHM insan ləyaqətinin cinsi həyat və ya ailə həyatı kimi əsas elementləri hesab olunan məsələlərlə əlaqədar olaraq dövlət tərəfindən müdaxilədən müdafiənin təmin edilməsi işinə xüsusi diqqətlə yanaşır. Aşağıda təsvir olunan iş seksuallıq məsələlərilə bağlı şəxsi həyata müdaxiləni əsaslandırmaq işinin çətin olduğunu nümayiş etdirir.

Misal: Karnerin Avstriya Respublikasına qarşı işi əsas icarəçinin ölümü nəticəsində onun tərəfindən imzalanmış icarə haqqında müqavilə üzrə hüquq və vəzifələrin avtomatik şəkildə yaxın qohumuna və ya həyat yoldaşına keçməsini nəzərdə tutan milli qanunvericiliyin ("İcarə haqqında" Qanunun 14-cü bölməsi) təfsir olunması ilə əlaqədar idi.[207] İddiaçı onun partnyoru olmuş və artıq vəfat etmiş əsas icarəçilə birgə yaşamışdır. Milli məhkəmələrin verdiyi təfsirə əsasən, bu qanunvericilik rəsmi nikaha daxil olmamış heteroseksual cütlüklərə şamil olunsa belə, homoseksual cütlüklərə şamil olunmurdu. Dövlət cinsi oriyentasiya zəminində fərqli rəftarın baş verdiyini qəbul edirdi, lakin bunu ənənəvi ailələri öz mənzillərini itirməkdən müdafiə etməklə əsaslandırırdı. AİHM ənənəvi ailələrin müdafiəsinin qanuni məqsədlərə uyğun olduğunu qəbul etsə də *"cinsi mənsubiyyətinə görə və ya cinsi oriyentasiya zəminində fərqli rəftar baş verdiyindən … tətbiq edilmiş qiymətləndirmə çərçivələrinin … dar olduğunu"* müəyyənləşdirmişdir. Bunun davamında AİHM bəyan etmişdir ki, *"mütənasiblik prinsipi seçilmiş tədbirin qarşıya qoyulmuş məqsədə nail olmaq üçün prinsip etibarı ilə həmin məqsədə mütləq qaydada uyğun gəlməsini nəzərdə tutmur. Lakin mütləq qaydada sübuta yetirilməlidir ki, müvafiq məqsədə nail olmaq üçün müəyyən kateqoriyalı insanların əhatə olunmaması, bizim işlə bağlı isə homoseksual əlaqədə olaraq birgə yaşayan şəxslərin "İcarə haqqında" Qanunun 14-cü maddəsinin əhatə dairəsindən istisna edilməsi zəruridir"*. Bununla da AİHM ayrı-seçkilik halının baş verdiyini müəyyən etmişdir, çünki dövlət homoseksual cütlükləri qeyri-münasib vəziyyətdə qoymadan ənənəvi ailələrin müdafiəsi üçün tədbirlər görməli idi.

Misal: Genderdoc-M-in işində[208] iddiaçı Moldovada yerləşən və LQBT-ləri (lezbiyanları, qeyləri, biseksualları və transseksualları) informasiya ilə təmin etmək və onlara köməklik göstərmək öhdəliyini öz üzərinə götürmüş QHT-dir. Cinsi azlıqların ayrı-seçkilikdən müdafiə olunması məqsədi daşıyan qanunun qəbul edilməsini dəstəkləmək üçün Parlament qarşısında dinc nümayişin keçirilməsilə bağlı razılıq əldə etmək məqsədilə bu QHT-nin Kişinyov şəhərinin Bələdiyyə Şurasına müraciətinə milli azlıqların müdafiəsinə dair qanunun artıq qüvvədə olduğundan nümayişin keçirilməsinin əsassız olması səbəbilə rədd cavabı verilmişdir. Ali Ədalət Məhkəməsinin müvafiq qərarına əsasən yığıncaqlara dair qanunla nəzərdə tutulmuş bir

[206] *Dadgenin Böyük Britaniyaya qarşı* AİHM-dəki 7525/76 saylı, 22 oktyabr 1981-ci il tarixli işi.
[207] *Karnerin Avstriya Respublikasına qarşı* AİHM-dəki 40016/98 saylı, 24 iyul 2003-cü il tarixli işinin 34-43-cü paraqrafları.
[208] *Genderdoc-M-in Moldova Respublikasına qarşı* AİHM-dəki 9106/06 saylı, 12 iyun 2012-ci il tarixli işi.

sıra öhdəliklərin (qanuna hörmət etmək, cavabdeh şəxs təyin etmək, ictimai asayişin qorunmasına məsuliyyət daşıyan şəxslərdən ibarət qrupu polislə birlikdə yaratmaq, nümayişin keçiriləcəyi ərazidə xüsusi nişanlar qoymaq, tələb olunan rüsumu Bələdiyyə Şurasına ödəmək, nümayişin başlanacağı yerdən qurtaracağı yerədək marşrutunu müəyyən etmək və müəyyən şəxslərin iştirakını qadağan etmək) iddiaçı tərəfindən təmin edilmədiyi müəyyənləşdirilmişdir. Bundan başqa, Ali Məhkəmə nümayişin keçirilməsi nəticəsində ictimai asayişin pozulması riskinin yaranacağını hesab etmişdir.
AİHM nümayişin keçirilməsinə qadağanın qoyulması səbəbinin Moldova vətəndaşlarının böyük əksəriyyətinin əleyhdarı olduğu və homoseksuallığı təşviq edən tədbirin bəyənilməməsi ilə əlaqədar olduğunu qeyd etmişdir. AİHM vurğulamışdır ki, dövlətlər oxşar vəziyyətdə olanlarla fərqli rəftarın necə və hansı dərəcədə əsaslandırılması baxımından müəyyən qiymətləndirmə çərçivələrinə malik olsalar da, fərqli rəftar cinsi mənsubiyyət və ya cinsi oriyentasiya zəminində baş verdikdə bu çərçivələr kifayət qədər məhdudlaşır. Nümayişin keçirilməsilə bağlı müvafiq qərar qəbul etmək üçün müraciət edilmiş hər bir dövlət orqanı müxtəlif səbəblər əsasında rədd cavabı versə də, AİHM birmənalı şəkildə hesab etmişdir ki, nümayişin keçirilməsinə rədd cavabının verilməsinin əsas səbəbi iddiaçının təşviq etdiyi məsələdən irəli gəlir. Bununla da AİHM verilmiş qərar nəticəsində AİHK-nın 11-ci maddəsilə birgə baxılmış 14-cü maddəyə əsasən ayrı-seçkiliyin qadağan olunması tələbinin pozulduğunu müəyyən etmişdir.

4.4. Əlillik

Nə AİHK, nə də "Məşğulluq sahəsində bərabərliyə dair" Direktiv əlillik anlayışını özündə əks etdirmir. AƏM-ə məxsus vəzifələrin xarakterini nəzərə alaraq məhz yerli məhkəmələr əlilliyi təşkil edən məsələlər barədə qərar qəbul edir və bu qərarı müvafiq mübahisəyə aid faktiki ilkin şəraitin bir hissəsi kimi AƏM-ə təqdim edir. Buna baxmayaraq, AƏM də presedent hüququnu rəhbər tutaraq əlilliyin hansı məsələlər əsasında təşkil olunması barədə bəzi məhdud istiqamətlər vermək imkanını əldə etmişdir.

Misal: Şakun Navasın işi[209] əsasında AƏM-ə əlillik əlamətinə görə ayrı-seçkilik məsələlərinin ümumi əhatə dairəsini nəzərdən keçirmək imkanı verilmişdir və bu məhkəmədən "əlillik" termininin Aİ çərçivəsində razılaşdırılmış anlayışının verilməsi xahiş olunmuşdur. AƏM bildirmişdir ki, "Məşğulluq sahəsində bərabərliyə dair" Direktivin məqsədlərinə uyğun olaraq "əlillik" termini *"konkret olaraq fiziki, psixi və ya psixoloji qüsurlardan irəli gələn və əlaqədar şəxsin əmək fəaliyyətilə məşğul olmasına mane olan və böyük ehtimalla, uzun bir müddət ərzində davam edən məhdudiyyətin"* ifadə olunması üçün istifadə edilir. Bu anlayışı *Şakun Navasın* işinə tətbiq edəndə müəyyən olmuşdur ki, o, 8 ay ərzində xəstə olaraq işdən kənar qaldığına görə həmin işdən azad edilməsilə bağlı əlillik əlamətinə əsasən ayrı-seçkiliyə məruz qalması barədə İspaniya məhkəməsinə iddia ərizəsilə müraciət etdikdə əlil deyildi. AƏM dəqiqləşdirmişdir ki, xəstəlik və əlillik arasında mütləq fərq qoyulmalıdır və xəstəliklə əlaqədar müdafiə nəzərdə tutulmayıb.

ƏHK-nın 1-ci maddəsi: "Əlillərə - müxtəlif maneələrlə qarşılıqlı təsir zamanı onların digərləri ilə bərabər səviyyədə cəmiyyətin həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan insanlar aiddir."

1-ci fəsildə müzakirə olunduğu kimi, Aİ BMT-nin "Əlillərin hüquqları haqqında" 2006-ci il tarixli Konvensiyasını (ƏHK) imzalamışdır və ehtimal olunduğu kimi, bunun nəticəsi olaraq AƏM öz müvafiq fəaliyyətində bu Konvensiyanın icra olunmasına nəzarəti və şərh olunmasını həyata keçirən Əlillərin Hüquqları üzrə Komitənin şərhlərini rəhbər tutur.[210]

[209] *Şakun Navasın "Eurest Colectividades SA" şirkətinə qarşı* AƏM-dəki C-13/05 [2006] ECR I-6467 saylı, 11 iyul 2006-cı il tarixli işi.
[210] BMT-in UN Doc. A/RES/61/611 saylı, 13 dekabr 2006-cı il tarixli sənədi.

ƏHK-nı imzaladıqdan sonra Aİ və onun təsisatları (həmçinin Aİ qanunvericiliyini şərh və tətbiq etdikləri zaman Aİ-yə üzv olan dövlətlər) "əlillik" terminin anlayışına geniş və müfəssəl şəkildə əməl etmək öhdəliyini öz üzərlərinə götürmüşdür.

AİHK-da nəzərdə tutulmuş müdafiə olunan əsaslar arasında əlillik məsələsi birmənalı şəkildə əks olunmasa da, AİHM bu məsələni 14-cü maddəyə əsasən "digər" əsasların təfsirinə daxil etmişdir.

Misal: Qlorun İsveçrə Konfederasiyasına qarşı işinə əsasən, AİHM diabet xəstəsi olan iddiaçının əlil hesab edilməsini müəyyənləşdirmişdir, baxmayaraq ki, milli qanunlara əsasən bu "cüzi" əlillik kimi təsnif olunurdu.[211] İddaçı hərbi xidmətə getməkdən imtina etdiyinə görə hərbi mükəlləfiyyətli olan, lakin xidmət etməkdən imtina edən bütün şəxslərin ödədiyi vergini ödəməli idi. Bu vergidən azad edilmək üçün hər bir şəxsin ya 40% əlillik dərəcəsi olmalıdır (ətraflardan birinin işlək vəziyyətdə olmamasına bərabərdir), və ya şəxs siyasi, yaxud dini və etik əqidəsinə görə hərbi xidmət keçməkdən imtina etməlidir. İddiaçının əlillik dərəcəsi elə bir səviyyədə idi ki, o hərbi xidmət üçün yararsız hesab olunmuşdur, lakin onun əlilliyi milli qanunvericiliklə nəzərdə tutulmuş vergidən azad olunmaq üçün "kifayət" etmirdi. O, alternativ xidmət keçməyi təklif etsə də, bununla bağlı rədd cavabı almışdır. AİHM müəyyənləşdirmişdir ki, dövlət iddiaçı ilə əsaslı səbəblər olmadan hərbi xidmətə getməkdən imtina etmiş şəxslərlə müqayisə əsasında rəftar etmişdir və belə rəftar ayrı-seçkiliyi təşkil edən əməl kimi qiymətləndirilməlidir. Çünki iddiaçı fərqli vəziyyətdədir (hərbi xidmətdən imtina etsə də, alternativ xidmət keçmək niyyətində və iqtidarındadır) və dövlət bu cür halların öhdəsindən gəlmək üçün mövcud hüquqi normalardan istisnalar işləyib hazırlamalıdır.

AİHK-da nəzərdə tutulmuş digər müdafiə olunan əsaslarla olduğu kimi, bu səpkidən olan işlərə də başqa maddi hüquqlar əsasında baxılmasına nadir hallarda rast gəlmək olar və burada ümumi yanaşma həmin işlərə ayrı-seçkiliyi qadağan edən 14-cü maddə ilə əlaqələndirilmiş konkret hüquq əsasında baxılmasından ibarətdir.

Misal: Praysın Böyük Britaniyaya qarşı işinə əsasən, qadın iddiaçı 7 sutka müddətinə azadlıqdan məhrum edilmişdir. O, anasının onunla hamilə olduğu zaman talidomiddən istifadə etdiyinə görə fiziki qüsurlardan əziyyət çəkirdi və nəticədə onun bəzi ətrafları işləmirdi və ya əhəmiyyətli dərəcədə qısa idi və böyrək çatışmazlığı müşahidə olunurdu.[212] Bütün bunların nəticəsində o, hərəkət etmək üçün əlil arabasından, tualetə və yuyunmağa getmək üçün köməkdən və xüsusi yataq yerindən istifadə etməyə məcbur idi. Həbsin 1-ci günü o, fiziki qüsurları olan şəxslər üçün uyğunlaşdırılmamış kameraya yerləşdirildiyindən normal yata bilməmişdir, kəskin ağrılar hiss edirdi və hipotermiyadan əziyyət çəkirdi. Həbsxanaya köçürüldükdən sonra o, müəyyən uyğunlaşdırma işlərinin aparılması mümkün olan xəstəxana korpusuna yerləşdirilsə də, burada da oxşar problemlərlə üzləşmişdir. Ona enerji ehtiyatını itirmiş elektrik əlil arabasını yükləmək icazəsi verilməmişdir. AİHM 3-cü maddəyə zidd olaraq iddiaçının ləyaqəti alçaldan rəftara məruz qaldığını müəyyən etmişdir. Bu işdə AİHK-nın 14-cü maddəsilə nəzərdə tutulmuş maddi hüquqlar əsasında ayrı-seçkiliyə məruz qalma məsələləri nəzərdən keçirilməmişdir.

Misal: Prettinin Böyük Britaniyaya qarşı işinə əsasən, degenerativ xəstəlikdən əziyyət çəkən iddiaçı gələcəkdə vəziyyəti həddindən artıq ağırlaşdığı zaman özünə sui-qəsd edə bilməyəcəyi səbəbindən bu əməli kiminsə köməyilə həyata keçirilməsi üçün həmin şəxsin cəzalandırılmaması şərtilə, dövlətdən müvafiq zəmanət əldə etmək istəyirdi.[213] Milli

[211] *Qlorun İsveçrə Konfederasiyasına qarşı* AİHM-dəki 13444/04 saylı, 30 aprel 2009-cu il tarixli işi.
[212] *Praysın Böyük Britaniyaya qarşı* AİHM-dəki 33394/96 saylı, 10 iyul 2001-ci il tarixli işi.
[213] *Prettinin Böyük Britaniyaya qarşı* AİHM-dəki 2346/02 saylı, 29 aprel 2002-ci il tarixli işi.

qanunvericiliyə əsasən, sui-qəsdə yardımetmə cinayət tərkibli əməldir və qətllə və ya adam öldürmə ilə bərabər səviyyəli cinayət hesab olunur. İddiaçı digər məsələlərlə yanaşı, 8-ci maddəyə əsasən, şəxsi həyata hörmət hüququ kontekstində öz bədənilə bağlı qərar qəbul etmək hüququnun diskriminativ şəkildə pozulduğunu bildirmişdir, çünki dövlət sui-qəsdə yardım etməni ümumiyyətlə qadağan etdiyindən, bu tamamilə əlacsız vəziyyətə düşdüyündən öz həyatına son qoymaq iqtidarında olmayan şəxslərə tənasübsüz, mənfi təsir göstərirdi. AİHM *"özünə sui-qəsd etmək üçün fiziki cəhətdən imkanı olanlar və imkanı olmayanlar"* arasında fərq qoymağın yolverilməzliyinin əsaslı olduğunu müəyyən etmişdir, çünki bu məsələ ilə bağlı qanunvericiliyə istisnaların edilməsi təcrübədə yaşamaq hüququndan sui-istifadələrə və bu hüququn kütləvi şəkildə pozulmasına yol açacaq.

4.5. Yaş

Yaşla bağlı müdafiə olunan əsas, sadəcə olaraq zərərçəkmiş şəxsin yaşı ilə bağlı fərqli rəftar və ya hüquqdan fərqli şəkildə istifadə hallarına tətbiq edilir. Dini baxışlar və ya cinsi oriyentasiya zəminində ayrı-seçkilikdən fərqli olaraq, yaşla bağlı ayrı-seçkilik halları AİHK-da nəzərdə tutulmuş konkret hüququn əhatə dairəsinə düşmür və bu cür ayrı-seçkiliklə bağlı məsələlər müxtəlif hüquqlar kontekstində gündəmə gələ bilər. Başqa sahələrdə olduğu kimi, AİHM yaşla bağlı ayrı-seçkiliyə dəlalət edən faktlardan ibarət işlər barədə qərar qəbul edərkən faktiki olaraq həmin işləri, məsələn, uşaqlarla ədalət mühakiməsi sistemində rəftaretməni, bu kontekstdə təhlil etmir. Eyni zamanda, AİHM "yaş" məsələsinin "digər hər hansı əlamətlər" sırasına aid olduğunu müəyyən etmişdir.[214]

Misal: Şvitsqebelin İşveçrə Konfederasiyasına qarşı işinə əsasən, 47 yaşlı tənha qadın övladlığa uşaq götürməklə bağlı müraciətinə rədd cavabının verilməsinə görə iddia ərizəsi təqdim etmişdir.[215] Dövlət orqanları öz qərarını iddiaçı ilə uşaq arasındakı yaş fərqilə, həmçinin iddiaçının artıq bir uşağı olduğundan daha bir uşağı övladlığa götürməsi nəticəsində öz üzərinə əlavə maddi yükün götürülməsilə əsaslandırırdı. AİHM ərizəçinin övladlığa uşaq götürmək üçün müraciət edən digər gənc qadınlardan yaşına görə fərqli rəftara məruz qaldığını müəyyən etmişdir. Lakin dövlətlər arasında övladlığa uşaq götürmək üçün münasib yaş məhdudiyyətilə bağlı vahid yanaşmanın olmaması cavabdeh dövləti geniş qiymətləndirmə çərçivələrilə təchiz etmişdir. Bundan başqa, dövlət orqanlarının yaş fərqinə aid mülahizələri gündəmə təsadüfən gəlməmişdir və ilk növbədə uşağın ən yaxşı maraqlarından irəli gəlirdi. Eyni zamanda, ailəyə 2-ci uşağın götürülməsi nəticəsində iddiaçının üzərinə əlavə maddi yükün düşməsi də öz növbəsində uşağın rifahına mənfi təsir göstərə bilərdi. Bununla əlaqədar olaraq, AİHM fərqli rəftarın əsaslı olduğunu müəyyən etmişdir.

Misal: T.-nin Böyük Britaniyaya və *V.-nin Böyük Britaniyaya qarşı* işlərinə əsasən, aparılmış əlavə araşdırmalar nəticəsində 2 oğlan uşağı 10 yaşında olduqları zaman törədilmiş cinayətlərə görə təqsirli hesab olunmuşdular.[216] İddiaçılar digər məsələlərlə yanaşı, öz yaşlarına görə ədalətli məhkəmə araşdırması imkanından məhrum olmaları ilə, həmçinin həddi-buluğa çatmadıqlarına görə öz müdafiələrində səmərəli şəkildə iştirak edə bilməmələrilə əlaqədar şikayət edirdilər. AİHM müəyyən etmişdir ki, uşaqla bağlı araşdırmalar aparıldıqda, dövlət *"uşağın yaşını, inkişaf səviyyəsini, əqli və emosional vəziyyətini hərtərəfli şəkildə nəzərə almalıdır"* və onun *"aparılan araşdırmanı dərk etməsi və bu prosesdə iştirak etməsi üçün imkanlarının dəstəklənməsi"* istiqamətində addımlar atmalıdır. AİHM bu işə 14-cü maddə kontekstində baxmaqdan imtina edərək, dövlətin əvvəlki cümlədə qeyd olunan məsələləri edə bilmədiyini və bununla da AİHK-nın 6-cı maddəsini pozduğunu müəyyən etmişdir.

[214] *Şuitsqebelin İsveçrə Konfederasiyasına qarşı* AİHM-dəki 25762/07 saylı, 10 iyun 2010-cu il tarixli işi.
[215] Həmin istinada baxın.
[216] *T.-nin Böyük Britaniyaya* qarşı [GC] 24724/94 saylı, 16 dekabr 1999-cu il tarixli və *V.-nin Böyük Britaniyaya qarşı* [GC] 24888/94 saylı, 16 dekabr 1999-cu il tarixli, AİHM-dəki işləri.

Misal: D.G.-nin İrlandiya Respublikasına qarşı və *Buamarın Belçika Krallığına qarşı* işlərinə əsasən iddiaçılar dövlət orqanları tərəfindən saxlanılmışdılar.[217] AİHM bu vəziyyətdə özbaşına saxlanılmamaq hüququnun pozulduğunu müəyyən etmişdir. İşlərin ikisində də iddiaçılar böyüklərlə müqayisədə onlarla rəftaretmənin diskriminativ olması barədə şikayət edirdilər, çünki milli qanunvericilik onlarla eyni vəziyyətdə olan böyüklərin azadlıqdan məhrum edilməsinə icazə vermir. AİHM böyüklərlə və uşaqlarla rəftaretmə zamanı fərqin mövcud olduğunu, lakin bu fərqin əsaslandırıldığını müəyyən etmişdir, çünki azyaşlıların saxlanılmasının arxasında duran məqsəd onların müdafiə olunmasından ibarət idi və bu cür müdafiə böyüklərə şamil olunmur.

4.6. İrqi mənsubiyyət, etnik mənşə, dərinin rəngi və milli azlıqlara mənsubiyyət

"İrqi mənsubiyyət və etnik mənşə" ilə bağlı əsasların müvafiq olaraq Aİ qanunvericliyində və AİHK-da verilmiş əhatə dairələri bir qədər fərqlənir və "İrqi bərabərliyə dair" Direktivdə verilmiş "irqi mənsubiyyət və etnik mənşə" anlayışı milliyyət amilini birmənalı şəkildə istisna edir. AİHK "milliyyət" və ya "milli mənsubiyyət" əlamətlərini mühüm bir əsas hesab etdiyindən aşağıda müzakirə olunan məhkəmə işi nümayiş etdirir ki, "milliyyət" əlaməti etnik mənşənin ayrılmaz bir elementi hesab olunur. Bütün bunlar, Aİ qanunvericiliyi tərəfindən milli mənsubiyyətə görə ayrı-seçkiliyə icazənin verilməsini nəzərdə tutmur, sadəcə olaraq Aİ qanunvericiliyi elə bir tərzdə işlənib hazırlamışdır ki, milli mənsubiyyət zəminində ayrı-seçkilik məsələləri insanların sərbəst hərəkət etmələrinə aid qanunvericiliklə tənzimlənir. Milliyyət məsələsini birmənalı şəkildə nəzərə almamaqla yanaşı, "İrqi bərabərliyə dair" Direktiv "irqi mənsubiyyət və ya etnik mənşə" anlayışını da özündə birbaşa əks etdirmir. İrqi mənsubiyyətin və etnik mənşənin necə mənimsənməsinə aid istiqamətlər verən bir sıra beynəlxalq sənədlər mövcuddur. Eyni zamanda, nə "dərinin rəngi", nə də "milli azlıqlara mənsubiyyət" məsələləri "İrqi bərabərliyə dair" Direktivdə aydın şəkildə göstərilməsə də, AİHK-da mühüm əsaslar kimi nəzərdə tutulur. Bu iki termin də irqi mənsubiyyət və/və ya etnik mənşə anlayışının ayrılmaz hissələri hesab olunduğundan bu yarımbölmədə nəzərdən keçiriləcək.

Aİ Şurasının "İrqçiliyin və ksenofobiyanın müəyyən formalarına və təzahürlərinə qarşı cinayət hüququ vasitəsilə mübarizəyə dair" Çərçivə Qərarı irqçiliyin və ksenofobiyanın müvafiq qruplara qarşı yönəldilmiş *"irqi mənsubiyyət, dərinin rəngi, dini, nəsil, milli və ya etnik mənşə zəminində"* zorakılıqdan və ya nifrətdən ibarət olduğunu müəyyən edir. AŞ-nin İrqçiliyə və Dözümsüzlüyə qarşı Komissiyası da (İDAK) irqi mənsubiyyət zəmində ayrı-seçkiliyin müəyyənləşdirilməsi istiqamətində *"irqi mənsubiyyət, dərinin rəngi, dil, din, milliyyət, milli mənsubiyyət və ya etnik mənşə"* məsələlərini özündə əks etdirən geniş bir yanaşmanı qəbul etmişdir.[218] Eyni zamanda, Aİ-yə və Avropa Şurasına üzv olan bütün dövlətlər tərəfindən imzalanmış BMT-nin "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" 1966-cı il tarixli Konvensiyasının 1-ci maddəsi də irqi ayrı-seçkiliyin *"irqi mənsubiyyət, dərinin rəngi, nəsil, milli mənsubiyyət və ya etnik mənşə"* əlamətlərindən ibarət olduğunu müəyyən etmişdir.[219] Bundan başqa, sözügedən Konvensiyanın şərh olunmasına və monitorinqinə məsuliyyət daşıyan İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi üzrə Komitə (CERD) bəyan etmişdir ki, əgər əksi əsaslandırılmayıbsa, şəxsin konkret irqi və ya etnik qrupa mənsubiyyətinin müəyyən edilməsi *"həmin şəxsin…özünü müəyyənləşdirilməsinə"* əsaslanacaq.[220] Bu dövlət tərəfindən tanınmayan hansısa etnik qrupun müdafiə olunmamasının qarşısını alır.

[217] *D.G.-nin İrlandiya Respublikasına qarşı* 39474/98 saylı, 16 may 2002-ci il tarixli və *Buamarın Belçika Krallığına qarşı* 9106/80 saylı, 29 fevral 1988-ci il tarixli, AİHM-dəki işləri.
[218] İDAK-ın "İrqçiliyə və irqi mənsubiyyət zəmində ayrı-seçkiliyə qarşı mübarizə üzrə milli qanunvericiliyə dair" CRI(2003)8 saylı, 13 dekabr 2002-ci l tarixli Ümumi Fəaliyyət Tövsiyəsi No7 (1(b) və (c) paraqrafları).
[219] BMT-nin 660 UNTS 195 saylı sənədi.
[220] CERD "Konvensiyanın 1-ci maddəsinin 1-ci və 4-cü bəndlərinin şərh və tətbiq edilməsinə dair Ümumi Tövsiyə VII".

Aİ qanunvericiliyi dil, dərinin rəngi və nəsil əlamətlərini müdafiə olunan əsaslar kimi birmənalı şəkildə göstərməsə də, bu əlamətlərin irqi mənsubiyyətin və ya etnik mənşənin bir hissəsi kimi müdafiə olunmasının qarşısını almır, çünki əslində dil, dərinin rəngi və nəsil əlamətləri bir qayda olaraq, irqi mənsubiyyət və etnik mənşə anlayışları ilə əlaqələndirilir. Müəyyən dərəcədə ehtimal etmək olar ki, "milliyyət"in əsasını təşkil edən amillər, irqi mənsubiyyət və etnik mənşə anlayışlarına aid olduğundan, "milliyyət"lə bağlı əsası müəyyən şəraitdə irqi mənsubiyyət və etnik mənşə ilə bağlı əsaslara aid etmək olar.

Din "Məşğulluq sahəsində bərabərliyə dair" Direktivə əsasən əlahiddə əsas kimi müdafiə olunur. Lakin dini zəmində ayrı-seçkiliyə məruz qaldığını iddia edən şəxs, dini əsasların irqi əsaslarla əlaqələndirilməsində maraqlı ola bilər, çünki Aİ-nin qüvvədə olan qanunvericiliyi irqi mənsubiyyət zəmində ayrı-seçkilikdən müdafiənin əhatə dairəsini dini zəminində ayrı-seçkilikdən müdafiənin əhatə dairəsindən daha geniş şəkildə nəzərdə tutur. Bu onunla əlaqədardır ki, "İrqi bərabərliyə dair" Direktiv məşğulluq sahəsilə yanaşı mallardan və xidmətlərdən istifadə sahəsini də əhatə etdiyi bir vaxtda "Məşğulluq sahəsində bərabərliyə dair" Direktiv yalnız məşğulluq sahəsinə aiddir.

AİHM irqi mənsubiyyət və etnik mənşə anlayışlarını izah edərkən belə bir qənaətə gəlmişdir ki, dil, din, milliyyət və mədəniyyət irqi mənsubiyyət sahəsinin ayrılmaz hissələridir. *Timişevin* işinə əsasın çeçen mənşəli iddiaçıya sərhəd-buraxılış məntəqəsindən keçmək icazəsi verilməmişdir, çünki sərhədçilərə çeçen mənşəli şəxslərin ölkəyə gəlməsinə rədd cavabı vermək göstərişi verilmişdir. AİHM buna belə bir izahat vermişdir:

"Etnik mənşə və irqi mənsubiyyət bir-birilə qarşılıqlı əlaqədə olan və qismən üst-üstə düşən anlayışlardır. İrqi mənşə dərinin rəngi və ya sifətin quruluşu kimi morfoloji xüsusiyyətlərə əsasən insanların yarımnövlər üzrə bioloji təsnifatı ideyası üzərində qurulduğu halda etnik, mənşə eyni milliyət, tayfa mənsubiyyəti, dini əqidə, ümumi dil, mədəni və ənənəvi köklər və əsaslarla səciyyələndirilən ictimai qruplar ideyası üzərində qurulur."[221]

Misal: Sejdiçin və Fincinin Bosniya və Herseqovina Respublikasına qarşı işi 12 saylı Protokola əsasən barəsində qərar çıxarılmış ilk iş idi. İddiaçılar seçkilərdə iştirak edə bilməmələrilə bağlı şikayət etmişdilər.[222] Ötən əsrin 90-cı illərində münaqişənin sülh yolu ilə həlli prosesinin bir hissəsi kimi, 3 əsas etnik qrup arasında hakimiyyət bölgüsünə dair müqavilə imzalanmışdır. Bu müqavilədə belə bir şərt nəzərdə tutulmuşdur ki, seçkilərdə iştirak edən hər bir namizəd Bosniya, serb və ya xorvat icmasına qoşulması barədə bəyanat verməli idi. Yəhudi və roman mənşəli olan bu iddaçılar həmin şərti irqi mənsubiyyət və etnik mənşə zəminində ayrı-seçkilik kimi qəbul edərək, bu cür bəyanat verməkdən imtina etmişdilər. AİHM yuxarıda verilmiş irqi mənsubiyyətlə etnik mənşə arasındakı əlaqələri bir daha təkrarlayaraq əlavə etmişdir ki, *"etnik mənşə zəminində ayrı-seçkilik irqi zəmində ayrı-seçkiliyin bir forması hesab olunur".* AİHM-in irqi ayrı-seçkiliklə bağlı gəldiyi nəticə etnik mənşə ilə dini baxışlar arasında da qarşılıqlı əlaqələrin mövcud olmasını nümayiş etdirir. Bundan başqa, AİHM müəyyən etmişdir ki, sülh müqaviləsinin incə xarakterli bir sənəd olmasına baxmayaraq o, bu cür ayrı-seçkiliyin əsaslandırılması üçün istifadə edilə bilməz.

Misal: Avstriyanın Bərabər Rəftar Məsələləri üzrə Komissiyasına təqdim olunmuş işə

[221] *Timişevin Russiya Federasiyasına qarşı* AİHM-dəki 55762/00 və 55974/00 saylı, 13 dekabr 2005-ci il tarixli işlərinin 55-ci paraqrafı.
[222] *Sejdiçin və Fincinin Bosniya və Herseqovina Respublikasına qarşı* AİHM-dəki [GC] 27996/06 və 34836/06 saylı, 22 dekabr 2009-cu il tarixli işləri.

əsasən sikx mənşəli şəxs dini mərasimlər zamanı istifadə olunan qılıncı çıxarmaqdan imtina etdiyinə görə Vyana şəhərinin məhkəmə zalına buraxılmaması səbəbindən şikayət edirdi.[223] Komissiya bu işə etnik mənşə zəminində ayrı-seçkiliyin baş verib-verməməsi nöqteyi-nəzərindən baxmışdır. Fərqli rəftarın faktiki olaraq təhlükəsizlik zəminində əsaslandırıldığı müəyyənləşdirilmişdir.

Misal: Leketuşun və başqalarının işində[224] ana və 2 uşaqdan ibarət iddiaçılar roman mənşəlidirlər. Onların icmasına edilmiş basqın nəticəsində roman mənşəli şəxslərin evləri yandırıldıqdan sonra 1-ci iddiaçı nikahdan kənar yaşadığı həyat yoldaşını, 2-ci və 3-cü iddiaçı isə müvafiq olaraq öz atalarını itirmişdilər. Mureş Dairəsinin Məhkəməsi 2-ci iddiaçının aylıq müavinət almaq hüququnu təsdiq etsə də, 1-ci iddiaçının 3-cü iddiaçının xeyirinə uşaq pulu almaq barədə ərizəsini rədd etmişdir və bunu 3-cü iddiaçının öz atasının ölümündən sonra doğulması ilə və uşağın atasını müəyyənləşdirmək üçün 1-ci iddiaçı tərəfindən heç bir səy göstərilməməsilə əsaslandırmışdır. Apellyasiya şikayəti verildikdən sonra 1-ci iddaçıya vurulmuş mənəvi ziyana görə təzminat ödənilmişdir. Lakin oxşar vəziyyətdə olan şəxslərlə müqayisədə iddiaçının işinə fərqli şəkildə baxılmışdır və bununla bağlı heç bir izahedici səbəb göstərilməmişdir. Kassasiya Məhkəməsi qəbul olumuş qərarı təsdiq etmişdir və vurulmuş maddi və qeyri-maddi ziyanın müəyyənləşdirilməsi zamanı zərər çəkmiş şəxslərin cinayətkarları təhrik edən davranışının nəzərə alınmasının vacibliyini vurğulamışdır. Kassasiya Məhkəməsi iddiaçıların evinin yanması nəticəsində onların daşınan əmlakının da məhv edilməsi faktının sübuta yetirilməməsini xüsusi vurğulamışdır. Məhkəmə tərəfindən bildirilmişdir ki, istənilən halda ərizəçilər əmək fəaliyyətilə məşğul olaraq gəlir əldə etmədiyindən iddia etdikləri təzminat özlərinin qazandıqlarından bir neçə dəfə çoxdur. Eyni zamanda, Məhkəmə qeyd etmişdir ki, iddiaçıların yanaraq məhf olduğunu iddia etdikəri coxsaylı əşyaları saxlamaq üçün ümumiyyətlə kifayət qədər yeri olmayıb. AİHM 14-cü maddədə nəzərdə tutulmuş təminatlara uyğun olaraq obyektiv və məntiqli şəkildə əsaslandırma olmadıqda (əgər fərqli rəftar nəticəsində qanuni məqsədə nail olunmursa; və ya əgər istifadə edilmiş vasitələrlə qarşıya qoyulmuş məqsəd arasında mütənasib əlaqələr mövcud deyilsə) baş vermiş rəftardakı fərqlərin diskriminativ hesab olunduğunu qeyd etmişdir. AİHM hesab etmişdir ki, iddiaçıların iştirak etdikləri məhkəmə araşdırmaları zamanı yuxarıda qeyd olunmuş nəticənin əldə edilməsində zərərçəkmiş şəxslərin etnik mənşəsi böyük ehtimalla həlledici rol oynamışdır. Bu cür qənaəti daha da əsaslı edən başqa bir fakt ondan ibarət idi ki, iddiaçıya vurulmuş qeyri-maddi ziyanın miqyasının azaldılması ilə bağlı qəbul olunmuş qərarın arxasında duran səbəblər də zərər çəkmiş şəxslərin etnik mənşəsilə birbaşa əlaqədar idi. Bunun nəticəsində işin şərtləri əsasında AİHK-nın 6 və 8-ci maddələri ilə birgə 14-cü maddənin pozulması müəyyən olunmuşdur.

Misal: Kuriçin və başqalarının işində[225] iddiaçılar Sloveniyanı çıxmaq şərtilə keçmiş Yuqoslaviyanın respublikalarından birinin ya vətəndaşlığı olmayan şəxsi, ya da vətəndaşı hesab olunurlar. Onlar "Əcnəbilər haqqında" Qanun qüvvəyə mindiyi tarixdə, 1992-ci il fevralın 26-da Sloveniyada yaşayırdılar. Nəticədə onlar bu qanundan "kənarda" qalaraq bu ölkədə daimi yaşamaq statusunu itirməklə qanunsuz əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə çevrilmişdilər. Sloveniya vətəndaşlığı üçün müraciət etmək məqsədilə onlara sözügedən qanun qüvvəyə mindiyi tarixdən etibarən 6 ay vaxt verilirdi. İddiaçılardan heç birinə yaranmış vəziyyətlə bağlı rəsmi məlumat göndərilməmişdir və onlar bu barədə məlumatı şəxsiyyəti təsdiq edən şənədlərini, məsələn şəxsiyyət vəsiqələrini, pasportlarını və ya sürücülük

[223] Avstriyanın Bərabər Rəftar Məsələləri üzrə Komissiyası, Senat III. İşin ingilis dilindəki xülasəsilə FRA-nın informasiya portalında tanış olmaq olar: İş 5-1, mətnin əsli "http://infoportal.fra.europa.eu/InfoPortal/caselawDownloadFile.do?id=5" saytında mövcuddur.

[224] *Leketuşun və başqalarının Rumıniya Respublikasına qarşı* AİHM-dəki 12694/04 saylı, 13 noyabr 2012-ci il tarixli işi.

[225] *Kuriçin və başqalarının Sloveniya Respublikasına qarşı* AİHM-dəki 26828/06 saylı, 26 iyun 2012-ci il tarixli işi.

vəsiqələrini dəyişdirmək istəyərkən əldə etmişdilər. Yalnız "həqiqi əcnəbi" (keçmiş Yuqoslaviyanın tərkibində olmamış dövlətin vətəndaşı olan əcnəbi) adlanan şəxslər üçün nəzərdə tutulan yaşayış icazələri qüvvədə qalmışdır, çünki həmin əcnəbilərin bu ölkədə daimi yaşamaq hüququ yuxarıda qeyd olunan qanunla tanınmışdır. AİHM qeyd etmişdir ki, AİHK-nın 14-cü maddəsi müxtəlif qruplar arasındakı faktiki bərabərsizliyi aradan qaldırmaq üçün onlarla fərqli şəkildə rəftaretməyi bu Konvensiyanı imzalamış dövlətlərə qadağan etmir. Hətta bəzən fərqlı rəftar vasitəsilə bərabərsizlikləri aradan qaldırmaq üçün səylərin göstərilməməsi AİHK-nın 14-cü maddəsinin pozulmasına gətirib çıxara bilər. Eyni zamanda, müəyyən bir qrupa tənasübsüz qərəzli təsir göstərən siyasət konkret olaraq həmin qrupa qarşı yönəldilmədiyinə baxmayaraq, diskriminativ hesab oluna bilər. Bu işə gəldikdə, AİHM bildirmişdir ki, "Əcnəbilər haqqında" Qanun qüvvəyə mindikdən sonra keçmiş Yuqoslaviya vətəndaşları "həqiqi əcnəbilərlə" müqayisədə qeyri-qanuni və əlverişsiz vəziyyətə düşdüklərini zənn etmişdilər. Şəxslərin vətəndaşlıq mənsubiyyətindən irəli gələn fərqli rəftar hansısa qanuni məqsədi güdmürdü və eyni zamanda, obyektiv və məntiqli şəkildə əsaslandırılmamışdı, çünki əcnəbilərdən ibarət hansısa qrup tərəfindən vətəndaşlıq üçün müraciət etməmə onların yaşayış üçün icazələrinin əllərindən alınması üçün əsaslı səbəb hesab oluna bilməz. Bununla da AİHM, AİHK-nın 8-ci maddəsilə birlikdə 14-cü maddəsinin pozulması qənaətinə gəlmişdir.

Misal: 2008-2009-cu tədris ilində ibtidai məktəbin bütün roman mənşəli şagirdləri öz əqli imkanlarından asılı olmayaraq digər uşaqlarla birinci siniflərə qəbul edilməzdən əvvəl hazırlıq kurslarına getməlidilər. Bu kursları keçirmək üçün məktəb binasının yanında quraşdırma tikililər yerləşdirilmişdir. Başqa ailələrin roman mənşəli uşaqların qonşu ərazidə yerləşdirilməsinə etiraz etməsi nəticəsində bu tikililər dağıdılaraq yararsız vəziyyət düşmüşdür və bu roman mənşəli şagirdlərin təklif olunan kurslarda normal davamiyyətinin qarşısını almışdır. AİHM bu işin yalnız təhsil almaq hüququ ilə deyil, eyni zamanda, adətən ayrı-seçkiliklə üzləşməsi səbəbindən xüsusi müdafiəyə ehtiyacı olan roman mənşəli icmanın həssas vəziyyətdə olması ilə də əlaqədar olduğunu qeyd etmişdir ki. roman mənşəli icmalara müvafiq diqqətin göstərilməsi onların həyat tərzini nəzərə alan qərarların qəbul edilməsini nəzərdə tutur. Konkret olaraq bu işə gəldikdə, dövlətin təhsil sitemilə bağlı diskresion səlahiyyətləri çərçivəsində həyata keçirilmiş tədbirlər əlverişsiz qruplara zəruri diqqətin yetirilməməsilə müşayiət olunmuşdur. Bununla da həmin tədbirlər nəticəsində AİHK-nın 14-cü maddəsilə birgə 1 saylı Protokolunun 2-ci maddəsinin pozulduğu müəyyənləşdirilmişdir.[226]

Misal: Lopes da Silva Jorjenin işi[227] ilkin qərar çıxarmaq məqsədilə Fransa Məhkəməsi tərəfindən istiqamətləndirilmişdir və aşağıda təsvir edilən məsələ ilə əlaqədar idi. 2006-cı ildə Portuqaliya məhkəməsi o zamanlar Fransada nikaha daxil olaraq orada yaşayan cənab Jorjenin Avropa üzrə həbs edilməsi qərarı vermişdir. Cənab Jorje onun Portuqaliyaya ekstradisiyasına etiraz edərək Amyenin Apellyasiya Məhkəməsindən həbs qərarını icra etməməyə və onun məhkumluğunun Fransada çəkilməsi barədə hökm çıxarmağı xahiş etmişdir. Ərizəçi iddia edirdi ki, yalnız Fransa vətəndaşları üçün Cərçivə Qərarının 4(6)-cı maddəsinə əsasən məhkəmə qərarının icra olunması ilə bağlı alternativ variant təklif edən Fransa Cinayət Məcəlləsinin müvafiq müddəası düzgün transformasiya olunmadığından "Aİ-nin fəaliyyəti haqqında" Müqavilənin 18-ci maddəsi çərçivəsində vətəndaşlıq zəminində ayrı-seçkiliyə şərait yaradır və bu müddəa əsasında Aİ-yə üzv olan bu dövlətin vətəndaşları ilə başqa üzv dövlətlərin vətəndaşları arasında fərqli rəftar obyektiv şəkildə əsaslandırılmır. AƏM vurğulamışdır ki, üzv dövlətlər 2002/584 saylı Çərçivə Qərarının 4(6)-cı maddəsini öz milli qanunlarına transformasiya etdikləri zaman müvafiq qərarın icra edildiyi üzv dövlətin ərazisində yaşayan və başqa üzv dövlətlərin vətəndaşları olan şəxsləri avtomatik və mütləq qaydada istisna etməməlidir. Bu cür istisnalara yol verildikdə vətəndaşlıq zəminində ayrı-seçkiliyin

[226] *Sampaninin və başqalarının Yunanıstan Respublikasına qarşı* AİHM-dəki 59608/09 saylı, 11 dekabr 2012-ci il tarixli işi.
[227] *Lopes da Silva Jorjenin* AƏM-dəki C-42/11 saylı, 5 sentyabr 2012-ci il tarixli işi.

qadağan edilməsi prinsipinə xələl yetirilir. Üzv dövlətin ərazisində yaşayan və ya qalan şəxs barədə çıxarılmış Avropa üzrə həbs edilmə qərarına gəldikdə, həmin üzv dövlət bu qərarın icra edilməsindən imtina edə bilər, o şərtlə ki, qərarın subyekti olan şəxs sözügedən üzv dövlətin vətəndaşları ilə müqayisədə yerli cəmiyyətə müəyyən dərəcədə inteqrasiyasını nümayiş etdirə bilsin. Əgər bu baş verərsə, qərarı icra edən məhkəmə orqanı cəzanın onun ərazisində çəkilməsini əsaslandıra biləcək qanuni maraqların mövcud olub-olmadığını qiymətləndirmək iqtidarında olmalıdır.

Misal: Fedorçenko və Lozenkonun işində[228] roman mənşəli iddiaçı polis mayoru və 2 naməlum şəxs tərəfindən öz evinin qarşısında saxlanılaraq hədə-qorxuya məruz qalmışdır və sonra itələnib evinə salınmışdır. Sonra onlar evin qapısını bayırdan bağlayıblar və evə od vuraraq gediblər. Yanğın nəticəsində evdə partlayış baş verib və partlayış dalğası iddiaçını bayıra atıb, lakin evdə yatan ailənin digər üzvləri orada qalıblar. Onlardan 3-ü vəfat edib. Baş vermiş hücum narkotik maddələrin qanunsuz dövriyyəsinə görə iddiaçının qohumuna qarşı cinayət işinin qaldırılmaması müqabilində aylıq rüşvətin verilməməsinə görə bir cəza kimi törədilmişdir. Yanğın törətmə və qətlə yetirilmə faktlarına görə ən azı 6 şəxsə qarşı cinayət işi qaldırılımışdır. Lakin təqsirləndirilən şəxslərdən yalnız biri (N.) əhəmiyyətli dərəcədə maddi ziyanın vurulmasına səbəb olmuş əmlakın qəsdən məhv edilməsinə görə məhkum olunmuşdur. O, cəzasının 2 ilini sınaq müddəti kimi müəyyən edilməklə 5 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir. Polis mayorunun bu cinayətdə iştirakı təsdiq edilmədiyindən ittihamçı onun da cinayət məsuliyyətinə cəlb edilməsi barədə iddiaçının vəsatətinə rədd cavabı vermişdir. Bundan başqa, iddiaçı cinayətin irqi zəmində törədilməsilə bağlı məhkəmə dinləmələri zamanı N-in irqçi bəyanatları ilə təsdiq edilmiş dəlillər təqdim etmişdir.

AİHM vurğulamışdır ki, həyatdan məhrum etmə halları baş verdikdə dövlət AİHK-nın 2-ci maddəsinə əsasən səmərəli şəkildə istintaq aparmaq öhdəliyini öz üzərinə götürür və bu öhdəlik AİHK-nın 14-cü maddəsində nəzərdə tutulduğu kimi, ayrı-seçkiliyə yol verilmədən icra olunur. Zorakı hücum hallarını araşdırarkən dövlət orqanları hər hansı irqi səbəbi ifşa etmək və ya etnik zəmində nifrətin və yaxud qərəzliliyin bu hadisədə rol oynadığını müəyyən etmək üçün bütün əsaslı tədbirlərin görülməsindən ibarət əlavə vəzifələri icra etməlidirlər. Bu araşdırma vasitələrilə bağlı bir öhdəlik olsa da, o şərtsiz icra olunmamalıdır: dövlət orqanları baş vermiş hadisənin hallarından asılı olaraq digər əsaslı tədbirlər görməyə borcludur. Konkret olaraq bu işə gəldikdə, AİHM 11 ildən çox davam etmiş istintaq nəticəsində cinayətkarların müəyyənləşdirilməsi və cinayət məsuliyyətinə cəlb edilməsi istiqamətində ciddi tədbirlərin görülməməsini yolverilməz hesab etmişdir. Bununla əlaqədar olaraq, AİHM AİHK-nın 2-ci maddəsilə birgə 14-cü maddəsinin pozulması qənaətinə gəlmişdir.

Misal: Yotovanın işində[229] bolqar və roman mənşəli icmaların üzvləri arasında baş vermiş mübahisə nəticəsində romanların bəzi əmlakı məhv edilmişdir və bir roman mənşəli qadın odlu silahdan atəş açılmaqla qətlə yetirilmişdir. Şahidlərin çoxu və şikayətçi zorakılıq hadisəsinin təşkilatçılarını tanıya biləcəklərini iddia etsələr də müstəntiqlər cinayətkarların şəxsiyyətinin müəyyənləşdirilməsinin mümkün olmaması qənaətində idilər. AİHM qeyd etmişdir ki, arxasında irqi səbəblərin durması ehtimal olunan zorakılıq halları baş verdikdə, dövlətlər müvafiq hadisəni araşdırmaq və nifrətin və yaxud qərəzliliyin bu hadisədə rol oynadığını müəyyən etmək öhdəliyini öz üsərinə götürüblər. Bu araşdırma vasitələrilə bağlı bir öhdəlikdir və onun icra edilib-edilməməsi baş vermiş hadisənin hallarından asılıdır. Lakin AİHM vurğulamışdır ki, irqçi səbəblərdən irəli gələn işlərə belə səbəblərdən irəli gəlməyən işlərlə eyni tərzdə yanaşma əsas insan hüquqlarının pozulması ilə nəticələnir. Bununla da, AİHM AİHK-nın 14-cü

[228] *Fedorçenko və Lozenkonun Ukrayna Respublikasına qarşı* AİHM-dəki 387/03 saylı, 20 sentyabr 2012-ci il tarixli işi.
[229] *Yotovanın Bolqarıstan Respublikasına qarşı* AİHM-dəki 43606/04 saylı, 23 oktyabr 2012-ci il tarixli işi.

maddəsinin 2-ci maddəsilə birgə pozulduğunu müəyyənləşdirmişdir.

Misal: B.S.-in işində[230] əvvəllər iddiaçı fahişəliklə məşğul olurdu və 2005-ci ilin iyul ayında o, Afrika mənşəli olduğuna və dərisinin rənginə görə polis əməkdaşları tərəfindən təhqir edilərək 3 dəfə döyülmüşdür və onunla kobudcasına rəftar olunmuşdur. İddiaçı tərəfindən verilmiş şikayətlər heç bir nəticə verməmişdir və səmərəli araşdırmalar aparılmamışdır. Onun cinayətkarların şəxsiyyətini müəyyənləşdirmək məqsədilə tanınma üçün təqdim etmə prosedurlarının təşkil edilməsi barədə xahişinə də rədd cavabı verilmişdir. İddiaçıya əsasən ona qarşı zorakılığın irqçi səbəbi belə bir faktla təsdiqlənirdi ki, həmin ərazidə fahişəliklə məğşul olan və xarici görünüşündən Qafqazlılara oxşayan qadınlar bu cür rəftara məruz qalmırdılar. AİHM AİHK-ya əsasən dövlət orqanlarının irqçi münasibətdən irəli gələn zorakılıqla və pis rəftarla bağlı baş vermiş hər bir epizodu araşdırmağa borclu olduğunu qeyd etmişdir. Konkret olaraq bu işə gəldikdə, iddiaçı həm Afrika mənşəli, həm qadın, həm də fahişə olduğundan xüsusilə həssas bir vəziyyətdə idi. AİHM zorakılığın təşkilatçıları hesab olunan polis əməkdaşlarının şəxsiyyətinin müəyyənləşdirilməsilə bağlı xahişə rədd cavabının verilməsini nəzərə alaraq diskriminativ rəftarın araşdırılması üçün zəruri olan bütün tədbirlərin dövlət orqanları tərəfindən görülməməsi səbəbindən AİHK-nın 14 və 3-cü maddələrinin pozulması qənaətinə gəlmişdir.

AİHM irqi mənsubiyyət və ya etnik mənşə zəminində ayrı-seçkilik hallarına həddindən artıq ciddi şəkildə yanaşaraq bəyan edir ki, *"plyuralizm və müxtəlif mədəniyyətlərə hörmət prinsipləri üzərində qurulmuş müasir demokratik cəmiyyətdə şəxsə münasibətdə yalnız etnik mənşəsi əsasında fərqli rəftarın nə qədər inandırıcı olsa da obyektiv şəkildə əsaslandırılması yolverilməzdir."*[231]

AİHK-ya əsasən, irqi mənsubiyyət zəmində ayrı-seçkiliyə dair iddia ərizələrinə baxılarkən nəzərə alınmış mülahizələri özündə əks etdirən konkret işlərin təhlililə AŞ-nin Hüquqşünaslar üçün İnsan Hüquqları Sahəsində Təhsilə dair veb-saytından tanış olmaq olar.[232]

4.7. Vətəndaşlıq və ya vətəndaşlıq mənsubiyyəti

AŞ-nin "Vətəndaşlıq haqqında" 1996-cı il Konvensiyasının 2(a) maddəsi vətəndaşlığı "şəxslə dövlət arasında hüquqi bağlılıq" kimi müəyyən edir. Bu müqavilə geniş şəkildə ratifikasiya olunmasa da bu anlayış beynəlxalq (ictimai) hüququn ümumqəbul olunmuş normalarına[233] əsaslanır və İDAK tərəfindən də təsdiqlənmişdir.[234] "Vətəndaşlıq mənsubiyyəti" termini şəxsin itirdiyi keçmiş vətəndaşlığını və ya naturalizasiya qaydasında əlavə olaraq əldə etdiyi vətəndaşlığını və yaxud dövlət daxilində hansısa bir ölkəyə (məsələn, Böyük Britaniyada Şotlandiyaya) mənsub olmanı göstərmək üçün istifadə edilə bilər.

Misal: Çenin işi anası Aİ-yə üzv olmayan dövlətdən olan uşağın bir üzv-dövlətin ərazisində

[230] *B.S.-in İspaniya Krallığına qarşı* AİHM-dəki 47159/08 saylı, 24 iyul 2012-ci il tarixli işi.
[231] *Sejdiçin və Fincinin Bosniya və Herseqovina Respublikasına qarşı* AİHM-dəki [GC] 27996/06 və 34836/06 saylı, 22 dekabr 2009-cu il tarixli işlərinin 44-cü, eyni zamanda, *Timişevin Russiya Federasiyasına qarşı* AİHM-dəki 55762/00 və 55974/00 saylı, 13 dekabr 2005-ci il tarixli işlərinin 58-ci paraqrafları.
[232] Roman mənşəli kişinin həbs edilməsi, məhkəmə araşdırmalarına qədər nəzarət altında saxlanması və onunla pis rəftaretməyə aid 15 saylı konkret işin təhlililə "www.coehelp.org/course/view.php?id=18&topic=1" saytında tanış olmaq olar.
[233] *Nottebomun (Lixtenşteyn Knyazlığının Qvatemala Respublikasına qarşı)* BƏM-dəki 1955-ci il tarixli işi: BƏM-in 4, 23, 6 aprel 1955-ci il tarixli məruzələri: *"vətəndaşlıq qarşılıqlı hüquq və vəzifələrin mövcudluğu ilə birgə mövcudluğun, maraqların və hisslərin həqiqi birləşməsindən ibarət sosial mənsubiyyət faktı üzərində qurulmuş hüquqi bağlılıq deməkdir."*
[234] İDAK-ın "İrqçiliyə və irqi mənsubiyyət zəmində ayrı-seçkiliyə qarşı mübarizə üzrə milli qanunvericiliyə dair" CRI(2003)8 saylı, 13 dekabr 2002-ci l tarixli Ümumi Fəaliyyət Tövsiyəsi No 7, səh.6.

doğularaq digər üzv dövlətin ərazisində yaşamaq hüququna malik olub-olmaması ilə əlaqədar idi (o şərtlə ki, uşaq anasının öhdəsindədir).[235] AƏM müəyyən etmişdir ki, bir üzv-dövlət konkret bir şəxsə vətəndaşlığın verilməsilə bağlı müəyyən tələblər irəli sürdükdə və bu tələblərə əməl olunduqda digər üzv dövlət həmin şəxsə öz ərazisində yaşamaq icazəsi verərkən onun hüquqi statusunu şübhə altına ala bilməz.

Aİ qanunvericiliyilə müqayisədə AİHK vətəndaşlıqla bağlı əsaslar üçün daha geniş müdafiəni nəzərdə tutaraq məmnuniyyətlə qəbul edir ki, vətəndaşlıqdan irəli gələn hüquqi bağlılığın mövcud olmaması adətən konkret bir dövlətə faktiki bağlılığın olmaması ilə müşayiət olunur, bu isə öz növbəsində iddia ərizəsinə əsasən zərərçəkmiş şəxs tərəfindən həmin dövlətin vətəndaşları ilə müqayisə olunan vəziyyətdə olduğunu iddia etməsinin qarşısını alır. AİHM-ə xas olan yanaşmanın mahiyyəti ondan ibarətdir ki, şəxsin konkret dövlətə faktiki bağlılığı, xüsusən vergi ödəmə baxımından, nə qədər çox olarsa, vətəndaşlıq zəminində fərqli rəftarın əsaslandırılması ehtimalı o qədər azalar.

Misal: Zenbekin Yunanıstan Respublikasına qarşı işinə əsasən, iddiaçı çoxsaylı ailələr üçün nəzərdə tutulmuş pensiya almaqla bağlı müraciətinə rədd cavabı almışdır.[236] İddiaçının tələb olunan sayda uşağı olsa da, o pensiya yaşına çatdığı zaman uşaqlardan biri artıq Yunanıstan vətəndaşı hesab olunmurdu. Yaranmış vəziyyət nəticəsində dövlət ərizəçinin bütün ailə üzvlərinin vətəndaşlığını geri götürərək (bunun özü böyük bir hüquq pozuntusudur) sonra onun yalnız 3 uşağına vətəndaşlıq vermişdir, çünki 4-cü uşaq artıq ailə qurmuşdur. AİHM vətəndaşlığın geri götürülməsi təcrübəsinin xüsusilə Yunanıstanda yaşayan müsəlmanlara qarşı tətbiq edildiyini, pensiya üçün müraciətə rədd cavabının yunan vətəndaşlığının saxlanılmaması ilə əsaslandırılmasının yolverilməzliyini və bütün bunların nəticəsində milli mənsubiyyət zəminində ayrı-seçkiliyin baş verdiyini müəyyən etmişdir.

Misal: Anakomba Yulanın Belçika Krallığına qarşı işinə əsasən, Konqo vətəndaşı Belçikada qeyri-qanuni yaşayırdı.237 Dünyaya uşaq gətirdikdən az bir müddət sonar, onun yaşayış üçün icazəsinin etibarlılıq müddəti bitmişdir və o, sənədin müddətinin artırılması prosesinə başlamışdır. O, konqolu ərindən ayrı yaşayırdı və nikahdan kənar doğulmuş uşağın atası (Belçika vətəndaşı) ilə birgə uşaq üzərində atalıq hüquqlarını təsdiq etməyə çalışırdı. Bunu etmək üçün iddiaçı uşaq doğulduqdan sonra 1 il ərzində öz həyat yoldaşına qarşı vəsatət qaldırmalı idi. Kifayət qədər maddi vəsaiti olmayan iddiaçı bu işlə bağlı tətbiq edilən prosedurun xərclərini ödəmək üçün dövlətdən hüquqi yardımın göstərilməsini xahiş etmişdir. Lakin müvafiq maddi vəsaitin AŞ-yə üzv olmayan dövlətlərin vətəndaşları üçün yalnız onların yaşamaq hüququnun təmin edilməsinə aid ərizələrilə bağlı verildiyindən iddiaçı rədd cavabı almışdır. İddiaçıya öz yaşayış icazəsinin müddətini artırdıqdan sonra yardım üçün bir daha müraciət etmək məsləhəti verilmişdir.

Belə bir vəziyyətdə AİHM iddiaçının vətəndaşlıq mənsubiyyəti zəminində ədalətli məhkəmə araşdırması hüququndan məhrum edildiyini müəyyən etmişdir. Ciddi ailə məsələlərinə baxıldığı, atalıq hüquqlarının müəyyənləşdirilməsi üçün qısa bir müddətin mövcud olduğu və sənədin etibarlılıq müddətini artırıldığı zaman dövlətin ölkədə yaşamaq üçün icazəsi olan və olmayan şəxslər arasında fərq qoyması əsaslandırıla bilməz.

[235] *Çenin Daxili İşlər üzrə Dövlət katibinə qarşı* AƏM-dəki C-200/02 [2004] ECR I-9925 saylı, 19 oktyabr 2004-cü il tarixli işi.
[236] *Zeibekin Yunanıstan Respublikasına qarşı* AİHM-dəki 46368/06 saylı, 9 iyul 2009-cu il tarixli işi.
[237] *Anakomba Yulanın Belçika Krallığına qarşı* AİHM-dəki 45413/07 saylı, 10 mart 2009-cu il tarixli işi.

Misal: Fausinin işində[238] Suriya və Livan vətəndaşı olan iddiaçılar 1990-cı ildən etibarən rəsmi qaydada siyasi qaçqınlar kimi tanınmışdılar və qanuni şəkildə Yunanıstanda yaşayırdılar. İddiaçılar Yunanıstanın və ya Aİ-yə üzv olan hər hansı bir dövlətin vətəndaşı və yaxud yunan mənşəli qaçqın olmadığından səlahiyyətli orqan onların çoxsaylı ailələrdə analara verilən müavinət üçün müraciətinə rədd cavabı vermişdir. Bu işlə bağlı AİHM Yunanıstan qanunvericiliyinin ölkədəki demoqrafik problemləri həll etmək istiqamətindəki məqsədlərini şübhə altına almamışdır. Buna rəğmən, AİHM vətəndaşlıq zəminində fərqli rəftarın son dərəcə güclü qənaətlərlə əsaslandırıla biləcəyini xatırlayaraq, dövlətin Yunanıstan vətəndaşlığından və ya yunan mənşəsindən irəli gələn meyar seçimilə razılaşmamışdır, xüsusən ona görə ki, bu meyar müvafiq qanunvericilik və yurisprudensiya kontekstində və münasib vaxtda vahid bir formada tətbiq edilmir. Eyni zamanda, Yunanıstanın da imzaladığı "Qaçqınların statusu haqqında" Cenevrə Konvensiyasına əsasən dövlət ianələri və yardımının göstərilməsi baxımından dövlət onun ərazisində qanuni yaşayan qaçqınlarla öz vətəndaşları ilə olduğu kimi, eyni səviyyədə rəftaretməlidir. Beləliklə, iddiaçıların çoxsaylı ailələr üçün nəzərdə tutulmuş müavinətlər barədə müraciətlərinə dövlət orqanları tərəfindən rədd cavabının verilməsi məntiqli şəkildə əsaslandırılmamışdır.

3.2-ci bölmədə müzakirə olunduğu kimi, Aİ qanunvericiliyi vətəndaşlıq zəminində ayrı-seçkiliyi konkret olaraq yalnız insanların sərbəst hərəkət etmələri kontekstində qadağan edir. Bununla belə, Aİ-nin sərbəst hərəkət etmə məsələlərinə aid qanunvericiliyi ÜÖV-ləri məhdud xarakterli hüquqlarla təmin edir. Buna baxmayaraq, AİHK Avropa Şurasına, o cümlədən, Aİ-yə üzv olan dövlətlərin üzərinə bu sənədlə nəzərdə tutulmuş hüquqları həmin dövlətlərin yurisdiksiyasında olan bütün şəxslər, o cümlədən əcnəbilər üçün təmin edilməsi öhdəliyini qoyur. AİHM dövlətin vətəndaşlıqla əlaqədar hüquqi bağlılığı olan şəxslər üçün hansı güzəştlərin təklif olunması prosesinə nəzarət etmək hüququ ilə həmin dövlətlə faktiki və əsaslı bağlılığa daxil olmuş şəxslərə qarşı ayrı-seçkiliyin qarşısının alınması zərurəti arasında tarazlığı təmin etməlidir. Əlaqədar şəxs müvafiq dövlətlə sıx faktiki əlaqələrin mövcud olmasını nümayiş etdirirsə, AİHM sosial təminat məsələlərinə çox ciddi şəkildə yanaşır.

Əcnəbilərin müvafiq dövlətə gəlmək və bu dövlətdən getmək məsələlərinin həmin dövlət tərəfindən tənzimlənməsi hüququ beynəlxalq (ictimai) hüquqla əsaslı şəkildə təsbit olunur və AİHM tərəfindən qəbul olunur. Bununla əlaqədar olaraq, əgər şəxs təyinat ölkəsində qeyri-insani və ya alçaldıcı rəftara, cəzaya, yaxud işgəncəyə məruz qalırsa (3-cü maddə)[239] və yaxud onlar qəbul edən dövlətdən məcburi şəkildə çıxarıldıqda burada yaradılmış sıx ailə əlaqələri pozulacaqsa, AİHM ilk növbədə şəxslərin deportasiyası ilə bağlı şikayət ərizələrinə müdaxilə edir (8-ci maddə).[240]

Misal: C.-nin Belçika Krallığına qarşı və *Müstəqimin Belçika Krallığına qarşı* işlərinə əsasən, Mərakeş vətəndaşları olan iddiaçılar bir neçə cinayətin törədilməsinə görə məhkum edilmişdilər və bunun nəticəsi olaraq deportasiya olunmalı idilər.[241] Onlar bunu vətəndaşlıq zəminində ayrı-seçkilik kimi qəbul etdiyindən şikayət etmişdilər, çünki istər Belçika vətəndaşları, istərsə də Aİ-yə üzv olan digər dövlətlərin vətəndaşları oxşar vəziyyətdə olduqları təqdirdə deportasiya edilə bilməzlər. AİHM iddiaçıların Belçika vətəndaşları ilə müqayisə edilən vəziyyətdə olmadıqlarını müəyyənləşdirmişdir, çünki ölkə vətəndaşları vətəndaşı olduğu dövlətin ərazisində qalmaq

[238] *Fausinin Yunanıstan Respublikasına və Saidunun Yunanıstan Respublikasına qarşı* AİHM-dəki 40080/07 və 40083/07 saylı, 28 oktyabr 2010-cu il tarixli işləri.
[239] Məsələn, *Çahalın Böyük Britaniyaya qarşı* AİHM-dəki 22414/93 saylı, 15 noyabr 1996-cı il tarixli işinə baxın.
[240] Baxmayaraq ki, belə işlərin müsbət şəkildə təmin olunması imkanları çox azdır. Məsələn, *Əbduləzizin, Kabalyesin və Balkandalinin Böyük Britaniyaya qarşı* AİHM-dəki 9214/80, 9473/81 və 9474/81 saylı, 28 may 1985-ci il tarixli işlərinə baxın.
[241] *C-nin Belçika Krallığına qarşı* (No. 21794/93) saylı, 7 avqust 1996-cı il tarixli və *Müstəqimin Belçika Krallığına qarşı* 12313/86 saylı, 18 fevral 1991-ci il tarixli, AİHM-dəki işləri.

hüququna malikdirlər və bu AİHK tərəfindən xüsusən vurğulanır (4 saylı Protokolun 3-cü maddəsi). Bundan başqa, 3-cü ölkə vətəndaşları və Aİ-yə üzv olan dövlətlərin vətəndaşları arasında fərqin qoyulması əsaslandırılandır, çünki Aİ digər məsələlərlə yanaşı bu təşkilata üzv olan dövlətlərin vətəndaşları ilə də bağlı xüsusi hüquqi normalar işləyib hazırlamışdır.

Bu cür işlərə iddiaçının qəbul edən dövlətdə uzun müddət ərzində yaşaması və ya həmin dövlətə vergilər formasında töhfələr verməsi əsasında dövlətlə sıx, faktiki əlaqələrin qurulması prizmasından baxılmalıdır.

Misal: Andreyevanın Latviya Respublikasına qarşı işinə əsasən, keçmiş SSRİ-nin sabiq vətəndaşı olmuş iddiaçı Latviyada daimi yaşamaq hüququna malikdir.[242] Milli qanunvericilik iddiaçını Latviyanın müstəqil olmasınadək bü ölkənin xaricində işləmiş şəxs kimi müəyyən etdiyindən (baxmayarq ki, o, istər Latviyanın müstəqil olmasından əvvəl, istərsə də sonra bu ölkənin ərazisində eyni vəzifədə çalışmışdır) onun pensiyası müstəqillik dövründən sonra onun çalışdığı vəzifədə sərf etdiyi vaxtı əsasında hesablanmışdır. İddiaçıdan fərqli olaraq onunla eyni vəzifədə çalışmış Latviya vətəndaşları, onların bütün, o cümlədən müstəqillikdən əvvəlki əmək fəaliyyəti dövrünü əhatə edən pensiya ilə təmin olunmuşdular. AİHM iddiaçının Latviya vətəndaşları ilə müqayisə edilən vəziyyətdə olduğunu müəyyən etmişdir, çünki o Latviyanın milli qanunlarına əsasən bu ölkədə daimi yaşamaq hüququna malik əcnəbi sayılırdı və yerli vətəndaşlarla eyni əsaslara görə vergilər ödəyirdi. Bəyan edilmişdir ki, vətəndaşlıq mənsubiyyəti zəminində fərqli rəftarın əsaslandırılması üçün *"həddindən artıq əsaslı səbəblərə"* ehtiyac var, lakin belə səbəblər bu işdə mövcud deyil. Baxmayaraq ki, dövlət maliyyə və sosial siyasətlə bağlı geniş qiymətləndirmə çərçivələrindən istifadə edir, sözügedən işdə iddiaçının vəziyyəti Latviya vətəndaşları ilə faktiki olaraq çox oxşar olduğundan vətəndaşlıq zəminində ayrı-seçkiliyin əsaslandırılması yolverilməz idi.

Misal: Qayqusuzun Avstriya Respublikasına qarşı işinə əsasən, Avstriyada işləmiş Türkiyə vətəndaşı Avstriyanın vətəndaşı olmadığından işsizlik müavinəti üçün müraciətinə rədd cavabı almışdır.[243] AİHM iddiaçının Avstriya vətəndaşları ilə müqayisə edilən vəziyyətdə olduğunu müəyyənləşdirmişdir, çünki o bu ölkədə daimi yaşayan şəxs idi və ödədiyi vergilər vasitəsilə sosial təminat sisteminə öz maddi töhfələrini verirdi. Müəyyən olunmuşdur ki, Avstriya ilə Türkiyə arasında sosial təminat məsələlərinə aid qarşılıqlı müqavilənin olmaması fərqli rəftar üçün əsas kimi istifadə oluna bilməzdi, çünki iddiaçının vəziyyəti Avstriya vətəndaşlarının vəziyyətilə çox oxşar idi.

Misal: Koua Puarenin Fransa Respublikasına qarşı işinə əsasən, Fil Dişi Sahilinin vətəndaşı əlillər üçün nəzərdə tutulmuş müavinətlə bağlı müraciət etmişdir. Bu cür müavinətin yalnız Fransa vətəndaşları və ya Fransa ilə sosial təminat sahəsində qarşılıqlı müqaviləsi olan dövlətlərin vətəndaşları üçün nəzərdə tutulduğundan onun müraciətinə rədd cavabı verilmişdir.[244] AİHM iddiaçının faktiki olaraq Fransa vətəndaşları ilə oxşar vəziyyətdə olduğunu müəyyən etmişdir, çünki o müavinətin verilməsi üçün qanunvericiliklə nəzərdə tutulmuş və vətəndaşlıqdan başqa bütün meyarlara cavab verirdi və vətəndaşlıqdan asılı olmayan digər sosial yardımlar alırdı. Eyni zamanda, iddiaçı ilə digər vətəndaşlar arasındakı fərqli rəftarı əsaslandırmaq üçün *"həddindən artıq əsaslı səbəblərin"* tələb olunduğu bildirilmişdir. Maliyyə və sosial təminat məsələlərilə bağlı üzv dövlətlərin geniş qiymətləndirmə çərçivələrinə malik olduğu və yuxarıda baxılmış işlərdən fərqli olaraq bu işə gəldikdə Fransanın dövlət gəlirlərilə xərcləri tarazlaşdırmaq zərurəti və ya Fransa ilə Fil Dişi Sahili arasında qarşılıqlı müqavilənin olmamasından irəli gələn faktiki fərqli rəftar barədə arqumentləri AİHM-i qane etməmişdir. Maraqlı məqam ondan ibarətdir ki, bu müavinət faydalanan şəxsin milli sosial təminat

[242] *Andreyevanın Latviya Respublikasına qarşı* AİHM-dəki [GC] 55707/00 saylı, 18 fevral 2009-cu il tarixli işi.
[243] *Qayqusuzun Avstriya Respublikasına qarşı* AİHM-dəki 17371/90 saylı, 16 sentyabr 1996-cı il tarixli işi.
[244] *Koua Puarenin Fransa Respublikasına qarşı* AİHM-dəki 40892/98 saylı, 30 sentyabr 2003-cü il tarixli işi.

sisteminə ödənişlər edib-etməməsindən asılı olmayaraq verilir (bu məsələ yuxarıdakı işlərdə vətəndaşlıq zəminində ayrı-seçkiliyi qadağan edən əsas səbəb kimi göstərilirdi).

4.8. Din və ya əqidə[245]

Aİ qanunvericiliyi din və ya əqidə zəminində ayrı-seçkilikdən məhdud müdafiəni nəzərdə tutduğu bir halda, AİHK-nın bu məsələ ilə bağlı əhatə dairəsi əhəmiyyətli dərəcədə genişdir, çünki 9-cu maddə vicdan, din və əqidə azadlığına aid əlahiddə hüququ özündə əks etdirir.

Misal: Aluxer Fernandesin və Kabalyero Qrkanın İspaniya Krallığına qarşı işinə əsasən, iddiaçılar katoliklərdən fərqli olaraq öz gəlir vergilərinin bir hissəsini birbaşa öz kilsələri üçün ayıra bilməmələrilə bağlı şikayət etmişdilər.[246] AİHM iddiaçıların belə bir təkliflə hökumətə müraciət etməməsi səbəbindən ibadət üçün getdikləri kilsənin katolik kilsəsilə müqayisə edilən vəziyyətdə olmaması ilə, həmçinin hökumətin Vatikanla katolik kilsəsi barədə qarşılıqlı müqaviləsinin olması ilə bağlı faktları əsas götürərək bu işə aid iddia ərizəsini təmin etməmişdir.

Misal: Xaare Şalom və Tsedekin Fransa Respublikasına qarşı işi təşkilat üzvü olan restoranlara və ət dükanlarına satılan halal ətin sertifikatlaşdırılması ilə məşğul olan yəhudi təşkilat barədə idi.[247] Halal ətin hazırlanmasında istifadə olunan heyvanın başqa bir yəhudi təşkilat tərəfindən ciddi dini tələblərə əməl olunmadan kəsildiyini hesab edən iddiaçı özü bu tələblərə əməl etməklə heyvanı kəsmək üçün icazə almaq məqsədilə dövlətə müraciət etmişdir. İddiaçının Fransadakı yəhudi icmasında kifayət qədər nüfuzlu olmadığını və müvafiq icazə əsasında dini tələblərə əməl etməklə heyvan kəsən qəssabların artıq mövcud olduğunu əsas gətirən dövlət müraciətə rədd cavabı vermişdir. AİHM yaranmış vəziyyətdə sertifikatlaşdırma ilə məşğul olan təşkilatın hansısa bir qeyri-münasib rəftara faktiki olaraq məruz qalmadığını müəyyən etmişdir, çünki bu təşkilat əlaqədar tələblərə əməl etməklə kəsilmiş əti başqa mənbələrdən də əldə etmək imkanına malikdir.

Misal: Savez crkava 'Riječ života'-nın və başqalarının işində[248] Xorvatiya qanunlarına əsasən dini icmalar kimi qeydiyyatdan keçmiş Reformasiya konfessiyasından olan kilsələr Xorvatiya hökumətilə onların bu dövlətlə münasibətlərini tənzimləyəcək saziş imzalamağa çalışırdılar. Belə bir müqavilə olmadan həmin kilsələr dövlət məktəbləri və uşaq bağçalarında dini dərslər keçə bilməzlər, onların bağladıqları dini nikahlar isə dövlət tərəfindən tanınmır. Dövlət orqanları iddiaçılara bildirmişdilər ki, onlar bu cür müqavilənin imzalanması üçün nəzərdə tutulmuş ümumi meyarlara cavab vermirlər, daha dəqiq desək həmin kilsələr Xorvatiya ərazisində 1941-ci ildən etibarən fəaliyyət göstərmirlər və onların bunun üçün tələb olunan 6.000 tərəfdarı yoxdur. AİHM bəyan etmişdir ki, AİHK vətəndaş nikahları ilə olduğu kimi, dini nikahların da tanınması və ya dövlət məktəbləri və bağçalarında dini dərslər demək üçün icazənin veriməsi öhdəliklərini dövlətlər üzərinə qoymasa da, əgər dövlət imzaladığı Konvensiyanın çərçivələrindən kənara çıxaraq dini icmalar üçün bu cür əlavə hüquqlar verirsə bu hüquqları tətbiq edərkən Konvensiyanın 14-cü maddəsi kontekstində diskriminativ tədbirlərə yol verməməlidir. Sözügedən işdə dövlət orqanları iddiaçı kilsələrin milli qanunlarla təsbit edilmiş ümumi xarakterli tarixi və statistik meyarlara cavab verməməsi səbəbindən onlarla

[245] AİHK-nın 9-cu maddəsinin əhatə dairəsinə aid şərhlə AŞ-nin Hüquqşünaslar üçün İnsan Hüquqları Sahəsində Təhsilə dair "www.coehelp.org/mod/resource/view. php?inpopup=true&id=2122" saytından tanış olmaq olar: Mördok *"Fikir, vicdan və din azadlığı"*, İnsan Hüquqları üzrə Bələdçi No2, 2007- ci il.

[246] *Aluxer Fernandesin və Kabalyero Qrkanın İspaniya Krallığına qarşı* AİHM-dəki 53072/99 saylı, 14 iyun 2001-ci il tarixli işi.

[247] *Xaare Şalom və Tsedekin Fransa Respublikasına qarşı* AİHM-dəki [GC] 27417/95 saylı, 27 iyun 2000-ci il tarixli işi.

[248] *Savez crkava 'Riječ života'-nın və başqalarının* Xorvatiya Respublikasına qarşı AİHM-dəki, 7798/08 saylı, 9 dekabr 2010-cu il tarixli işi.

müqavilə imzalamaqdan imtina etmişdi. Lakin dövlət statistik meyara cavab verməməsinə baxmayaraq, onun qənaətinə görə *"Avropa mədəni dairələrin ənənəvi dini icması olduğundan"* alternativ meyara uyğun gələn digər kilsələrlə belə sazişlər imzalamışdır. Eyni zamanda, dövlət iddiaçı kilsələrin hansı səbəblərdən bu meyarlara uyğun gəlməməsi barədə heç bir izahat verməmişdir. Bununla əlaqədar olaraq, AİHM milli qanunlarla təsbit edilmiş meyarların bütün dini icmalar üçün bərabər səviyyədə tətbiq edilməməsi qənaətinə gəlmişdir. AİHM bu işə 12 saylı Protokola əsasən baxarkən qeyd etmişdir ki, dövlətin dini icma ilə saziş bağlayıb-bağlamamaq barədə qərarını nəzərə aldıqda iddiaçıların bununla bağlı şikayəti *"onlar üçün milli qanunlarla nəzərdə tutulmuş konkret hüquqlara"* aid deyildi. Buna baxmayaraq, bu şikayət ərizəsi 12 saylı Protokola dair İzahedici Məruzəsində nəzərdə tutulmuş 3-cü kateqoriyaya aid edilirdi, çünki *"öz diskresion səlahiyyətlərini icra edən"* dövlət orqanı tərəfindən yol verilməsi iddia olunan ayrı-seçkiliklə əlaqədar idi. Bu səbəbdən də AİHM 9-cu maddə ilə birlikdə götürüldükdə 14-cü maddənin pozulduğunu nəzərə alaraq, sözügedən şikayət ərizəsinin ayrıca 12 saylı Protokola əsasən baxılmasının zəruri olduğunu müəyyən etmişdir.

Misal: Milanoviçin işində[249] Hare Krişna dini icmasının Serbiyada aparıcı üzvü olan iddiaçı evinin yaxınlığında bir neçə dəfə hücumlara məruz qalmışdır. O, bu hücumlar barədə polisə məlumat verərək həmin hücumların ultrasağ ekstremist qrupunun üzvləri tərəfindən törədildiyini ehtimal etmişdir. Polis şahidləri və bir neçə potensial şübhəli şəxsi dindirsə də nə hücum etmiş şəxslərdən hansınınsa şəxsiyyətini müəyyən edə bilmişdir, nə də ki onların mənsub olması ehtimal edilən ekstremist qrup barədə məlumat əldə edə bilmişdir. Polis protokollarından birində iddiaçının çox yaxşı məlum olan dini mənsubiyyəti və "son dərəcə qeyri-adi" xarici görünüşü qeyd olunurdu. Növbəti protokolda iddiaçının özünə bədən xəsarəti yetirməsinin istisna edilmədiyi qeyd olunaraq, baş vermiş hadisələr barədə məlumatın iddaçı tərəfindən geniş ictimaiyyət üçün açıqlandığı zaman onun dini mənsubiyyətinin "xüsusən vurğulandığı" bildirilirdi. AİHM vurğulamışdır ki, irqi mənsubiyyət zəminində pis rəftara dair işlərdə olduğu kimi, zorakı hücum halları da araşdırılarkən dövlət orqanları hər hansı dini səbəbi ifşa etmək və ya dini nifrətin və yaxud qərəzliliyin bu hadisədə rol oynadığını müəyyən etmək üçün bütün əsaslı tədbirlərə əl atmalıdırlar, hətta əgər bu cür pis rəftar fiziki şəxs tərəfindən göstərilmişdirsə də. İddiaçının işinə gəldikdə, hücum edən şəxslər ekstremist ideologiyalı bir və ya bir neçə ultrasağ təşkilata mənsub olmaqda şübhəli bilindikdə dövlət orqanları tərəfindən cinayətkarların müəyyən edilməsi və cəzalandırılması üçün münasib tədbirlər görmədən istintaqın bir neçə ilə uzadılmasına şərait yaratması qəbul olunmaz idi. Bundan başqa, polisin davranışından və protokollarından ərizəçinin dini və onun iddialarının həqiqətə uyğunluğu ilə bağlı polisdə ciddi şübhələrin olduğu aşkar şəkildə görünürdü. Müvafiq orqanlar hücum edən şəxslərin dini motivlər əsasında hərəkət etmələrilə bağlı iddiaçı tərəfindən irəli sürülmüş bir neçə verisyanı nəzərdən keçirsələr belə, onların tədbirləri, demək olar ki, formal istintaqın aparılmasından kənara çıxmamışdır.

Misal: O'Donoqenin və başqalarının işində[250] burada təsvir olunan vəziyyətlə əlaqədar müvafiq qərarın çıxarılması AİHM-dən xaiş olunmuşdur: 2005-ci ildən etibarən immiqrasiya nəzarəti altında olan şəxs anqlikan kilsəsindən fərqli kilsədə nikaha daxil olmaq istədikdə təsdiqedici arayış formasında icazə almaq üçün Dövlət katibinə müraciət etməlidir və bunun üçün 295 funt-sterlinq rüsum ödəmilidir. Böyük Britaniya-da sığınacaq almış Nigeriya vətəndaşı olan iddiaçı anqlikan kilsəsindən başqa kilsədə nikaha daxil olmaq istəyirdi, çünki nişanlısı ilə birgə katolik dininə ibadət edirdi və istənilən halda onun məskunlaşdığı Şimali İrlandiyada anqlikan kilsəsi yox idi. İddiaçı təsdiqedici arayış üçün müraciət edərək aşağı maddi statusa malik olduğundan rüsumdan azad olunmasını xahiş etmişdir, lakin onun ərizəsinə rədd cavabı verilmişdir. Yekunda onlar dostlarının köməyilə tələb olunan məbləği yığmağa nail olduqdan sonra 2008-ci ilin iyul ayında sözügedən arayışı əldə etmişdilər. AİHM belə bir sistemi dini

[249] *Milanoviçin Serbiya Respublikasına* qarşı AİHM-dəki 44614/07 saylı, 14 dekabr 2010-cu il tarixli işi.
[250] *O'Donoqenin və başqalarının Böyük Britaniyaya qarşı* AİHM-dəki 34848/07 saylı, 14 dekabr 2010-cu il tarixli işi.

zəmində diskriminativ hesab etmişdir. İddiaçı anqlikan kilsəsində nikaha daxil olmaq istəyən və buna nail olan şəxslərlə nisbətən oxşar vəziyyətdə idi. Anqlikan kilsəsində nikaha daxil olmaq istəyən şəxslər bunu maneəsiz etdikləri bir halda, iddiaçı öz dini əqidəsinə görə bunu etmək istəmirdi və Şimali İrlandiyada yaşaması səbəbindən bunu etmək iqtidarında deyildi. Demək olar ki, arayış üçün müraciət etdikdən və az olmayan məbləğdə rüsum ödədikdən sonra ona nikaha daxil olmaq icazəsi verilmişdir. Beləliklə, bu işdə obyektiv və məntiqli əsaslandırma olmadan fərqli rəftara birmənalı şəkildə yol verilmişdir.

Misal: Jehovas Zeugen in Österreich-in işində[251] AİHM ayrı-seçkiliklə bağlı 2 ayrı epizodla üzləşmişdi. 1999-cu ildə Yehova Şahidlərinin Dini Orderi və qeydiyyatdan keçmiş dini icma olan iddaçı pul şəklində ianə almışdır. Vyana şəhərinin Rüsumlar və Hesablaşmalar üzrə Vergi İdarəsi icmadan əldə olunmuş məbləğin ümumilikdə 14%-i həcmində varislik və hədiyyə vergilərinin ödənilməsini tələb etmişdir. "Hədiyyə vergisi haqqında" 1955-ci il tarixli Qanunla nəzərdə tutulmuş vergidən azad olunmalar iddiaçıya şamil edilmirdi, çünki vergi güzəştləri qanunla tanınan kilsələrə və dini icmalara aid idi. İcma bunun əsassız fərqli rəftar olduğunu iddia edirdi, lakin İnzbati Məhkəmə bu iddianı təmin etməmişdir. AİHM yuxarıda göstərilən 1955-ci il tarixli Qanun ilə nəzərdə tutulmuş müddəanın diskriminativ xarakter daşıdığını və nəticədə hüquqi normanın tətbiqi kontekstində iddiaçı icmanın dini zəmində ayrı-seçkiliyə məruz qaldığını qeyd etmişdir. Deməli, AİHK-nın 14-cü maddəsilə birgə 1 saylı Protokolunun 1-ci maddəsinin pozulmasına yol verilmişdir. 2002-ci ildə iddiaçı ona ibadət edən Avstriyadakı taqal dilli icmaya görə Filippin vətəndaşları olan 2 taqal dilli (ər-arvad) keşişi işə götürmək niyyətində idi. Bu cütlük yaşayış və ya məskunlaşma icazəsi əldə etmək üçün əmək icazəsinə malik olmalı idi (əgər "Əcnəbilərin məşğulluğu haqqında" Qanunun müvafiq müddəalarının ona şamil olunmadığını sübuta yetirə bilmirdisə). İcma cütlük tərəfindən görüləcək işin dini xarakter daşımasına görə qeyd olunan Qanunun müddəalarında nəzərdə tutulmuş əmək icazəsindən azad olması barədə qərarın çıxarılması üçün Vyana şəhərinin Əmək Bazarı Xidmətinə müraciət etmişdir. Yalnız qanunla tanınmış dini icmalarda keşiş xidmətləri göstərən şəxslərə sözügedən qanunun müddəalarının şamil olunmaması, iddiaçının isə qeydiyyatdan keçməmiş dini icma olması əsas gətirilərək müraciətə rədd cavabı verilmişdir. Eyni zamanda, Xidmət keşiş işinin yuxarıdan verilən göstərişlər əsasında fəaliyyət göstərən və maddi asılılığı nəzərdə tutan iyerarxiya strukturu çərçivəsində icra olunduğundan "Əcnəbilərin məşğulluğu haqqında" Qanununa əsasən səciyyəvi məşğulluq xüsusiyyətlərinə malik olduğunu qeyd etmişdir. Konstitusiya Məhkəməsi keşiş işinin icra olunması üçün əcnəbilərin dini icma tərəfindən işə götürülməsilə və "Əcnəbilərin məşğulluğu haqqında" Qanununa əsasən qeydiyyatdan keçmiş dini icma tərəfindən işə götürülməsi arasındakı fərqin Konstitusiyaya uyğun olduğunu bəyan edərək iddiaçının ərizəsini təmin etməmişdir. Konstitusiya Məhkəməsi qeyd etmişdir ki, dini icma dövlətin ictimai həyatının formalaşmasında iştirak etmək imkanı verən statusa malikdir. Məhz buna görə də yalnız qanunla nəzərdə tutulmuş tələblərə cavab verən kilsələr və dini icmalar güzəştli rəftardan faydalana bilər. AİHM dini icmaların ənənəvi olaraq mütəşəkkil struktur formasında mövcud olduqlarını, onların mövcud olması faktının demokratik cəmiyyətdə müşahidə olunan plyuralizmin ayrılmaz bir hissəsi olduğunu və bu cür məsələnin özlüyündə AİHK-nın 9-cu maddəsilə nəzərdə tutulmuş müdafiə predmeti olduğunu diqqətə çatdırmışdır. Əcnəbilərin məşğulluğunu tənzimləyən müddəaların yalnız xüsusi dini qurumların nümayəndələrinə şamil edilməməsi diskriminativ xarakter daşıdığından iddiaçı icma dini zəmində ayrı-seçkiliyə məruz qalmışdır. Bununla da AİHM AİHK-nın 14-cü maddəsinin 9-cu maddəsilə birgə pozulması qənaətinə gəlmişdir.

[251] *Jehovas Zeugen in Österreich-in* AİHM-dəki 27540/05 saylı, 25 sentyabr 2012-ci il tarixli işi.

"Məşğulluq sahəsində bərabərliyə dair" Direktivə və ya AİHK-ya əsasən, "dini" və ya "əqidəni" təşkil edən və müdafiə predmeti olan elementlər AƏM və ya AİHM tərəfindən hərtərəfli öyrənilməsə də, milli məhkəmələrdə hərtərəfli təhlil edilib.[252]

Misal: Londonun İslinqton qəsəbə şurasının Ladeleyə qarşı (azadlıq hüququna müdaxilə barədə) işinə əsasən, Böyük Britaniyanın Apellyasiya Məhkəməsindən vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatçısı işləyən iddiaçının həmcins şəxslər arasında vətəndaş nikahı ilə bağlı prosesi aparmaqdan imtina etdiyinə görə tənbeh olunması ilə bağlı dini baxışlar və ya əqidə zəminində ayrı-seçkiliyə məruz qalıb-qalmaması məsələsinə baxması xahiş olunmuşdur.[253] İddiaçının prosesi aparmaqdan imtina etməsi onun xristian olmasından irəli gəlirdi. Apellyasiya Məhkəməsi bu işin dini baxışlar zəminində birbaşa ayrı-seçkiliyə aid olmaması qənaətinə gəlmişdir, çünki qeyri-münasib rəftar iddiaçının dini baxışları ilə deyil, onun öz xidməti vəzifələrini icra etməməsilə əlaqədar idi. Dolayı ayrı-seçkilik barədə vəsatət də təmin olunmamışdır, çünki Apellyasiya Məhkəməsi qəsəbə şurasının əsas vəzifələrindən birinin icma daxilində və təşkilat daxilində bərabərliyin və müxtəlifliyin təşviq edilməsindən ibarət olduğunu və belə bir siyasət əsasında iddiaçının bu cür əqidəyə malik olmaq hüququna müdaxilə olunmadığını bildirmişdir. Eyni zamanda, Apellyasiya Məhkəməsi hesab etmişdir ki, hansısa fərqli qərarın qəbul edilməsi başqa bir zəmində, cinsi oriyentasiya zəminində ayrı-seçkiliyə gətirib çıxara bilər; məhkəmə şəxsin ayrı-seçkiliyə məruz qalmamaq hüququnun icmanın ayrı-seçkiliyə məruz qalmamaq hüququ ilə tarazlaşdırılmasının zərurətilə razılaşmışdır.

AİHK-da nəzərdə tutulmuş din və vicdan azadlığına aid maddi hüquqla bağlı bir sıra işlərlə əlaqədar AİHM izah etmişdir ki, dövlət dinin və ya əqidənin nədən təşkil olunduğunu təyin etmək cəhdləri göstərməməlidir və bu iki anlayış "ateistləri, aqnostikləri, skeptikləri və etinasızları da" müdafiə etməklə yanaşı, "dini baxışlara tərəfdar olmağı və ya olmamağı və dinə ibadət etməyi və ya etməməyi" seçmiş insanları da müdafiə edir. Eyni zamanda, bu cür işlərlə əlaqədar qeyd olunmuşdur ki, din və ya əqidə əsasən şəxsi və subyektiv məsələlər olduğundan onları mütləq dini qurumlarla bağlı hansısa etiqadla əlaqələndirməyə ehtiyac yoxdur.[254] Bundan başqa, sayentologiya kimi yeni dinlərin də müdafiə subyekti kimi qəbul ediləcəyi müəyyən olunmuşdur.[255]

AİHM AİHK-nın 1 saylı Protokolunun təhsil sahəsində valideynlərin uşaqları üçün *"öz dini və fəlsəfi baxışlarına müvafiq olan təhsil və tədrisi təmin etmək hüququna"* dövlətin hörmət etməsini nəzərdə tutan 2-ci maddəsində əks olunmuş təhsil hüququ kontekstində *"əqidə"* anlayışını daha da inkişaf etdirmişdir. AİHM bəyan etmişdir ki:

"Burada istifadə edilmiş "baxışlar" sözü öz mənasına görə AİHK-nın fikir ifadə etmək azadlığını nəzərdə tutan 10-cu maddəsində istifadə edilmiş "rəy" və "ideya" sözlərinin sinonimi kimi qəbul edilməməlidir; bu söz 9-cu maddədə verilmiş və müəyyən səviyyədə əsaslılığa,

[252] Din və əqidə azadlığı hüququ Aİ-yə və Avropa Şurasına üzv olan bütün dövlətlər tərəfindən imzalanmış "Mülki və siyasi hüquqlar haqqında" 1966-cı il tarixli Beynəlxalq Paktın 18-ci maddəsində göstərilmiş əlahiddə hüquq kimi müdafiə olunur. BMT-nin İnsan Hüquqları üzrə Komitəsinin "22 saylı Ümumi Şərhi: Maddə 18 (Fikir, vicdan və ya din azadlığı)".

[253] *Londonun İslinqton qəsəbə şurasının Ladeleyə qarşı (azadlıq hüququna müdaxilə barədə)* Böyük Britaniyanın Apellyasiya Məhkəməsindəki [2009] EWCA Civ 1357 saylı, 12 fevral 2010-cu il tarixli işi.

[254] *Xilasetmə Ordusu Moskva filialının Rusiya Federasıyasına qarşı* AİHM-dəki 72881/01 saylı, 5 oktyabr 2006-cı il tarixli işinin 57-58-ci, *Besarabiya Mitropolit Kilsəsinin və başqalarının Moldova Respublikasına* qarşı AİHM-dəki 45701/99 saylı, 13 dekabr 2001-ci il raixli işinin 114-cü, *Həsənin və Çauşun Bolqarıstan Respublikasına qarşı* AİHM-dəki [GC] 30985/96 saylı, 26 oktyabr 2000-ci il tarixli işinin 60 və 62-ci paraqrafları.

[255] *Moskva Sayentologiya Kilsəsinin Rusiya Federasiyasına qarşı* AİHM-dəki 18147/02 saylı, 5 aprel 2007-ci il tarixli işi.

ciddiliyə, müttəhidliyə və nüfuza nail olma baxışlarını ifadə edən "əqidə" sözünə daha yaxındır."[256]

Bu yaxınlarda AİHM dövlətlərin kübarlığını təmin etmək və dinin cəmiyyətə faktiki olaraq yarımçıq təsirini azaltmaq niyyəti kontekstində din azadlığı ilə bağlı işlərlə üzləşmişdir. Bu işlərdə AİHM dövlət tərəfindən bəyan edilmiş və iğtişaşların qarşısının alınması ilə yanaşı insanların hüquq və azadlıqlarının təmin edilməsini nəzərdə tutan məqsədə xüsusi diqqət yetirir.

Misal: *Kösenin və başqalarının Türkiyə Respublikasına qarşı* işi qızların məktəbə baş örtüklərində gəlməsini qadağan edən məktəbli formasının istifadəsilə əlaqədar idi və bu səbəbdən dini baxışlar zəminində ayrı-seçkiliyə yol verildiyi iddia olunurdu, çünki qadınların baş örtüklərindən istifadə etməsi İslam dinində nəzərdə tutulub.[257] AİHM məktəb forması ilə bağlı qaydaların hansısa konkret bir dinə mənsub olma məsələlərilə əlaqədar olmadığı və bununla məktəbdə neytrallığın və kübarlığın qorunub saxlanmasının nəzərdə tutulduğu qənaətinə gəlmişdir ki, bu da öz növbəsində nizamsızlığın qarşısını almaqla yanaşı, başqalarının dini baxışlarına müdaxilənin yol verilməməsi hüququnu müdafiə edir. Bununla əlaqədar olaraq, təqdim olunmuş iddia ərizəsi birmənalı şəkildə əsaslandırılmamış və yolverilməz hesab olunmuşdur. Oxşar yanaşma müəllimlərin geyiminə aid işlə də əlaqədar nümayiş etdirilmişdir.[258]

4.9. Dil

Qeyd olunmalıdır ki, AŞ-nin "Milli azlıqların müdafiəsi haqqında" 1995-ci il tarixli Çərçivə Konvensiyası[259] (39 üzv dövlət tərəfindən ratifikasiya edilmişdir), həmçinin "Regional dillər və milli azlıqların dilləri" haqqında 1992-ci il tarixli Avropa Xartiyası[260] milli azlıqların dillərinin istifadəsilə bağlı dövlətlərin üzərinə xüsusi öhdəliklər qoyur. Lakin bu sənədlərdən heç biri *"dil"* anlayışının tərifini vermir. AİHK-nın 6(3)-cü maddəsi məhkəmə araşdırması prosesi kontekstində müəyyən təminatları birmənalı şəkildə nəzərdə tutur, məsələn, hər bir şəxs ona qarşı irəli sürülmüş ittihamla onun başa düşdüyü dildə məlumatlandırılmaq, həmçinin məhkəmədə istifadə olunan dili başa düşmürsə və ya bu dildə danışa bilmirsə tərcüməçinin köməyindən istifadə etmək hüquqlarına malikdir.

Dil əlaməti nə ayrı-seçkiliyi qadağan edən direktivlərdə, nə də AİHK-da müdafiə olunan ayrıca bir əsas kimi səciyyələndirilmir. Buna baxmayaraq, dillə bağlı müdafiə irqi mənsubiyyət və ya etnik mənşə ilə əlaqələndirildiyi təqdirdə "İrqi bərabərliyə dair" Direktiv əsasında təmin oluna bilər və bu əsaslar çərçivəsində AİHM tərəfindən də nəzərdən keçirilə bilər. Dillə bağlı müdafiə insanların sərbəst hərəkət etməsinə aid qanunvericilik kontekstində vətəndaşlıq əsasları ilə əlaqələndirildikdə AƏM tərəfindən təmin olunur.[261]

AİHM-ə təqdim olunmuş və dillə bağlı əsas iş təhsil kontekstilə əlaqədar idi.

Misal: Belçikanın linqvistika işinə əsasən, bir qrup valideyn təhsilə aid milli qanunvericiliyin diskriminativ xarakter daşıması ilə bağlı şikayət etmişdir.[262] Belçikanın fransız və holland dilli icmalarının fikrincə, milli qanunvericilik bu ölkənin əlaqədar rayonunun fransız və ya holland dilli hesab edilməsindən asılı olaraq, dövlət təhsilinin müvafiq olaraq fransız və ya holland

[256] *Kempbelin və Kosansın Böyük Britaniyaya qarşı* AİHM-dəki 7511/76 və 7743/76 saylı, 25 fevral 1982-ci il tarixli işlərinin 36-cı paraqrafı.
[257] *Kösenin və başqalarının Türkiyə Respublikasına qarşı* AİHM-dəki 26625/02 saylı, 24 yanvar 2006-cı il tarixli işi.
[258] *Dəhləbin İsveçrə Konfederasiyasına qarşı* AİHM-dəki 42393/98 saylı, 15 fevral 2001-ci il tarixli işi.
[259] CETS No. 157.
[260] CETS No. 148.
[261] *Qrönerin Təhsil nazirinə və Dublin şəhərinin Peşə Təhsili Komitəsinə qarşı* AƏM-dəki C-379/87 [1989] ECR 3967 saylı, 28 noyabr 1989-cu il tarixli işi.
[262] *"Belçikada təhsil zamanı dillərdən istifadə haqqında qanunvericiliyin müəyyən aspektlərinin" Belçika Krallığına qarşı* AİHM-dəki 1474/62 və başqa saylı, 23 iyul 1968-cı il tarixli işləri.

dilində aparılmasını nəzərdə tutur. Holland dilli rayonda yaşayan fransız dilli uşaqların valideynləri bunun nəticəsində uşaqlarının fransız dilində təhsil almaq imkanlarının qarşısının alındığını və ya əhəmiyyətli dərəcədə çətinləşdiyini iddia edirdilər. AİHM fərqli rəftarın əsaslandırılmış şəkildə baş verdiyini müəyyən etmişdir. Belə bir qərar sözügedən rayonların əsasən birdilli olmasından irəli gəlirdi. Baş vermiş fərqli rəftar təhsilin 2 dildə aparılmasının aktual olmaması ilə əlaqələndirilirdi. Bundan başqa, holland dilli rayonlarda yaşayan valideynlər üçün fransız dilində aparılan özəl təhsildən istifadə etmək qadağan olunmurdu.

Dillə bağlı müdafiə olunan əsasların təcrübədə necə tətbiq olunması barədə əlavə biliklər əldə etmək üçün Aİ-yə üzv olan bütün dövlətlər tərəfindən imzalanmış "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın şərh olunmasına və monitorinqinə məsuliyyət daşıyan BMT-nin İnsan Hüquqları Komitəsi (İHK) tərəfindən baxılmış iki işə diqqət yetirmək olar.

Misal: Dyerqaardtın Namibiya Respublikasına qarşı işi üzrə ərizəçilər Avropa mənşəli və əvvəllər siyasi muxtariyyətə malik olan, lakin sonradan Namibiya Dövlətinin tabeçiliyinə düşmüş azsaylı bir qrupa mənsub idilər.[263] Bu icma afrikaans dilində danışırdı. Ərizəçilər onlardan məhkəmə araşdırmaları zamanı öz ana dilində deyil, ingilis dilində danışmağa tələb olunması ilə bağlı şikayət edirdilər. Eyni zamanda, onlar verdikləri hər hansı bir yazılı və ya şifahi sorğuya cavabın afrikaans dilində verilməməsilə bağlı dövlət siyasətindən şikayət edirdilər, baxmayaraq ki, bu dildə cavab vermək mümkündür. İHK ədalətli məhkəmə araşdırması hüququnun pozulmadığını müəyyən etmişdir, çünki şikayətçilər məhkəmə araşdırmaları zamanı ingilis dilindən istifadə etdiklərindən mənfi təsirə məruz qaldıqlarını sübuta yetirə bilməmişdilər. Nəzərə almaq lazımdır ki, tərcüməçi xidmətlərindən istifadə hüququ proses zamanı istifadə olunan dilin sadəcə olaraq ehtimal edilən zərər çəkmiş şəxsin ana dili olmaması ilə bağlı vəziyyətlərə şamil olunmur. Bu hüquq zərər çəkmiş şəxsin iştirak etdiyi prosesdə istifadə olunan dili başa düşməməsi və ya bu dildə danışa bilməməsi təqdirdə tətbiq edilir. İHK həmçinin müəyyən etmişdir ki, dövlətin öz rəsmi (ingilis) dilindən başqa dillərdə məlumat verməməkdən ibarət rəsmi siyasəti qanun qarşısında dil zəminində bərabərlik hüququnu pozur. Dövlət öz rəsmi dilini müəyyənləşdirərkən, onun məmurlarına təqdim olunmuş sorğulara başqa dillərdə də cavab vermək imkanı yaratmalıdır, əgər onlar bunu etməyə qadirdilərsə.

4.10. Sosial mənşə, doğum və əmlak vəziyyəti

Bu üç əlaməti qarşılıqlı əlaqədə nəzərdən keçirmək mümkündür, çünki onlar mənimsənilmiş sosial, iqtisadi və ya bioloji xüsusiyyətlər əsasında şəxsə aid edilən vəziyyətlə əlaqədardır. [264] Əslində onlar irqi mənsubiyyət və etnik mənşə məsələlərilə də əlaqələndirilə bilər. "Doğum" əlamətini çıxmaq şərtilə bu əlamətlərlə əlaqədar çox az sayda, demək olar ki, cəmi bir neçə iş AİHM-ə təqdim olunmuşdur.

Misal: Mazurekin Fransa Respublikasına qarşı işinə əsasən, nikahdan kənar doğulmuş şəxs onun anasına məxsus daşınmaz əmlakın yalnız ¼ hissəsinə (nikahdan kənar doğulmuş uşaq kimi) varis olmağı nəzərdə tutan milli qanunvericiliklə bağlı şikayət edirdi.[265] AİHM müəyyən etmişdir ki, sadəcə olaraq nikahdan kənar doğum faktından irəli gələn fərqli rəftar yalnız *"həddindən artıq əsaslı səbəblərlə"* əsaslandırıla bilər. Ənənəvi ailənin qorunub-saxlanması

[263] *Dyerqaardtın və başqalarının Namibiya Respublikasına qarşı* İHK tərəfindən baxılmış 760/1997 saylı, 6 sentyabr 2000-ci il tarixli şikayət ərizəsi.

[264] Sosial mənşə, doğum və əmlak vəziyyətilə bağlı əsaslar Aİ-yə üzv olan bütün dövlətlər tərəfindən imzalanmış "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" 1966-cı il tarixli Beynəlxalq Paktın 2(2)-ci maddəsində də nəzərdə tutulub. İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitənin "20 saylı Ümumi Şərhi: "İqtisadi, sosial və mədəni hüquqlar sahəsində ayrı-seçkiliyin qadağan olunması", UN Doc. E/C.12/GC/20, 10 iyun 2009-cu il, 24-26, 35-ci paraqraflar.

[265] *Mazurekin Fransa Respublikasına qarşı* AİHM-dəki 34406/97 saylı, 1 fevral 2000-ci il tarixli işi.

qanunla nəzərdə tutulmuş bir məqsəd olsa da, bu məqsədə öz doğumu ilə bağlı vəziyyətə nəzarət etmək imkanları olmayan uşağın cəzalandırılması ilə nail olmaq mümkün deyil.

Misal: Şassanyunun və başqalarının Fransa Respublikasına qarşı işinə əsasən, iddiaçılar öz torpaqlarından niyyətlərinə uyğun istifadə etməyə icazənin verilməməsilə bağlı şikayət edirdilər[266]. Konkret bölgələrlə bağlı qanunlar kiçik ölçülü torpaq sahiblərinin üzərinə onların torpaqlarından ovçuluq məqsədilə istifadəyə razılıq vermək öhdəliyi qoyurdu, lakin böyük ölçülü torpaq sahiblərinin üzərinə bu cür öhdəlik qoyulmurdu və onlar öz torpaqlarından arzularına uyğun istifadə etmək imkanına malik idilər. İddiaçılar onlara məxsus torpaq sahələrində ovçuluğu qadağan edərək həmin torpaqlarda təbiəti qorumaq niyyətində idilər. AİHM bu işdə əmlak vəziyyəti zəminində ayrı-seçkilik halının baş verdiyini müəyyənləşdirmişdir.

Misal: Vuçkoviçin və başqalarının Serbiya Respublikasına qarşı[267] işində iddiaçılar 1999-cu ildə NATO-nun Serbiyaya hərbi müdaxiləsi zamanı Yuqoslaviya Ordusunun ehtiyatda olan və dövlətdən gündəlik məvacib alan hərbiçiləri idi. Lakin dövlət öz öhdəliklərini icra etməkdən imtina etmişdir. Əksər hallarda polisin müdaxiləsilə müşahidə olunan bir sıra nümayişlərdən sonra dövlət əsasən inkişaf etmədiyinə görə seçilən bələdiyyələrdə yaşayan və buna görə də yoxsul vəziyyətdə olmaları hesab edilən ehtiyatda olan hərbiçilərlə razılığa gəlmişdir. Məvaciblərin müvafiq bələdiyyələr vasitəsilə 6 ay ərzində hissələrlə ödənilməsi barədə zəmanətin verilməsi müqabilində ehtiyatda olan əlaqədar hərbiçilər mülki məhkəmələrdə hələ də baxılmamış və hərbi xidmətlərilə bağlı iddialarının geri götürülməsinə razılıq vermişdilər. Ehtiyatda olan başqa (siyahıya alınmış bələdiyyələrdə qeydiyyatdan keçməyən) hərbiçilər belə razılaşmadan faydalana bilməmişdir. Yaranmış vəziyyətlə bağlı mülki iddia qaldırılmışdır. Birinci instansiya Məhkəməsi bu iddianı təmin etməmişdir, Apellyasiya məhkəməsi isə belə bir qərarı qüvvədə saxlamışdır. Bu işə Konstitusiya Məhkəməsi tərəfindən hələ də baxılmayıb. AİHM-ə əsasən dövlət yalnız yaşadıqları yerə əsasən seçilmiş ehtiyatda olan hərbiçilərlə razılığa gəlmişdir, lakin onların yoxsul vəziyyətdə olması ilə bağlı heç bir dəlil təqdim olunmamışdır. Belə olduqda ehtiyatda olan digər hərbiçilərlə fərqli rəftar hansısa obyektiv və məntiqli əsaslandırmadan irəli gəlmir. Bununla əlaqədar olaraq, AİHM dövlətin tətbiq etdiyi qiymətləndirmə çərçivələrinə baxmayaraq, AİHK-nın 14-cü maddəsilə birgə 1 saylı Protokolunun 1-ci maddəsinin pozulması qənaətinə gəlmişdir.

Sosial mənşə, doğum və əmlak vəziyyətilə bağlı əsaslar "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktın 2(2)-ci maddəsində də nəzərdə tutulub. Bu sənədin monitorinqinə və şərh olunmasına məsuliyyət daşıyan İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitə öz 20 saylı Ümumi Şərhində bu anlayışların mənasını daha da genişləndirmişdir.

Bu Komitəyə əsasən, sosial mənşə, doğum və əmlak vəziyyəti qarşılıqlı əlaqədə olan əlamətlərdir. Sosial mənşə *"şəxsin varis olduğu sosial statusu bildirir"*. Bu şəxsin konkret bir sosial təbəqədə və ya, məsələn, etnik, din və ya ideologiya əsaslı icmada doğulduğundan tutduğu mövqeyi ilə və ya sosial vəziyyətilə (məsələn, yoxsul və ya evsiz) bağlı olan bir məsələdir. Doğum əlaməti *"nikahdan kənar"* və ya *"övladlığa götürülmüş"* kimi vəziyyətləri göstərmək üçün əsas götürülə bilər. Əmlak vəziyyəti əlaməti şəxsin torpaq sahəsilə (məsələn icarəçi, torpaq sahibi və ya qanunsuz zəbt etmiş şəxs) və ya başqa əmlakla bağlı vəziyyətinə şamil edilə bilər.[268]

[266] *Şassanyunun və başqalarının Fransa Respublikasına qarşı* AİHM-dəki 25088/94, 28331/95 və 28443/95 saylı, 29 aprel 1999-cu il tarixli işləri.
[267] *Vuçkoviçin və başqalarının Serbiya Respublikasına qarşı* AİHM-dəki 17153/11 saylı, 28 avqust 2012-ci il tarixli işi.
[268] İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitənin "20 saylı Ümumi Şərhi: İqtisadi, sosial və mədəni hüquqlar sahəsində ayrı-seçkiliyin qadağan edilməsi", UN Doc. E/C.12/GC/20, 10 iyun 2009-cu il, 24-26, 35-ci paraqraflar.

4.11. Siyasi və ya digər baxışlar

AİHK *"siyasi və ya digər baxışlar"* əlamətini birmənalı şəkildə müdafiə olunan əsas kimi qəbul edir, baxmayaraq ki, bu əlamət ayrı-seçkiliyi qadağan edən Aİ Direktivlərinə əsasən müdafiə olunan əsas kimi səciyyələndirilmir. Belə ehtimal etmək olar ki, hər bir şəxsə məxsus olan, lakin *"din və ya əqidə"* kateqoriyasına aid olmayan konkret baxışlar *"siyasi və ya digər baxışlar"* əsasında müdafiə predmeti hesab oluna bilər. AİHM müdafiə olunan bu əsasdan nadir hallarda istifadə edir. AİHK-nın başqa sahələrinə gəldikdə, *"siyasi və ya digər baxışlar"* 10-cu maddədə nəzərdə tutulmuş fikir ifadə etmək azadlığına əsasən də müdafiə olunur və bu sahəyə aid presedent hüququna istinad edərək sözügedən əsasla nəyin əhatə olunduğunu müəyyən etmək mümkündür. Təcrübədə iddia ərizəsinə əsasən zərərçəkmiş şəxs siyasi və ya digər baxışlar zəminində fərqli rəftara məruz qaldığını zənn etdikdə AİHM-in bu iddia ərizəsinə sadəcə olaraq 10-cu maddə əsasında baxması daha çox ehtimal olunandır.

AİHM *Həndisaydın Böyük Britaniyaya qarşı* işinə əsasən, ümumi şəkildə müəyyən etmişdir ki, ifadə azadlığı sadəcə olaraq düzgün qəbul olunan və ya qeyri-təhqiredici, yaxud əhəmiyyətsiz hesab olunan *"informasiyanı"* və ya *"ideyaları"* deyil, eyni zamanda, dövləti və ya əhalinin istənilən təbəqəsini qıcıqlandıran, sarsıdan və ya narahat edən *"informasiyanı"* və ya *"ideyaları"* da əhatə edir.[269] Bu sahəyə aid müfəssəl presedent hüququ mövcud olsa da, bu fəsil 2 iş vasitəsilə siyasi baxışların başqa növ baxışlarla müqayisədə daha əsaslı müdafiə ilə təmin olunduğunu nümayiş etdirir.

Misal: Stilin və Morrisin Böyük Britaniyaya qarşı işinə əsasən, iddiaçılar "McDonalds" şirkəti barədə həqiqətə uyğun olmayan məlumatları özündə əks etdirən vərəqələri paylamaqla məşğul olan bir kampaniya üzvləri idi.[270] Yerli məhkəmədə iddiaçılara qarşı defamasiyaya görə vəsatət qaldırılmışdır və onlardan vurulmuş ziyana görə təzminatların ödənilməsi tələb olunmuşdur. AİHM defamasiya ilə bağlı hərəkətlərin özünü ifadə etmə azadlığına müdaxilə kimi müəyyənləşdirmişdir, lakin bu hərəkətlər şəxsin şərəf və ləyaqətinin qorunmasından ibarət qanuni məqsədlərə xidmət edirdi. Eyni zamanda, ictimai maraqlarla bağlı söz azadlığının da əsaslı şəkildə müdafiə edilməsi zəruriyyəti ön plana çəkilmişdir və "McDonalds" şirkətinin nüfuzlu hüquqi şəxs olduğunu, bir neçə min vərəqənin paylanması nəticəsində ona vurulmuş ziyanı sübuta yetirmədiyini və vurulmuş ziyana görə ödənilməsi tələb olunan təzminatların məbləğinin iddiaçıların gəlirilə müqayisədə nisbətən yüksək olduğunu nəzərə aldıqda özünü ifadə azadlığına müdaxilə tənasübsüz hesab olunmuşdur.

Misal: Kastelsin İspaniya Krallığına qarşı işi Baskoniyada törədilən terror aktlarının qarşısının alınması istiqamətində hökumətin fəaliyyətsizliyini tənqid etdikdən sonra hökuməti "təhqir etmə" səbəbindən cinayət təqibinə məruz qalmış parlament üzvü ilə əlaqədar idi.[271] AİHM özünü ifadə etmə azadlığının demokratik cəmiyyətin fəaliyyəti sahəsindəki rolunun əhəmiyyətini nəzərə alaraq bu cür azadlığın siyasi kontekstəki vacibliyini vurğulamışdır. Bu səbəbdən də AİHM belə məsələlərə müdaxilənin son dərəcə ciddi şəkildə nəzərdən keçirilməsinin vacib olduğunu müəyyən etmişdir.

Misal: Virabyanın Ermənistan Respublikasına qarşı işində[272] vaxtılə iddiaçı Ermənistanın əsas müxalif partiyalarından birinin üzvü olub. 2003-cü ildə ölkədə keçirilmiş president seçkilərində hazırki president qalib gəlmişdir. Seçkiləri müşahidə etmiş beynəlxalq missiyaya əsasən ümumi prosedur beynəlxalq standartlardan çox uzaq idi. Bu səbəbdən müxalifət yürüşlər və nümayişlər təşkil etmişdir. Müvafiq siyasi baxışlara malik olan iddiaçı keçirilmiş tədbirlərdən birində dövlət orqanlarının siyasi müxalifətə qarşı həyata keçirdiyi tədbirlər

[269] *Həndisaydın Böyük Britaniyaya qarşı* AİHM-dəki 5493/72 saylı, 7 dekabr 1976-cı il tarixli işi.
[270] *Stilin və Morrisin Böyük Britaniyaya qarşı* AİHM-dəki 68416/01 saylı, 15 fevral 2005-ci il tarixli işi.
[271] *Kastelsin İspaniya Krallığına qarşı* AİHM-dəki 11798/85 saylı, 23 aprel 1992-ci il tarixli işi.
[272] *Virabyanın Ermənistan Respublikasına qarşı* AİHM-dəki 40094/05 saylı, 2 oktyabr 2012-ci il tarixli işi.

kontekstində anonim telefon zənginə əsasən həbs olunmuşdur. Polis bölməsində iddiaçı nümayişlərdəki iştirakı və başqalarını nümayişlərdə iştiraka cəlb etmə istiqamətindəki rolu barədə dindirilmişdir. Bölmədə polis əməkdaşları onunla kobud rəftar etmişdir. Baş vermiş zorakılıq cəzasız qalmışdır. AİHM vurğulamışdır ki, zorakılıq hallarını araşdırarkən dövlət orqanları hər hansı siyasi səbəbi ifşa etmək və ya siyasi baxışlardakı fikir ayrılığı səbəbindən yaranmış dözümsüzlüyün əlaqədar hadisədə rol oynadığını müəyyən etmək üçün bütün əsaslı tədbirlərin görülməsindən ibarət vəzifələri icra etməlidir. AİHM-in fikrincə, buna əməl etməmə, eyni zamanda, siyasi səbəblərdən irəli gələn işlərə eyni xarakterdə olmayan işlərlə eyni tərzdə yanaşma insan hüquqlarını pozan spesifik xarakterli əməllərə göz yummaq kimi səciyyələndirilə bilər. Bu cür əsaslandırılmamış rəftar AİHK-nın 3-cü maddəsilə qorunan əsas dəyərləri bütün şəxslər üçün ayrı-seçkilik olmadan təmin etmək məqsədilə müəyyən məsuliyyət nəzərdə tutan AİHK-nın 14-cü maddəsinə ziddir.

4.12. "Digər hər hansı əlamətlər"

Bundan əvvəl müşahidə olunduğu kimi, AİHM *"digər hər hansı əlamətlər"* kateqoriyası ilə bağlı bir neçə əsas işləyib hazırlamışdır və onların çoxu Aİ qanunvericiliyi əsasında işlənib hazırlanmış əsaslarla üst-üstə düşür, məsələn, cinsi oriyentasiya, yaş və əlillik.

AİHM əlillik, yaş və cinsi oriyentasiyaya aid əsaslardan başqa burada verilmiş digər əlamətləri də *"digər hər hansı əlamətlərə"* uyğun olaraq müdafiə olunan əsas kimi tanımışdır: atalıq,[273] ailə vəziyyəti,[274] təşkilata mənsubiyyət,[275] hərbi rütbə,[276] nikahdan kənar doğulmuş uşağa valideynlik,[277] yaşayış yeri.[278]

Misal: Petrovun Bolqarıstan Respublikasına qarşı işi məhbuslara öz həyat yoldaşları ilə ayda 2 dəfə telefon əlaqəsi saxlamaqdan ibarət həbsxana qaydası ilə əlaqədar idi. İddiaçı azadlıqdan məhrum edilməzdən əvvəl 4 il ərzində bir qadınla yaşamışdır və onların birgə yaşamadan bir uşağı var idi. AİHM müəyyən etmişdir ki, həbsxanada telefonla əlaqə saxlamaq qaydaları nöqteyi-nəzərindən nikah xüsusi bir status hesab olunsa da, stabil olaraq bir partnyorla ailə qurmuş və yaşamış iddiaçı rəsmi nikahda olanlarla müqayisə edilən vəziyyətdədir. Bununla əlaqədar olaraq, AİHM bəyan etmişdir ki, *"məsələn, vergilər, sosial təminat və ya sosial siyasət sahəsində rəsmi nikaha daxil olmuş və daxil olmamış cütlüklərlə fərqli şəkildə rəftaretmək üçün üzv dövlətlərə müəyyən çərçivədə qiymətləndirmə aparma imkanları verilsə də … tərəflərdən birinin azadlıqdan məhrum olunduğu halda telefonla əlaqə saxlamaq imkanları baxımından rəsmi nikaha daxil olaraq və daxil olmadan ailə qurmuş şəxslərlə fərqli şəkildə rəftaretmə qəti şəkildə qəbul oluna bilməz."* Beləliklə, AİHM baş vermiş ayrı-seçkiliyin əsassız olduğunu müəyyən etmişdir.

Misal: Kiyutinin işində[279] Özbəkistan vətəndaşı olan iddiaçı 2003-cü ildə Rusiyaya gələrək burada birgə uşaqları olan Rusiya vətəndaşı ilə nikaha daxil olmuşdur. Buna baxmayaraq, onun yaşayış icazəsi almaq üçün müraciətinə İİV-ə yoluxması səbəbindən rədd cavabı verilmişdir. AİHM ilk növbədə fiziki qüsurların və insan səhhətindəki ağırlaşmaların 14-cü maddənin əhatə dairəsinə düşdüyünü qəbul etmişdir və belə bir yanaşma beynəlxalq

[273] *Uellerin Macarıstan Respublikasına qarşı* AİHM-dəki 44399/05 saylı, 31 mart 2009-cu il tarixli işi.
[274] *Petrovun Bolqarıstan Respublikasına qarşı* AİHM-dəki 15197/02 saylı, 22 may 2008-ci il tarixli işi.
[275] *Danilenkovun və başqalarının Rusiya Federasiyasına qarşı* 67336/01 saylı, 30 iyul 2009-cu il tarixli (həmkarlar ittifaqı barədə), "*Grande Oriente d'Italia di Palazzo Giustiniani"-nin Italiya Respublikasına qarşı (No. 2)* 26740/02 saylı, 31 may 2007-ci il tarixli, AİHM-dəki işləri.
[276] *Engelin və başqalarının Niderland Krallığına qarşı* AİHM-dəki 5100/71, 5101/71, 5102/71, 5354/72 və 5370/72 saylı, 8 iyun 1976-cı il tarixli işləri.
[277] *Sommerfeldin AFR-ə qarşı* [GC] 31871/96 saylı, 8 iyul 2003-cü il tarixli, *Şahinin AFR-ə qarşı* [GC] 30943/96 saylı, 8 iyul 2003-cü il tarixli, AİHM-dəki işləri.
[278] *Karsonun və başqalarının Böyük Britaniyaya qarşı* AİHM-dəki [GC] 42184/05 saylı, 16 mart 2010-cu il tarixli işi.
[279] *Kiyutinin Rusiya Federasiyasına qarşı* AİHM-dəki 2700/10 saylı, 10 mart 2011-ci il tarixli işi.

ictimaiyyət tərəfindən ifadə olunan nəzər nöqtəsiylə üst-üstə düşürdü. Bununla əlaqədar olaraq, sağlamlıq, o cümlədən İİV-ə yoluxma zəminində fərq qoyma "digər hər hansı əlamətlər" anlayışı ilə əhatə olunduğundan 14-cü maddənin 8-ci maddə ilə birgə tətbiq edilməsi mümkündür. İddiaçı Rusiyada ailə qurması səbəbindən yaşayış icazəsi əldə etməyə çalışan digər xarici vətəndaşlarla analoji vəziyyətdə idi, lakin İİV-ə yoluxduğundan onunla fərqli şəkildə rəftar olunurdu. Bu sahədə dövlətin qiymətləndirmə çərçivələri çox dar idi, çünki İİV-lə yaşayan şəxslər keçmişdə ayrı-seçkilikdən kifayət qədər əziyyət çəkmiş həssas qrupa daxildirlər və bu cür şəxslərin yaşayış icazəsi üçün müraciət edənlərin sıralarından xaric edilib-edilməməsilə bağlı Avropada müfəssəl bir razılıq əldə olunmayıb. Bu cür şübhə doğuran tədbir vasitəsilə ictimai sağlamlığın müdafiəsindən ibarət qanuni bir məqsədin təmin olunduğu qəbul olunsa da, tibbi ekspertlər və əlaqədar beynəlxalq təşkilatlar İİV-ə yoluxmuş şəxslərin səyahət etmələrinə qoyulan məhdudiyyətlərin ictimai sağlamlığın müdafiəsi ilə əsaslandırılmasının yolverilməz olması barədə razılığa gəlmişdilər. Belə məhdudiyyətlər vəba və qarın yatalağı kimi qısa inkubasiya dövrü olan ağır yoluxucu xəstəliklərə qarşı daha səmərəli ola bilər və İİV-ə yoluxmuş şəxsin hansısa ölkəyə gəlməsi özlüyündə ictimai sağlamlıq üçün heç bir təhlükə daşımır. İİV-ə təsadüfən yoluxmaq mümkün deyil və yoluxma halları spesifik davranışla əlaqədardır, yoluxma yolları isə şəxsin vətəndaşı olduğu və ya başqa ölkədə olmasından asılı olmayaraq eynidir. Bundan başqa, İİV-lə əlaqədar səyahət məhdudiyyətləri turistlərə və ya ölkəyə qısa müddətə gələn şəxslərə, həmçinin xarici səfərdən qayıdan Rusiya vətəndaşlarına şamil olunmur, baxmayaraq ki, onların bu ölkədə məskunlaşmış miqrantlarla müqayisədə daha təhlükəsiz şəkildə hərəkət etmələrini ehtimal etmək üçün əsas yoxdur. Eyni zamanda, İİV-ə yoluxmuş və ölkədə uzun müddətə məskunlaşan şəxslərlə qısa müddətə gələn şəxslər arasında fərqli rəftarı birincilərin dövlət səhiyyə sisteminə əlavə yük qoyması riskilə obyektiv şəkildə əsaslandırmaq mümkün olsa da, bu arqumenti Rusiyaya aid etmək olmaz, çünki burada yaşayan və Rusiya vətəndaşı olmayan şəxslər təcili tibbi yardımdan başqa pulsuz tibbi xidmət almaq hüququndan məhrumdurlar. Məhkəmənin narahatlığına səbəb olan başqa bir məsələ şübhə doğuran bu tədbirin qeyd-şərtsiz və fərq qoymayan xarakterilə əlaqədardır. İİV-ə yoluxmuş əcnəbilərin ölkədən çıxarılması şərtləri hər hansı bir konkret işin faktlarını əsas götürərək fərdi qaydada qiymətləndirmələrin aparılmasına imkan vermir. Konkret olaraq, iddiaçının işində yerli orqanlar onun ümumi səhhətini və ya Rusiyadakı ailə əlaqələrini nəzərə almadan onun müraciətinə sadəcə olaraq qanunla nəzərdə tutulmuş müddəalara istinad edərək rədd cavabı vermişdi. Bütün bu qənaətlər kontekstində AİHM iddiaçının səhhəti zəminində ayrı-seçkiliyə məruz qaldığını müəyyən etmişdir.

Misal: Hodenin və Abdinin işində[280] Cibutidən olan və sığınacaq üçün müraciət etmiş 1-ci iddiaçıya Böyük Britaniyada yaşamaq üçün 5 illik icazə verilmişdir və "Qaçqınların hüquqi statusu haqqında" Konvensiya əsasında onun adına yol sənədi rəsmiləşdirilmişdir. Bundan sonra o, evlənmək üçün Cibutiyə getmişdir və 1 ildən sonra Böyük Britaniyaya qayıtmışdır. Həmin şəxsin həyat yoldaşı öz ərilə birlikdə olmaq məqsədilə viza üçün müraciət etmişdir, lakin onun əri qaçqın olsa da bu cütlük 1-ci iddiaçı daimi yaşadığı ölkəni tərk etdikdən sonra nikaha daxil olduğundan ailənin birləşməsi proqramı ona şamil edilməmişdir. Belə olduqda 2-ci iddiaçı ərinin Böyük Britaniyada məskunlaşması faktına görə bu ölkəyə gəlmək məqsədilə icazə almaq üçün müraciət etmişdir. Ölkəyə gəlmək məsələləri üzrə əməkdaş 1-ci iddiaçının sadəcə olaraq ölkədə qalmaq üçün 5 illik icazəyə malik olduğunu və Böyük Britaniyaya ailə birləşməsi məqsədilə gəlmədiyini, həmçinin burada həmin məqsədlə məskunlaşmadığını əsas gətirərək bu müraciətə rədd cavabı vermişdir. 2-ci iddiaçı vaxtı ilə Böyük Britaniyada ailə həyatı yaşadığından və 1-ci iddiaçının Cibutidə yaşamağının qarşısını heç nə almadığından 2-ci iddiaçının vəsatəti təmin olunmamışdır. AİHM dövlətin qarşısına nikaha daxil olduqdan sonra cütlüklərin hansı ölkədə yaşamaları ilə bağlı etdikləri seçimə hörmət etmək və nikaha daxil olmuş əcnəbi cütlükləri öz ərazisində məskunlaşdırılmasını qəbul etmək öhdəliyinin

[280] *Hodenin və Abdinin Böyük Britaniyaya qarşı* AİHM-dəki 22341/09 saylı, 6 noyabr 2012-ci il tarixli işi.

qoyulmadığını bildirmişdir. Lakin AİHM eyni zamanda, qeyd etmişdir ki, əgər milli qanunlar müəyyən kateqoriyadan olan immiqrantlara öz həyat yoldaşları ilə birləşmək hüququ verirsə, bu AİHK-nın 14-cü maddəsinə uyğun tərzdə təmin olunmalıdır. Hesab etmək olar ki, yalnız müəyyən olunmuş əlamətlərdən və ya statusdan irəli gələn fərqli rəftar AİHK-nın 14-cü maddəsinə əsasən ayrı-seçkiliyin əsasını təşkil edir. Bu iş üzrə 1-ci iddiaçı qanunvericiliklə nəzərdə tutulmuş ailənin birləşməsi hüququna malik olan kateqoriyaya mənsub olmasa da AİHK-nın 14-cü maddəsində göstərilmiş *"digər hər hansı əlamətlərə"* aid statusa, qaçqın statusuna malikdir. Qaçqınlarla onlara bu statusu vermiş ölkəni tərk etməzdən əvvəl və tərk etdikdən sonra nikaha daxil olmalarına görə fərqli rəftarın əsaslandırılmasına yol verilmədiyindən AİHM AİHK-nın 14-cü maddəsilə birgə 8-ci maddəsinin pozulması qənaətinə gəlmişdir.

Əsas məqamlar

- Ayrı-seçkiliyi qadağan edən Aİ Direktivlərinə əsasən müdafiə olunan əsasların yalnız bunlardan ibarət olduğu müəyyən edilmişdir: cinsi mənsubiyyət, irqi mənsubiyyət və ya etnik mənşə, yaş, əlillik, din və ya əqidə və cinsi oriyentasiya. AİHK-ya əsasən isə bu siyahı daha müfəssəl və açıq tipli olduğundan konkret işlərdən asılı olaraq artırıla bilər.
- Aİ qanunvericiliyinə əsasən cinsi mənsubiyyət gender özünəməxsusluğunu çox məhdud, əməliyyat yolu ilə cinsini dəyişmək niyyətində olan şəxsləri müdafiə edəcək dərəcədə özündə əks etdirir. Gender özünəməxsusluğu məsələlərinə AİHM tərəfindən də baxılır.
- AİHK-ya əsasən, dərinin rəngi, nəsil, vətəndaşlıq, dil və ya din kimi elementlər irqi mənsubiyyətə və ya etnik mənşəyə aid müdafiə olunan əsaslarla əhatə olunur; lakin Aİ qanunvericiliyinə əsasən, müdafiə olunan bu əsasların əhatə dairəsi AƏM yurisprudensiyası vasitəsilə hələ də müzakirə olunmaqdadır.
- Vətəndaşlıq zəminində ayrı-seçkilik AİHK-ya əsasən müdafiə olunan əsas kimi səciyyələndirilir. Vətəndaşlıq zəminində ayrı-seçkilik yalnız Aİ qanunvericiliyi tərəfindən insanların sərbəst hərəkət etmə qanunvericiliyi kontekstində qadağan olunur.
- "Din" termini nisbətən geniş şəkildə təfsir olunmalıdır və yalnız mütəşəkkil və ya əsaslı şəkildə təşkil olunmuş, həmçinin ənənəvi dinlərə şamil olunmamalıdır.
- Hətta ayrı-seçkilik hallarının həqiqətən də baş verməsi halında AİHM müvafiq şikayət ərizələrinə bir qayda olaraq yalnız AİHK-nın mövcud maddələri əsasında baxır. Bu fərqli rəftarın baş verməsi faktının və ya müqayisə vasitəsini müəyyənləşdirmə zərurətini sadələşdirə bilər.

Əlavə ədəbiyyat

Boza Martínez, 'Un paso más contra la discriminación por razón de nacionalidad', Repertorio Aranzadi del Tribunal Constitucional (2005) 7.

Breen, Age Discrimination and Children's Rights: Ensuring Equality and Acknowledging Difference, (Leiden, Martinus Nijhoff, 2006)./*"Yaş zəminində ayrı-seçkilik və uşaq hüquqları: bərabərliyin təmin edilməsi və fərqlərin tanınması"*

Bribosia, 'Aménager la diversité : le droit de l'égalité face à la pluralité religieuse', 20 Revue trimestrielle des droits de l'homme (2009) 78, 319-373.

Cano Palomares, 'La protección de los derechos de las minorías sexuales por el Tribunal Europeo de Derechos Humanos', Human Rights Institute of Catalonia, Barcelona, 2007, 35-57.

Demaret, 'L'adoption homosexuelle à l'épreuve du principe d'égalité : l'arrêt E.B. contre France', 128 Journal des tribunaux (2009) 6343, 145-149.

Evans, Manual on the wearing of religious symbols in public areas, (Strasbourg, Council of Europe, 2009)./*"İctimai yerlərdə dini əşyaların daşınmasına diar təlimat"*

Flauss, 'L'interdiction des minarets devant la Cour européenne des droits de l'homme : petit exercice de simulation contentieuse', 186 Recueil Dalloz (2010) 8, 452-455.

Interights, Non-Discrimination in International Law (London, Interights, 2005), Chapter 5./*"Beynəlxalq qanunvericilikdə ayrı-seçkiliyin qadağan olunması məsələləri", fəsil 5*

Johnson, 'An essentially private manifestation of human personality: constructions of homosexuality in the European Court of Human Rights', Human Rights Law Review, 2010, 67-97./*"İnsan şəxsiyyətinin özəl şəkildə ifadə olunması: Avropa İnsan Hüquqları Məhkəməsində homoseksuallığa dair izahatlar"*

Kastanas, 'La protection des personnes appartenant à des minorités dans la jurisprudence de la Cour européenne des droits de l'homme', in Auer, Flückiger, Hottelier (ed.), Les droits de l'homme et la Constitution: études en l'honneur du Professeur Giorgio Malinverni, (Geneva/Zurich/Basel, Schulthess, 2007), 197-218.

Landau and Beigbeder, 'From ILO Standards to EU Law: The Case of Equality Between Men and Women at Work', European Journal of International Law, 2008, 264-267./*"BƏT standartlarından Aİ qanunlarına: iş yerlərində kişi və qadınların bərabərliyi məsələsi"*

Laskowski, 'Der Streit um das Kopftuch geht weiter, Warum das Diskriminierungsverbot nach nationalem und europäischem Recht immer bedeutsamer wird', Kritische Justiz, 2003, 420-444.

Lawson, 'The United Nations Convention on the rights of persons with disabilities: new era or false dawn?', 34 Syracuse Journal of international Law and Commerce (2007) 563./*"Birləşmiş Millətlər Təşkilatının "Əlillərin hüquqları haqqında" Konvensiyası: yeni era və ya iflas"*

MacKay, 'The United Nations Convention on the rights of persons with disabilities', 34 Syracuse Journal of International Law and Commerce (2007) 323./*"Birləşmiş Millətlər Təşkilatının "Əlillərin hüquqları haqqında" Konvensiyası"*

Pettiti, 'L'égalité entre époux', in Krenc, Puéchavy (eds.), Le droit de la famille à l'épreuve de la Convention européenne des droits de l'homme : actes du colloque organisé le 4 mai 2007, Institut des droits de l'homme du Barreau de Bruxelles et

l'Institut des droits de l'homme du Barreau de Paris (Bruxelles, Bruylant/Nemesis, 2008), 29-46.

Presno Linera, 'La consolidación europea del derecho a no ser discriminado por motivos de orientación sexual en la aplicación de disposiciones nacionales', Repertorio Aranzadi del Tribunal Constitucional (2008) 1.

Rudyk, 'A Rising Tide: the transformation of sex discrimination into gender discrimination and its impact on law enforcement', International Journal of Human Rights, 2010, 189-214./ *"Yüksəliş: cinsi mənsubiyyət zəminində ayrı-seçkiliyin gender ayrı-seçkiliyinə transformasiyası və hüquq mühafizə məsələlərinə təsiri"*

Shuibne, 'Article 13 EC and Non-Discrimination on Grounds of Nationality: Missing or in Action?', in Costello and Barry (eds.), Equality in Diversity: The New Equality Directives, (Irish

Centre for European Law, 2003).*/"Avropa Konvensiyasının 13-cü maddəsi və milli mənsubiyyət zəminidə ayrı-seçkilik"/ "Müxtəliflikdə bərabərlik: bərabərliyə dair yeni Direktivlər"*

Thürer and Dold, 'Rassismus und Rule of Law/ Erstmalige Verurteilung wegen Rassendiskriminierung durch den EGMR? Gleichzeitige Besprechung des Urteils vom 26. Februar 2004 – Nachova u. a. gegen Bulgarien', Europäische Grundrechte- Zeitschrift, 2005, 1-12.

Tulkens, 'Droits de l'homme, droits des femmes: les requérantes devant la Cour européenne des Droits de l'Homme', in Caflisch (et al) Liber amicorum Luzius Wildhaber: human rights, Strasbourg views = Droits de l'homme, regards de Strasbourg, (Kehl/Strasbourg, Arlington, Va.: N.P. Engel, 2007), 423-445.

5. Azərbaycan Respublikasının ayrı-seçkiliyə qarşı mübarizə sahəsindəki qanunvericilik bazası və istiqamətlindərmə mexanizmləri

5.1. Azərbaycan Respublikasının ayrı-seçkiliyə qarşı mübarizə sahəsindəki qanunvericilik bazası

5.1.1. Azərbaycan Respublikasının Konstitusiyası (1995-ci il noyabrın 12-də qəbul edilimşdir)

Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasında ən yüksək hüquqi qüvvəyə malikdir və Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasını təşkil edir (Azərbaycan Respublikası Konstitusiyasının 147-ci maddəsinin 1 və 3-cü bəndləri). Konstitusiya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən və hər hansı bir digər normativ hüquqi aktından üstün hüquqi qüvvəyə malikdir. Azərbaycan Respublikasının Konstitusiyası ilə Azərbaycan Respublikasının tərəfdar çıxdığı hər hansı hüquqi sənəd, istər beynəlxalq hüquqi sənəd, istərsə də milli qanunvericilik aktları arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikası Konsitusiyasının müddəaları tətbiq edilir. Lakin "Beynəlxalq müqavilələr hüququ haqqında" 1969-cu il Vyana Konvensiyasının 26-cı və 27-ci maddələrində nəzərdə tutulmuş *"pacta sunt servanda"* prinsipinə əsasən, dövlətlərin tərəfdar çıxdıqları mövcud müqavilələrdə təsbit olunmuş *öhdəlikləri vicdanla yerinə yetirməyə borclu odluqlarını* burada qeyd etmək vacibdir. Əsas azadlıqların müdafiəsinin və icra olunmasının təmin edilməsi sahəsində beynəlxalq müqavilələrin hansı rol oynadığını nəzərə aldıqda bu prinsip xüsusi əhəmiyyət kəsb edir, çünki ən yüksək hüquqi qüvvəyə malik olan *"jus cogens"* normaları kimi köləliyin və ya işgəncənin qadağan edilməsi məsələsinə və ya geri qaytarmamaq prinsipinə daim üstünlük verilməlidir.

Azərbaycan Respublikasının Konstitusiyasında ayrı-seçkiliyi qadağan edən bir sıra müddəalar da öz əksini tapıb. Konstitusiyanın 25-ci maddəsinə əsasən, *"hamı qanun və məhkəmə qarşısında bərabərdir"* (1-ci bənd) və *"Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır"* (2-ci bənd). Konstitusiyanın 25-ci maddəsinin 3-cü bəndi beynəlxalq normalara əsasən, bərabərliyin təmin edilməsi kriteriyalarını təsbit edir. Bunun məntiqi nəticəsi olaraq, *"dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir"* və bu kriteriyalara əsasən, insan və vətəndaş hüquqları və azadlıqlarının məhdudlaşdırılmasını qadağan edir (25-ci maddənin 3 və 4-cü bəndləri). Yuxarıda qeyd olunan kriteriyaları əsas götürdükdə hər kəsin toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır (25-ci maddənin 4-cü bəndi). Qərar qəbul etmə prosesində iştirak etmək və dövlət orqanlarına müraciət etməklə də əlaqədar bərabərlik prinsipi tətbiq edilir (25-ci maddənin 5-ci bəndi). Konstitusiyanın 34-cü maddəsi ailə münasibətlərində ər ilə arvadın bərabər hüquq və vəzifələrə malik olduğunu nəzərdə tutur. Konstitusiyanın 69-cu maddəsinə əsasən, *"əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər. Azərbaycan Respublikası ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqları yalnız beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq məhdudlaşdırıla bilər."*

Konstitusiyanın insan hüquqları və azadlıqlarını nəzərdə tutan müddəaları prinsip etibarı ilə *"hamı üçün"* şamil olunur. Lakin, eyni zamanda, bu baxımdan bir sıra məhdudiyyətlər və

istisnalar da mövcuddur. Xüsusən də 42-ci maddə (Təhsil hüququ), 55-ci maddə (Dövlətin idarə olunmasında iştirak etmək hüququ), 56-cı maddə (Seçki hüququ) və 57-ci maddə (Müraciət etmək hüququ) yalnız *"Azərbaycan Respublikası vətəndaşlarına"* şamil olunur. Bundan başqa, Konstitusiyanın 53-cü maddəsində əsasən, "Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz." Bu isə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qanunla müəyyən edilmiş qaydada məcburən ölkədən çıxarılması deməkdir, baxmayaraq ki, Azərbaycan Respublikasının öz üzərinə götürdüyü öhdəliklər arasında mütləq xarakter daşıyan*" geri qaytarmamaq"* prinsipinə hörmətlə yanaşıldığı nəzərdə tutulur. *"Geri qaytarmamaq"* prinsipinə gəldikdə Azərbaycan Respublikasının "Cinayət törətmiş şəxslərin verilməsi (Ekstradisiya) haqqında" 15 may 2001-ci il tarixli Qanunu "verilməsi nəticəsində sorğu edilən şəxsin sorğu edən dövlətdə işgəncələrə, yaxud qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara, yaxud cəzaya məruz qalacağını güman etməyə kifayət qədər əsaslar olduqda"[281] və ya "verilməsi nəticəsində sorğu edilən şəxsin irqinə, milliyyətinə, dilinə, dininə, vətəndaşlığına, siyasi baxışlarına və ya cinsinə görə təqibə məruz qalmasını güman etməyə kifayət qədər əsaslar olduqda"[282] ekstradisiya haqqında sorğuya rədd cavabının verilməsini nəzərdə tutur.

Vətəndaşlıq məsələsilə sıx əlaqədə olan bəzi hüquqların məhdudlaşdırılmasının beynəlxalq standartlara uyğun olduğunu hesab etmək olsa da, bir sıra konkret hüquqların Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrdə əks olunmuş insan hüquqları ilə müqayisədə daha məhdud xarakter daşıdığını qeyd etmək olar. Məsələn, Konstitusiyanın 55-ci maddəsinə əsasən, dövlətin idarə olunmasında iştirak etmək hüququ Azərbaycan Respublikası vətəndaşlarına məxsusdur. Bu hüququn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə şamil edilməsinə gəldikdə isə sözügedən maddə bunları nəzərdə tutur: "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət qulluğuna qanunla müəyyənləşdirilmiş qaydada qəbul edilə bilərlər." Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin dövlətin idarə olunmasında iştirak etmək hüququ ilə bağlı milli qanunlar və Konstitusiya əsasında tətbiq edilən məhdudiyyətlər beynəlxalq normalarla ziddiyyət təşkil etmədiyindən ayrı-seçkilik kimi qiymətləndirilə bilməz.

Lakin Konstitusiyanın 42-ci maddəsi təhsil almaq hüququnu yalnız "hər bir vətəndaşa" şamil etməklə məhdudlaşdırır. Bu bir sıra beynəlxalq sənədlərə uyğunluq baxımından bəzi məsələləri gündəmə gətirir. Bununla əlaqədar olaraq təhsil almaq hüququnun ümumbəşəri hüquq hesab olunduğunu qeyd etmək yerinə düşər. Dünya səviyyəsində bu hüquq ibtidai təhsilin hamı üçün icbari və pulsuz olmasının, hamı üçün eyni səviyyədə əlçatan olan orta təhsilin inkişaf etdirilməsinin, xüsusilə də tədricən pulsuz orta təhsilin tətbiq edilməsinin və pulsuz ali təhsilə keçmək yolu ilə təhsilin açıq və hamıya şamil olunmasının təmin edilməsini nəzərdə tutan bir hüquq kimi "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt vasitəsilə tanınır. Eyni zamanda, təhsil hüququ ibtidai təhsil almamış və ya onu tam bitirməmiş şəxslər üçün bu təhsilin verilməsi məsuliyyətinin də iştirak edən dövlətlər tərəfindən öz üzərlərinə götürülməsini də nəzərdə tutur. Bundan başqa, təhsil hüququ ilə bağlı bu müddəalarla yanaşı, təhsil hüququ təhsil sisteminin bütün səviyyələrində ayrı-seçkiliyin yol verilməzliyi, təhsil üçün minimal standartların müəyyənləşdirilməsi və təhsilin keyfiyyətinin təkmilləşdirilməsi öhdəliklərini də özündə əks etdirir. Bu məqamlar YUNESKO-nun "Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında" 1960-cı il Konvensiyasında və "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" 1981-ci il Konvensiyasında bir daha öz təsdiqini tapmışdır. Bu məsələ ilə əlaqədar regional səviyyədə (Avropa səviyyəsində) AİHK-nın Əlavə Protokolunun 2-ci maddəsi qeyd olunmaya bilməz: bu maddənin müddəaları təhsil hüququnun təhsili və tədrisi təmin etmək hüququ kimi müəyyənləşdirildiyini təsdiq edir. Misal üçün qeyd etmək olar ki, AİHM bu normanı Strasburqda baxdığı "Belçikada dildən istifadə" işində tətbiq etmişdir. ASX isə 10-cu maddədə

[281] Cinayət törətmiş şəxslərin verilməsi (Ekstradisiya) haqqında Qanunun 3.2.2-ci maddəsi.
[282] Həmin qanunun 3.2.3-cü maddəsi.

peşə təhsili almaq hüququ ilə bağlı məsələləri özündə əks etdirir.[283] Sonda heç də az əhəmiyyət kəsb etməyən Azərbaycan Respublikası tərəfindən 1990-cı ildə ratifikasiya edilmiş "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında" 1990-cı il Konvensiyasının 30-cu maddəsində əməkçi miqrantların uşaqlarının heç bir ayrı-seçkiliyə yol verilmədən təhsil almaq hüququnun bir daha vurğulandığını xatırlamaq vacibdir.

5.1.2. Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilmiş beynəlxalq sənədlər

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla digər normativ hüquqi aktlardan üstün olan qanuni qüvvəyə malikdir.

Konstitusiyanın 151-ci maddəsinə əsasən, *"Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilələr tətbiq edilir."* Bu baxımdan qeyd etmək olar ki, "Daxili qanunlar və beynəlxalq müqavilələrə riayət etmə haqqında" Vyana Konvensiyasının 27-ci maddəsi dövlətlərin tərəfdar çıxdıqları müqavilələrə riayət etməmələrini öz milli qanunlarının müddəalarını həyata keçirilməsilə əsaslandırmalarının yol verilməzliyini nəzərdə tutur (*"pacta sunt servanda"* prinsipi). Lakin hər bir dövlət beynəlxalq normaların tətbiqinə dair öz daxili mexanizmlərini və qaydalarını müəyyən etmək hüququna malikdir. Konkret olaraq Azərbaycan Respublikasına gəldikdə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr ratifikasiya edildikdən sonra Azərbaycan Respublikasının hüquq sisteminin ayrılmaz tərkib hissəsidir (Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin 2-ci bəndi).

Avropa səviyyəsində Azərbaycan Respublikası 1950-ci il noyabrın 4-də qəbul edilmiş və Azərbaycan Respublikasında 2002-ci il aprelin 15-də qüvvəyə minmiş "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyaya(AİHK)/CETS No005 qoşulmuşdur. Eyni zamanda, Azərbaycan Respublikası artıq imzaladığı, lakin, ratifikasiya etmədiyi 4 noyabr 2000-ci il tarixli, 12 saylı (ayrı-seçkiliyə qadağanın əhatə dairəsini genişləndirən)[284] Protokolu/CETS No. 177, həmçinin hələ imzalamadığı 3 may 2002-ci il tarixli, 13 saylı (bütün hallarda ölüm cəzasını ləğv edən) Protokolu/CETS No187 və 24 iyun 2013-cü il tarixli, 15 saylı (AİHM-ə müraciət etmə proseduruna düzəlişlər edən) Protokolu/CETS No213 çıxmaq şərti ilə AİHK-nın Əlavə Protokollarını da ratifikasiya etmişdir.

Bundan başqa, Azərbaycan Respublikası AŞ-nın ayrı-seçkiliyə qarşı əlavə müdafiəni nəzərdə tutan bir sıra digər müqavilələrinə də qoşulmuşdur. Konkret olaraq Azərbaycan

[283] ASXD-nin tətbiqi sahəsinə aid Əlavəsinin 1-ci bəndinə əsasən təhsil hьququ yalnəz bir Tərəfin ərazisində qanuni əsaslarla yaєayan və mьvafiq olaraq digər Tərəfin vətəndaşə olan əcnəbilərə verilir. Buna baxmayaraq, Sosial Hьquqlar ьzrə Avropa Komitəsi (SHAK) bu Əlavədə verilmiю anlayəюa uypun gəlməyən əhalinin hər hansə bir hissəsinin ASX-də nəzərdə tutulmuє єəxsi həyatən toxunulmazləpə hьququ, юərəf və ləyaqətin toxunulmazləpə hьququ kimi hьquqlardan məhrum edilməsinin yol verilməzliyi barədə qərar qəbul etmiєdir (*COHRE-nin Ətaliya Respublikasəna qarюə* SHAK-dakə iюi, Юərəf və ləyaqətin toxunulmazləpə hьququnun pozulmasə ilə baplə юikayət ərizəsi No58/2009, 25 iyun 2010-cu il, 33-cь paragraph).

[284] AİHK-nın 12 saylı Protokolu qanunla (o cümlədən milli qanunla) nəzərdə tutulmuş istənilən hüquqdan istifadəni bərabər rəftar əsasında təmin etməklə ayrı-seçkiliyə qadağanın əhatə dairəsini genişləndirir; 12 saylı Protokolun 1-ci maddəsi bəyan edir ki, "1. Qanunla nəzərdə tutulmuş istənilən hüquqdan istifadə cins, irq, rəng, dil, din, siyasi və ya digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərinə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır. 2. Heç kim 1-ci bənddə sadalanan hər hansı əsasa görə hər hansı dövlət hakimiyyəti orqanı tərəfindən ayrı-seçkiliyə məruz qalmamalıdır."

Respublikası 3 may 1996-cı il tarixli ASXD-yə[285]/CETS No163, "Nikahdankənar doğulmuş uşaqların hüquqi statusu haqqında" 15 oktyabr 1975-ci il tarixli Avropa Konvensiyasına/CETS No085, "İnsan alverinə qarşı mübarizə haqqında" 16 may 2005-ci il tarixli AŞ Konvensiyasına/CETS No197 və "Milli azlıqların müdafiəsi haqqında" 1 fevral 1995-ci il tarixli AŞ Çərçivə Konvesiyasına/CETS No157 qoşulmuşdur. Burada qeyd olunan bu Konvensiyaların hamısı ayrı-seçkiliyə qarşı əlavə müdafiəni nəzərdə tutur. Eyni zamanda, Azərbaycan Respublikası 5 noyabr 1992-ci il tarixli Regional dillərin və ya azsaylı xalqların dillərinin Avropa Xartiyasını/CETS No148 imzalasa da hələ ki, ratifikasiya etməyib.[286]

Ümumdünya səviyyəsində Azərbaycan Respublikası ayrı-seçkiliyin qadağa olunmasına dair məsələləri özündə əks etdirən və insan hüquqlarına aid bir çox müqaviləni ratifikasiya etmişdir. Konkret olaraq Azərbaycan Respublikası "Mülki və siyasi hüquqlar haqqında" 19 dekabr 1966-cı il tarixli Beynəlxalq Pakta, "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" 19 dekabr 1966-cı il tarixli Beynəlxalq Pakta, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" 21 dekabr 1965-ci il tarixli Beynəlxalq Konvensiyaya, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" 18 dekabr 1979-cu il tarixli Konvensiyaya, "İşgəncələr və digər qəddar, qeyri-insani və alçaldıcı rəftar və ya cəza əleyhinə" 4 fevral 1985-ci il tarixli Konvensiyaya, 20 noyabr 1989-cu il tarixli ÜHK-ya və 13 dekabr 2006-cı il tarixli ƏHK-ya qoşulmuşdur. Eyni zamanda, Azərbaycan Respublikası "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanın, "İşgəncələr və digər qəddar, qeyri-insani və alçaldıcı rəftar və ya cəza əleyhinə" Konvensiyanın və ÜHK-nın əlavə protokollarını da imzalamışdır.[287] Sonda "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında" Beynəlxalq Konvensiyanın da Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilməsi qeyd olunmalıdır.

5.1.3. Milli qanunvericilik

Azərbaycan Respublikasının milli qanunvericilik sistemində konkret olaraq ayrı-seçkiliyi[288] qadağan edən yeganə qanun 2006-cı il oktyabrın 10-da qəbul edilmiş "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanundur. Bu Qanunun məqsədi cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsindən ibarətdir. Sözügedən Qanun cinsi mənsubiyyətə görə ayrı-seçkiliyi *"cinsi qısnama, cinsi əsasda hüquqların bərabər həyata keçirilməsini məhdudlaşdıran və ya inkar edən istənilən fərq, istisna və ya üstünlük"* kimi müəyyənləşdirir (2.0.4-cü maddə). Eyni zamanda, həmin Qanunda cinsi qısnama anlayışı *"əmək və ya xidmət münasibətlərində olan şəxsi alçaldan və təhqir edən, başqa cinsə və ya cinsi orientasiyaya mənsubiyyətdən irəli gələn və fiziki hərəkətlərdə (toxunma, əllə vurma), ədəbsiz sözlərdə, jestlərdə, hədələrdə, ləkələyici təkliflərdə və ya dəvətlərdə təzahür edən əxlaqsız davranış"* kimi verilir. Qanun ayrı-seçkiliyə qarşı müdafiəyə dair sübut etmə yükünün bölüşdürülməsi kimi hansısa konkret mexanizmləri nəzərdə tutmur. Burada yalnız bəyan olunur ki, *"Bu Qanunun müddəalarının pozulmasında təqsirli olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar."* (18-ci maddə).

[285] Azərbaycan Respublikası ASXD-ni ratifikasiya etsə də kollektiv şikayətlərə dair prosedurları tanımır.

[286] Azərbaycan Respublikası tərəfindən imzalanmış və ratifikasiya edilmiş AŞ müqavilələrinin tam siyahısı ilə "http://conventions.coe.int/Treaty/Commun/Listestats.asp?Po=Aze&Ma=999&Cm=17&Cl=Eng" saytından tanış olmaq mümkündür.

[287] "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktın Fakültətiv Protokolu imzalansa da hələ ki, ratifikasiya edilməyib.

[288] Buna baxmayaraq, ayrı-seçkiliyə qarşı müdafiəyə dair müəyyən məsələləri əhatə edən və aşağıda verilmiş bir sıra qanunlar mövcuddur.

"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanun milli qanunvericiliklə müəyyənləşdirilmiş bəzi halların, o cümlədən kişi və qadınlar üçün fərqli pensiya yaşının, qadınlar üçün xüsusi əmək güzəştləri, imtiyazları və təminatlarının, kişi və qadınlar üçün cəzaçəkmə müəssisələrində fərqli şəraitin və ərin nikahın pozulmasını tələb etmək hüququnun[289] məhdudlaşdırılmasının ayrı-seçkilik hesab olunmadığını bəyan edir. Lakin, müəyyən kontekstdən asılı olaraq bu cür fərqli rəftar ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyi nöqteyi-nəzərindən diskriminativ xarakterli hesab edilə bilər. Məsələn, milli qanunvericiliyə əsasən, yeraltı işlərdə qadın əməyinin tətbiqinə qadağa xüsusi müdafiə tədbiri hesab edilsə də ASX-ya əsasən (1.2-ci maddə), ayrı-seçkilik halı kimi qiymətləndirilir (aşağıda verilmiş "Milli qanunvericiliyin beynəlxalq standartlara uyğunluğu" adlı bölmə 5.4-ə baxın).

Bu bölmədə qeyd olunmuş Qanunla yanaşı Azərbaycan Respublikasının bir sıra digər qanunlarında da ayrı-seçkiliyi qadağan edən müddəalar öz əksini tapıb və ayrı-seçkilik halları ilə bağlı müdafiə nəzərdə tutulur. Müvafiq qanunlar və konkret müddəalar aşağıda sadalanır:

Azərbaycan Respublikasının Əmək Məcəlləsi (1999-cu il fevralın 1-də qəbul edilimişdir)
Maddə 16. Əmək münasibətlərində ayrı-seçkiliyin yolverilməzliyi

1. Əmək münasibətlərində vətəndaşlığına, cinsinə, irqinə, dininə, milliyyətinə, dilinə, yaşayış yerinə, əmlak vəziyyətinə, ictimai-sosial mənşəyinə, yaşına, ailə vəziyyətinə, əqidəsinə, siyasi baxışlarına, həmkarlar ittifaqlarına və ya başqa ictimai birliklərə mənsubiyyətinə, qulluq mövqeyinə, həmçinin işçinin işgüzar keyfiyyətləri, peşəkarlıq səriştəsi, əməyinin nəticələri ilə bağlı olmayan digər amillərə görə işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verilməsi, həmin amillər zəminində bilavasitə və ya dolayısı ilə imtiyazların və güzəştlərin müəyyən edilməsi, habelə hüquqlarının məhdudlaşdırılması qəti qadağandır. İnsanın immunçatışmazlığı virusu ilə yaşayan şəxslərin işləməsinə yol verilməyən peşə növləri və vəzifələr istisna olmaqla, onları insanın immunçatışmazlığı virusuna yoluxması səbəbinə görə işə qəbul etməkdən, işdə irəli çəkməkdən imtina etmək və ya işdən azad etmək qadağandır. İşəgötürən işçinin insanın immunçatışmazlığı virusuna yoluxması barədə məlumata malik olduqda bu məlumatı açıqlamamalıdır.

2. Əmək münasibətləri prosesində işçilər arasında yuxarıda göstərilən ayrı-seçkiliyə yol verən işəgötürən və ya digər fiziki şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq məsuliyyət daşıyır.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi (1999-cu il dekabrın 28-də qəbul edilmişdir)
Maddə 8. Qanun və məhkəmə qarşısında bərabərlik

8.1. Mülki işlər və iqtisadi mübahisələr üzrə ədalət mühakiməsi hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipi əsasında həyata keçirilir.

8.2. Məhkəmə irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən, hüquqi şəxsin olduğu yerdən, tabeçiliyindən, mülkiyyət formasından və qanunda nəzərdə tutulmayan başqa fərqlərdən asılı olmayaraq işdə iştirak edən bütün şəxslərə eyni cür yanaşır.

8.3. Bu Məcəllənin 8.2-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə işdə iştirak edən şəxslərə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməz.

[289] Azərbaycan Respublikası Ailə Məcəlləsinin 15-ci maddəsi arvadın hamiləliyi dövründə və ya uşağın doğulmasından sonra 1 il müddətində arvadın razılığı olmadan ərin nikahın pozulmasını tələb etmək hüququnu məhdudlaşdırır.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi (2000-ci il iyulun 14-də qəbul edilmişdir)

Maddə 11. Hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi

11.1. Azərbaycan Respublikasında cinayət prosesi hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi əsasında həyata keçirilir.

11.2. Cinayət prosesini həyata keçirən orqanlar cinayət prosesində iştirak edən şəxslərdən hər hansı birinə vətəndaşlıq, sosial, cinsi, irqi, milli, siyasi və dini mənsubiyyətindən, dilindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, yaşayış yerindən və olduğu yerdən asılı olmayaraq və qanunla əsaslandırılmamış digər mülahizələrə görə üstünlük vermir.

11.3. Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin deputatları; Azərbaycan Respublikasının Baş naziri, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman), Məhkəmə-Hüquq Şurasının üzvləri və Azərbaycan Respublikasının hakimləri barəsində cinayət təqibinin xüsusiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası, bu Məcəllə və Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (2000-ci il iyulun 11-də qəbul edilmişdir)

Maddə 7. Qanun qarşısında bərabərlik prinsipi

7.1. İnzibati xəta törətmiş şəxslər irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən və digər hallardan asılı olmayaraq qanun qarşısında bərabərdirlər. Bu maddədə nəzərdə tutulmuş əsaslara görə heç kəs inzibati məsuliyyətə cəlb oluna və inzibati məsuliyyətdən azad oluna, yaxud heç kəsə inzibati tənbeh tətbiq oluna və ya daha yüngül inzibati tənbeh tətbiq edilə bilməz.

Bundan başqa, bu Məcəllə cinsi qısnamaya məruz qalmış işçilərə qarşı təzyiqin göstərilməsini qadağan edir. Konkret olaraq Məcəllənin 60-1-ci maddəsi (Cinsi qısnamaya məruz qalmış işçilərə qarşı təzyiqin göstərilməsi) *"cinsi qısnamaya görə işəgötürəndən və ya rəhbərindən şikayət etmiş işçiyə qarşı təzyiqin göstərilməsinə və ya işçinin təqib olunmasına görə vəzifəli şəxslərin 70 manatdan 90 manatadək miqdarda cərimə edilməsini"* nəzərdə tutur.

Azərbaycan Respublikasının Ailə Məcəlləsi (1999-cu il dekabrın 28-də qəbul edilmişdir)

Maddə 6. Ailə hüquqlarının həyata keçirilməsi və ailə vəzifələrinin yerinə yetirilməsi

6.1. Vətəndaşlar ailə hüquqlarını, habelə həmin hüquqların müdafiəsini, bu məcəllədə başqa qayda nəzərdə tutulmayıbsa, müstəqil həyata keçirirlər.

6.2. Ailənin bir üzvü öz hüquqlarını həyata keçirərkən və vəzifələrini yerinə yetirərkən ailənin başqa üzvlərinin və digər vətəndaşların hüquqlarını, azadlıqlarını və qanuni mənafelərini pozmamalıdır.

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi (2013-cü il iyulun 2-də qəbul edilmişdir)

Maddə 74. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqları

74.4. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onların sosial və əmlak vəziyyəti, irqi və milli mənsubiyyəti, cinsi, dili, dinə münasibəti, fəaliyyətinin növündən və xarakterindən və digər hallardan asılı olmayaraq, Azərbaycan Respublikasında qanun və məhkəmə qarşısında bərabərdirlər.

5.2. Ayrı-seçkiliklə bağlı iddiaların baxılması üçün milli hüquqi vasitələr: prosedurlar və nəticələr

5.2.1. Cinayət hüquqi təsir vasitələri

Azərbaycan Respublikasının 1999-cu il dekabrın 30-da qəbul edilmiş Cinayət Məcəlləsi bərabərlik hüququnu pozmaya görə cinayət məsuliyyətini nəzərdə tutur. Konkret olaraq müvafiq müddəalar aşağıdakı kimi verilir:

154.1. İrqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olaraq şəxsin hüquq və qanuni mənafelərinə zərər

154.2. Eyni əməllər vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə şərti maliyyə vahidi məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır vurmaqla şəxsin bərabərlik hüququnu pozma şərti maliyyə vahidi məbləğinin yüz mislindən beş yüz mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Hər hansı bir şəxs baş vermiş ayrı-seçkilik halı ilə əlaqədar cinayət işləri üzrə müstəntiqə və ya prokurora şikayət ərizəsi ilə, yaxud şifahi şəkildə müraciət edə bilər. Şikayət ərizəsi qeydə alınacaq və ərizəçi müvafiq nəticələr barədə məlumatlandırılacaq.

5.2.2. Mülki hüquqi vasitələr

Ayrı-seçkiliyə məruz qaldığını iddia edən hər bir şəxs cinayətkarın təqib edilməsi üçün mövcud mülki prosedurlardan istifadə etməkdə sərbəstdir. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 5.1-ci maddəsinə əsasən, hər hansı şəxs öz hüququnun və ya qanunla qorunan mənafeyinin müdafiəsi üçün məhkəməyə müraciət edə bilər.

Şikayət ərizəsi ayrı-seçkilik halının baş verdiyi ərazi üzrə rayon/şəhər məhkəməsinə[290] göndərilir. İddiaçı birinci instansiya məhkəməsi tərəfindən qəbul edilmiş qərarla əlaqədar apellyasiya məhkəməsinə şikayət etmək hüququna malikdir.[291] Apellyasiya məhkəməsi tərəfindən qəbul edilmiş qərarla əlaqədar isə Ali Məhkəməyə müraciət oluna bilər.[292]

İddiaçı Azərbaycan Respublikası "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunun 17-ci, Mülki Prosessual Məcəlləsinin 21-ci və Əmək Məcəlləsinin 290-cı maddələrinə uyğun olaraq zərərin ödənilməsini tələb etmək hüququna malikdir.

5.2.3. İnzibati-iqtisadi məhkəmələr

Hüquqlarının inzibati orqan tərəfindən pozulduğunu iddia edən hər bir şəxs aidiyyatı inzibati-iqtisadi məhkəməyə iddia ərizəsi ilə müraciət etmək hüququna malikdir.[293] İnzibati şikayətlərin təqdim edilməsi proseduru 2009-cu il iyunun 30-da qəbul edilmiş və 2011-ci il yanvarın 1-də qüvvəyə minmiş Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə tənzimlənir. Məhkəmə mövcud qanuna zidd olaraq qəbul edilmiş və iddiaçının hüquqlarını pozan inzibati

[290] Azərbaycan Respublikasında birinci instansiya məhkəmələri kimi şəhər/rayon məhkəmələrindən, ikinci instansiya məhkəmələri kimi apellyasiya məhkəmələrindən və kassasiya məhkəməsi kimi Ali Məhkəmədən ibarət üçpilləli məhkəmə sistemi mövcuddur.

[291] Apellyasiya məhkəməsinin yurisdiksiyası ilə əlaqədar ətraflı informasiya əldə etmək üçün Azərbaycan Respulikasındakı məhkəmələrin fəaliyyəti haqqında rəsmi informasiya təqdim edən "www.courts.gov.az" saytına baxın.

[292] Məhkəməyə müraciət qaydaları haqqında daha ətraflı məlumatlarla Hafiz Həsənov və Aynur Quliyevanən müəllifliyi ilə "Məhkəməyə mьraciət qaydalarэ" adlə məlumat kitabэasəndan tanэю olmaq olar. Mənbə: http://www.osce.org/az/baku/41650?download=true

[293] İnzibati işlərə məhkəmədə baxılması haqqında daha ətraflı məlumat əldə etmək üçün Hafiz Həsənov və Aynur Quliyevanın müəllifliyi ilə "İnzibati ədliyyə" adlı məlumat kitabçası ilə (yalnız Azərbaycan dilində mövcuddur) tanış olun. Məhkəmələrin ərazi yurisdiksiyasına aid konkret məlumatları "http://courts.gov.az/courts/administrative_economic_courts" saytından əldə etmək olar.

aktın ləğv edilməsi barədə qərar çıxara bilər. Məhkəmə iddiaçının hüquqlarının bərpa edilməsi üçün müvafiq tədbirlərin görülməsi barədə qərar qəbul edə bilər və ya iddiaçı ilə əlaqədar inzibati orqanın üzərinə öhdəlik qoya bilər (İnzibati Prosessual Məcəlləsinin 70-73-cü maddələri). İnzibati Prosessual Məcəlləsinin 34-cü maddəsinə əsasən, iddiaçı vurulmuş ziyana görə kompensasiyanın ödənilməsini də tələb edə bilər.

5.2.4. AİHK müddəalarının tətbiqi üçün məhkəmə mexanizmləri

2006-cı il martın 30-da Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu AİHM presedentlərinin milli səviyyədə tətbiqi haqqında qərar qəbul etmişdir. Bu Qərarda *"məhkəmələrin milli qanunvericilik ilə yanaşı, Konvensiya müddəalarını da rəhbər tutması və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsinə istinad etmələri"* nəzərdə tutulur." Məhkəmələr bu qərarı əsas götürərək insan hüquqlarının və azadlıqlarının icrası ilə bağlı qəbul etdiyi yazılı qərarlarda AİHM-in presedentlərinə istinad etməyə və bu presedentlərdən çıxarışları istifadə etməyə başlamışdır.

Eyni zamanda, milli qanunvericilik AİHM qərarlarının icrası ilə bağlı xüsusi prosedurları nəzərdə tutur. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 455-ci maddəsi məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə baxılması üçün əsasları özündə əks etdirir. Bu maddə digər məsələlərlə yanaşı, AİHK-nın pozulduğunun AİHM *tərəfindən müəyyən edilməsini hüquq və azadlıqların pozulması ilə bağlı məhkəmə aktlarına yeni hallar üzrə baxılması üçün əsas kimi hesab edilməsini nəzərdə tutur.* Bu isə Ali Məhkəmənin Plenumu tərəfindən işə yenidən baxılmanı əsaslandırır. Buna oxşar bir halda Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 431-1.2.2-ci maddəsi AİHK müddəalarının pozulduğunun AİHM tərəfindən müəyyən edilməsi əsasında işə Ali Məhkəmənin Plenumu tərəfindən yenidən baxılmasını nəzərdə tutur.

5.2.5. Ayrı-seçkiliyə qarşı mübarizə sahəsində məhkəmədən kənar müdafiə mexanizmləri

Dövlət orqanları

Azərbaycan Respublikası Konstitusiayasının 57-ci maddəsinin 1-ci bəndinə əsasən, *"Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir."*

1997-ci il iyunun 10-da qəbul edimiş Azərbaycan Respublikasının "Vətəndaşların müraciətlərinə baxılması qaydaları haqqında" Qanunu vətəndaşlar, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən təqdim olunan müraciətlərin baxılması prosesini tənzimləyən qaydaları müəyyənləşdirir.[294] Dövlət orqanlarına şikayət və müraciətlər yazılı və ya şifahi şəkildə (bir çox halda, həmçinin elektron formada) təqdim oluna bilər.[295] Anonim şikayət və müraciətlərə baxılmır.[296] Müraciətlərə bir qayda olaraq qanunvericiliklə başqa müddət nəzərdə tutulmamışdırsa 1 ay müddətinədək, əlavə öyrənilməsi və yoxlanılması tələb edilməyən müraciətə isə ən geci 15 gün ərzində baxılmalıdır.[297]

Eyni zamanda, müvafiq nazirliklərin daxili əsasnamələri şikayətlərin baxılması prosedurlarını tənzimləyən əlavə qaydaları nəzərdə tutur. Məsələn, Azərbaycan Respublikasının Əmək və Əhalinin Müdafiəsi Nazirliyi nəzdində Dövlət Əmək Müfəttişliyi haqqında Əsasnamə (2000-ci il

[294] Bu Qanunun 12-ci maddəsinə əsasən "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müraciətlərinə baxılması Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr ilə başqa qayda nəzərdə tutulmayıbsa, bu Qanunla tənzimlənir."
[295] Qanunun 5-ci maddəsi.
[296] Qanunun 7-ci maddəsi.
[297] Qanunun 10-cu maddəsi.

fevralın 9-da qəbul edilmişdir) vətəndaşların qəbulunu təmin etmək və şikayət, məktub, ərizələrə baxmaq məqsədi daşıyan konkret müddəaları özündə əks etdirir.[298] Bu Xidmət Azərbaycan Respublikası vətəndaşı olub-olmamasından asılı olmayaraq, bütün şikayətçilərin müraciətlərini qəbul edərək nəzərdən keçirir.

İcra hakimiyyəti orqanlarının çoxu "qaynar xətt" sisteminə malikdir və müraciətləri "on-layn" rejimində qəbul edir.[299] Bundan başqa, Azərbaycan Respublikası Prezidentinə də şikayətlə müraciət etmək imkanları mövcuddur.[300] Aidiyyəti dövlət orqanları ərizəçini onun şikayətinə baxılması nəticəsində qəbul edilmiş qərarlar barədə yazılı şəkildə məlumatlandırmalıdır. Qanun pozuntusu baş verdiyi halda aidiyyəti dövlət orqanları aşağı inzibati orqanların qərarlarını ləğv edə bilər və ya onların üzərinə müvafiq qanunvericiliyə əməl etmək öhdəliyini qoya bilərlər. Şikayətçi çıxarılmış qərarla (və ya müraciətin cavabsız qalması ilə) əlaqədar inzibati-iqtisadi məhkəməyə müraciət edə bilər. Şikayət ərizəsi bir qayda olaraq icra hakimiyyəti orqanının yerləşdiyi ərazi üzrə təqdim olunmalıdır.[301]

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman)

Ayrı-seçkiliyə məruz qaldığını iddia edən şəxs onun hüquqlarının, o cümlədən diskriminativ şəkildə pozulması barədə İnsan hüquqları üzrə müvəkkilə (Ombudsmana) müraciət edə bilər. Ombudsmanın fəaliyyəti 2001-ci il dekabrın 28-də qəbul edilmiş (bundan sonra "Ombudsman haqqında" Qanun" adlandırılacaq) "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə tənzimlənir. "Ombudsman haqqında" Qanun qəbul edildikdən sonra 2002-ci il iyulun 2-də Azərbaycan Respublikasının İnsan hüquqları üzrə ilk müvəkkili (Ombudsmanı) seçilmişdir.

Yuxarıda qeyd olunmuş qanuna əsasən, Müvəkkil yazılı və şifahi şikayətlər qəbul etmək səlahiyyətinə malikdir.[302] Şikayətdə ərizəçinin adı, atasının adı, soyadı, ünvanı göstərilməli, eləcə də ərizəçinin iddia olunan diskriminativ rəftara məruz qalmasına səbəb olmuş qərar və ya hərəkətin (hərəkətsizliyin) mahiyyəti, şikayətin tərtib edilmə yeri, vaxtı və ərizəçinin imzası olmalıdır. Şikayətlə bağlı başqa sənədlər olduqda, həmin şikayətə əlavə edilə bilər. Anonim şikayətlərə bir qayda olaraq baxılımır, əgər göstərilən hallar kifayət qədər sübutlara əsaslanmırsa. Şikayət şifahi verildikdə müvəkkil aparatının işçisi şikayətin məzmununu xüsusi blankda qeyd edir və ərizəçi həmin vərəqi imzalayır.[303] Ərizəçinin xahişi ilə Müvəkkil onun barəsində məlumatları gizli saxlamalıdır.[304] Şikayəti insan hüquqları pozulmuş şəxsin razılığı ilə üçüncü şəxslər, o cümlədən QHT-lər verə bilərlər. İnsan hüquqları pozulmuş şəxsin razılığını almaq mümkün olmadıqda (həmin şəxs vəfat etdikdə, fəaliyyət qabiliyyətini itirdikdə və s.), şikayəti üçüncü şəxslər və ya QHT-lər razılıq almadan da verə bilərlər.[305]

Şikayət ərizəçinin hüquqlarının pozulduğu və ya ona bu barədə məlum olduğu gündən bir il müddətində verilə bilər.[306] Cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında, müvəqqəti saxlanılma yerlərində saxlanılan şəxslər tərəfindən ünvanlanmış şikayətlər senzuradan

[298] Maddə II, paraqraf 8.9.
[299] Bu orqanlara məxsus veb-səhifələrin ünvanları ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin "http://cabmin.gov.az/?/az/content/126/" veb-səhifəsindən tanış olmaq olar.
[300] Azərbaycan Respublikası Prezidentinə müraciət etmə proseduru Prezidentin "http://az.president.az/letters/rules" veb-səhifəsində izah olunur.
[301] Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 8-ci maddəsi.
[302] Mənbə: http://ombudsman.gov.az/view.php?lang=az&menu=59.
[303] "Ombudsman haqqında" Qanunun 9.4-cü maddəsi.
[304] Həmin Qanunun 9.5-ci maddəsi.
[305] Həmin Qanunun 8.2-ci maddəsi.
[306] Həmin Qanunun 8.4-cü maddəsi.

keçirilmədən 24 saat müddətində Müvəkkilə göndərilməlidir.[307] Əlaqədar şəxsin bu hüququ pozulduqda o, prokurorluğa və ya məhkəməyə müraciət edə bilər.

Müvəkkil insan hüquqlarının pozulması hallarını aşkar etdikdə, aşağıdakı tədbirləri həyata keçirə bilər (Sözügedən Qanunun 13-cü maddəsi):

13.2.1. qərar və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində insan hüquqlarını pozmuş dövlət və yerli özünüidarə orqanlarından, vəzifəli şəxslərdən həmin hüquqların bərpasını tələb etmək (müvafiq orqanlar, vəzifəli şəxslər 10 gün müddətində Müvəkkilə görülən tədbirlər barədə yazılı surətdə məlumat verməlidirlər. Məlumat verilmədiyi və ya Müvəkkilin tələbləri həyata keçirilmədiyi hallarda, Müvəkkil həmin təşkilatın yuxarı orqanına və ya digər dövlət orqanlarına müraciət edə bilər);

13.2.2. cinayət əlamətləri aşkar edildikdə, müvafiq orqanlara cinayət işinin başlanması barədə müraciət etmək;

13.2.3. əlavə kassasiya qaydasında şikayət etmək hüququna malik olan subyektlərə müraciət etmək;

13.2.4. qərar və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində insan hüquqlarını pozmuş vəzifəli şəxslərin intizam məsuliyyətinə cəlb edilməsi barədə müvafiq orqanlara təkliflər vermək;

13.2.5. insan hüquqlarının pozulması ilə əlaqədar aparılmış yoxlamaların nəticələri ilə kütləvi informasiya vasitələrini tanış etmək;

13.2.6. insan hüquqlarının pozulması xüsusi ictimai əhəmiyyət kəsb edən hallarda onların bərpası üçün Müvəkkilin səlahiyyətində olan təsir imkanları kifayət etmədikdə, Azərbaycan Respublikası prezidentinə müraciət etmək, Azərbaycan Respublikası Milli Məclisi qarşısında məruzə ilə çıxış etmək;

13.2.7. dövlət və ya yerli özünüidarə orqanının, vəzifəli şəxsin qərarı və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində pozulmuş hüquqların bərpası üçün məhkəməyə müraciət etmək;

13.2.8. şəxsin hüquqları qüvvədə olan normativ aktlarla pozulduqda, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək.[308]

5.2.6. Ayrı-seçkiliyə qarşı mübarizə sahəsində hüquqi vasitələrin səmərəliliyi

Azərbaycan Respublikasının milli qanunvericilik aktlarında ayrı-seçkiliyə qarşı müvafiq hüquqi vasitələr nəzərdə tutulsa da bu vasitələrdən geniş şəkildə istifadə olunmur. Ayrı-seçkiliklə əlaqədar məhkəmələr tərəfindən baxılmış mülki və ya cinayət işlərinin sayı barədə rəsmi statistik məlumatlar mövcud deyil. Çox güman ki, bu vəziyyəti belə bir maddi hüququn və onu təmin edən hüquqi vasitələrin mövcudluğu barədə geniş ictimaiyyətin az məlumatlı olması ilə əlaqələndirmək olar. Başqa bir səbəb əhalinin aztəminatlı təbəqəsi və miqrantlar üçün faktiki hüquqi yardımın olmaması ilə izah oluna bilər. Milli qanunvericilikdə cinayət və mülki işlərin aparılması zamanı hüquqi yardımın göstərilməsi formal olaraq nəzərdə tutulsa da Azərbaycan Respublikasında dövlət tərəfindən maliyyələşdirilən səmərəli hüquqi yardımdan istifadə hüququ faktiki olaraq mövcud deyil. Geniş şəkildə ehtimal olunur ki, Azərbaycan Respublikasında bu cür səmərəli hüquqi yardım mexanizmlərinin olmaması ayrı-seçkiliklə bağlı işlərdə məhkəmə sistemindən istifadə etmə prosesi qarşısında ciddi maneələr törədir.

5.3. Azərbaycan Respublikası tərəfindən qəbul edilmiş beynəlxalq hüquqi müdafiə mexanizmləri: prosedurlar və nəticələr

Azərbaycan Respublikası BMT-nin 4 Komitəsinə, daha konkret desək "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın icrasına nəzarət edən İHK-ya, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanın icrasına nəzarət edən

[307] Həmin Qanunun 8.5-ci maddəsi.

[308] Ombudsmanın fəaliyyəti və şikayətlərin təqdim olunması barədə daha ətraflı məlumatla "http://ombudsman.gov.az/view.php?lang=az&menu=59" saytından tanış olmaq olar.

Qadınlara qarşı Ayrı-seçkiliyin Ləğv edilməsi Komitəsinə, CERD-in icrasına nəzarət edən İrqi Ayrı-seçkiliyin Ləğv edilməsi üzrə Komitəyə və "İşgəncələr və digər qəddar, qeyri-insani və alçaldıcı rəftar və ya cəza əleyhinə" Konvensiyanın icrasına nəzarət edən İşgəncələrə qarşı Komitəyə fərdi şəkildə şikayət etmək hüququnu tanıyır.[309]

Avropa səviyyəsində isə Azərbaycan Respublikası 2002-ci il aprelin 15-də AİHM-in yurisdiksiyasını tanımışdır.[310] AİHK tərəfindən təmin olunan hüquqlardan hər hansı birinin həyata keçirilməsi zamanı ayrı-seçkilik halı baş verərsə AİHK-nın 14-cü maddəsinə əsasən, zərər çəkmiş şəxs öz şikayət ərizəsini AİHM-ə təqdim edə bilər.[311] Ayrı-seçkiliyə qarşı ümumi müdafiəni nəzərdə tutan 12 saylı Protokol Azərbaycan Respublikası tərəfindən imzalansa da ratifikasiya edilməyib.

Azərbaycan Respublikası ASXD-yə qoşulsa da bu Xartiyanın pozulması ilə əlaqədar ECSR-ə kollektiv şəkildə şikayətlər təqdim etmək hüququnu tanıyan 9 noyabr 1995-ci il tarixli Əlavə Protokola/CETS No158 qoşulmayıb.

5.4. Milli qanunvericiliyin beynəlxalq standartlara uyğunluğu

Azərbaycan Respublikasının qanunvericilik aktlarının bəzi müddəaları vətəndaşlıq mənsubiyyəti zəminində diskriminativ xarakterli hesab oluna bilər. Məsələn, 1992-ci il avqustun 20-də qəbul edilmiş Azərbaycan Respublikasının "Dini etiqad azadlığı haqqında" Qanununun 1-ci maddəsinin 4-cü bəndi və Miqrasiya Məcəlləsinin 76.6-cı maddəsi əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən dini təbliğat aparılmasını qadağan etməklə vətəndaşlıq mənsubiyyəti zəminində vicdan azadlığını məhdudlaşdırır. Bu məhdudiyyət vicdan azadlığından hərtərəfli istifadə etmə prinsipi ilə ziddiyyət təşkil edir. Daha konkret desək bu məhdudiyyət vicdan azadlığını nəzərdə tutan AİHK-nın 9-cu maddəsinə ziddir. Bu AŞ Venesiya Komissiyasının Azərbaycan Respublikası "Dini etiqad azadlığı haqqında" Qanununa dair 681/2012 saylə Birgə Rəyində də öz təsdiqini tapmışdır. Komissiya Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanlarına *"proselitizmə müvafiq qaydada və birmənalə şəkildə icazə verməyi və 1-ci maddənin 4-cü bəndindən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən dini təbliğat aparılmasına dair qadağanı çıxarmağı"* tövsiyə etmişdir.

Eyni zamanda, ECSR Azərbaycan Respublikası tərəfindən ASXD-nin 1, 9, 20 və 24-cü maddələrinin icrasına dair 2012-ci il üzrə Qənaətlərində ayrı-seçkiliyə aid işlərdə sübut etmə yükünün bölüşdürülməsinə əməl olunmadığını və əcnəbilərin dövlət qulluğuna işə qəbul edilməsi qadağasının Xartiya tərəfindən nəzərdə tutulmuş hallardan kənara çıxdığını əsas gətirərək Azərbaycandakı vəziyyətin ASXD-nin 1-ci maddəsinin 2-ci bəndinə (1-ci maddə "Əmək hüququ", 2-ci bənd "Sərbəst əmək fəaliyyəti" (həmçinin (ayrı-seçkiliyin yol verilməzliyi, məcburi əməyin qadağan olunması və digər aspektlər)) uyğun olmaması qənaətindədir.[312] Gender zəminində ayrı-seçkiliyə gəldikdə, Komitə gender zəminində ayrı-seçkiliyə aid işlərdə sübut etmə yükünün bölüşdürülməsinə əməl olunmadığını və əmək şəraiti ağır, zərərli olan iş yerlərində, habelə yeraltı tunellərdə, şaxtalarda və digər yeraltı işlərdə qadın əməyinin

[309] Fərdi qaydada şikayət etmə mexanizmləri vasitəsilə BMT-yə şikayət təqdim etmək üçün ətraflı qaydalar "http://www2.ohchr.org/english/bodies/petitions/individual.htm" saytında (ingilis dilində) verilir.
[310] 2001-ci il dekabrın 25-də Azərbaycan Respublikasının Parlamenti (Milli Məclis) AİHK-nı ratifikasiya etmişdir. 2002-ci il aprelin 15-də isə ratifikasiya haqqında sənəd AŞ-nin Baş katibinə təqdim olunmuşdur.
[311] AİHM-ə müraciət etmək üçün sənədlərin siyahısı və müraciət etmə proseduru barədə ətraflı məlumatlarla "http://echr.coe.int/Documents/PO_pack_AZE.pdf" saytından Azərbaycan dilində tanış olmaq olar.
[312] Komitə konkret olaraq bəyan etmişdir ki, *"Vətəndaşlıq zəminində ayrı-seçkiliyə gəldikdə Komitə dövlət qulluğunda mövcud olan iş yerlərinin vəzifədən və hakimiyyət səlahiyyətlərindən asılı olmayaraq Azərbaycan Respublikası vətəndaşları üçün nəzərdə tutuluduğunu qeyd edir. Komitə əcnəbilərin dövlət qulluğuna işə qəbul edilməsi məhdudiyyətinin/qadağasının Xartiya tərəfindən nəzərdə tutulmuş hallardan kənara çıxdığını müəyyən edir."*

tətbiqinin qanunvericiliklə qadağan edilməsini əsas gətirərək Azərbaycandakı vəziyyətin ASXD-nin 20-ci maddəsinə uyğun olmaması qənaətinə gəlmişdir.[313]

5.5 Yekun müşahidələr

Ayrı-seçkilik barədə iddialar əsasında məhkəmə və məhkəmədənkənar işlərin və/və ya araşdırmalarının məhdud sayda olması Azərbaycan cəmiyyəti və təsisatlarının ayrı-seçkilik anlayışı, onun mümkün formaları və baş verə biləcək fəsadları ilə daha yaxşı tanış olmalarını təklif etməyə dəlalət edir.

Bu səpkidən olan ilk tövsiyə müxtəlif qanunvericilik aktlarında əks olunmuş ayrı-seçkiliyi qadağan edən normaların təkmilləşdirilərək Miqrasiya Məcəlləsi kimi vahid bir qanun şəklində işlənib hazırlanmasından ibarətdir. Hal-hazırda ayrı-seçkiliyi qadağan edən normalar bir sıra müxtəlif qanunvericilik aktlarında pərakəndə şəkildə verildiyindən ilk öncə bu normaların tətbiqi səviyyəsini eyni bir vaxtda izləmək çətindir. Eyni zamanda, müxtəlif qanunvericilik aktlarında mövcud olan normaların təkmilləşdirilərək vahid formaya salınması ilə yanaşı, tətbiq olunan müxtəlif normalara uyğunluğu təmin etmək məqsədilə müvafiq mexanizmlər gücləndirilməlidir. Hazırda mövcud olan mexanizmlər çox zəif təəssürat bağışlayır və baş verən zorakılıq hallarının səmərəli şəkildə öhdəsindən gəlmək iqtidarında deyil.

İkinci tövsiyə ondan ibarətdir ki, ayrı-seçkiliyi yaradan səbəblərin və ayrı-seçkiliyə qarşı mübarizə sahəsində mövcud olan milli və beynəlxalq qanunvericiliyin mənimsənilməsi, ayrı-seçkilik hallarının müəyyənləşdirilməsi və nə zaman baş verməsindən asılı olmayaraq bu halların qarşısının alınması üçün daha əsaslı bacarıqların inkişaf etdirilməsi məqsədilə aidiyyəti dövlət qulluqçuları üçün təlimlərin təşkili çox vacibdir.

Üçüncü tövsiyəyə əsasən, bəzi rəftar növlərinin, o cümlədən “mədəni və ictimaiyyət tərəfindən məqbul hesab edilən” kontrakt əsasında münasibətlərin faktiki olaraq diskriminativ xarakter daşıdığını insanlar tərəfindən dərk edildiyini təmin etmək məqsədilə geniş ictimaiyyət arasında ayrı-seçkiliyə aid məlumatlandırma kampaniyalarının keçirilməsi məqsədəuyğun olardı.

[313] Azərbaycan Respublikasının Əmək Məcəlləsi əmək şəraiti ağır, zərərli olan iş yerlərində, habelə yeraltı tunellərdə, şaxtalarda və digər yeraltı işlərdə qadın əməyinin tətbiqini qadağan edir (Maddə 241. “Qadın əməyinin tətbiqi qadağan olunan iş yerləri və işlər”).

6. Ayrı-seçkiliyi qadağan edən qanunvericilikdə sübuta əsaslanan məsələlər

6.1. Giriş

Ayrı-seçkilik faktını açıq və asan yollarla müəyyən etmək heç də adi bir iş hesab olunmamalıdır. Hətta fərqli rəftar zərərçəkmiş şəxsin təqdim etdiyi sübutlardan "açıq şəkildə" görünsə də, adətən birbaşa ayrı-seçkilik faktının sübuta yetirilməsi mürəkkəb bir məsələdir. 2-ci fəsildə müzakirə olunduğu kimi, bir qayda olaraq fərqli rəftarın əsası ya açıq şəkildə görünmür, ya da ilk baxışdan başqa bir faktora aid edilir (məsələn, pensiyaya çıxan şəxs üçün nəzərdə tutulan müavinətlər müdafiə olunan əsas kimi ilk növbədə onun yaşı ilə əlaqələndirilir). Bu baxımdan nisbətən nadir hallarda bu cür işlərə rast gəlmək olar ki, şəxslər fərqli rəftarın əsası kimi müdafiə olunan əsaslardan birini açıq şəkildə bəyan etsinlər. Belə bir hala istisna kimi *Ferinin* işini göstərmək olar: Belçikada şirkət sahibi bir nəfər belə immiqrantın onun şirkətinə işə götürülməyəcəyini reklam vasitəsilə və şifahi şəkildə bəyan etmişdir.[314] AƏM bunun birmənalı şəkildə irqi mənsubiyyət və ya etnik mənşə əsasında birbaşa ayrı-seçkiliyə aid bir iş olduğunu müəyyən etmişdir. Lakin cavabdehlər bir qayda olaraq başqaları ilə müqayisədə kiminləsə qeyri-münasib şəkildə rəftar etdiklərini bəyan etmirlər və bunu nə səbəbdən etdiklərini göstərmirlər. Qadın hansısa işlə əlaqədar rədd cavabı ala bilər və ona işə qəbul olunmuş kişilə müqayisədə sadəcə olaraq "az təcrübəli" olması bildirilə bilər. Belə vəziyyətdə zərərçəkmiş şəxsə cinsi mənsubiyyətinə görə birbaşa ayrı-seçkiliyə məruz qaldığını sübuta yetirmək çətin ola bilər.

Fərqli rəftarın müdafiə olunan əsaslar zəmimində baş verdiyinin sübuta yetirilməsilə bağlı çətinliklərin öhdəsindən gəlmək üçün ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyi sübut etmə yükünün bölüşdürülməsinə icazə verir. Müvafiq olaraq, iddiaçı ayrı-seçkiliyin baş verməsilə bağlı ehtimal olunan səbəblərə aid faktlar nümayiş etdirmək iqtidarında olarsa, iddianın əksini sübut etmə yükü cavabdehin üzərinə düşür. Sübut etmə yükünün bölüşdürülməsi, xüsusən də dolayı ayrı-seçkiliklə bağlı işlərlə əlaqədar gərəklidir, çünki burada konkret hüquqi normaların və ya təcrübənin əlaqədar qrupa tənasübsüz təsirə malik olduğunu sübuta yetirmək tələb olunur.

Dolayı ayrı-seçkiliklə bağlı vəsatət qaldırmaq üçün iddiaçının fərqli rəftara aid ümumi misalları sübuta yetirən statistik məlumatlara istinad etməsi tələb oluna bilər. Bəzi milli yurisdiksiyalar "işin hallarının yoxlanılması" nəticəsində əldə olunmuş dəlilləri qəbul edir.

6.2. Sübut etmə yükünün bölüşdürülməsi

Sübut etmə yükünün bölüşdürülməsi: diskriminativ rəftarın baş verdiyini ehtimal etmək üçün iddiaçı kifayət qədər dəlil təqdim etməlidir. Bu ayrı-seçkiliklə bağlı vəsatətin qaldırılmasına kömək edəcək, cavabdeh tərəf isə bunun yalan olduğunu sübuta yetirməli olacaq.

Şikayət ərizəsilə müraciət edən şəxsin qərar qəbul edən orqanı ayrı-seçkilik halının baş verməsi barədə əmin etməsi adi bir haldır. Lakin fərqli rəftarın müvafiq qanunvericiliklə müdafiə olunan əlamət əsasında baş verdiyini nümayiş etdirmək xüsusilə çətin bir məsələdir. Bu ona görə çətindir ki, fərqli rəftarın arxasında duran həqiqi səbəblər yalnız bu cür rəftara yol verən şəxsə bəllidir. Demək olar ki, ayrı-seçkiliklə bağlı iddialar adətən müvafiq hüquqi normadan və ya təcrübədən irəli gələn obyektiv nəticələrə əsaslanır. Başqa sözlə, məhkəmə əmin olmalıdır ki, fərqli rəftarın yeganə məntiqli izahı zərərçəkmiş şəxsin müdafiə olunan əlamətlərilə, məsələn, cinsi və ya irqi mənsubiyyətilə əlaqədardır. Bu prinsip birbaşa və dolayı ayrı-seçkilik hallarına bərabər şəkildə şamil edilir.

[314] *"Centrum voor gelijkheid van kansen en voor racismebestrijding"-nin "Firma Feryn NV"-yə qarşı* AƏM-dəki C-54/07 [2008] ECR I-5187 saylı, 10 iyul 2008-ci il tarixli işi.

Cavabdeh tərəf iddia ərizəsinin sübuta yetirilməsi üçün informasiyaya malik olduğundan ayrı-seçkiliyin qadağan olunması sahəsində qanunvericilik sübut etmə yükünün həmin cavabdeh tərəflə bölüşdürülməsinə icazə verir. Sübut etmə yükünün bölüşdürülməsi prinsipi AİHK-da və Aİ qanunvericiliyində əsaslı şəkildə təsbit olunur.[315]

Bu proses insan hüquqlarının regional və qlobal səviyyədə müdafiə mexanizmlərilə yanaşı, əsasən insan hüquqlarının pozulması ilə bağlı sübut etmənin bölüşdürülməsi yanaşmasının qəbul etmiş AİHM-in presedent hüququ əsasında izah olunur. AİHM-in təcrübəsi iddia ərizəsini sübuta yetirmək üçün zəruri olan informasiyanın əksər hissəsinin dövlət tərəfindən nəzarət olunması faktını nəzərə almadan, ümumiyyətlə mövcud olan dəlilləri nəzərdən keçirməkdən ibarətdir. Başqa sözlə, iddiaçı tərəfindən təqdim olunan faktlar etibarlı və mövcud dəlillərə uyğun hesab edildikdə, AİHM tərəfindən sübuta yetirilmiş kimi qəbul olunur. AİHM-ə əsasən o,

"bütün dəlillərin, o cümlədən faktlardan və tərəflərin təqdim etdikləri sənədlərdən irəli gələn nəticələrin müstəqil şəkildə qiymətləndirilməsilə təmin edilmiş" iddiaları fakt kimi qəbul edir. *"Dəlil kifayət qədər əsaslı, dəqiq və uyğun nəticələrdən və ya fakta aid olan və yalan olması sübuta yetirilməmiş, oxşar fərziyyələrdən irəli gələ bilər. Bundan başqa, konkret qənaətə gəlmək üçün zəruri olan sübutların səviyyəsi və bununla əlaqədar olaraq sübut etmə yükünün bölüşdürülməsi faktiki olaraq faktların özünəməxsusluğu, irəli sürülmüş iddianın xarakteri və [AİHK-dan] əsas götürülən hüquqla əlaqəlidir."*[316]

Misal: Timişevin Rusiya Federasiyasına qarşı işinə əsasən, ərizəçi çeçen mənşəli olduğundan onun konkret bölgədə sərhəd-buraxılış məntəqəsindən keçməsinə icazə verilmədiyini iddia edirdi.[317] AİHM belə bir qadağanın çeçen mənşəli şəxslərin hərəkətini məhdudlaşdıran siyasətin mövcud olduğunu qeyd edən rəsmi sənədlərlə təsdiq edilməsinin vacib olduğunu müəyyən etmişdir. Dövlət tərəfindən verilmiş izahat əsassız hesab olunmuşdur, çünki zərər çəkmiş şəxsə məntəqədən növbədənkənar keçməsinə icazə verilmədiyindən, onun çıxıb getməsi barədə iddiada uyğunsuzluqlar müşahidə olunurdu. Müvafiq olaraq, AİHM iddiaçının etnik mənşəyinə görə ayrı-seçkiliyə məruz qaldığını qəbul etmişdir.

Misal: Brunnhoferin işində ərizəçi onunla eyni əmək haqqı dərəcəsinə malik olan kişi həmkarı ilə müqayisədə az əmək haqqı aldığından cinsi mənsubiyyətinə görə ayrı-seçkiliyə məruz qaldığını iddia edirdi.[318] AƏM bəyan etmişdir ki, iddiaçı ilk növbədə kişi həmkarı ilə müqayisədə az əmək haqqı aldığını, sonra isə həmin həmkarla eyni dəyəri olan işi icra etdiyini sübuta yetirməli idi. Bu iddiaçının yalnız cinsi mənsubiyyətilə izah olunan fərqli rəftar barədə vəsatət qaldırmaq üçün kifayət edirdi. Bütün bunların əksini sübuta yetirmək vəzifəsi isə işəgötürənin üzərinə düşürdü.

[315] Aşağıda göstərilmiş işlərlə yanaşı "İrqi bərabərliyə dair" Direktivin 8-ci, "Məşğulluq sahəsində bərabərliyə dair" Direktivin 10-cu, "Gender bərabərliyinə dair" (yenidən baxılmış) Direktivin 19-cu, "Mallar və xidmətlər sahəsində gender bərabərliyinə dair" Direktivin 9-cu maddələrinə baxın. Eyni zamanda, Sosial Hüquqlar üzrə Avropa Komitəsi tərəfindən baxılmış işlərlə də tanış olun: *"SUD Travail Affaires Sociales" Fransa Respublikasına qarşı* (şikayət ərizəsi No 24/2004, 8 noyabr 2005-ci il) və *Əqli Xəstələrin Müdafiə Mərkəzi Bolqarıstan Respublikasına qarşı* (şikayət ərizəsi No. 41/2007), 3 iyun 2008-ci il.

[316] *Naçovanın və başqalarının Bolqarıstan Respublikasına qarşı* AİHM-dəki [GC] 43577/98 və 43579/98 saylı, 6 iyul 2005-ci il tarixli işlərinin 147-ci paraqrafı. Bu müddəalar *Timişevin Rusiya Federasiyasına qarşı* AİHM-dəki 55762/00 və 55974/00 saylı, 13 dekabr 2005-ci il tarixli işinin 39-cu, həmçinin *D.H.-in və başqalarının Çexiya Respublikasına qarşı* AİHM-dəki [GC] 57325/00 saylı, 13 noyabr 2007-ci il tarixli işinin 178-ci paraqraflarında da təkrarlanır.

[317] *Timişevin Rusiya Federasiyasına qarşı* AİHM-dəki 55762/00 və 55974/00 saylı, 13 dekabr 2005-ci il tarixli işlərinin 40-44-cü paraqrafları.

[318] *Susanna Brunnhoferin „Bank der ųsterreichischen Postsparkasse AG"-yə qarşı* AƏM-dəki C-381/99 [2001] ECR I-4961 saylı, 26 iyun 2001-ci il tarixli işinin 51-62-ci paraqrafları.

Misal: Patrik Kellinin İrlandiyanın Milli Universitetinə (Dublin Universitet Kollecinə) qarşı işində[319] sözügedən cənab Kelli Dublinin Universitet Kollecinin (UCD) peşə proqramında iştirak etmək üçün müraciət etmişdir və onun ərizəsinə rədd cavabı verilmişdir. Cənab Kelli peşə təlimlərinə buraxılmamasının ehtimal olunan cinsi zəmində ayrı-seçkiliklə əlaqədar olduğunu hesab etmişdir və onu təqdim olunmuş başqa ərizələrlə tanış etmək üçün müraciət etmişdir. Nəticədə UCD onu ərizələrin düzəlişlər edilmiş versiyaları ilə tanış etmişdir. İrlandiya məhkəməsi Aİ Şurasının "Cinsi zəmində ayrı-seçkiliyə aid işlərlə bağlı sübut etmə yükünə dair" 97/80/EC saylı, "Əmək, peşə təlimi və karyera irəliləyişi, həmçinin iş şəraitilə əlaqədar qadınlarla kişilər arasında bərabər rəftar prinsipinin icra olunmasına/Bərabər rəftara dair" 76/207/EEC saylı və 76/207/EEC saylı Direktivə düzəlişlər edən 2002/73/EC saylı Direktivlərilə bağlı AƏM-ə müraciət etmişdir. İrlandiya məhkəməsi (i) Aİ Şurasının 76/207/EEC36, 97/80/EC37 və 2002/73/EC38 saylı Direktivlərində təsbit edilmiş müddəalara əsasən vəsatətin qaldırılması üçün kifayət qədər dəlillərin mövcudluğunu müəyyən etmək məqsədilə cənab Kellinin tələb etdiyi sənədlərin dolğun versiyaları ilə tanış olmaq hüququna malik olub-olmaması və (ii) belə bir hüququn məxfiliyə dair milli qanunlarla və ya Aİ qanunvericiliyilə ziddiyyət təşkil edib-etməməsinin müəyyənləşdirilməsini xahiş etmişdi. AƏM müəyyən etmişdir ki, istər "Cinsi zəmində ayrı-seçkiliyə aid işlərlə bağlı sübut etmə yükünə dair" Direktiv, istərsə də "Bərabər rəftara dair" Direktiv peşə təlimində iştirak etmək üçün müraciət etmiş ərizəçini ayrı-seçkiliyə məruz qalması ilə bağlı şübhəni əsas gətirərək digər namizədlərin ixtisaslarına aid informasiyanı əldə etmək hüququ ilə təmin etmirlər və bu səpkidan olan hər hansı informasiyanın açıqlanması məsələsi şəxsi məlumatların məxfiliyinə dair Aİ-nin hüquqi normaları ilə tənzimlənir. Lakin məhz milli məhkəmə şəxsi işlərə aid bu cür faktların açıqlanması məsələsinin Aİ Şurasının 97/80/EC saylı Direktivinin məqsədlərinə uyğun nəzərdə tutulub-tutulmaması barədə qərar qəbul etməli idi.

Misal: Maxaşevlərin işində[320] iddiaçılar Kabardino-Balkariya Respublikasında yaşayan və milliyyətçə çeçen olan 3 qardaşdır. Bir axşam 1 və 2-ci iddiaçı gecə klubunda başqaları ilə mübahisə etdikdən sonra bayırda böyük ehtimalla onları gözləyən polis əməkdaşları tərəfindən saxlanılaraq polis bölməsinə gətirilmişdir. Burada onlar amansızcasına döyülərək pis rəftara məruz qalmışdır. 3-cü iddiaçı qardaşlarının həbs olunması barədə eşidən kimi onların yanına, polis bölməsinə gəlmişdir. Lakin o, da bölmədə döyülmüşdür, sonra isə onu bayıra ataraq etnik mənşəsinə görə təhqir etmişdilər. Bu hadisədən 1 gün keçdikdən sonra, 2004-cü il noyabrın 15-də iddiaçılar məruz qaldıqları pis rəftara görə prokurorluğa şikayət etmişdilər, lakin aparılmış istintaq heç bir nəticə verməmişdir. 2005-ci ilin iyun ayında cinayətkarları müəyyən etmək mümkün olmadığından istintaq dayandırılmışdır. Bu tarixdən etibarən istintaq bir neçə dəfə bərpa olunaraq dayandırılmışdır və 2006-cı il aprelin 13-də prokurorun qərarı ilə iş bağlanmışdır. Bu qərara qarşı verilən şikayət təmin olunmamışdır. AİHM-ə əsasən zorakılıq aktının irqi qərəzlilik səbəbindən baş verməsi iddia olunduqda, sübut etmə yükü cavabdeh dövlətin üzərinə düşərək ondan əlaqədar şəxsə qarşı hansısa subyektiv münasibətin olmadığını sübüta yetirilməsini nəzərdə tutur. AİHM pis rəftarla bağlı dəlilləri qiymətləndirərək adətən "əsaslı şübhədən kənara çıxan" sübuta yetirmə standartını tətbiq edir. Belə bir sübut son dərəcə kəsərli, dəqiq və bir-birinə uyğun gələn nəticələrdən və ya oxşar, inkar edilməyən faktiki ehtimallardan irəli gələ bilər. Əgər bizim işdə nəzarət altına götürülmüş şəxslərlə olduğu kimi, baxılan məsələ ilə bağlı hadisələrin tamamilə və ya əsasən yalan olduğu dövlət orqanlarının müstəsna razılığı ilə iddia olunduqda, bu cür saxlanmadan sonra əmələ gəlmiş bədən xəsarətlərilə əlaqədar gündəmə kəsərli faktiki ehtimallar gəlir. Cavabdeh dövlətin müvafiq şikayətçinin iddialarını təsdiq və ya inkar etmək iqtidarında olan informasiyaya müstəsna qaydada çıxışı olduqda, lakin dövlət istənilən əməkdaşlıqdan boyun qaçırdıqda və

[319] *Patrik Kellinin İrlandiyanın Milli Universitetinə (Dublin Universitet Kollecinə) qarşı* AƏM-dəki, C-104/10 saylı, 21 iyul 2011-ci il tarixli işi.
[320] *Maxaşevlərin Rusiya Federasiyasına qarşı* AİHM-dəki 20546/07saylı, 31 iyul 2012-ci il tarixli işi.

bunu qənaətbəxş izahlarla əsaslandırmadıqda, ərizəçinin iddialarının kifayət qədər əsaslı olması ilə bağlı qənaətlər gündəmə gələ bilər. Dövlətin baş vermiş hadisələrlə bağlı inandırıcı və həqiqətə uyğun izahlar verməməsi səbəbindən, həmçinin qardaşlar tərəfindən şahidlərin ərizələrilə və tibbi arayışlarla təmin olunan faktlara aid ardıcıl və təfərrüatlı təsvirlərin verilməsini nəzərə alaraq AİHM iddiaçıların etnik mənşə zəminində ayrı-seçkiliyə məruz qalmaları və AİHK-nın 14-cü maddəsinin 3-cü maddəsilə birgə pozulması barədə qənaətə gəlmişdir.

Misal: Bu işi *isə*[321] istiqamətləndirmiş AFR məhkəməsi AƏM-dən işə qəbulla bağlı ərizəyə rədd cavabının verilməsilə bağlı tələb olunan informasiyanı açıqlamayan əməkdaşın davranışının ayrı-seçkiliklə bağlı iddialara səbəb olub-olmayacağını müəyyən etməyi xahiş etmişdir. Müvafiq iş isə ondan ibarət idi ki, işlə bağlı bütün tələblərə uyğun gələn rus qadının ərizə-anketinə heç bir müsahibə götürülmədən və izahat verilmədən rədd cavabı verilmişdir. Daha sonra həmin iş vakansiyası ilə bağlı bir daha elan verilmişdir və bu qadın 2-ci dəfə iş üçün müraciət edərək 1-ci dəfə olduğu kimi rədd cavabı almışdır. Şikayətçi cinsi mənsubiyyəti və etnik mənşəsi zəminində ayrı-seçkiliyin qurbanı olduğunu iddia edirdi. 97/80 saylı Direktivin 4(1)-ci maddəsini təfsir edən AƏM bəyan etmişdir ki, ayrı-seçkiliyin qurbanı olduğunu iddia edən şəxslər əsas sübut etmə yükünü öz üzərinə götürürlər, cavabdeh tərəf isə sadəcə olaraq ayrı-seçkiliyin yol verilməməsi prinsipinin pozulmadığını sübuta yetirməlidir. AƏM bildirmişdir ki, işlə bağlı elanda verilmiş tələblərə cavab verməsini və ərizəsinə rədd cavabının verilməsini həqiqətə uyğun şəkildə izah edən şəxsə işə götürmə prosesinin sonunda işəgötürən tərəfindən başqa namizədin işə götürülməsini göstərən informasiya ilə tanış olmaq hüququ verən hüquqi normaların mövcud olmamasına baxmayaraq, cavabdeh tərəfin bu cür informasiya ilə tanış olmaq xahişinə rədd cavabının verilməsi müəyyən edilən faktlar kontekstində birbaşa və ya dolayı ayrı-seçkiliyi ehtimal etmək üçün amillərdən biri ola bilər. Bu cür qənaət milli qanunlara əsasən dolayı ayrı-seçkilik faktının istənilən vasitələrlə, o cümlədən, statistik dəlillər əsasında müəyyənləşdirilməsinin mümkün olduğunu nəzərdə tutan 2000/43, 2000/78, 2006/54 saylı Direktivlərə uyğundur.

İki məsələnin nəzərə alınması vacibdir: 1) yerli orqanlar qarşısında hansı dəlillərin məqbul hesab edilməsi milli qanunvericiliyə əsasən müəyyənləşdirilir və müvafiq qanunvericilik aktları AİHM və ya AƏM tərəfindən tətbiq edilən hüquqi normalardan sərt ola bilər; 2) adətən sübut etmə yükünün dönüşünə aid hüquqi norma cinayət hüququna, yəni cinayətin irqi mənsubiyyət zəminində törədilməsinə görə cinayətkarın dövlət tərəfindən təqib edilməsinə, başqa sözlə "nifrət doğuran" cinayətlərə aid işlərdə tətbiq edilmir. Bu qismən onunla əlaqədardır ki, cinayət məsuliyyətini müəyyən etmək üçün daha yüksək standartlı dəlillər tələb olunur; digər tərəfdən isə bu onunla əlaqədardır ki, cinayətkardan irqçi motivləri əsas tutmadığını sübuta yetirməyi tələb etmək çətin və ümumiyyətlə subyektiv bir işdir.[322]

Cavabdeh tərəf fərziyyənin yalan olduğunu iki yolla sübuta yetirə bilər: 1) 2.2.2-ci yarımbölmədə müzakirə olunduğu kimi, o, sübuta yetirməlidir ki, iddiaçı faktiki olaraq "müqayisə vasitəsilə" oxşar və ya müqayisə edilən vəziyyətdə deyil; və ya 2) 2.6-cı bölmədə müzakirə olunduğu kimi, baş vermiş fərqli rəftar müdafiə olunan əsaslarla deyil, digər obyektiv fərqlərlə əlaqədardır. Cavabdeh tərəf irəli sürülmüş iddiaların yalan olduğunu sübuta yetirə bilmədiyi

[321] *Qalina Meysterin "Speech Design Systems GmbH"-ə qarşı* AƏM-dəki C-415/10 saylı, 19 aprel 2012-ci il tarixli işi.

[322] Ayrı-seçkiliyin qadağan olunması sahəsində Aİ qanunvericiliyi sübut etmə yükünün dönüşü prosesinin cinayət hüququ kontekstində tətbiq edilməsini nəzərdə tutmur. AİHM-in irqçi zorakılıq kontekstində sübut etmə yükünün dönüşü ilə bağlı yanaşması ilə tanış olmaq üçün *Naçovanın və başqalarının Bolqarıstan Respublikasına qarşı* AİHM-dəki [GC] 43577/98 və 43579/98 saylı, 6 iyul 2005-ci il tarixli işlərinin 144-159-cu paraqraflarına baxın. Ayrı-seçkiliyin qadağan olunması sahəsində Aİ qanunvericiliyi sübut etmə yükünün dönüşü prosesinin cinayət hüququ kontekstində tətbiq edilməsini nəzərdə tutmur.

təqdirdə, öz hüquqlarını müdafiə etmək məqsədilə baş vermiş qeyri-münasib rəftarın obyektiv şəkildə əsaslandırılmış və mütənasib bir əməl olduğunu sübuta yetirməlidir.

Misal: yuxarıda müzakirə edilmiş *Brunnhoferin* işində AƏM ayrı-seçkiliklə bağlı iddiaların yalan olduğunu necə sübuta yetirmək barədə istiqamətlər vermişdir. İlk növbədə, sözügedən kişi və qadın işçilər tərəfindən icra olunan işlərin bərabər dəyərli olmadığından, həmin işçilərin faktiki olaraq müqayisə edilən vəziyyətdə olmadığı sübuta yetirilməlidir. Əgər işçilərin əmək fəaliyyəti əhəmiyyətli dərəcədə fərqli xarakterli vəzifələrin icra olunmasını nəzərdə tutursa, bu çox gərəkli ola bilər. Sonra cinsi mənsubiyyətlə əlaqəsi olmayan obyektiv amillər əsasında əmək haqqları arasındakı fərqi izah olunaraq sübuta yetirməlidir. Kişi işçiyə verilən əmək haqqının onun işə gəlməsi üçün uzun bir məsafə fəth etməsi və iş günlərində mehmanxanada qalması səbəbindən yol xərcləri hesabına artdığını sübuta yetirmək də gərəkli ola bilər.

Misal: yuxarıda təsvir edilmiş *Ferinin* işində AƏM ehtimal olunan cinayətkar tərəfindən verilmiş reklamlara və bəyanatlara görə dolayı ayrı-seçkilik barədə vəsatət qaldırılmasının mümkün olduğunu müəyyən etmişdir. Lakin, AƏM eyni zamanda, bildirmişdir ki, əgər ehtimal olunan cinayətkar işə götürmə proseduru əsasında ağ dərili olmayan şəxslərlə faktiki olaraq fərqli şəkildə rəftar olunmadığını, məsələn, ağ dərili işçilərin mütamadi olaraq işə götürülməsini nümayiş etdirməyə qadirdirsə, o, bu iddiaların yalan olduğunu sübuta yetirə bilər.

6.2.1. Sübuta yetirilməsi tələb olunmayan amillər

Ayrı-seçkiliyi müşahidə edən faktlardan ibarət bəzi məsələlər, məsələn, qərəzliliyin və ya ayrı-seçkiliyə məruz qoymaq niyyətinin olub-olmaması ayri-seçkilik halının baş verdiyini müəyyənləşdirmək üçün hüququ cəhətdən təmin olunacaq amillər kimi böyük əhəmiyyət kəsb etmir. Ayrı-seçkiliklə bağlı işdə ən vacib məsələ müdafiə olunmuş əsaslarla əlaqədar olaraq fərqli rəftarın əsaslandırılmadan baş verib- vermədiyinin sadəcə olaraq sübuta yetirilməsindən ibarətdir. Bu isə o deməkdir ki, iddianı sübuta yetirmək üçün ayrı-seçkiliklə bağlı bir sıra köməkçi amillərin müəyyənləşdirilməsinə ehtiyac yoxdur.

Birinci növbədə, cavabdeh tərəfdən əvvəlcədən qərəzli səbəblərin olub-olmadığını sübuta yetirmək tələb olunmur, başqa sözlə, irqi və ya cinsi mənsubiyyət zəmində ayrı-seçkiliyin baş verdiyini sübuta yetirmək üçün cavabdeh tərəfin irqçi və ya "seksist" baxışlara malik olduğunu sübut etməyə ehtiyac yoxdur. Ümumiyyətlə, qanun şəxslərin hansısa məsələyə münasibətini tənzimləmir, çünki bu tamamilə şəxsi bir məsələdir. Sadəcə olaraq, qanun bu cür münasibət əsasında nümayiş etdirilən əməlləri tənzimləmək gücünə malikdir.

Misal: Ferinin işində şirkət sahibi ondan fərqli olaraq şirkət müştərilərinin yalnız ağ dərili belçikalıları bu işdə görmək istədiklərindən bu qaydaya əl atdığını bildirmişdir. AƏM bunu ayrı-seçkiliyin baş verməsi barədə qərar qəbul etmək üçün münasib bir fakt kimi qəbul etməmişdir. Əgər söhbət "nifrət doğuran cinayətin" törədilməsi faktının sübuta yetirilməsindən getmirsə, adətən baş vermiş ayrı-seçkilik halının diskriminativ səbəblərinin sübuta yetirilməsi tələb olunmur, çünki cinayət hüququ nisbətən yüksək səviyyəli dəlillərin təqdim edilməsini nəzərdə tutur.

İkinci növbədə, işlə bağlı hansısa hüquqi normanın və ya təcrübənin fərqli rəftarla nəticələnəcəyini nəzərdə tutulmadığını nümayiş etdirməyə ehtiyac yoxdur. Başqa sözlə, əgər hansısa dövlət orqanı və ya fiziki şəxs müvafiq təcrübənin ümumiyyətlə xoş niyyətli və insaflı olduğunu nümayiş etdirməyə çalışdığı bir halda həmin təcrübənin konkret bir qrupla bağlı tətbiqi qeyri-münasib nəticələr veribsə, bu ayrı-seçkilik kimi qəbul olunmalıdır.

Misal: Bu Bələdçidə müzakirə edilmiş *D.H.-in və başqalarının Çexiya Respublikasına qarşı* işinə əsasən, dövlət roman mənşəli uşaqların dillə bağlı çətinliklərinin öhdəsindən gəlmək və

onlarda məktəbəqədər təhsilin olmaması məsələsini aradan qaldırmaq üçün həmin uşaqların təhsil alma prosesinə kömək etmək məqsədilə "xüsusi" məktəblərin yaradıldığını bildirirdi.[323] Lakin AİHM bu siyasət əsasında roman mənşəli uşaqların hədəfə götürülməsi məsələsinin qeyri-münasib olduğunu müəyyən etmişdir. Ayrı-seçkilik faktının sübuta yetirilməsi üçün ayrı-seçkiliyə məruz qoymaq niyyətinin mövcud olduğunu deyil, əhalinin əksər hissəsilə müqayisədə bir qrup şəxsin tənasübsüz və mənfi təsirə məruz qaldığını nümayiş etdirmək tələb olunurdu.[324]

Üçüncü məsələ, irqi mənsubiyyət zəminində ayrı-seçkiliyə aid işlərlə bağlıdır: AƏM zərərçəkmiş tərəfin şəxsiyyətinin müəyyənləşdirilməsi və faktiki olaraq mövcud olduğunun sübuta yetirilməsi məsələsinin tələb olunmadığını müəyyənləşdirmişdir və bu yanaşmanın oxşar vəziyyətdə ayrı-seçkiliklə bağlı digər əsaslara da bərabər şəkildə şamil edilməsinin mümkün olduğunu ehtimal etmişdir. Lakin Aİ qanunvericiliyinə əsasən, müəyyən edilmiş zərərçəkmiş tərəfin olmasına ehtiyac olmasa da, AİHM tərəfindən işə bu tərzdə baxıla bilməz, çünki bu cür təqdim olunmuş iddia AİHK-nın 34-cü maddəsində nəzərdə tutulmuş şikayət ərizələrinin qəbul olunma meyarlarına uyğun gəlməyəcək.

Misal: Ferinin işində kiminsə iş üçün müraciət etdiyini və bu müraciətə rədd cavabı aldığını nümayiş etdirmək, həmçinin işə müvafiq reklam əsasında müraciət etməyə çalışdığını deyən şəxsi tapmaq da mümkün deyildi. Başqa sözlə desək, şəxsiyyət müəyyən edilə biləcək hər hansı bir zərər çəkmiş şəxs mövcud deyildi və iş Belçikanın bərabərlik məsələləri üzrə təşkilatı tərəfindən AƏM-ə təqdim olunmuşdur. AƏM bildirmişdir ki, ayrı-seçkiliyə məruz qalmış hansısa şəxsin şəxsiyyətini müəyyənləşdirmək tələb olunmur. Bu ona görə tələb olunmurdu ki, ağ dərili olmayan şəxslər bu işdən uğur əldə edə bilməyəcəklərini əvvəlcədən bildiyindən onların reklamda göstərilən vakansiya üçün müraciət etməkdən çəkinmələri verilmiş reklamın mətnindən birmənalı şəkildə aydın idi. Belə bir faktı əsas götürərək zərərçəkmiş şəxsi faktiki olaraq göstərmədən tətbiq edilmiş qaydanın və ya siyasətin diskriminativ xarakter daşıdığını sübuta yetirmək mümkün idi.

Misal: aşağıda müzakirə olunan "işin hallarının yoxlanılması" zamanı şəxslər adətən qeyr-münasib rəftara məruz qalacaqlarını bildiklərinə və ya gözlədiklərinə baxmayaraq müvafiq prosesdə iştirak edirlər. Onların əsas məqsədi maraq doğuran işdən faydalanmaq deyil, dəlil toplamaqdan ibarətdir. Bu isə o deməkdir ki, həmin şəxslər "həqiqi" zərər çəkmiş şəxs deyillər və onlar vurulmuş ziyan müqabilində təzminat əldə etmək deyil, qanunun aliliyinin təmin olunmasına çalışırlar. İsveçdə baxılmış işlərin birində hüquq fakültəsinin bir qrup tələbəsi gecə klublarında və restoranlarında ayrı-seçkiliklə bağlı vəziyyətin yoxlanılması prosesində iştirak etmişdilər və bunun nəticəsində Ali Məhkəmə yoxlamada iştirak etmiş şəxslər tərəfindən əldə olunmuş dəlillərin diskriminativ rəftarla bağlı vəsatətin qaldırılmasına kifayət etdiyini müəyyənləşdirmişdir. Eyni zamanda, onlara vurulmuş ziyan müəyyən dərəcədə azaldılmışdır, çünki onlar faktiki olaraq, istədiklərinə nail ola bilmişdilər (məsələn, əvvəllər buraxılmadıqları obyektə maneəsiz daxil olmaq).[325]

6.3. Statistik və başqa növdə məlumatların rolu

Statistik məlumatlar iddiaçıya ayrı-seçkiliklə bağlı vəsatət qaldırmaq üçün köməkliyin göstərilməsində vacib rol oynaya bilər. Bu cür məlumatlar, xüsusən də dolayı ayrı-seçkilik

[323] *D.H.-in və başqalarının Çexiya Respublikasına qarşı* AİHM-dəki [GC] 57325/00 saylı, 13 noyabr 2007-ci il tarixli işinin 79-cu paraqrafı.
[324] Yuxarıdakı istinadda gösətrilmiş işin 175 və 184-cü paraqrafları.
[325] *"Escape" bar-restoranının Etnik Mənşə Zəminində Ayrı-seçkilik Əleyhinə Ombudsmana qarşı* İsveç Krallığının Ali Məhkəməsindəki T-2224-07 saylı, 1 oktyabr 2008-ci il tarixli işi. İşin ingilis dilindəki xülasəsilə FRA-nın informasiya portalında (İş 365-1) və Ayrı-seçkiliyə qarşı hüquqi ekspertlərin Avropa Şəbəkəsində 8(iyul 2009-cu il) tanış olmaq olar: "Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinin icmalı (səh. 68)".

hallarının sübuta yetirilməsi baxımından çox vacibdir, çünki belə vəziyyətdə əlaqədar hüquqi normalar və ya təcrübə ilk baxışdan çox neytral görünür. Müvafiq hüquqi normanın və ya təcrübənin sözügedən işlə bağlı nəticələrinə xüsusi diqqətin yetirilməsi zəruridir, çünki bu nəticələrin oxşar vəziyyətdə olan digər qruplarla müqayisədə konkret qrup üçün tənasübsüz və qeyri-münasib olduğunu göstərmək lazım gəlir. Statistik məlumatların təqdim olunmasından sübut etmə vəzifəsinin dönüşü ilə birgə istifadə olunur: məsələn, əgər təqdim olunmuş statistik məlumatlar, xüsusilə də qadınların və əlillərin qeyri-münasib vəziyyətdə olduğunu nümayiş etdirirsə, məhz dövlət bu rəqəmlərlə bağlı əsaslı alternativ izahat verməlidir. AİHM *Hooqendiykin Niderland Krallığına qarşı* işinə[326] baxarkən bunu belə izah etmişdir:

"Məhkəmə, iddiaçının danılmaz rəsmi statistik məlumatlara əsasən, hətta neytral şəkildə tərtib edilmiş konkret hüquq normanın faiz nisbətində kişilərlə müqayisədə daha çox qadınlara mənfi şəkildə təsir etməsini ilk baxışdan nümayiş etdirdiyini hesab edirsə, cavabdeh dövlət bunun cinsi mənsubiyyətinə görə ayrı-seçkiliklə heç bir əlaqəsi olmayan obyektiv amillərin nəticəsində baş verdiyini sübuta yetirməlidir."

Məhkəmələr statistik dəlilləri qəbul edərkən dolayı ayrı-seçkiliyin baş vermə faktının müəyyənləşdirilməsi üçün zəruri olan bu cür dəlillərlə bağlı hansısa ciddi hüdudlar təyin etmir. AƏM sadəcə olaraq xüsusi əhəmiyyət kəsb edən rəqəmlərin əldə olunmasının zəruriliyini vurğulayır. AƏM-in presedent hüququnun xülasəsi *Noltenin* işilə bağlı Baş vəkil Lüqerin cinsi məsubiyyət zəminində ayrı-seçkiliyə aid rəyilə əlaqədar verilmiş bəyanatda öz əksini tapıb:

"Ayrı-seçkiliyin sübuta yetirildiyini ehtimal etmək üçün müvafiq tədbir "kişilərlə müqayisədə daha çox sayda qadına" [Rinner-Kühnün işi][327] *və ya "qadınlarla müqayisədə çox az faiz kişilərə"* [Nimtsin[328], Kovalskanın işləri][329]*, yaxud "kişilərlə müqayisədə daha çox qadınlara"* [De Veerd, qızlıq soyadı Roks, və başqaları][330] *mənfi təsir göstərməlidir. Müvafiq işlə əlaqədar konkret tədbirin təsiri altına düşmüş qadınların nisbətinin xüsusən qeyd olunması barədə düşündürür.*

Rinner-Kühnün *işində məhkəmə baş vermiş ayrı-seçkilik vəziyyətinə məruz qalmış qadınların faiz nisbəti 89%-a bərabər idi. Bu baxımdan belə bir nisbətin faktiki olaraq 60% təşkil etməsi… ayrı-seçkilyin mövcudluğu barədə qənaətə gəlmək üçün böyük ehtimalla kifayət etməyə də bilər.*[331]

Misal: Şünheytin işinə əsasən, yarımştat işçi cinsi zəmində ayrı-seçkiliyə məruz qaldığını iddia edirdi.[332] İşçilərin işə sərf olunmuş vaxt arasındakı fərqə əsaslanmayan pensiyalarındakı fərq tam ştatda olan işçilərlə müqayisədə yarımştat işçilərə həqiqətən də az əmək haqqının verilməsindən irəli gəlirdi. Təqdim olunmuş statisitk dəlillər yarımştat işçilərin 87,9%-nin qadınlardan ibarət oluduğunu göstərirdi. Belə bir tədbir neytral xarakter daşısa da, kişilərlə müqayisədə qadınlara tənasübsüz şəkildə mənfi təsir göstərdiyindən AƏM cinsi zəmində

[326] *Hooqendiykin Niderland Krallığına qarşı* 58641/00 saylı, 6 yanvar 2005-ci il tarixli işi.
[327] *Rinner-Kühnün „FWW Spezial-Gebðudereinigung"-ə qarşı* AƏM-dəki C-171/88 [1989] ECR 2743 saylı, 13 iyul 1989-cü il tarixli işi.
[328] *Nimtsin „Freie und Hansestadt Hamburg"a qarşı* AƏM-dəki C-184/89 [1991] ECR I-297 saylı, 7 fevral 1991-ci il tarixli işi.
[329] *Kovalskanın "Freie und Hansestadt Hamburg"a* qarşı AƏM-dəki C-33/89 [1990] ECR I-2591 saylı, 27 iyun 1990-cı il tarixli işi.
[330] *De Veerdin (qızlıq soyadı Roks) və başqalarının "Bestuur van de Bedrijfsvereniging voor de Gezondheid, Geestelijke en Maatschappelijke Belangen"ə və başqalarına qarşı* AƏM-dəki, C-343/92 [1994] ECR I-571 saylı, 24 fevral 1994-cü il tarixli işi.
[331] *Baş vəkil Lüqerin* AƏM-də səsləndirdiyi 31 may 1995-ci il tarixli *rəyin* 57-58 paraqrafları - *Noltenin "Landesversicherungsanstalt Hannover"ə qarşı* C-317/93 [1995] ECR I-4625 saylı, 14 dekabr 1995-ci il tarixli işi.
[332] *Hilde Şünheytin Frankfurt am Mayn şəhərinə* və *Silviya Bekerin Hessen Torpağına qarşı* AƏM-dəki C-4/02 və C-5/02 [2003] ECR I-12575 saylı, 23 oktyabr 2003-cü il tarixli birgə işləri.

dolayı ayrı-seçkiliklə bağlı vəsatətin qaldırılmasını mümkün hesab etmişdir. Buna oxşar bir vəziyyətdə, *Qerşterin* işinə əsasən 87%-ni qadınların təşkil etdiyi yarımştat işçilərin qeyri-münasib vəziyyətə düşməsi vəsatətin qaldırılması üçün kifayət etmişdir.[333]

Misal: Seymur-Smitin işi bir işəgötürənlə 2 ildən çox fasiləsiz işləmiş şəxslər üçün xüsusi müdafiə nəzərdə tutan və ədalətsiz çıxardılmalara dair Böyük Britaniyanın qanunvericiliyilə əlaqədar idi.[334] İddiaçı bu qanunvericiliyə görə cinsi zəmində dolayı ayrı-seçkiliyin baş verdiyini hesab edirdi, çünki kişilərdən fərqli olaraq qadınların belə bir meyara uyğun gəlməsi çox az ehtimal olunan idi. AƏM tənasübsüzlüyün hətta ən aşağı səviyyədə olması əsasında, *"uzun müddət ərzində kişilərlə qadınlar arasında sabit və nisbətən daimi uyğunsuzluq müşahidə olunarsa"* dolayı ayrı-seçkiliyin sübuta yetirilməsinin mümkün olduğunu hesab etdiyindən bu iş maraq doğururdu. Lakin AƏM bu işə aid konkret faktları əsas götürərək bildirmişdir ki, bu meyara 77,4% kişinin və 68,9% qadının uyğun gəldiyini nümayiş etdirən statistika qadınların əhəmiyyətli dərəcədə az bir hissəsinin sözügedən qanunvericiliklə əhatə olunması ehtimalını təsdiqləmir.

Misal: D.H.-in və başqalarının Çexiya Respublikasına qarşı işi roman mənşəli iddiaçıların onların uşaqlarının roman mənşəli olmaları səbəbindən əsas təhsil sistemindən xaric edilərək tədris materiallarını qavramaq sahəsində çətinlikləri olan şagirdlər üçün nəzərdə tulumuş "xüsusi" məktəblərə yerləşdirilməsi işlə bağlı şikayətlərinə əsaslanırdı.[335] Roman mənşəli uşaqların "xüsusi" məktəblərə yerləşdirilməsi əqli potensialların yoxlanılması üçün nəzərdə tutulmuş testlərdən əldə olunan nəticələrə əsasən baş vermişdir. Test vermə təcrübəsinin "neytral" hesab edilməsinə baxmayaraq, sözügedən testlər qənaətbəxş nəticələr əldə etmə və əsas təhsil sistemində qalma baxımından, faktiki olaraq, roman mənşəli uşaqlar üçün daha çətin idi. AİHM "xüsusi" məktəblərə yerləşdirilmiş şagirdlər arasında roman mənşəli uşaqların nisbətinin daha yüksək olduğunu nümayiş etdirən statistik dəlillərə istinad edərək bu faktın sübuta yetirildiyini müəyyənləşdirmişdir. İddiaçılar tərəfindən konkret coğrafi ərazi üzrə təqdim edilmiş statistik məlumatlar "xüsusi" məktəb şagirdlərinin 50-56%-nin, adi məktəblərin isə təxminən 2%-nin roman mənşəli uşaqlardan ibarət olduğunu göstərirdi. Əlaqədar hökumətlərarası təşkilatlar tərəfindən verilmiş məlumatlar ümumiyyətlə ölkə üzrə "xüsusi" məktəblərə gedən roman mənşəli uşaqlara aid bu cür rəqəmin 50-90% civarlarında dəyişdiyini göstərirdi. Bu rəqəmlərin kifayət qədər dəqiq olmamasına baxmayaraq, AİHM əhalinin ümumi sayı nisbətində belə bir tədbirin mənfi təsirinə məruz qalmış roman mənşəli uşaqların sayının *"qeyri-mütənasib şəkildə yüksək olduğunu"* müəyyən etmişdir.[336]

Misal: Avstriya məhkəməsi tərəfindən istiqamətləndirilmiş bu *iş*[337] Aİ Şurası "Sosial təminat məsələlərilə bağlı kişilərlə qadınlar arasında bərabər rəftar prinsipinin qabaqcıl şəkildə icra olunmasına dair" 79/7/EEC saylı, 19 dekabr 1978-ci il tarixli Direktivinin 4(1)-ci maddəsi kontekstində dövlət pensiya sistemilə əlaqədar ayrı-seçkilik məsələsinə aid idi. Bu sistem Avstriyada pensiyanın alıcılıq qabiliyyətini təmin etmək üçün nəzərdə tutulmuş xüsusi birdəfəlik artımın tətbiqinə əsaslanırdı. Artım əlaqədar şəxsin gəlirləri müəyyən edilmiş minimal səviyyədən aşağı olduqda tətbiq olunurdu. Lakin pensiyaçı həyat yoldaşı ilə birlikdə yaşadıqda və onların birgə gəliri minimal səviyyədən yuxarı olduqda bu artım tətbiq edilmirdi. İstinad kimi pensiyası həyat yoldaşının gəlirilə birgə minimal səviyyədən yüksək olduğuna görə müvazinətləşdirilmiş əlavə əldə etmək hüququ olmayan xanım Braxnerlə Avstriyanın Pensiya

[333] *Qerşterin Freiştaat Bayern-ə qarşı* AƏM-dəki C-1/95 [1997] ECR I-5253 saylı, 2 oktyabr 1997-ci il tarixli işi.
[334] *R-in Məşğulluq üzrə Dövlət katibinə qarşı (Seymur-Smitin və Peresin xeyrinə)* AƏM-dəki C-167/97 [1999] ECR I-623 saylı, 9 fevral 1999-cu il tarixli işi.
[335] *D.H.-in və başqalarının Çexiya Respublikasına qarşı* AİHM-dəki [GC] 57325/00 saylı, 13 noyabr 2007-ci il tarixli işi.
[336] *D.H.-in və başqalarının Çexiya Respublikasına qarşı* AİHM-dəki [GC] 57325/00 saylı, 13 noyabr 2007-ci il tarixli işinin 18, 196-201-ci paraqrafları.
[337] *Uoltraud Braxnerin Pensionsversicherungsanstalt-a qarşı* AƏM-dəki C-123/10 saylı, 20 oktyabr 2011-ci il tarixli işi.

Sığortası İdarəsi arasında məhkəmə çəkişmələri göstərilmişdir. AƏM sözügedən pensiya sisteminin cinsindən asılı olmayaraq bütün pensiyaçılara bərabər şəkildə şamil edildiyindən birbaşa diskriminativ xarakter daşımaması qənaətində idi. Lakin məhkəməyə müraciət etməzdən əvvəl təqdim olunmuş statistik məlumatlara diqqət yetirdikdə minimal səviyyədə pensiya alan şəxslərin nisbi əksəriyyətinin qadınlar tərəfindən təşkil olunduğu (57% qadın/25% kişi) görünürdü, çünki bu sistem pensiyaçılar tərəfindən pay haqqlarının ödənilməsi üzərində qurulmuşdur və Avstriyada qadınlar kişilərlərlə müqayisədə bir neçə il az işləyirlər. Bunun nəticəsində gəlirlərin birləşdirilməsi şərti səbəbindən minimal səviyyədə gəlir əldə edən qadın pensiyaçıların 82%-i artım almaq imkanından məhrum idi, kişi pensiyaçılar arasında isə bu rəqəm 58%-ə bərabər idi. Beləliklə də, kişi pensiyaçılarla müqayisədə daha çox qadın pensiyaçıların xüsusi pensiya artımından kənarda qalması ilə nəticələnən müvafiq milli mexanizmi qadınları dolayı ayrı-seçkiliyə məruz qoyduğundan qəbul olunmaz kimi hesab etməklə işi istiqamətləndirən yerli məhkəmənin sorğusu təmin edilmişdir.

Müvafiq statistik məlumatlar əlçatan olmadıqda da müdafiə edilən qrupun qeyri-münasib təsirə məruz qaldığının sübuta yetirilməsi mümkün görünsə də, etibarlı mənbələrin mövcud olması aparılan təhlilləri daha da əsaslandırır.

Misal: Opuzun Türkiyə Respublikasına qarşı işi həyat yoldaşı və qayınanası ilə qəddarcasına rəftar edən və bunun nəticəsində qayınanasını qətlə yetirən şəxslə bağlı ailədaxili zorakılığı ilə əlaqədar idi.[338] AİHM dövlət tərəfindən iddiaçının və onun anasının, həmçinin anasının həyatının qeyri-insanı və ləyaqəti alçaldan rəftardan müdafiə oluna bilmədiyini müəyyənləşdirmişdir. Eyni zamanda, AİHM iddiaçının qadın olması faktına əsasən dövlət tərəfindən münasib müdafiə ilə təmin olunmadığından ayrı-seçkiliyə məruz qaldığını da müəyyənləşdirmişdir. AİHM-in belə bir qənaətə gəlməsi bir tərəfdən ailə zorakılığından zərər çəkmiş şəxslərin əsasən qadınlardan ibarət olmasına aid dəlillərə, digər tərəfdən isə ailə zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi üçün nəzərdə tutulmuş qərarların verilməsi istiqamətində yerli məhkəmələrin öz səlahiyyətlərindən məhdud şəkildə istifadə olunmasına dəlalət edən rəqəmlərə əsaslanırdı. Bu işdə maraqlı məqam ailədaxili zorakılığın qurbanlarının əsasən qadınlardan ibarət olduğunu nümayiş etdirən hər hansı statistik rəqəmlərin AİHM-ə təqdim olunmamasından ibarət idi və bu məsələyə aid etibarlı məlumatların mövcud olmaması faktının "Beynəlxalq Amistiya" Təşkilatı tərəfindən də qeyd olunması diqqətə çatdırılmışdır. Bu səbəbdən də AİHM qadınlara qarşı zorakılığın Türkiyədə ağır bir problem olması barədə "Beynəlxalq Amistiya" Təşkilatının, nüfuzlu yerli QHT-nin və BMT-nin Qadınlara Qarşı Zorakılığın Ləğv Edilməsi üzrə Komitəsinin qənaətini əhəmiyyətli dərəcədə qəbul etməyə hazır idi.

Dolayı ayrı-seçkiliklə bağlı işlərin sübuta yetirilməsi üçün statistik məlumatların həmişə tələb olunmadığını da qeyd etmək lazımdır. İddianı sübuta yetirmək üçün satistik məlumatların zəruri olub-olmaması konkret işin faktlarından asılıdır. Xüsusən də hansısa təcrübənin və ya baxışların müdafiə olunan kateqoriyaya aid olduğunu sübuta yetirmək kifayət edər.

Misal: Orşuşun və başqalarının Xorvatiya Respublikasına qarşı işinə əsasən, bəzi məktəblər əksər adi siniflərlə müqayisədə qısaldılmış tədris proqramı üzrə dərs keçən bir sıra siniflər yaratmışdı. Belə siniflərin əsasən roman mənşəli şagirdlərdən tənasübsüz şəkildə təşkil olunması və bununla əlaqədar olaraq, etnik mənşə zəminində dolayı ayrı-seçkiliyin baş verməsi iddia olunurdu. Dövlət bu cür siniflərin burada oxuyan şagirdlərin xorvat dilini bilmələri səviyyəsinə əsasən təşkil olunduğunu və hansısa şagirdin bu sahədə müəyyən edilmiş münasib bilik səviyyəsinə çatdıqdan sonra əsas tədris proqramı üzrə dərs keçən siniflərə keçiriləcəyini bəyan edirdi. AİHM *D.H.-in* işindən fərqli olaraq, bu işdə yalnız müvafiq statistika

[338] *Opuzun Türkiyə Respublikasına qarşı* AİHM-dəki 33401/02 saylı, 9 iyun 2009-cu il tarixli işi.

əsasında ayrı-seçkilik barədə vəsatətin qaldırılmasının mümkün olmadığını müəyyən etmişdir. Bu statistikaya əsasən məktəblərin birində təhsil alan şagirdlərin 44%-ni roman mənşəli uşaqlar təşkil edirdi və onlardan 73%-i yalnız roman mənşəli uşaqlardan təşkil olunmuş siniflərdə oxuyurdu, digər məktəbdə isə bu rəqəmlər müvafiq olaraq 10% və 36% təşkil edirdi. Bu rəqəmlər roman mənşəli şagirdlərin avtomatik olaraq başqa şagirdlərdən ayrı siniflərə yerləşdirilməsi siyasətinin olmadığını təsdiqləyirdi. Lakin AİHM müvafiq statistik məlumatlara istinad etmədən də dolayı ayrı-seçkilik faktı üzrə vəsatətin qaldırılmasının mümkün olduğunu dövlətə təkidlə bildirmişdir. Bu işdə şagirdlərin xorvat dilini yaxşı səviyyədə bilməmələri əsasında başqa sagirdlərdən ayrı siniflərə yerləşdirilməsi qaydası yalnız roman mənşəli məktəblilərə şamil olunması faktı mövcud idi. Bu isə fərqli rəftarın baş verməsi barədə vəsastət qaldırmağa imkan verirdi.[339]

Misal: Sloveniyanın Bərabərlik Prinsipi üzrə vəkilinə təqdim olunmuş iş işçiləri adətən donuz əti və piyindən ibarət məhsullardan hazırlanmış yeməklərlə təmin edən şəxs barədə idi. Sözügedən şəxs tərəfindən verilən yeməkdən fərqli yemək almaq məqsədilə müsəlman işçilər onlar üçün alternativ qaydada aylıq yemək pulunun ayrılmasını xahiş etmişdilər və bu cür alternativ yeməyin digər məsələlərlə yanaşı, tibbi səbəblərdən də zəruri olduğunu əsas gətirmişdilər.[340] Bu dolayı ayrı-seçkiliklə bağlı bir işi idi, çünki ilk baxışdan neytral görünən bir qayda donuz ətindən istifadə etməyən müsəlman işçilərə faktiki olaraq mənfi təsir göstərirdi. Bu işin şərtlərinə, əsasən sözügedən qaydanın müsəlman işçilərə mənfi təsir göstərdiyini sübuta yetirmək üçün statistik dəlillərin təqdim olunmasına ehtiyac yox idi, çünki müsəlmanların öz dini baxışlarına əməl edərək donuz ətindən istifadə etməmələri artıq təsdiq olunmuş bir faktdır.

Misal: Böyük Britaniya məhkəməsinə təqdim olunmuş iş şəxsə xidməti geyimi üstündən bəzək (o cümlədən dini) əşyalarının gəzdirilməsinin qadağan edilməsilə əlaqədar idi.[341] Xristian dininə ibadət edən işçi ona qarşı dini zəmində ayrı-seçkiliyin baş verdiyini iddia edirdi, çünki ona xidməti geyim üzərindən xaç gəzdirmək qadağan edilmişdir. Sözügedən işə və müvafiq apellyasiya ərizələrinə baxıldığı zaman əlaqədar məhkəmələr dini zəmində dolayı ayrı-seçkiliyin baş vermə faktını qəbul etməyə hazır olduqlarını bildirmişdilər, o şərtlə ki, xaçı gəzdirmə məsələsinin Xristian dininə əsasən tələb olunması sübuta yetirilməli idi. Bu məqsədlə Məşğulluq Məsələləri üzrə Məhkəmə işdə dini rəmzlər gəzdirən xristianların sayı barədə satistik dəlillər deyil, xristian dini üzrə mütəxəssislər tərəfindən verilmiş dəlillərə müraciət etmişdir.

Əsas məqamlar

- Qeyri-münasib rəftarın arxasında duran səbəblər nisbətən az əhəmiyyət kəsb edir; bu cür rəftarın təsiri daha vacib məsələdir.
- Aİ qanunvericiliyinə əsasən, zərərçəkmiş şəxsin şəxsiyyətinin müəyyən edilməsi tələb olunmur.
- Ayrı-seçkilik faktının baş verdiyini ehtimal etmək üçün dəlillərin müəyyənləşdirilməsi yükü ilk olaraq iddiaçının üzərinə düşür.
- Ayrı-seçkiliklə bağlı vəsatətin qaldırımasına kömək etmək məqsədilə statistik dəlillərdən istifadə oluna bilər.

[339] *Orşuşun və başqalarının Xorvatiya Respublikasına qarşı* AİHM-dəki [GC] 15766/03 saylı, 16 mart 2010-cu il tarixli işinin 152-153-cü paraqrafları.
[340] Sloveniyanın Bərabərlik Prinsipi üzrə vəkilinin UEM-0921-1/2008-3 saylı, 28 avqust 2008-ci il tarixli qərarı. İşin ingilis dilindəki xülasəsilə FRA-nın informasiya portalında (İş 364-1) və Ayrı-seçkiliyə qarşı hüquqi ekspertlərin Avropa Şəbəkəsində 8(iyul 2009-cu il) tanış olmaq olar: "Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinin icmalı (səh. 64)".
[341] *Eueydanın "British Airways Plc" şirkətinə qarşı* Böyük Britaniyanın Appelyasiya məhkəməsindəki [2010] EWCA Civ 80 saylı, 12 fevral 2010-cu il tarixli işi.

- Sonra sübut etmə yükü qeyri-münasib rəftarın müdafiə olunan əsaslarla bağlı olmadığını nümayiş etdirən dəlilləri təqdim etməli olacaq cavabdeh tərəfin üzərinə düşür.
- Ayrı-seçkiliklə bağlı iddianın yalan olduğunu bu kimi yollarla sübuta yetirmək olar: zərərçəkmiş tərəf "müqayisə vasitəsilə" eyni vəziyyətdə deyil; və ya fərqli rəftar müdafiə olunan əsaslarla heç bir əlaqəsi olmayan bəzi obyektiv amillərdən irəli gəlir. Cavabdeh tərəf iddianın yalan olduğunu sübuta yetirə bilmədikdə, fərqli rəftarı əsaslandırmaq üçün cəhdlər göstərə bilərlər.

Əlavə ədəbiyyat

Bragoï, 'La discrimination indirecte implique le transfert de la charge de la prevue au gouvernement défendeur : CourEDH, Gde Ch., D.H. et autres c. République tchèque, 13 novembre 2007', 8 L'Europe des libertés : revue d'actualité juridique (2008) 25, 18-19.

ERRC/Interights/MPG, Strategic Litigation of Race Discrimination in Europe: from Principles to Practice (Nottingham, Russell Press, 2004), Chapter 4 'Strategic Litigation in Practice'./ *"Avropada irqi ayrı-seçkiliklə bağlı strateji çəkişmələr: prinsiplərdən təcrübəyə", fəsil 4 "Strateji çəkişmələr təcrübədə"*

Interights, Non-Discrimination in International Law (London, Interights, 2005), Chapter 4 'Procedure: Making a Discrimination Claim'./*"Beynəlxalq qanunvericilikdə ayrı-seçkiliyin qadağan olunması məsələləri", fəsil 4 "Ayrı-seçkiliklə bağlı vəsatətin qaldırılması məsələsi"*

No. 5 2007/3 Horizons Stratégiques 'La discrimination saisie sur le vif: Le testing' (periodical containing a number of articles relating to 'situation testing), available at: www.cairn.info/revue-horizons-strategiques-2007-3.htm.

Schiek, Waddington and Bell, Cases, Materials and Text on National, Supranational and International Non-Discrimination Law (Oxford, Hart Publishing, 2007), Chapter 8.5.1.E 'Situation Testing'./*"Ayrı-seçkiliyin qadağan olunması sahəsində milli, regional və beynəlxalq qanunvericiliyə aid işlər, materiallar və sənədlər", Fəsil 8.5.1.E "Mövcud vəziyyətin təhlili"*

European Network of Legal Experts in the non-discrimination field, Measuring Discrimination: Data Collection and EU Equality Law (Luxembourg, Publications Office, 2007), Chapter 3 'The role of data in ensuring compliance with equal treatment law'./*"Ayrı-seçkiliyin qiymətləndirilməsi: məlumatların toplanması və Aİ-nin bərabərliyə dair qanunvericiliyi", fəsil 3 "Bərabər rəftara dair qanunvericiliklə uyğunluğun təmin edilməsi sahəsində məlumatların rolu"*

Presedentlərin siyahısı

Beynəlxalq Ədalət Məhkəməsinin presedentləri

Nottebohm işi (Lixtenşteyn Knyazlığı Qvatemala Respublikasına qarşı) [1955], "ICJ" Hesabatları 4, 23, 6 aprel 1955-ci il..... 90

Avropa Ədalət Məhkəməsinin presedentləri

Abrahamsonun və Leif Andersonun Elizabet Foqelkvistə qarşı C-407/98 [2000] saylı işi..... 31
Allonbinin Akrinqton və Rossendal Kollecinə qarşı C-256/01 [2004] saylı işi..... 18
Anqelidakinin və başqalarının "Organismos Nomarkhiaki Aftodiikisi Rethimnis"-ə qarşı C-378/07 [2009] saylı işi..... 63

Barberin "*Guardian Royal Exchange Assurance Group"-a qarşı* AƏM-dəki C-262/88 [1990] saylı işi..... 53
"Bilka-Kaufhaus GmbH"-nin "Veber fon Harts"-a qarşı C- 170/84 [1986] saylı işi..... 35
Blezonun Lyej Universitetinə və başqalarına qarşı C-24/86 [1988] saylı işi..... 53
Börtonun Britaniya Dəmir Yolu İdarəsinə qarşı C-19/81 [1982] saylı işi..... 52

Kasaqrandenin Landeshauptstadt München-ə qarşı C- 9/74 [1974] saylı işi..... 56
"Centrum voor gelijkheid van kansen en voor racismebestrijding"-nin "Firma Feryn NV"-yə qarşı C-54/07 [2008] saylı işi..... 119
Şakun Navasın "Eurest Colectividades SA" şirkətinə qarşı C-13/05 [2006] saylı işi..... 72
Çenin Daxili İşlər üzrə Dövlət katibinə qarşı C-200/02 [2004] saylı işi..... 91
Kolmanın Attridc Lo və Stiv Loya qarşı Case C-303/06 [2008] saylı işi..... 22
Komissiyanın Fransa Respublikasına qarşı 318/86 [1988] saylı işi..... 38
Komissiyanın Fransa Respublikasına qarşı C-35/97 [1998] saylı işi..... 56
Komissiyanın AFR-ə qarşı C-248/83 [1985] saylı işi..... 38
İvenə qarşı cinayət mühakiməsinə dair C-207/78 [1979] saylı iş..... 55
Mütçə qarşı cinayət mühakiməsinə dair C-137/84 [1985] saylı iş..... 56

De Veerdin (qızlıq soyadı Roks) və başqalarının "Bestuur van de Bedrijfsvereniging voor de Gezondheid, Geestelijke en Maatschappelijke Belangen"-ə və başqalarına qarşı C-343/92 [1994] saylı işi..... 25, 79, 125
Defrenin "SABENA" şirkətinə qarşı C-43/75 [1976] saylı işi..... 71
Dekkerin "Stichting Vormingscentrum voor Jong Volwassenen (VJV-Centrum) Plus"-a qarşı C-177/88 [1990] saylı işi..... 20

Fiorininin (qızlıq soyadı Kristini) SNCF-ə qarşı C- 32/75 [1975] saylı işi..... 55

Qarlandın "British Rail Engineering Limited" şirkətinə qarşı C-12/81 [1982] saylı işi..... 53
Qerşterin Freiştaat Bayern-ə qarşı C-1/95 [1997] saylı işi..... 126
Qravyenin Vil de Lyej-ə və başqalarına qarşı C-293/83 [1985] saylı işi..... 53
Qrönerin Təhsil nazirinə və Dublin şəhərinin Peşə Təhsili Komitəsinə qarşı C-379/87 [1989] saylı işi..... 98

Hilde Şünheytin Frankfurt am Main şəhərinə və *Silvia Bekerin Hessen Torpağına qarşı* C-4/02 və C-5/02 [2003] saylı işləri..... 23, 125
Hillin və Stepltonun Vergilər İdarəsinin Komissiyasına və Maliyyə Departamentinə qarşı C-243/95 [1998] saylı işi..... 72

Hütterin Qrats şəhərinin Texniki Universitetinə qarşı C-88/08 [2009] saylı işi..... 43

Jamstalldhetsombudsmannen-in Orebro Lans Landstinq-ə qarşı C-236/98 [2000] saylı işi…… 52
Constonun Olster Polis İdarəsinin rəisinə qarşı C-222/84 [1986] saylı işi…….. 38

K.B.-nin "NHS" Pensiya Agentliyinə qarşı C-117/01 [2004] saylı işi..... 76
Kalankenin "Freie Hansestadt Bremen"-ə qarşı C-450/93 [1995] saylı işi…… 31
Kolun "Union des Caisses de Maladi"-yə qarşı C-158/96 saylı [1998] işi…….. 59
Kovalskanın "Freie und Hansestadt Hamburg"-a qarşı C-33/89 [1990] saylı işi……. 25, 125
Kreilin AFR-ə qarşı C-285/98 [2000] saylı işi…….. 40

Lyuenin Dendaya qarşı C-333/97 [1999] saylı işi…….. 53
Lommersin nazir van Landbouya qarşı C-476/99 [2002] saylı işi…… 52

Malburqun Meklenburq-Vorpommern Torpağına qarşı C-207/98 [2000] saylı işi…… 39
Marşalın Nordrhein-Vestfalen Torpağına qarşı C-409/95 [1997] saylı işi…….. 31
Marukonun „Versorgungsanstalt der deutschen Bühnen" şirkətinə qarşı C-267/06 [2008] saylı işi..... 21
Matöççinin Belçika Krallığının Fransa icmasında qarşı C-235/87 [1988] saylı işi..... 56
Meqnerin və Şeffelin Innungskrankenkasse Vorderpfalz-a qrşı C-444/93 [1995] saylı işi..... 78
Meyersin Bankrotçuluq məsələləri üzrə əməkdaşa qarşı C-116/94 [1995] saylı işi..... 51, 52
Müller Faurènin "Onderlinge Waarborgmaatschappij"-ə qarşı C-385/99 [2003] saylı işi..... 59

Nimtsin „Freie und Hansestadt Hamburg"-a qarşı C-184/89 [1991] saylı işi..... 25, 125
Noltenin "Landesversicherungsanstalt Hannover"-ə qarşı C-317/93 [1995] saylı işi..... 25, 78, 125

P. və S.-in Kornuol qraflığının rəhbərliyinə qarşı C-13/94 [1996] saylı işi..... 23
Palasios de la Vilyanın Cortefiel Servisios SA-ya qarşı C-411/05 [2007] saylı işi…… 41, 52
Peerbumsun "Stichting CZ Groep Zorgverzekeringen"-ə qarşı C-157/99 saylı işi…… 59

R-in Məşğulluq üzrə Dövlət katibinə qarşı (Seymur-Smitin və Peresin xeyrinə) C-167/97 [1999] saylı işi…….. 126
Reynanın Landeskreditbank Baden-Württemberg-ə qarşı C-65/81 [1982] saylı işi…….. 56
Riçardsın Əmək və Pensiya üzrə Dövlət katibinə qarşı C-423/04 [2006] saylı işi…… 18, 76
Rinner-Kühnün „FWW Spezial-Gebðudereinigung"-ə qarşı C-171/88 [1989] saylı işi…… 24, 125

Sabbatininin Avropa Parlamentinə qarşı C-20/71 [1972] saylı işi..... 53
Sahlstedtin və başqalarının Komissiyaya qarşı C-362/06 [2009] saylı işi..... 63
Şnorbusun Hessen Torpağına qarşı C-79/99 [2000] saylı işi..... 51, 78
Sirdarın Ordu Qərargahına və Müdafiə üzrə Dövlət katibinə qarşı C-273/97 saylı işi..... 40
Susanna Brunnhoferin „Bank der ųsterreichischen Postsparkasse AG"-yə qarşı C-381/99 [2001] saylı işi..... 120

Vassilakis və başqalarının Dimos Kerkirasa qarşı C-364/07 [2008] saylı işi..... 63

Uebbin "EMO Air Cargo (UK) Ltd" şirkətinə qarşı C-32/93 [1994] saylı işi..... 20

Avropa İttifaqının Ədalət Məhkəməsinin presedent hüququna dair yeniləmələri

Association belge des Consommateurs Test-Achats ASBL-in və başqalarının Nazirlər Şurasına qarşı C-236/09 [2011] saylı işi (Böyük Palata)..... 73
Dita Danosanın LKB Līzings SIA-yə qarşı C-232/09 [2010]saylı işi..... 74
Qalina Meysterin "Speech Design Systems GmbH"-ə qarşı C-415/10 [2012] saylı işi..... 122
Yaroslav Vavrjinyakın Agentur Für Aarbeit Mönchengladbach–Familienkasse-yə qarşı C-612/10 [2012] saylı işi..... 20
Lopes da Silva Jorjenin C-42/11 [2012] saylı işi..... 88
Patrik Kellinin İrlandiyanın Milli Universitetinə (Dublin Universitet Kollecinə) C-104/10 [2011] saylı işi..... 121
Pedro Manuel Roka Álvaresin Sesa Start España ETT SA-ya qarşı C-104/09 [2010] saylı işi..... 29
Pensionsversicherungsanstalt-ın Kristin Klaysta qarşı C-356/09 [2010] saylı işi..... 21
Rijksdienst voor Pensioenen-in Elizabet Bruverə qarşı C-577/08 [2010] saylı işi..... 74
Servet Kamberayın Istituto per L'Edilizia Sociale Della Provincia Autonomia di Bolzano (IPES)-ə və başqalarına qarşı C-571/10 [2012] saylı işi..... 60
Uoltraud Braxnerin Pensionsversicherungsanstalt-a qarşı AƏM-dəki C-123/10 saylı [2011] işi..... 126

Avropa İnsan Hüquqları Məhkəməsinin presedentləri

Əbduləzizin, Kabalyesin və Balkandalinin Böyük Britaniyaya qarşı 9214/80, 9473/81 və 9474/81 saylı, 28 may 1985-ci il tarixli işləri..... 92
Aluxer Fernandesin və Kabalyero Qrkanın İspaniya Krallığına qarşı 53072/99 saylı, 14 iyun 2001-ci il tarixli işi..... 94
Anakomba Yulanın Belçika Krallığına qarşı 45413/07 saylı, 10 mart 2009-cu il tarixli işi..... 63, 91
Andreyevanın Latviya Respublikasına qarşı [GC] 55707/00 saylı, 18 fevral 2009-cu il tarixli işi..... 50, 56, 93
Əzizin Kipr Respublikasına qarşı 69949/01 saylı, 22 iyun 2004-cü il tarixli işi..... 21

Baçkovskinin və başqalarının Polşa Respublikasına qarşı 1543/06 saylı, 3 may 2007-ci il tarixli işi..... 27, 66
Balsitė-Lideikienėnin Litva Respublikasına qarşı 72596/01 saylı, 4 noyabr 2008-ci il tarixli AİHM-dəki işi..... 68
Barrounun Böyük Britaniyaya qarşı 42735/02 saylı, 22 avqust 2006-cı il tarixli işi..... 78
Biqayevanın Yunanıstan Respublikasına qarşı 26713/05 saylı, 28 may 2009-cu il tarixli işi..... 54
Buamarın Belçika Krallığına qarşı 9106/80 saylı, 29 fevral 1988-ci il tarixli işi..... 68, 85
Bukleyin Böyük Britaniyaya qarşı 20348/92 saylı, 25 sentyabr 1996-cı il tarixli işi..... 59
Burdenin Böyük Britaniyaya qarşı [GC] 13378/05 saylı, 29 aprel 2008-ci il tarixli işi..... 17, 18, 35

C-nin Belçika Krallığına qarşı (No. 21794/93) saylı, 7 avqust 1996-cı il tarixli işi..... 92
Kempbelin və Kosansın Böyük Britaniyaya qarşı 7511/76 və 7743/76 saylı, 25 fevral 1982-ci il tarixli işləri..... 98
Karsonun və başqalarının Böyük Britaniyaya qarşı 42184/05 saylı, 16 mart 2010-cu il tarixli işi..... 17, 19, 50, 102
"Belçikada təhsil zamanı dillərdən istifadə haqqında qanunvericiliyin müəyyən aspektlərinin" Belçika Krallığına qarşı 1474/62 və başqa saylı, 23 iyul 1968-cı il tarixli işləri..... 98

Kastelsin İspaniya Krallığına qarşı 11798/85 saylı, 23 aprel 1992-ci il tarixli işi 66, 101
Xaare Şalom və Tsedekin Fransa Respublikasına qarşı
[GC] 27417/95 saylı, 27 iyun 2000-ci il tarixli işi..... 94
Çahalın Böyük Britaniyaya qarşı 22414/93 saylı, 15 noyabr 1996-cı il tarixli işi..... 92
Şassanyunun və başqalarının Fransa Respublikasına qarşı
25088/94, 28331/95 və 28443/95 saylı, 29 aprel 1999-cu il tarixli işləri..... 100
Kristin Qodvinin Böyük Britaniyaya qarşı [GC] 28957/95 saylı, 11 iyul 2002-ci il tarixli işi.. 76
Moskva Sayentologiya Kilsəsinin Rusiya Federasiyasına qarşı
18147/02 saylı, 5 aprel 2007-ci il tarixli işi..... 97

D.G.-nin İrlandiya Respublikasına qarşı 39474/98 saylı, 16 may 2002-ci il tarixli işi..... 68, 85
D.H.-in və başqalarının Çex Respublikasına qarş [GC] 57325/00 saylı,
13 noyabr 2007-ci il tarixli işi..... 17, 24, 25, 57, 120, 124, 126
Dəhləbin İsveçrə Konfederasiyasına qarşı 42393/98 saylı,
15 fevral 2001-ci il tarixli işi..... 98
Danilenkovun və başqalarının Rusiya Federasiyasına qarşı 67336/01
saylı, 30 iyul 2009-cu il tarixli işi..... 54, 102
Demir and Baykara v. Turkey (No. 34503/97), 12 November 2008…… 54
Dokiçin Bosniya və Herseqovina Respublikasına qarşı
6518/04 saylı, 27 may 2010-cu il tarixli işi..... 61
Dadgenin Böyük Britaniyaya qarşı 7525/76 saylı, 22 oktyabr 1981-ci il tarixli işi…… 81

E.B.-nin Fransa Respublikasına qarşı [GC] 43546/02 saylı,
22 yanvar 2008-ci il tarixli işi…….. 49, 64, 80
Engelin və başqalarının Niderland Krallığına qarşı 5100/71, 5101/71,
5102/71, 5354/72 və 5370/72 saylı, 8 iyun 1976-cı il tarixli işləri…….. 102

Ferenin Belçika Krallığına qarşı 15615/07 saylı, 16 iyul 2009-cu il tarixli işi..... 68
Frettenin Fransa Respublikasına qarşı 36515/97 saylı, 26 fevral 2002-ci il tarixli işi..... 80

Qayqusuzun Avstriya Respublikasına qarşı 17371/90 saylı,
16 sentyabr 1996-cı il tarixli işi..... 18, 50, 56, 93
Qlorun İsveçrə Konfederasiyasına qarşı 13444/04 saylı, 30 aprel 2009-cu il tarixli işi..... 83
"*Grande Oriente d'Italia di Palazzo Giustiniani"-nin Italiya*
Respublikasına qarşı (No. 2) 26740/02 saylı, 31 may 2007-ci il tarixli işi..... 102

Həndisaydın Böyük Britaniyaya qarşı 5493/72 saylı, 7 dekabr 1976-cı il tarixli işi..... 101
Həsənin və Çauşun Bolqarıstan Respublikasına qarşı [GC]
30985/96 saylı, 26 oktyabr 2000-ci il tarixli işi..... 97
Hooqendiykin Niderland Krallığına qarşı 58641/00 saylı, 6 yanvar 2005-ci il tarixli işi..... 16, 125

I-nin Böyük Britaniyaya qarşı [GC] 25680/94 saylı, 11 iyul 2002-ci il tarixli işi..... 76

K.H.-nin və başqalarının Slovakiya Respublikasına qarşı
32881/04 saylı, 28 aprel 2009-cu il tarixli işi..... 56
Karnerin Avstriya Respublikasına qarşı 40016/98 saylı, 24 iyul 2003-cü il tarixli işi..... 76
Kösenin və başqalarının Türkiyə Respublikasına qarşı 26625/02
saylı, 24 yanvar 2006-cı il tarixli işi..... 98
Koua Puarenin Fransa Respublikasına qarşı 40892/98 saylı,

30 sentyabr 2003-cü il tarixli işi..... 50, 56, 93

L.-in Litva Respublikasına qarşı 27527/03 saylı, 11 sentyabr 2007-ci il tarixli işi..... 76
Le Penin Fransa Respublikasına qarşı 18788/09 saylı, 20 aprel 2010-cu il tarixli işi..... 68
Loizidunun Türkiyə Respublikasına qarşı 15318/89 saylı, 18 dekabr 1996-cı il tarixli işi.... 46
Lüçzakın Polşa Respublikasına qarşı 77782/01 saylı, 27 noyabr 2007-ci il tarixli işi..... 18

Mazurekin Fransa Respublikasına qarşı 34406/97 saylı, 1 fevral 2000-ci il tarixli işi..... 64, 65, 99
Yehova Şahidləri Qldani İcmasına üzv olan şəxslərin və başqalarının Gürcüstan Respublikasna qarşı 71156/01 saylı, 3 may 2007-ci il tarixli işi..... 67
Besarabiya Mitropolit Kilsəsinin və başqalarının Moldova Respublikasına qarşı 45701/99 saylı, 13 dekabr 2001-ci il raixli işi..... 97
Moldovanın və başqalarının Rumıniya Respublikasına qarşı (No. 2) 41138/98 və 64320/01 saylı, 12 iyul 2005-ci il tarixli işləri..... 61, 63
Müstəqimin Belçika Krallığına qarşı 12313/86 saylı, 18 fevral 1991-ci il tarixli işi..... 17, 92
Xilasetmə Ordusu Moskva filialının Rusiya Federasıyasına qarşı 72881/01 saylı, 5 oktyabr 2006-cı il tarixli işi..... 97
Munyos Diasın İspaniya Krallığına qarşı 49151/07 saylı, 8 dekabr 2009-cu il tarixli işi..... 64

Naçovanın və başqalarının Bolqarıstan Respublikasına qarşı [GC] 43577/98 və 43579/98saylı, 6 iyul 2005-ci il tarixli işləri..... 67, 120, 122

Opuzun Türkiyə Respublikasına qarşı 33401/02 saylı, 9 iyun 2009-cu il tarixli işi..... 24, 68, 127
Orşuşun və başqalarının Xorvatiya Respublikasına qarşı [GC] 15766/03 saylı, 16 mart 2010-cu il tarixli işi..... 57, 128

Paraskeva Todorovanın Bolqarıstan Respublikasına qarşı 37193/07 saylı, 25 mart 2010-cu il tarixli işi..... 28, 63
Pirsonun Böyük Britaniyaya qarşı 8374/03 saylı, 22 avqust 2006-cı il tarixli işi..... 78
Petrovun Bolqarıstan Respublikasına qarşı 15197/02 saylı, 22 may 2008-ci il tarixli işi..... 102
Prettinin Böyük Britaniyaya qarşı 2346/02 saylı, 29 aprel 2002-ci il tarixli işi..... 28, 83
Praysın Böyük Britaniyaya qarşı 33394/96 saylı, 10 iyul 2001-ci il tarixli işi..... 83

Rasmussenin Danimarka Krallığına qarşı 8777/79 saylı, 28 noyabr 1984-cü il tarixli işi.... 64, 66

S.L.-in Avstriya Respublikasına qarşı 45330/99 saylı, 9 yanvar 2003-cü il tarixli işi..... 80
Şahinin AFR-ə qarşı 30943/96 saylı, 8 iyul 2003-cü il tarixli işi..... 65, 102
Şuitsqebelin İsveçrə Konfederasiyasına qarşı 25762/07 saylı, 10 iyun 2010-cu il tarixli işi..... 84
Şeciçin Xorvatiya Respublikasına qarşı 40116/02 saylı, 31 may 2007-ci il tarixli işi..... 67
Sejdiçin və Fincinin Bosniya və Herseqovina Respublikasına qarşı [GC] 27996/06 və 34836/06 saylı, 22 dekabr 2009-cu il tarixli işləri..... 86, 90
Sidabrasın və Djiautasın Litva Respublikasına qarşı 55480/00 və 59330/00 saylı, 27 iyul 2004-cü il tarixli işləri..... 49, 54
Sławomir Musialın Polşa Respublikasına qarşı 28300/06 saylı, 20 yanvar 2009-cu il tarixli işi..... 56
Smit və Qreydinin Böyük Britaniyaya qarşı 33985/96 və 33986/96 saylı, 27 sentyabr 1999-cu il tarixli işləri..... 61
Sosialist Partiyasının və başqalarının Türkiyə Respublikasına qarşı 21237/93 saylı, 25 may 1998-ci il tarixli işi..... 66

Sommerfeldin AİHM-dəki [GC] (No. 31871/96) saylı, 8 iyul 2003-cü il tarixli işi..... 49, 64, 65, 102
Stek və başqalarının Böyük Britaniyaya qarşı [GC] 65731/01 və 65900/01 saylı, 12 aprel 2006-cı il tarixli *işləri*..... 50, 77
Stilin və Morrisin Böyük Britaniyaya qarşı 68416/01 saylı, 15 fevral 2005-ci il tarixli işi..... 101

T.-nin Böyük Britaniyaya qarşı [GC] 24724/94 saylı, 16 dekabr 1999-cu il tarixli işi..... 84
Tlimmenosun Yunanıstan Respublikasına qarşı [GC] 34369/97 saylı, 6 aprel 2000-ci il tarixli işi..... 28
Timişevin Russiya Federasiyasına qarşı 55762/00 və 55974/00 saylı, 13 dekabr 2005-ci il tarixli işləri..... 86, 90, 120
Turan Çakırın Belçika Krallığına qarşı 44256/06 saylı, 10 mart 2009-cu il tarixli işi..... 67

Ünal Təkəlinin Türkiyə Respublikasına qarşı 29865/96 saylı, 16 noyabr 2004-cü il tarixli işi..... 73

V.-nin Böyük Britaniyaya qarşı [GC] 24888/94 saylı, 16 dekabr 1999-cu il tarixli işi..... 84
Van Kükün AFR-ə qarşı 35968/97 saylı 12 iyun 2003-cü il tarixli işi..... 77

Uolkerin Böyük Britaniyaya qarşı 37212/02 saylı, 22 avqust 2006-cı il tarixli işi..... 78
Vellerin Macarıstan Respublikasına qarşı 44399/05 saylı, 31 mart 2009-cu il tarixli işi..... 22, 50, 102
Uillemin Fransa Respublikasına qarşı 10883/05 saylı, 16 iyul 2009-cu il tarixli işi..... 68
Vintersberqerin Avstriya Respublikasıına qarşı (dostcasına həll olunmuş) 57448/00 saylı, 5 fevral 2005-ci il tarixli işi..... 33

Zərb Adaminin Malta Respublikasına qarşı 17209/02 saylı, 20 iyun 2006-cı il tarixli işi..... 24, 49, 73
Zeibekin Yunanıstan Respublikasına qarşı 46368/06 saylı, 9 iyul 2009-cu il tarixli işi..... 91

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququna dair yeniləmələri

B.-nin Böyük Britaniyaya qarşı 36571/06 saylı, 14 fevral 2012-ci il tarixli işi..... 36
B.S.-in İspaniya Krallığına qarşı 47159/08 saylı, 24 iyul 2012-ci il tarixli işi..... 90
Bahın Böyük Britaniyaya qarşı 56328/07 saylı, 27 sentyabr 2011-ci il tarixli işi..... 62
Fausinin Yunanıstan Respublikasına və Saidunun Yunanıstan Respublikasına qarşı 40080/07 və 40083/07 saylı, 28 oktyabr 2010-cu il tarixli işləri..... 92
Fedorçenko və Lozenkonun Ukrayna Respublikasına qarşı 387/03 saylı, 20 sentyabr 2012-ci il tarixli işi..... 89
Genderdoc-M-in Moldova Respublikasına qarşı 9106/06 saylı, 12 iyun 2012-ci il tarixli işi..... 81
Hodenin və Abdinin Böyük Britaniyaya qarşı 22341/09 saylı, 6 noyabr 2012-ci il tarixli işi..... 103
Jehovas Zeugen in Österreich-in 27540/05 saylı, 25 sentyabr 2012-ci il tarixli işi..... 96
Kiyutinin Rusiya Federasiyasına qarşı 2700/10 saylı, 10 mart 2011-ci il tarixli işi..... 102
Konstantin Markinin Rusiya Federasiyasına qarşı 30078/06 saylı, 22 mart 2012-ci il tarixli işi..... 72
Kuriçin və başqalarının Sloveniya Respublikasına qarşı 26828/06 saylı, 26 iyun 2012-ci il tarixli işi..... 87
Leketuşun və başqalarının Rumıniya Respublikasına qarşı 12694/04 saylı, 13 noyabr 2012-ci il tarixli işi..... 87
Ladunanın Slovakiya Respublikasına qarşı 31827/02 saylı, 13 dekabr 2011-ci il tarixli işi..... 19

Maxaşevlərin Rusiya Federasiyasına qarşı 20546/07saylı, 31 iyul 2012-ci il tarixli işi..... 121
Milanoviçin Serbiya Respublikasına qarşı 44614/07 saylı, 14 dekabr 2010-cu il tarixli işi.. 95
O'Donoqenin və başqalarının Böyük Britaniyaya qarşı 34848/07 saylı, 14 dekabr 2010-cu il tarixli işi..... 95
Ponomaryovların Bolqarıstan Respublikasına qarşı 5335/05 saylı, 21 iyun 2011-ci il tarixli işi..... 57
Ravivin Avstriya Respublikasına qarşı 26266/05 saylı, 31 mart 2012-ci il tarixli işi..... 36
Sampaninin və başqalarının Yunanıstan Respublikasına qarşı 59608/09 saylı, 11 dekabr 2012-ci il tarixli işi..... 88
Savez crkava 'Riječ života'-nın və başqalarının Xorvatiya Respublikasına qarşı 7798/08 saylı, 9 dekabr 2010-cu il tarixli işi..... 94
Şərifə Yığıtın Türkiyə Respublikasına qarşı [GC] 3976/05 saylı, 2 noyabr 2010-cu il tarixli işi..... 65
Ştummerin Avstriya Respublikasına qarşı [GC] 37452/02 saylı, 7 iyul 2011-ci il tarixli işi..... 57
Virabyanın Ermənistan Respublikasına qarşı 40094/05 saylı, 2 oktyabr 2012-ci il tarixli işi..... 101
Vuçkoviçin və başqalarının Serbiya Respublikasına qarşı 17153/11 saylı, 28 avqust 2012-ci il tarixli işi..... 100
X-in Türkiyə Respublikasına qarşı 24626/09 saylı, 9 oktyabr 2012-ci il tarixli işi..... 80
Yotovanın Bolqarıstan Respublikasına qarşı 43606/04 saylı, 23 oktyabr 2012-ci il tarixli işi..... 89

Sosial Hüquqlar üzrə Avropa Komitəsinin presedentləri

Əqli Xəstələrin Müdafiə Mərkəzi Bolqarıstan Respublikasına qarşı (şikayət ərizəsi No. 41/2007), 3 iyun 2008-ci il..... 120
"SUD Travail Affaires Sociales" Fransa Respublikasına qarşı (şikayət ərizəsi No 24/2004, 8 noyabr 2005-ci il)..... 120

İnsan Hüquqları Komitəsinin presedentləri

Dyerqaardtın və başqalarının Namibiya Respublikasına qarşı 760/1997 saylı, 6 sentyabr 2000-ci il tarixli şikayət ərizəsi..... 99

Milli məhkəmələrin presedentləri

Avstriya Respublikası - Düblinq Dairə Məkəməsi tərəfindən baxılmış GZ 17 C 1597/05f-17 saylı, 23 yanvar 2006-cı il tarixli iş..... 59
Avstriya Respublikası - Avstriyanın Bərabər Rəftar Məsələləri üzrə Komissiyası, Senat III..... 86, 87

Belçika Krallığı - "Correctionele Rechtbank van Antwerpen"-nin 6 dekabr 2004-cü il tarixli qərarı..... 60
Bolqarıstan Respublikası - Sofiya şəhəri Regional Məhəkəməsinin 2860/2006 saylı, 21 iyun 2006-cı il tarixli mülki iş üzrə 164 saylı qərarı..... 27

Finlandiya Respublikası - Vaasa İnzibati Məhkəməsinin (Vaasan Hallinto-oikeus) 04/0253/3 saylı işi..... 41
Fransa Respublikası - Buteyyenin Təhsil Nazirliyinə qarşı Ruyenin İnzibati Məhkəməsi tərəfindən baxılmış işi üzrə 0500526-3 saylı, 24 iyun 2008-ci il tarixli Qərar..... 29
Fransa Respublikası - Kassasiya Məhkəməsinin Cinayətlərə dair İşlər üzrə Palatasındakı M 08-88.017 və 2074 saylı, 7 aprel 2009-cu il tarixli işləri..... 59

Fransa Respublikası - Lenormanın Balensiyə qarşı Nom Apellyasiya Məhkəməsindəki 08/00907 saylı, 6 noyabr 2008-ci il tarixli işi…….. 59

Macarıstan Respublikası - Bərabər Rəftar Məsələləri üzrə İdarənin 654/2009 saylı, 20 dekabr 2009-cu il tarixli qərarı……. 26

Macarıstan Respublikası - Bərabər Rəftar Məsələləri üzrə İdarə tərəfindən baxılmış 72 saylı, 2008-ci il aprel tarixli iş…….. 59

Sloveniya Respublikası - Bərabərlik Prinsipi üzrə vəkilinin UEM-0921-1/2008-3 saylı, 28 avqust 2008-ci il tarixli qərarı..... 128

İsveç Krallığı - "Escape" bar-restoranının Etnik Mənşə Zəminində Ayrı-seçkilik əleyhinə Ombudsmana qarşı İsveç Krallığının Ali Məhkəməsindəki T-2224-07 saylı, 1 oktyabr 2008-ci il tarixli işi…….. 59, 124

İsveç Krallığı - Obmudsmanın 262/06 saylı işlə bağlı 21 iyun 2006-cı il tarixli qərarı…….. 79

İsveç Krallığı - Cinsi oriyentasiya zəminində ayrı-seçkiliyə qarşı Ombudsmanın A.S.-ə qarşı T-3562-06 saylı, 11 fevral 2008-ci il tarixli işi…….. 26, 59

Böyük Britaniya - İddia ərizəsinə əsasən "Amikus MSF Sektion, R"-in Ticarət və Sənaye üzrə Dövlət katibinə qarşı Böyük Britaniyanın Ali Məhkəməsində [2004] EWHC 860 (Admin) saylı, 26 aprel 2004-cü il tarixli işi…… 41

Böyük Britaniya - Eueydanın "British Airways Plc" şirkətinə qarşı Böyük Britaniyanın Appelyasiya məhkəməsindəki 12 fevral 2010-cu il tarixli işi..... 128

Böyük Britaniya - Londonun İslinqton qəsəbə şurasının Ladeleyə qarşı (azadlıq hüququna müdaxilə barədə) Böyük Britaniyanın Apellyasiya Məhkəməsindəki 12 fevral 2010-cu il tarixli işi…….. 97

Böyük Britaniya - Ceymsin İstli şəhər bələdiyyəsinə qarşı Böyük Britaniyanın Lordlar Palatasında müzakirəyə çıxarılmış işi 6, 14 iyun 1990-cı il…… 21

Böyük Britaniya - MakKalloşun "Imperial Chemical Industries plc" şirkətinə qarşı Böyük Britaniyanın Məşğulluq Məsələlərinə dair Apellyasiya Məhkəməsindəki 22 iyul 2008-ci il tarixli işi…….. 42

Hüquqi sənədlərin siyahısı

Beynəlxalq sənədlər

“İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Konvensiya (4 noyabr 1950-ci il)

“Mülki və siyasi hüquqlar haqqında” Beynəlxalq Pakt (16 dekabr 1966-cı il)

“İqtisadi, sosial və mədəni hüquqlar haqqında” Beynəlxalq Pakt (16 dekabr 1966-cı il)

Birləşmiş Millətlər Təşkilatının “İşgəncələr və digər qəddar, qeyri-insani və alçaldıcı rəftar və ya cəza əleyhinə” Konvensiyası (9 dekabr 1975-ci il)

Birləşmiş Millətlər Təşkilatının “İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiyası (4 yanvar 1969-cı il)

Birləşmiş Millətlər Təşkilatının “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiyası (18 dekabr 1979-cu il)

Birləşmiş Millətlər Təşkilatının “Əlillərin hüquqları haqqında” Konvensiyası (13 dekabr 2006-cı il)

Birləşmiş Millətlər Təşkilatının “Uşaq hüquqları haqqında” Konvensiyası Birləşmiş Millətlər Təşkilatının (20 noyabr 1989-cu il)

Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (10 dekabr 1948-ci il)

Avropa İttifaqının sənədləri

Avropa İttifaqının Əsas Hüquqlar Xartiyası (7 dekabr 2000-ci il)

Avropa Komissiyasının “Qadın və kişilərin ləyaqətinin iş yerlərində müdafiəsinə dair” 92/131/EEC saylı Tövsiyələri (27 noyabr 1991-ci il)

Avropa İttifaqı Şurasının “Avropa Komissiyasının qadın və kişilərin ləyaqətinin iş yerlərində müdafiəsinə dair Tövsiyələrinin, həmçinin cinsi zəminində qısnamaya qarşı mübarizəyə dair prosessual məcəlləsinin icra olunması haqqında” 19 dekabr 1991-ci il tarixli Bəyannaməsi (19 dekabr 1991-ci il)

Avropa İttifaqı Şurasının “Sosial təminat məsələlərilə bağlı kişilərlə qadınlar arasında bərabər rəftar prinsipinin qabaqçıl şəkildə icra olunmasına dair” 79/7/EEC saylı Direktivi (19 dekabr 1978-ci il)

Avropa İttifaqı Şurasının “Məşğulluq sahəsində bərabərliyə dair ümumi çərçivəni müəyyənləşdirən” 2000/78/EC saylı Direktivi (27 noyabr 2000-ci il)

Avropa Parlamentinin və Avropa İttifaqı Şurasının “Məşğulluğa və iş yerlərinə aid məsələlərdə bərabər imkanlar və bərabər rəftar prinsipinin icra olunmasına dair” 2006/54/EC saylı (yenidən baxılmış) Direktivi (5 iyul 2006-cı il)

Avropa İttifaqı Şurasının “Əmək, peşə təlimi və karyera irəliləyişi hüququndan istifadə ilə bağlı qadınlarla kişilər arasında bərabər rəftar prinsipinin icra olunmasına dair” 76/207/EEC saylı Direktivi (9 fevral 1976-cı il)

Avropa İttifaqı Şurasının “Mallar və xidmətlər sahəsində qadınlar və kişilər arasında bərabər rəftar prinsipinin icra olunmasına dair” 2004/113/EC saylı Direktivi (13 dekabr 2004-cü il)

Avropa İttifaqı Şurasının “İrqi və ya milli mənşəsindən asılı olmayaraq şəxslər arasında bərabər rəftar prinsipinin icra olunmasına dair” 2000/43/EC saylı Direktivi (29 iyun 2000-ci il)

Avropa İttifaqı və Avropa Birliyinin Yaradılması haqqında Müqavilələrə düzəlişlər edən Lissabon Müqaviləsi (13 dekabr 2007-ci il)

“CD-Rom”-də mövcud olan əlavə materiallar

i. Avropa İttifaqı Şurasının “Sosial təminat məsələlərilə bağlı kişilərlə qadınlar arasında bərabər rəftar prinsipinin qabaqçıl şəkildə icra olunmasına dair” 79/7/EEC saylı Direktivi (19 dekabr 1978-ci il) [bolqar, sloven, alman, ingilis, ispan, fransız, macar, italyan, polyak, rumın dillərində]

ii. Edel *“Avropa İnsan Hüquqları Konvensiyasına əsasən ayrı-seçkiliyin qadağan olunması”*, Human Rights Files, No. 22, 2010-cu il [ingilis, fransız dillərində]

iii. Avropa Komissiyası *“Ayrı-seçkiliyə qarşı mübarizə: təlim vəsaiti”*, 2006-cı il [bolqar, sloven, alman, ingilis, ispan, fransız, macar, italyan, polyak, rumın dillərində]

iv. Bərabərlik məsələlərilə məşğul olan qurumların Avropa Şəbəkəsi (Equinet) *“Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinin tətbiqi məsələləri: dinamik şərh”*, cild I [ingilis, fransız dillərində], cild II [ingilis, fransız dillərində], cild III [ingilis, fransız dillərində], cild IV [ingilis dilində]

v. Bərabərlik məsələlərilə məşğul olan qurumların Avropa Şəbəkəsi (Equinet) *“Mallar və xidmətlər sahəsində ayrı-seçkiliyə qarşı mübarizə”* [ingilis, fransız dillərində]

vi. Avropa İttifaqının Əsas Hüquqlar Agentliyi (FRA) “*İrqi bərabərliyə dair Direktivin təsir gücü. Avropa İttifaqı həmkarlar və işə götürənlər təşkilatlarının rəyi”*, 2010-cu il [ingilis dilində]

vii. Avropa İnsan Hüquqları Konvensiyasının 2, 3, 5, 6, 7, 8, 9, 10, 11, 13 və 14-cü maddələri, həmçinin AİHM-in 1 saylı Protokolunun 1-ci maddəsilə bağlı konkret hadisələrin öyrənilməsi [alman, ingilis, fransız dillərində]

viii. Avropa İnsan Hüquqları Məhkəməsinin seçmə presedentlərinin macar dilində xülasəsi [macar dilində]

Onlayn mənbələr

Mənbələr	Veb-ünvanlar[342]
Avropa Şurasının Hüquqşünaslar üçün İnsan Hüquqları Sahəsində Təhsilə dair	"www.coehelp.org/s" veb-sayt
Equinet *"Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyinin tətbiqi məsələləri: dinamik şərh"*, cildlər I-IV.	"www.equineteurope.org/equinetpublications.html" saytı
Ayrı-seçkiliyə qarşı hüquqi ekspertlərin Avropa Şəbəkəsi *"Yeni Hesabat".*	"www.non-discrimination.net/news" saytı
Qrqiç, Mataqa, Lonqar və Vilfan *"AİHK-ya əsasən Mülkiyyət Hüququ"*, İnsan Hüquqları üzrə Bələdçi No10, 2007-ci il.	"www.coehelp.org/mod/resource/view.php?inpopup=true&id=2123" saytı
"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 12 saylı Protokoluna (ETS No. 177) dair İzahedici Məruzənin 22-ci paraqrafı.	"http://conventions.coe.int/Treaty/en/Reports/Html/177.htm" saytı
Kilkelli *"Şəxsi həyata və ailə həyatına hörmət hüququ"*, İnsan Hüquqları üzrə Bələdçi No. 1, 2001-ci il.	"www.coehelp.org/mod/resource/view.php?inpopup=true&id=1636" saytı
Equinet *"Mallar və xidmətlər sahəsində ayrı-seçkiliyə qarşı mübarizə"*.	"www.equineteurope.org/68.html" saytı
On-layn mənbələr: bütün elektron istinadlara 2011-ci il martın 10-da baxılmışdı "Cinsi oriyentasiya və gender özünəməxsusluğu ilə əlaqədar insan hüquqlarına aid beynəlxalq qanunvericiliyin tətbiqinə dair Yoqyakarta Prinsipləri".	"www.yogyakartaprinciples.org/principles_en.htm" saytı
FRA-nın informasiya portal:	"http://infoportal.fra.europa.eu"
FRA-nın hesabatı "*İrqi bərabərliyə dair Direktivin təsir gücü. Avropa İttifaqı həmkarlar və işə götürənlər təşkilatlarının rəyi"*.	"http://fra.europa.eu/fraWebsite/research/publications/publications_per_year/pub_racial_equal_directive_en.htm" saytı

[342] All hyperlinks were accessed on 10 March 2011.

Konkret hadisən öyrənilməsi 15 “Roman mənşəli kişinin saxlanılması, məhkəmə araşdırmalarına qədər nəzarət altında saxlanması və onunla pis rəftar etmə”.	“www.coehelp.org/course/view.php?id=18&topic=1” saytı
Mördok *“Fikir, vicdan və din azadlığı”*, İnsan Hüquqları üzrə Bələdçi No2, 2007-ci il.	“www.coehelp.org/mod/resource/view.php?inpopup=true&id=2122” saytı
AŞ-nin İnsan Hüquqları üzrə Bələdçiləri:	“www.coehelp.org/course/view.php?id=54” saytı
“Ayrı-seçkiliyə qarşı mübarizə: təlim vəsaiti”.	“http://ec.europa.eu/social/main.jsp?catId=427&langId=en&moreDocuments=yes” saytı

Presedentlərlə tanış olmaq üçün xüsusi qeyd

Yuxarıda verilmiş presedentlər oxucunu müvafiq işə aid hərtərəfli mülahizələrlə tanış olmaq imkanı verən müfəssəl informasiya ilə təmin edir. Aidiyyatı məhkəmə tərəfindən konkret işlə bağlı qəbul edilmiş hansısa qərarla tanış olmazdan əvvəl oxucunun həmin işin səbəblərini dərindən öyrənməsi və təhlil etməsi daha faydalı hesab oluna bilər.

Bu nəşrdə verilmiş işlərin çoxu AƏM-in və ya AİHM-in icraatında olduğundan onlar aparılan müzakirələrin əsasını təşkil edir. Eyni zamanda, milli presedentlərdən ibarət məlumat bazalarından istifadə zamanı eyni metodologiya tətbiq edilib.

Oxucu AİHM-in müvafiq presedentini tapmaq məqsədilə bu presedentlərə sərbəst çıxışı olan AİHM-nin “HUDOC” portalına daxil olmalıdır: “www.echr.coe.int/ECHR/EN/Header/Case-Law/Hudoc/Hudoc+database/.” “HUDOC” portalı isitfadəçiyə müvafiq presedenti sərbəst şəkildə tapmaq imkanı verən əlverişli axtarış sisteminə malikdir. Müvafiq presedenti tapmağın ən sadə yolu “Application Number” adlı axtarış qrafasına həmin işin ərizə nömrəsini daxil etməkdən ibarətdir.

Oxucu AƏM-in müvafiq presedentini tapmaq məqsədilə bu presedentlərə sərbəst çıxışı olan “CURIA” axtarış sisteminə daxil olmalıdır: “http://curia.europa.eu/jurisp/cgi-bin/form.pl?lang=en.” “CURIA” axtarış sistemi istifadəçi üçün istənilən presedentin tapılmasını sadə bir işə çevirən əlverişli interfeysə malikdir. Tələb olunan presedenti tapmağın ən sadə yolu “Case number” adlı axtarış qrafasına presedentin nömrəsini daxil etməkdən ibarətdir.

Bundan başqa, təklif olunan (və ya istifadə olunan hər hansı axtarış sistemi) digər iki axtarış sistemi istifadəçiyə presedentləri onların tarixləri əsasında nəzərdən keçirmək imkanı verəcək. Müvafiq presedent üzrə qərarın qəbul edilməsi tarixi əsasında onun malumat bazasındakı yerinin müəyyənləşdirilməsi bu Bələdçidə tarixlərilə birgə əks olunmuş bütün presedentlərin tapılmasının ən asan yoludur.

Azərbaycan Respublikasının ayrı-seçkiliyə qarşı mübarizə sahəsindəki qanunvericilik bazası və istiqamətləndirmə mexanizmləri üzrə Vəsaiti özündə əks etdirən Ayrı-seçkiliyin qadağan olunması sahəsində Avropa qanunvericiliyi üzrə Bələdçinin yenilənmiş variantı

Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT)
© Bakı, 2013

International Organization for Migration (IOM)
Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT)

NORWEGIAN MINISTRY OF FOREIGN AFFAIRS

FRA
EUROPEAN UNION AGENCY FOR FUNDAMENTAL RIGHTS

EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE